**Mövlud Uluğtəkin Yılmaz**

# TÜRK XALQLARININ ORTAQ ATA-BABALARI

* * *

*Azəri türkcəsinə uyğunlaşdıran*
Dos.Dr. Fazil Karaoğlu

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı • Göytürk • 1997

2+ 63,3(5)-8
Y 71

✸

Baş redaktor
Səfalı NƏZƏRLİ

Redaktor
Nəzakət RƏHİM QIZI

Korrektor
Gülşən ŞANXAY QIZI

Texniki redaktor
Məhəbbət ORUCOV

✸

©M.Yılmaz. 1997

## İÇİNDƏKİLƏR

*Ön söz* ..... 4
Alp ər Tunqa (Əfrasiyab) ..... 5
Mətə Kağan (Oğuz xan) ..... 9
Atilla ..... 12
İlteriş Kutluk kağan (xan) ..... 16
Bilqe Kağan ..... 20
İmam əbu Hənifə ..... 29
İmam Buxari ..... 32
Ər Manas ..... 34
Farabi ..... 39
İmam Maturidi ..... 43
Tirmizi ..... 46
Alparslan ..... 48
Nizami Gəncəvi ..... 56
İbni Sina ..... 60
Biruni ..... 62
Xarizmi ..... 65
Xoca Əhməd Yasəvi ..... 67
Mahmud Qaşqarlı ..... 74
Zamahşeri ..... 78
Çingiz xan ..... 81
Mövlana ..... 84
Hacı Bəktaşi Vəli ..... 87
Yunus Əmrə ..... 91
Molla Nəsrəddin ..... 98
Timur xan ..... 101
Uluğ Bəy ..... 105
Dədə Qorqud ..... 109
Əlişir Nəvai ..... 116
Əli Quşçu ..... 121
Fatih Sultan Məhməd xan ..... 125
Babur şah ..... 136
Füzuli ..... 139
Əbülqazi Bahadur xan ..... 146
Koroğlu ..... 152
Evliya Çələbi ..... 156
Mahtumqulu ..... 161
İbrahim Abay ..... 166
İsmail Qaspıralı ..... 170
Ziya Gökalp ..... 175
Atatürk ..... 182
Çolpan ..... 193
Osman Batur ..... 197
Məmməd Əmin Rəsulzadə ..... 204
Şəhriyar ..... 207
*Son söz* ..... 211

# ÖNSÖZ

*Qiymətli oxucu.. Bu kitab nə bioqrafik bir əsərdir, nə də elmi bir tədqiqat işidir... Həqiqətlərin ozan könlüylə bir ifadəsidir!*

*Əsərləriylə, fəaliyyətləriylə Türk millətinin böyüklüyünü ucadan hayqıran alimlər, sənətkarlar, qəhrəmanlar sıra dağlar kimi tarixin bağrına düzülmüşlər... Aldım qələmi əlimə, o ili dağları gəzdim. Gördüklərimi, bildiklərimi yazdım.*

*Şe'rlərin qanadlarına minib, türklüyün məkanına əzəldən gəlib əbədiyyətə gedəcək olan o sıra dağların zirvələrini dolaşdım. Tarixin qatı həqiqətləri ilə atbaşı olaraq duyğularımı, düşüncələrimi yarışdırdım...*

*Hər biri ulu bir dağ olan ata-babalarımızı yazarkən türk tarixinin, türk mədəniyyətinin daimiliyi, türklüyün coğrafiya tanımaz birliyi qarşısında qürurlandım, sevindim, öyündüm...*

*Bu əsərdə türk millətinin hansı xalqından olursa-olsun, istər qazax, türkmən, qırğız, istər Azəri, tatar, özbək, Anadolu türkü; hər fərdinin qoca türk çinarının köklərindən biri olduğu həqiqətini daha yaxından yaşadım.*

*Ata-babalarımızın dünyasında gəzərək nələr gördüm, nələr...*

*Oğuz xan xəyalı Mətə xanın birliyini tə'min etmə həyasanına şahid oldum..*

*Atilla ilə Avropanı başdan-başa dolaşdım..*

*İlteriş Kutluk, Bilgə kağan, Tonyukuk Türkün dastanını yazarkən yanıbaşlarında idim!*

*Qaşqarlı Mahmudun hüzurunda, türkcə və türklük eşqinin alovları içində özümdən getdim...*

*Farabi ilə deyişərkən duyğularımın selinə qapanıb, türkcədən başqa dillərə qucaq açan dövr-dövrana hirs tufanımı bildirdim!*

*Yunus ilə, Hacı Bektaşı ilə növruzgülü topladıq açıqlıqlardan. Mövlana ilə gül dəstələdik Konyadan..*

*Əli Quşçunun həyatını gördükdə ibrət dərsi aldım. Bütün türk xalqlarına birlik, bərabərlik dərsi verdiyinə şahid oldum.*

*Fatihin Peyğəmbər muştuluqlu fəthinə tamaşa etdim..*

*Abay, Mahtumqulu divanında şe'rdən söz etdik...*

*Osman Batur ilə təyyarələrə kəmənd atdıq!*

*Və Mustafa Kamal Atatürk ilə bir Ulu dastanı yaşadıq.*

*Sözün qısası, bir çox gözəllikləri yaşadım o ulu dağları gəzərkən və o gözəlliklər qarşısındakı duyğularımı sizinlə bölüşmək istədim...*

*Mənə bu imkanı verdiyi üçün Türkiyə Diyanət Vəqfinə minnətdarlığımı bildirirəm.*

*Fəaliyyətlərimdə mənə zövq verən hörmətli Ələddin Qorxmaza təşəkkürümü bildirməyi bir borc bilirəm.*

*Qüsrlarımıza, səhvlərimizə hövsələ göstərin..*

Mövlud Uluğtəkin Yılmaz



# ALP ƏR TUNQA

Üç min il əvvəl... Tarixin dastanlaşdığı dövrdə... Qurd nəfəsli, dağ sinəli igidlər at çapırdılar Asiyanın bir ucundan digər ucuna...

Onlar bildiyimiz Türklərdir...

Onlar Qırğızın, Oğuzun, Özbəyin, Qazağın, Uyğurun, Tatarın atası!

Üç min il əvvəl... Tarixin dastanlaşdığı dövrdə... Başlarında Alp Ər Tunqa vardı. Onlara "Sakalar" deyərdilər... Dünya çox kiçik idi Sakalar üçün: Altay ətəklərində gecələyər, Qafqazda gəzər, Anadolu yaylaqlarında dolaşardılar... Başlarında Kağan Alp Ər Tunqa vardı! Və o, həqiqi "Alp", həqiqi bir qəhrəmandı!

O, qəhrəmanlığı dastanlarla bu günə qədər yetişmiş və bilinən ilk atamızdır.

Onu "Şahnamə"dən tanıyırıq...

Onu Kutadqu biliqdən tanıyırıq...

Onu, "Divani lüğət-it Türk"dən tanıyırıq.

Alp Ər Tunqa atamız türk xalqlarından əmələ gələn Sakaları, Asiyanı elə böyük bir qüvvət halına gətirdi ki, bununla da Sakalardan sonra Asiyada turk əzəmətini ucaldacaq olan Hunlara əlverişli bir şərait hazırladı.

Çin kitablarında, keçmiş yunanlılarda kımız içən, türk çadırından istifadə edən Sakalardan (iskitlər) danışılan zaman, perslər (farslar) vardı Sakaların qarşısında...

Farslar yayılmaq istəyirdilər. Alp Ər Tunqa isə bu yayılmanın qarşısını alırdı. Həqiqət bu ki, Anadoluda, Azərbaycanda, Orta Asiyada iranlılarla ölüm-qalım müharibəsi aparan Sakalar bu gun Türk xalqlarının ərazilərini, vətənlərini taa... o gunlərdə subut etməyə çalışdılar.

Sakaların şanlı kağanı Alp Ər Tunqa, M.Ə.* 7-ci yüzilin Asiyasının bir qəhrəmanlıq abidəsi olaraq dastanlarda hələ də ya-

* Miladdan əvvəl

şamaqdadır. Yalnız Türk dastanlarında deyil, digər millətlərin dastanlarında da onun çox böyük bir kağan olduğunu öyrənə bilirik.

İran şairi Firdovsi "Şahnamə"sində deyir ki:

"Turan şahzadəsi Əfrasiyab (Alp Ər Tunqa) atasının məsləhəti ilə İrana hücum etdi. İki ordu Dihistanda qarşılaşdı. Boyu sərv kimi, sinəsi və qolları aslan kimi, fil qədər güclü olan Əfrasiyab iranlılara qalib gəldi. İran padişahı Əfrasiyabın əlinə keçdi"...

Yalnız "Şahnamə" də deyil, türklərin milli şüur köklərinin nə qədər dərinlərdə olduğunu isbat edir gördüyümüz. "Kutadqu biliq" və "Divani Lüğət-it Türk" adlı iki möhtəşəm əsərdə də Alp Ər Tunqandan bəhs edilir.

Yusif Xas Hacib və Kutadqu Biliq belə deyirlər:

"Türk bəyləri içində adı tanınmış Alp Ər Tunqa böyük, çox savadlı və fəzilətli bir hökmdardır. Savadlı, anlayışlı, məziyyətli bir böyük idi Alp Ər Tunqa. İranlılar ona Əfrasiyab deyərdilər..."

Qaşqarlı Mahmud Türklüyün və türk dilinin qüruru və fəxri olan "Divani Lüğət-it Türk" adlı əsərinin bir çox yerində Alp Ər Tunqadan və onun tə'sirindən söz açır. Sakaların bu tanınmış kağanının qızının adının "QAZ" olduğundan və Qazvin şəhərinə onun adının verildiyindən bəhs edir. Yenə həmin əsərdə Alp Ər Tunqanı bir "Dünya Xanı" adlandırır.

Həqiqətən, Saka türkləri Alp Ər Tunqanın xanlığı dövründə ən gözəl günlərini yaşadılar. Alp Ər Tunqa comərdliyi ilə, savadıyla, cəsurluğuyla türk xalqlarının hafizəsində bu günə qədər yaşadı. Onun rəhbərliyi dövründə Sakalar Asiyanın qərbində və şərqində ən böyük güc halına gəlmişdilər.

Tunqa köks ötdürdü iranlılara. O, özünü İranın yayılmasını əngəlləməyə həsr etmişdi. Sakalar üzə çıxana qədər iranlılar çox rahat dolaşırdılar Anadoluda, Azərbaycanda, Orta Asiyada... Halbu ki, Sakalar iranlıların yayılması siyasətinə böyük bir çəpər olaraq ortaya çıxmışdılar. Belə ki, tarixşünas Heredot Sakaların əskəri gücünün Zilə yaxınlarında hiylə ilə yox edilməsinə qədər, bütün Anadolu Sakaların suverenliyi altında idi deyirdi.



Alp Ər Tunqa iranlılara heç nəfəs aldırmırdı...

İranlılar bu böyük Türk xanından qurtarmağın yollarını düşünür, axtarırdılar. Axı girdikləri bütün müharibələrdə məğlub olurdular. Nə var ki, Turkün hər çağda belini qıran fitnə, tələ və hiylə tarixin bu ilk çağlarında da Türkün fəlakətinə səbəb oldu.

Bütün İran silahlandı... Alp Ər Tunqanın arxasınca düşdülər. Altay dağlarına qədər tə'qib etdilər. Qarşılaşdıqları hər yerdə Alp Ər Tunqanın yüksək zəkası, yenilməz gücü qarşısında pərişan oldular... Ancaq onlar fitnə və hiylə işlətdilər. İranlılar Alp Ər Tunqanı Azərbaycanda hiylə ilə M.Ə. 624-ci ildə öldürdülər. Alp Ər Tunqanın qanı yerdə qalacaqmıydı?

Xeyr!

Yüz il sonra, anaların cəsur ürəkli qızlar doğduğu çağda, Saka türkünün bəxt üfüqündə TOMRİS (Dəmir iz) Xatun dünyaya gəldi... Tomris Xatun Alp Ər Tunqanın nəvəsiydi. Buyruğu altındakı sakalarla bir fırtına kimi əsdi Türkün əbədi həyat burulğanında. Və qanını yerdə qoymadı babasının. İran şahını döyüş meydanında türkə yaraşan bir igidliklə öldürdü. Beləcə babası Alp Ər Tunqanın qanını aldı...

Türk xalqları Ajun (dünya) kağanı (xanı) Alp Ər Tunqanı heç unutmadı. Ölümünün acısı Türk könüllərində dastanlarda yaşadı.

Yüz illər boyu Asiyanın çöllərində — ozanlarda, aşıqların sazlarında onun dastanları danışıldı:

"Alp Ər Tunqa öldümü?

*İzsiz dünya qaldımı?*
*Zaman cinini aldımı?*
*İndi ürək paralanır..."*

Biz, bütün türk xalqları Alp Ər Tunqa babamızı hörmətlə yad edirik.

*Alp Ər Tunqa Saqusu*
*Alp Ər Tunqa öldümü?*

*Esiz ajun kaldımu?*
*Özlek öçin aldımi?*
*Emdi yürek yırtulur!*
*Özlek yarağ közetti*
*Oqri tuzak uzattı,*
*Beklerbegin azıttı,*
*Kaçsa kalı kurtulur!*
*Ögreyüki mundağ ok,*
*Munda adın tiqdaq ok,*
*Atsa ajun uğrap ok,*
*Tağlar başı kertilür!*
*Begler atın arqurup,*
*Kaqqu ani turqurup,*
*Menqzi yüzi sarqarup,*
*Körküm anqar türtülür!*
*Ulşıp eren börleyu,*
*Yırtup yaka urlayu,*
*Sikrip uni yurlayu,*
*Siqtap közi örtülür!*
*Könğlüm içün örtedi,*
*Yitmiş yaşığ kartadı,*
*Keçmiş özüq irtedi,*
*Tün kün keçüp irtelür!*

*("Divani lüğət-it türk"dən...)*



# MƏTƏ (OĞUZ) XAN

Elə işlər bacardı ki, dillərdə dastan oldu... Yüz illərdir Türk millətinin yaddaşında OĞUZ XAN adıyla yaşayır və yaşamaqdadır...

Tarixin dumanlı üfüqündən, yalnız kiçik bir işıq ziyası olaraq bizə çatan Alp Ər Tunqadan sonra Mətə xan türklüyün ilk qürur abidəsidir...

O, böyük bir dövlət adamı... O, böyük bir əsgəri dahi... O, yüksək bir diplomatiya ustası... Və o, ilk dəfə türk birliyini tə'min edən atamız!

Asiyanın sonsuz çöllərində M.Ə. 7-ci yüzildən bəri Hun Türkunun adı danışılırdı. Çin səddi deyilən o uzun və yüksək divarı tikərək hunlardan qorunmağa çalışırdı çinli... Nə var ki, tarix M.Ə. 200-cü illərin əvvəllərində Hun dövləti getdikcə zəifləyirdi. Teoman Xanın son günlərində Hun dövləti çökmə dərəcəsinə gəldi... Cənubda Çin əjdahası iştahı qabarmış halda gözləyirdi. Şərqdə tunquzlar, Qərbdə Yüeçilər Hun dövlətinə sakitlik verməyirdi.

M.Ə. 209-cu ildə türklüyün bəxti birdən açıldı, Teomanın oğlu Mətə Xan dövlətin başına keçdi!

Mətə xan ilk öncə dövlət təşkilatında bir qayda-qanun yaratmaqla işə başladı. Hun ordusuna möhkəm intizam anlayışını gətirdi. Əsgəri birlikləri özünün kəşf etdiyi qaydalarla yenidən nizama saldı. Silah, alət və vasitələri yüksək döyüş anlayışına uyğun hala gətirdi... Hələ bu gün də əsgərlik sənətində yaşayan 10.000 nəfərlik əsgər TÜMEN sistemini həyata keçirdi.

Mətə xan çevik hərəkətli atlı birlikləri quraraq Hun ordusunun döyüş gücünü son dərəcə artırdı. Dördnala çapan at üzərindəki hun əsgərinin geriyə ox atma qabiliyyətini inkişaf etdirdi. Oxları da bir başqa idi Mətə xan ordusunun... Oxlar havada uçarkən düşmənin əsəblərini pozan bir fit çalırdı.

Mətə Xanın beləcə çox üstün və yüksək səviyyəli ordu gücünə sahib olmasına baxmayaraq, Asiyada sülh olmasını istəyir-

di. Halbu ki, qonşu tunquzlar hunları hələ də zəif, aciz edirdilər... Bir gün Tunquz elçisi gəldi və Mətədən çox sevdiyi atını istədi. Mətə xan sülh şəraiti pozulmasın deyə atını tunquzlara göndərdi. Tunquzlar bununla da kifayətlənmədilər. Bu səfər Mətə Xanın otağındakı qadınlardan birini istədilər. Mətə tunquzlara istədikləri qadını göndərdi. İstəkləri yerinə yetdikcə tunquzlar ərköyünləşdilər... Və böyük bir səhv etmiş oldular. Başlarını Türkün Vətən şuuru qayasına vurmaq kimi bir çılğınlığa girişdilər: Tunquzlar öz sərhədlərinə yaxın şoran, ortağ olmayan kiçik bir torpağ ərazisini istədilər. Məhz bu istək Mətə xanın şəxsi qəzəbini milli bir qəzəbə çevirdi. O an qurultayı topladı. Qurultayda belə dedi:

— At öz malım idi, verdim... Qadın öz cavabdehliyimdə idi, millətimin dincliyi üçün verdim. Amma istənilən torpaq dövlət torpağıdır. Bu torpağ mənim deyil, bütün hunlarındır. Şoran da olsa, vətən torpağı verilməz!

Mətə xan bu çıxışından sonra möhkəm intizamlı ordusunu Tunquz sərhəddinə doğru yönəltdi... Hunlar tunquzlara qarşı elə döyüşdülər ki, Çin tarixçiləri bu döyüşə "Asiyada qan gölü" adı verdilər..." Bu müharibədən sonra tunquzların siyasi varlığı sona çatdı.

Tunquzlara qalib gələn Mətə xan sonra yueçileri buyruğu altına aldı. Artıq Mətə xanı kimsə durdura bilməyirdi. Ox yaydan çıxmışdı bir kərə... Çinə tərəf yönəldi. O aşılmaz deyilən Çin səddini dəfələrcə aşdı. Çini vergiyə bağladı. Ancaq o, bu hücumlardan heç də xoşbəxt deyildi. Çünki Türklər dağınıq idi və hər boy öz başına hərəkət edirdi. Belə bir vəziyyət türk gücünün zəifliyi idi. Gecələr yatmadı, gündüzlər oturmadı və bütün türkləri birləşdirdi... Daha sonra İpək yolu üzərində qəti hakimiyyət qurdu.

Çini daima təzyiq altında tutdu. O, qoca devin gözünü açmağa imkan vermədi. Fitnə-fəsadını əngəllədi. Hun adət-ənənəsini bütün Asiyada mötəbər qıldı. Türk mədəniyyətini yaşamaq, türk kimi geyinmək, türk kimi ata minmək türk olmayanlar üçün bir imtiyaz halına gəldi. Türklərin geyimləri xarici dövlətlərin məclislərində danışıldı. Ancaq "Türk kimi" geyinməklə yüksək ola bilmək görüşləri xüsusilə nəzərə çarpırdı.



Mətə Xanın Çin ilə apardığı müharibələrin ən əhəmiyyətlisi Petenq dağı ətəyində etdiyi müharibə idi. Bu müharibədə bütün Çin ordusu bir həftə boyunca mühasirə altında tutulmuşdu. Mətə xan uçun bu bir nümayiş idi. Hun gücünün, Hun döyüş qabiliyyətinin, güclü Hun iqtisadiyyatının, Mətə Xana görə, bir ifadəsiydi. Dörd tərəfdə yerləşdirilən orduların hər birində olan atların rəngləri fərqliydi. Çin imperatoru Kao bu mühasirə içində qaldı. Hun mühasirəsi Çin imperatorunun Mətənin xatununa yalvarması nəticəsində ləğv olundu. Bu mühasirə illər boyu unudulmadı. Bir Çin xalq mahnısında bu mühasirə, — "Petenq dağında bir həftə çörək, su tapılmadı, əsgər yay çəkmədi", ifadəsiylə təsvir olunur.

Mətə xanın Çin imperatriçasına yazdığı məktublar ən vacib sənədlər arasındadır. Mətə Xanın məktublarda istifadə etdiyi diplomatik üslubun incəliyi bu gün də tədqiqatçıları heyran qoyur.

Mətə xan M.Ə. 174-cü ildə vəfat edəndə Hun-Türk dövlətinin sərhədləri içində bütün türk boyları birləşmişdi. Dövlət sərhədləri Qərbdə Xəzər dənizinə, Şərqdə Koreya sərhəddinə, Şimalda Sibirə, Cənubda isə Hindistana qədər uzanmışdı.

Mətə Xan Türk millətinin yaddaşında OĞUZ XAN olaraq yaşadı və yaşayır, Türklüyün hələ də bir günəşi kimi ufuqdə parlamaqdadır. Mətə Xanın nəvələrinin qurduğu Türkiyə Respublikası hərbi quvvələri özünün ilk quruluş tarixi olaraq M.Ə. 209-cu ili, yə'ni Mətə xanın dövlətin başına keçdiyi ili qəbul etmişdir.

# ATİLLA

Asiyadakı Hun dövləti Mətə Xanın soyundan olan Panu Yaqbunun başçılığı ilə M.Ə. 216-ci ilinə qədər davam etdi. Çinin təhdid və təşviq etdiyi "qardaş davaları" nəticəsində yıxılan Hun dövlətindəki Hun türkləri, Türkluyun Asiyadakı istiqlal bayrağını Tabqaçlara buraxaraq qərbə doğru köçməyə başladılar.

Daha əvvəl Çi-Çi Yabqunun qərbə çəkdiyi hunlarla birləşən hun kütlələri Xəzər dənizinin şimalından Avropaya doğru irəliləyirdilər. Onların başlarında Balamir xan dururdu...

Balamir Xan ildırım sür'ətiylə İtil (Volqa) çayını keçərək, bugünkü almanların ataları sayılan ostraqot, viziqot və vandalları önünə qataraq, onları Avropanın içərilərinə qədər qovdu. Beləliklə, dünya tarixinin "Xalqlar köçü" deyə adlandırdığı böyük kütlə hərəkətlərini meydana gətirdi. Avropanın bugünkü etnik quruluşunu ortaya çıxartdı...

Balamir Xanın Avropada meydana gətirdiyi sarsıntı Roma imperiyasını ikiyə ayırdı. Şərqdə BİZANS adıyla ortaya çıxan Şərqi Roma, Avropalı millətləri və İtaliyadakı Romanı təhdit etməyə başladı.

Avropadakı hunlar Avropada qayda-qanunu tə'min edir, xüsusilə Romanı Avropalı vəhşi xalqlardan və Bizanslardan qoruyurdular. Balamirdən sonra Avropada güclü bir dövlət quran hunlar Yıldız xan zamanında və daha sonra Rua, Muncuq, Aybars və Oktar qardaşları dövründə Bizansın qarşısında çəpər oldular. Bizanslar elə qorxmuşdular hunlardan Hakan Rua öldükdə, bütün Bizans kulislərində "qüvvətli bir düşməndən qurtulduq" deyə "şükür, dini təntənələr" keçirdilər.

Ancaq Bizansın sevinci ürəyində qalacaqdır. Çünki hunların başına Ruadan sonra ATİLLA keçdi.

Atilla əmisi Ruanın yanında yetişmişdi. Ağıllı, tədbirli və döyüşkəndir. Atilla ataları kimi daima gücsüzün yanında oldu. O da Romanı soyğunçu avropalı xalqlara və Bizansa qarşı qorudu. Onun rəhbərliyi altındakı avropalılara qarşı adi və şəfqətli davrandı. Türk adət-ən'ənəsinin hakim olduğu Atilla rəhbərliyində din və vicdan azadlığı vardı. Bugünkü avropalıların atası olan Atilla sayəsində onlar dinclik və xoşbəxtlik içində yaşayırdılar. Avropalılar onu, "Tanrının pisliklər üstünə enən qırmancı" olaraq görürdülər.



Avropa Türk Hun İmperiyasının Kağanı Atilla etdiyi hücuma və könüllü katılmalarla dövlət sərhədlərinin qısa zamanda şərqdə Balxaş gölünə, qərbdə Atlas okeanına qədər genişləndirdi. Dünyanın yetişdirdiyi nadir, böyük dövlət adamlarından biri olan Atilla Avropanı qaydaya gətirmiş, ədalətin kəskin qılıncı olmuşdur.

Atilla lazım olan zaman amansızdır. Çirkin və eybli hadisələr qarşısında çox sərt reaksiya göstərərdi... Məsələn, hunların dirisi qarşısına çıxa bilməyən bizanslar bir gecə Hun sərhəddindən içəri girib, Hun böyüklərinə aid məzarları dağıdırlar. Bu hadisəyə Atillanın qəzəbi tutdu. Bu alçaq hadisənin təşkilatçısı Bizansın Markos Psikoposunun cəzalandırılmadığını gördükdə Atilla 2-ci Balkan səfərini başladı. Orduları ilə Yaşılköyə qədər gəlib, Bizansın qapılarına çatdı. Təhlükənin böyüklüyünü anlayan Bizans romalıları vasitəçi qoyaraq Atilladan üzr istədilər. Bundan başqa, içlərində tarixçi Priskosun da olduğu bir şefaat hey'əti təşkil edərək, Atilladan bağışlanmalarını istədilər. Atilla bir kərə daha Bizansı bağışladı...

Bizans elə bir qayaya rast gəlmişdi ki, nə edəcəyini bilmirdi. Atilla sağ olduqca onlara dinclik yox idi. Tək bir çarə var idi, o da Atillanın öldürülməsi idi. Bunu tə'min etmək üçün Atillaya qarşı bir sui-qəsd təşəbbüsünə girişdilər. Atilla bu təşəbbüsdən dərhal xəbər tutdu. Yaxalanan sui-qəsdçiləri şəxsən sorğu-sual etdi. İstintaqın sonunda Bizans imperatoru Teodosyusa belə bir xəbər göndərdi:

"Teodosyus bizə vergi verməklə qul vəziyyətinə düşmüşdü. Lakin o, cənabına xəyanət edərək, qul heysiyyətini belə qoruya bilməmişdi!"

Daha sonra Atilla Bizansı uzaqdan idarə etməyə başladı. Bu arada Roma üzərindəki müdafiə siyasətini 440-cı ildə ləğv etdi və Romanın idarəsinə qatılmaq istədi. Roma imperatoru Valentinianusun bacısı Xonoriya ilə nişanlı olmasını səbəb göstərərək, Roma rəhbərliyində haqqı olduğunu irəli sürdü. Bu istək Roma tərəfindən rədd edildiyi zaman, 451-ci ilin baharında ordusunu hərəkətə gətirdi. Ren çayını uç yerdən keçərək Roma və birləşmiş Avropa ordusunun Paris yaxınlarında qarşıladı. Və bir gün içində romalı general Atausun komandirliyində birləşmiş ordunu dağıtdı. 452-ci ilin baharında isə Romanın qapısına dayandı.

Romanı boyük bir narahatlıq burudu. İmperator çevrəsi qorxudan tir-tir titrəyirdi. "Tanrının qırmancı" Roma uzərində səslənəcəkdir! Bundan qurtarmağın bir yolu olmalıydı. Atillanın şəxsiyyətini təhlil etməyə başladılar... Atılla qorxusuz və yaman bir döyüşçü idi. Amma bir o qədər də sənətə və dinə qarşı hörməti vardı... Bəli! Çarə tapılmışdı... Atillaya ancaq bir din böyüyü tə'sir edə bilərdi. Ancaq Papa Birinci Leo Romanı yerlə bir olmaqdan qurtara bilərdi. Atillanın bu hirsinə qarşı ancaq Papa çəpər ola bilərdi... Haqsızlıq, ədalətsizlik qarşısında poladlaşan Türkün ipək ürəyinə ancaq bir din adamı girə bilərdi.

Tarixçilər Papa Birinci Leonun Atillanı Roma qapısında qarşıladığını və yalvardığını yazdı. Papanın sözləri Atillanın türk ürəyini hədəf aldı:

— Ey yoxsulların qoruyucusu... Ey zalımların qorxusu... Ey böyük Atilla! Beləliklə mən, bütün xristianların təmsilçisi, mən Papa Birinci Leo qarşında diz çökərək yalvarıram: Romaya girməyin. Dünya xristianları adından deyirəm, bizə yazığınız gəlsin...

— "Papa həzrətləri, qalxınız! Bir din böyüyünün qarşımızda diz çökməsinə ürəyimiz razı olmaz... Lütfən, qalxın... Romanı və sizləri bağışlayıram. Sülh və qardaşlıq içində yaşadığınız müddətdə məndən zərər gəlməyəcəyini biliniz... İmperatorunuz, romalılara ədalətlə rəhbərlik etdiyi müddətdə mən uzaqlardayam. Əks halda çox yaxınınızdayam! Salam söyləyin sizi buraya göndərən imperatorunuza!..



Atilla, Asiyanın Avropada əsən bir açıqlıq küləyi idi. Kirlənmiş tərtəmiz bir açıqlıq, çöl küləyi...

Bütün Avropanı hakimiyyəti altına alan Atilla, ordularını Asiyaya doğru yönəltdiyi bir zamanda 60 yaşında öldü.

Atillla Avropanı elə dərindən tə'sirləndirdi ki, bu gün İslandiyada belə onun həyatı dastanlarda danışılmaqdadır.

Şubhəsiz, o, hələ də dastanlarda və məsələlərdə yaşayacaqdır.

Macarıstanın dağlarında, obalarında... da...

# İLTERİŞ KUTLUK KAĞAN

Şükürlər olsun Uca Yaradana ki, Türklüyün istiqlalını hey dəstəklədi. Dünya üzərində türk bayrağı heç zaman enmədi. Bir türk boyunun əlindən düşən istiqlal bayrağı, dünyanın bir başqa küncündə digər bir türk boyunun əlində yüksəldi.

Bu həqiqət türklərə verilən bir Allah vergisi deyildir. Bəs nədir?

Atamız Mətənin inkişaf etdirdiyi Böyük Hun Dövləti yüz illər ərzində Çin tərəfindən törədilən didişmələr nəticəsində parçalandı, bundan sonra qərbə gedən Hunlar çox keçmədən Avropada istiqlal bayrağını qaldırdılar. Asiyada isə tabqaclar Çinin şimalında dövlət möhürünə sahib oldular. Beləliklə, 6-cı yüzilin ortalarında türk törəmələrindən saymazlıq və e'tinasızlıq etdikləri üçün tabqaclar Çinin tələsinə düşüb yox oldular.

6-cı yüzilin ortalarında tabqacların Çində yox olmasıyla, ağ hunların cənubda zəifləməsinə şahid olduq... Əlbəttə, türkün istiqlal bayrağı yerə düşməyəcəkdir; eyni yüz il içində türklüyün istiqlal bayrağını daşımağa GÖYTÜRKLƏR istəkli idilər!

Hunların Uca Tanrıdan qurd almış Kağan ailəsindən gələn BUMİN Xan M.S.* 552-ci ildə göy rəngli, qurd başlı dövlət bayrağını ötükənə tikdi! Bütün boyları: — uyğuru, qırğızı, oğuzu ətrafında topladı. Bumin xan və qardaşı İSTƏMİ YABQU elə bir mədəni dövlət qurdular ki, türk adını bütün boyların üzərində bir millət olaraq dünyaya tanıtdılar. Bu ad elə köklər atdı ki, göy türklər dağıldıqdan sonra da türk adını daşıyırlar. Bütün dünya türk adı ilə andılar türkcə danışan boyları...

Türk adı ilk dəfə göytürklər zamanı rəsmiləşdi. Türk dili ən gözəl ifadəsinə göytürklər zamanında qovuşdu.

Heyf ki, bu xoşbəxt illər uzun sürmədi...

* Miladdan sonra



Bumin xanın min bir əməklə qurduğu göytürk dövləti Çinin fitnə və fəsadıyla əvvəl ikiyə bölündü. Şərq hissəsi Çinin tə'siri altına girdi. Çətin idi o illər... Türk dövlətinin şərq hissəsi qan ağlayırdı o zaman... Rəhbərliyə keçən xanların arvadları çinli idilər. Göy rəngli, qurd başlı dövlət bayrağı yalnız qərbdə dalğalanırdı.

630-cu il bir qara il idi... Aşıqların sazı inlətdiyi, ağı dinlətdiyi bir qara il idi 630-cu il... Məhz bu ildə, əvvəl şərq göytürkləri, sonra da qərb göytürkləri istiqlallarını itirdilər... Türklüyün istiqlal bayrağı enəcəkmidi? Xeyr! Eyni il Qara dənizin şimalında xəzərlər tarix səhnəsinə çıxır, bayraq ağacına bərk-bərk sarılırlar.

Maddi cəhətdən və mə'nən yıxılmışdı göytürklər... Xan ailəsi bütün şəxsləri çinlər tərəfindən Çinə götürüldülər. Rəhbərliyə yarayan, lider ola bilənlər hamısı ailələri ilə bərabər Çinə yerləşdirildilər. Həqiqət budur ki, göytürklərin "xanımlıq qız övladları qulluqçu, bəylik erkək övladları isə qul olmuşdular" Çində.

Asiyada azad gəzən türk boylarının qəzəbindən qorxduqları üçün çinlilər türk bəylərini öldürməyirdilər. Hətta çinlər türk bəylərinin ailə şanına yaraşan dövlət vəzifələri də verirdilər. Göytürklər bir anlamda rahatdırlar Çində. Amma sonunda əsir idilər. Əsirlik türk törəsində bir qara ləkə, bir yox olmaq, bir ölümdür! Ona görə də turk bəyləri azadlıq xəyalıyla yaşayırdılar. ÖTÜKƏNDƏ göytürk dövlətinin yenidən qurmaq üçün həyəcan içində idilər.

Bu milli arzu ilk dəfə xan ailəsindən gələn GÜRŞADIN Çin sarayını basmasıyla göstərildi. Heyif ki, Gurşad və 39 dostunun başlatdığı istiqlal hərəkatı uğursuzluqla başa çatdı. 40 göytürk bəyi qəhrəmancasına həlak oldu.

Gürşadın bu hərəkəti Çini qorxutdu. Çin imperatoru lider əmələ gətirə biləcək türk ailələrini ölkənin şimalına sürgün etdi, bir çoxunu da öldürtdü.

Gürşad və dostları şəhid oldular. Amma onların adları dastanlaşdı. Könüllərdə idi inancları. Əsir türklərin hamısı Gürşad kimi olmağa can atırdılar. Allaha yalvarırdılar:



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN KİTABXANASI

*Ey uca Allahım, Gürşadlar kimi ölək*
*Əsir həyatı türk oğuluna yük olar.*
*Buyruq gəlsin, gecələri böləyin,*
*Nağraların çatdığı yer Türk olur!*
*Tuğlar çıxsın, Çurlar, Şadlar dərilsin,*
*Dövmə qalxan, göy qılınclar verilsin,*
*Güclü biləkdə boyca yaylar dərilsin,*
*Bir türk əsgəri qırx çinliyə dəng olur!*

Gürşad və dostlarının başladığı azadlıq mübarizəsi dildən-dilə, qulaqdan-qulağa yayıldı. Hər an yeni Gurşadlar ortaya çıxa bilərdi.

Biri vardı... Kağan ailəsindən gələn biri vardı. Adı KUTLUQDU. İdealı gizliydi adında; Türklüyün muştuluğu xoşbəxtlikdir. Niyyəti Çin səddini aşıb Ütükənə yetişməkdir. Atası BUMİN, atası MƏTƏ kimi bütün türkləri bir araya toplamaqdı məqsədi...

Bu sevinc dolu düşüncəsini, bilgisinə inandığı, görüşünə güvəndiyi TONYUKUKA açdı. Tonyuyuk əslən hazır idi.

O Tonyukuk ki, Çində doğulmuş, orada da böyüymüşdü. Amma həmişə türk kimi düşünmüşdür. Çox oxuyurdu, türk tarixini günbəgün bilirdi. Türklər ona BİLGƏ ləqəbini vermişdilər.

Kutluk və Tonyukuk əl-ələ verdilər. Gürşad dastanı ilə yetişmiş göytürkləri bir araya gətirdilər. Çin səddini aşıb Ötükənə çatdılar. Türk boylarını birləşdirdilər. KUTLUK dövləti yenidən toparlandı. İl “dövlət” deməkdir türklərdə. Onun üçün ili toplayan anlamı İLTERİŞ adıyla anıldı. 682-ci ildə onun adı İlteriş Kutluk Kağan idi. Bilge Tonyukuk hey yanında idi.

İlteriş Kutluk xanın tariximizdəki yeri əhəmiyyətlidir. Əgər düşünsək onun dəyərini dərhal anlaya bilərik. İlteriş Kutluk türk tarixində “ordusuz” ikən dövlət qurma və onu canlandırma fikrini daşıyan türk böyüklərindən biridir. O öz əməyi ilə ordu qurub, Asiyanın göbəyində türkün azad yaşamaq iradəsini ortaya qoyan ilk xanlardan idi. Ordusu dağılmış, liderləri tutulub



Çinə götürülmüş bir milləti ayağa qaldırmaq asandırmı? Hələ 50 ilə qədər uzun bir zaman içində buyruqsuz yaşamağa alışmış boyları bir bayraq altında toplamaq asandırmı?

Türk demək, bir anlamda çətinliyə sinə gələn deməkdir. Bax, bu şüurla hərəkət edən İlteriş gələcək nəvələrinə nümunə olan şəxsiyyətlərdən biridir.

Göytürk dövlətinin yenidən keçmiş güclü halına gəlməsi uğrunda etdiyi fəaliyyətlərdə İlteriş tək deyildi. Bilgə Tonyukuk hər zaman yanında idi onun. Çox zamanlar Tonyukuk orduların sərgərdəsi olurdu.

691-ci ildə İlteriş Kutluk Xanın ölümü ilə əlaqədar qardaşı Kapqan Xan da eyni şəkildə xidmət verdi. Kapqanın ölümündən sonra bir müddət öz bucağına çəkildi. Amma daha sonra Bilge xanın rəhbərliyə keçməsi ilə o da xidmətinə davam etməyə başladı.

Geniş mədəniyyəti, sağlam mülahizəsi və orijinal fikirləri ilə Bilge Tonyukuk Türk dövlətlərində Kağandan sonra gələn “2-ci adam”lar içində ləyaqət, itaət və qeyrəti baxımından ilk sırada durur.

Bu gün Orqun kitabələri olaraq bildiyimiz “Bengü” daşların ilkini tikən odur. Türklüyün əbədiliyini daşa naxış etmə fikri ilə Tonyukuk tariximizin aydınlaşmasına da xidmət etmişdir. Tonyukuk öz “Bengü” daşında belə deyir:

“İlteriş xan qaranmasa, yox olsa idi, mən özüm, Bilge Tonyukuk, qaranmasaydım Kapqan Xanın Türk Sir millətinin yerində boy da, millət də, insan da yox olacaqdır. İlteriş xan, Bilge Tonyukuk qazandığı üçün (hələ də) Türk Bilge xanı Türk Sir millətini, Oğuz millətini bəsləyib oturur...”

İlteriş Kutluk xana və Bilge Tonyukuka çox şey borcluyuq.

Onlar türklərin qardaşlığı, türklüyün azad yaşaması üçün gecə-gündüz işlədilər və bizlərə istiqlal şüurunu peyvənd etdilər.

Bugünkü varlığımızın əsasında onların əməyi və alın tərləri vardır.

Onlar bizim sevimli atalarımızdırlar.

# BİLGE KAĞAN

"Ey türk! Silkin və özünə dön!"

"Türk törəsində dövlət dirilik, düzən, istiqlal deməkdir... Şəref, heysiyyət, ədalət deməkdir...

Türk törəsində dövlət ucadır... Dövlət sevimlidir.

Yüz illərdir ozanların dilindən, sazların telindən yayılır onun dəyəri: "Dövlətsiz şərindən Haqq saxlasın bizi!.."

Türk törəsində dövlət elə bir dövlətdir ki, birliyi tə'min edər, ayrılıqlara aman verməz.

İlteriş Kutluq Xan və Bilge Tonyukukun çətinliklə canlandırdıqları Göytürk dövləti məhz belə bir yola girmişdir. Bütün boylar "Dövlət Köşünü" dinləyən olmuşdu.

İlterişdən sonra hakimiyyətə keçən KAPQAN KAĞAN da böyük qardaşının yolu ilə getdi, "Mən bu boydanam... Mən bu boydanam..." deyərək türk birliyinə qılınc çəkmək istəyənlərə fürsət vermədi.

Amma Kapqan Kağanın ölümü hər şeyi dəyişdi. Az sonra onun yerinə keçən oğlu İnal nə əmisinin, nə də atasının bənzəri oldu. Hər kəs ayrı-ayrı yola çəkən oldu. Zatən düşmən də bunu istəyirdi: Türklər kiçik-kiçik bölünsün ki, asanlıqla onları məğlub etmək mümkün olsun!

Dövlət göz görə-görə dağılırdı.

Belə bir fəlakətə İlteriş Kutluk Kağanın övladları seyrçi qala bilməzdilər! Atalarının can suyu verdiyi dövlət çinarı gözləri qabağında yıxıla bilməzdi! Xüsusilə böyük qardaş Bilgenin gözlərinə yuxu gəlməz olmuşdu. Hey düşünürdü: hansı gün üçün doğulmuşdu? Xatun anası, İl Bilgenin beşiyini yellərkən söylədiyi laylalar şüurunun altından əzmini qamçılayırdı.

O laylalar... O laylalar hər an onun qulaqlarında səslənirdi:

*"Yatsın ki, böyüsün ninni...*
*Mor dağların ətəkləri otlansın.*
*Balam gəzsin, novruzgülü, çiçək sevinsin,*



*Ninni.. ninni, çağam ninni, balam ninni..*
*Böyüsün ki, igid olsun dünyada,*
*Bir igid ki, yetmiş düşmən gücündə,*
*Baş gətirsin cidasının ucunda,*
*Dövlət üçün hər çətinliyə qatlansın,*
*Quyruğunda bol kütlələr sevinsin!.*
*Ninni.. ninni, çağam ninni, balam ninni.."**

Dövlət üçün hər çətinliyə qatlansın! Bu bir buyruqdur adəta... Çox düşünmədən qaynatası Tonyukukla görüşdü. Tonyukuk kürəkəni Bilgə və qardaşı Kül Tiqinin "dövlət mohürünə sahib çıxma" qərarlarını uyğun gördü. Uyğun görməklə qalmayıb, "Bilgim çərçivəsində, ömrüm əl verincə buyruğunuzdayam" dedi.

Tonyukuk özündən yaşca çox kiçik və üstəlik də kürəkəni olan birisinə "buyruğunuzdayam" deyə bilirdi... O Tonyukuk ki, bilgiliyiylə şöhrəti Ötükeni keçmiş Hindistana Çinə çatmışdır. O Tonyukuk ki, İlteriş ilə dövlətə can vermiş, ordulara komandirlik etmiş, ağ saçlı bir qoca idi... Amma qarşısındakı kürəkəni də olsa, gənc də olsa, o tanrıdan kut almış Kağan ailəsinin fərdiydi! O bir kağandır! Bu dunyada Kağandan buyruq almaq qədər sevincli nə ola bilərdi?

Bilge və Kül Tigin heç vaxt itirmədilər. Bir həmlədə endirdilər əmilərinin oğlu, sözdə Kağan İnalı hakimiyyətdən.

Bilge Kağan olaraq dövlətin başına keçdi. Kül Tiqin ordulara komandirlik etmək vəzifəsini öz üzərinə götürdü. Yaşlı Bilge Tonyukuk da dövlətin Baş müşaviri olaraq xidmət etməyə başladı.

Əl birliyi ilə, ürəklə işləməyə girişdilər... Xarici düşmənlərə qarşı, xüsusilə Çinə qarşı dövlətin içində birliyin əldə olunması lazım idi. İnalın qısa sürən Kağanlığı dövründə dövlət birliyi

* Şe'r Dilavər Cəbəçi tərəfindən yazıçının oğlu Tonyukuk üçün yazılmışş kiçik dəyişikliklərlə buraya salınmışdır

sarsılmışdı. Oğuz ayrı baş, Qırğız ayrı baş oldu, Karluk ayrı tərəfə çəkirdi... Ümumiyyətlə də düşmənin istədiyi bu idi!

Baba ocağında dövlət dərsi almış olan Bilge və Kül Tiqin sonu fəlakət olan bu ayrılıq yolunu əvvəlcə bağlamağı qərara aldılar... Qısa bir zamanda başçıları baş əydirdilər, dizliyə diz çökdürdülər. Kağan otağında dövlət kösü necə tək-tək vurursa, Türk elində Kağan tək olur, çünki Tanrı təkdir! "deyə düşünüb, tez türk birliyini tə'min etdilər...

Tonyukukun yol göstərməsiylə, Bilge Kağanın qabiliyyəti ilə, Kül Tiqinin qeyrətiylə birlik tə'min olundu. Dövlət otağında "mənim köşüm çalınsın, mənim tüyüm tikilsin" deyən bir çox qardaş boy itaət altına alındı. Bu uğurda Kül Tiqin can verdi... Tonyukuk və Bilge Kağan birliyin, bərabərliyin qiyməti bilinsin, gələcək çağlarda yaşayacaq olan Türk boylarına ibrət olsun deyə bütün bu hadisələri daşa nəxş etdilər.

Kül Tiqinin 731-ci ildə Türk birliyini tə'min etmək uğrunda can verməsi Bilge Kağanı dərindən sarsıtdı. Günlərcə yas tutdu. Neçə üzülməsin ki? Kül Tiqin kimi bir qardaş çətin tapılardı. Dövlətin ucalması, millətin birliyi üçün canını əsirgəməmişdi. Hər zaman yanında, buyruğunda olmuşdu. Nə taxt davasına girişmiş, nə də küncünə çəkilib oturmuşdu. Göy rəngli bayraq əlində at belindən enməmişdi ölənə kimi. Sadə bir Göytürk çerisi kimi axından-axına yüyürmüşdü. Hangi Kağanın, hangi böyük qardaşın ürəyi parçalanmazdı belə bir qardaş üçün...

Düşünürdü... Bir şeylər etməliydi Kül Tiqin üçün... Qayınatası Tonyukukun 11 il əvvəl Orkun çayı sahilində tikdirdiyi Benqü Daşı yadına saldı. Bəli... Kültiqin adına bir Bengü Daş tikilməli, çəkilən əzab-əziyyətlər bir-bir nəql olunmalıydı. Ağlına ilk gələn Yolluğ Tiqin oldu... Sözlərini ən gözəl şəkildə qələmə ala biləcək adam ancaq o ola bilərdi. Yolluq Tiqin, bütün Göytürk vilayətində sözü kağıza yazabiləcək hünəriylə məşhur idi. Ondan üstün yazan nə Oğuzlarda, nə Tatarlarda, nə də Qırğızlarda vardı. Yolluq Tiqin Çin imperatorundan gələn məktubların qələmə alınmasını bəyənməzdi... Sonra ailədən biriydi



— qardaşı oğluydu. Dövlətin ucalması üçün etdiklərinin şahidi idi...

Bu düşüncələrlə işə başladı Bilge Kağan... Qardaşının adına Orkun çayı qırağında, bu gün də Kül Tiqin heykəli deyə bildiyimiz Bengü Daşı tikdirdi... Üstünə qardaşı oğlu Yolluq Tiqinə düşüncələrini yazdırdı.

Orkun Bengü Daşlarının ilkini Bilge Tonyukuk öz adına tikdirdi. Sonra qardaşı Kül Tiqin adına bir başqa daşa sözlərini nəqş etdirdi. Bilge Kağanın ölümü səbəbiylə oğlu da, Bilge Kağan üçün bir başqa yazılı daş (Bengü Daş-Abidə, kitabə) tikdirdi. Orkun müqəddəs yazılarında türklüyün bu gün də daxil yolunu aydınladacaq fikirlər vardır. Türk millətinə də xəbərdarlıqlar və tövsiyələr edilir. Atalarımızın 8-ci yüzildə türklüyün birliyinə verdikləri əhəmiyyəti bu müqəddəs yazılardan ibrətlə oxuyuruq. Bilge Kağan belə deyir:

"Tanrı kimi göydə olmuş Türk Bilge Kağanı bu zamanda yaşadıq. Sözlərimizi tamamilə eşit. Hər şeydən əvvəl, kiçik qardaşım, qardaşoğlum, oğlum, bütün soyum, millətim, cənubdakı Şadapıt bəyləri, şimaldakı Tarkat bəyləri, otuz Tatar, doqquz Oğuz bəyləri, milləti! Bu sözümü yaxşıca eşit, ağılla dinlə:

(...) Çin millətinin sözləri şirin, ipək parçaları yumşaq imiş. Şirin sözlərlə, yumşaq ipək parça ilə aldadıb uzaq milləti yaxınlaşdırırmış. Yaxınlaşdırdıqdan sonra pis-pis şeylər düşünürmüş. Ağıllı və cəsur insanları yüksəlməyə qoymazmış.

(...) Türk milləti, tox olmanın qiymətini bilməzsən. Aclıq, toxluq düşünməzsən. Bir dəfə doysan aclığı düşünməyirsən.

(...) Türk, Oğuz bəyləri, milləti eşidin: Üstdən göy basmasa, altdan yer deşilməsə, türk milləti ölkəsini, vilayətini kim poza bilər? Ey Türk milləti, vaz keç, peşman ol! İntizamsızlığından dolayı, bəslənmiş olan kağanınla, sərbəst və müstəqil ölkənə qarşı özün səhv etdin, pis hala saldın.

(...) Varlıqlı, zəngin millət üzərinə oturmadım. Aşsız, çıplaq, düşkün, pərişan millət üzərinə oturdum. Kiçik qardaşım Kül Tiqin ilə danışdıq. Atamızın, əmimizin qazanmış olduğu millə-

tin adı-sanı yox olmasın deyə, türk milləti üçün gecə yatmadım, gündüz oturmadım, kiçik qardaşım Kül Tiqin ilə qazandım.

Qazanıb bütün milləti atəş, su qılmadım."

Orkun kitabələrində atalarımızın türklük üçün göstərdikləri fədakarlıqlar yanında, türkcəmizin gözəlliyini görürük. Bu müqəddəs yazılardakı üslub türk xasiyyətini əks etdirir. Bəzəkli cümlələrdən uzaq, dolambaclı sözlərlə anlaşılması çətin olan sadə bir izahat vardır. İstər Tonyukuk, istər Bilge Kağan və istərsə də Bilge Kağanın oğlu bu kitabələrdə ürəklərindən gələn ifadələri həkk etmişlər. Bu müqəddəs yazıları diqqətlə incələdiyimiz zaman görürük ki, 8-ci yüzildəki atalarımız, türk millətinin birliyi, diriliyi, dincliyi pozulmasın deyə biz nəvələrinə o günlərdən adətən yalvarmaqdadırlar. Bizlərə xəbərdarlıq edirlər. O zaman türklüyün qabağında iki təhlükə var idi: birincisi Çin imperializmi, ikincisi isə türk boylarının bir-birinə qarşı çıxıb, birliyi parçalamalarıdır. Bu gün birinci təhlükə yerinə bir başqa imperializmi qoya bilərik. İkinci təhlükə isə hələ diqqqət yetirməmiz lazım bir xüsusdur.

Bilge Kağan və Kül Tiqin atalarımızın ruhları şad olsun.

Qiymətli oxucu... Könlümdən Bilge Kağanın sözlərinin bir bölümünü sizlərə olduğu kimi çatdırmaq keçdi... Aşağıda Vilge Kağanın qardaşı Kül Tiqin üçün tikdirdiyi "Kül Tiqin Benqü daşı" (Abidəsi-kitabəsinin) əslini və Anadolu turkçəsiylə ifadəsini tapacaqsan... Lütfən, xüsusilə "Əslini" oxu! Oxuyarkən bəlkə çətin olacaq sənin üçün... Ancaq oxu! Görəcəksən ki, bir çox kəlmələr hələ də sənin dilində yaşayır.

Gəlin bu milli zövqü birlikdə dadaq!



# KÜL TİQİN BENQÜ DAŞI

(Cənub cəbhəsi)

| Azəri türkcəsi | Əsli |
|---|---|
| Tanrı kimi göydə olmuş türk Bilge Kağanı bu zamanda yaşadıq. Sözlərimi tamamiylə eşit. Hər şeydən əvvəl kiçik qardaşım, qardaşoğlum, oğlum, bütün soyum, millətim, cənubdakı Şabapıt bəyləri, Şimaldakı tarkat bəyləri, otuz Tatar, doqquz Oğuz bəyləri, xalqı! Bu sözlərimi yaxşıca eşit, ağılla dinlə: | Tengri teg tengride bolmış Türk Bilge Kağan bu ödke olurtum. Sabımın tüketi esitgil. Ulayı ini, yigünüm, oğlanım, biriki oğuşum budunum, biriye şadpıt begler yırıya tarkat buyruk begler otuz Tatar Tokuz Oğuz begleri budunı bu sabımın edgüti eşid katığdı tıngla: |
| Şərqdə gün doğuşuna, cənubda gün ortasına, qərbdə gün batısına, şimalda gecə yarısına qədər onun içindəki xalq mənə tabedir. Bu qədər xalqı hey qayda-qanuna soxdum. O indi pis deyildir. Türk Kağanı Ötuken şəraitində yaşasa ölkədə sıxıntı olmaz. | İlgerü kün toğsıkka birigerü kün ortusıngaru kırıqaru kün batsıkınga yırıgaru anda içreki budun kop manğak örür. Bunca budun kop itdim. Ol amtı anyığ yok. Türk Kağan Ötüken yış olursar ilte bung yok. |
| Şərqdə Şantunq düzünə qədər ordu sövq etdim, dənizə yetişməmə az qaldı. Cənubda doqquz Ersinə qədər ordu sövq etdim, Tibete yetişməmə az qaldı. Qərbdə İnci çayını keçərək dəmir qapıya qədər ordu sövq et- | İlgerü Şantung yazıka tegi süledim, taluyka kiçig tegmedim. Birigerü Tokuz Ersinke tegi süledim. Tüpütke kiçig tegmedim. Kurıqaru Yinçü öğüz keçe Temir Kapığka tegi süledim. Yırığaru Yir Bayırku yiringe tegi süledim. Bunca |

dim. Şimalda Yir Bayırku yerinə qədər ordu sövq etdim. Bu qədər yerə hərəkət etdirdim. Ötükən meşələrindən daha yaxşısı yoxdur. Ölkənin yerləşəcək yeri Ötükən meşəsi imiş.

Bu yerdə oturub Çin milləti ilə anlaşdım. Qızılı, gümüşü, ipəyi, ipekliyi sıxıntısız eləcə verir.

Çin millətinin sözləri şirin, ipək parçaları yumşaq imiş. Şirin sözlərlə, yumşaq ipək parça ilə aldadıb uzaq milləti yaxınlaşdırmış. Yaxınlaşdırdıqdan sonra pis-pis şeylər düşünmüş. Ağıllı və cəsur insanları yüksəlməyə qoymazımış. Bir insan səhv etmiş olsa, qəbiləsi, milləti, qohum-əqrabası yanında gizlənməyə qoymazmış. Şirin sözünə, yumşaq ipək parçasına aldanıb çox-çox türk milləti öldürülmüş: Türk milləti öləcək, yox olacaqsan! Cənubda Çoğay meşəsinə, Toğültun düzənliyinə yerləşmək istəsən, türk milləti olaraq yox olacaqsan!

Orada pis adamlar belə öyrədilirmiş: Uzaq adamlara pis mal verirlərmiş, yaxınlara isə yaxşı mal verərək bu

yirke tegi yorıtdım. Ötüken yışda yig idi yok etmiş. İl tutsık yir Ötüken yış ermiş.

Bu yirke olurup Tağbaç budun birle tüzuldüm. Altun kümüş işgiti kutay bungsuz anç birur.

Tabgaç budun sabı süçıg ağısı yumşak ermiş. Suçig sabın yımşak ağın arıp ırak budunuğ ança yağutır ermiş. Yağutu kondukta kisre anyıg bilig anda öyur ermiş. Edgü bilge kisig edgü alp kişig yorıtmaz ermiş. Bir kişi yanğılsar oğuşı buduni bişukinge tegi kilmaz ermiş. Suçig sabınğa yımşag ağısınga arturup öküş Türk budun öltüg. Türk budun ölsiking. Biriye Çogay yış Togültün yazı konayın tiser Türk budun ölsikig.

Anda anyığ kişi ança boşğurur ermiş: İrak erser yablak ağı birür, yağuk erser edgü ağı birür tıp ança boşğu-



hala öyrədilirmiş! O yerə doğru getmiş olsan turk milləti olaraq öləcəksən. Ötuken meşəsində oturub qalsan əbədiyyən ölkə olaraq otura bilərsən.

Turk milləti, toxluğun qiymətini bil. Aclıq, toxluq düşünməzsən. Bir dəfə doyduqda aclığı düşünmürsən. Elə olduğun üçün, bəslənmiş olan xanının sözünü almadan hər yerə getdin. Həmişə orada məhv oldun, yox edildin. Orada geri qalanlarınla hər yerə hey zəyifləyərək, ölərək gedərdin. Tanrı buyurduğu üçün, özüm dövləti olduğum üçün Kağan oldum. Kağan olub ac, kasıb milləti hey bir yerə topladım. Kasıb milləti zənginləşdirdim. Bu sözlərimdə yalan varmı?

Turk bəyləri, milləti, bunu eşidin! Turk millətini bir yerə toplayıb olkə olacağını burada israr etdim. Hər nə sözüm var idisə daşlara yazdım. Ona baxaraq bilin. İndiki türk milləti, bəyləri, bu zamanda itaət edən bəylər olaramı yanılacaqsınız?

Mən əbədi daş yondurdum. Çin xanlığından rəssam gətirtdim və rəsimlətdim. Mə-

rur ermiş. Bilig bilmez işi ol sabığ alıp yağuru barıp öküş kişi öltüg. Ol yirgerü arkış tirkiş ısar neng bunguğ yok. Ötüken yış olursar benggü il tuta olurtaçı sen.

Türk budun tokurkak sen. Bir todsar açsık ömez sen Açsık tosık ömez sen. Antağınqın üçün igitmiş kağanınqın sabın almatın yir sayu bardığ. Kop anda alkıntığ, arıltığ. Anda kalmışı yir sayu kop toru ölü yorıyur ertig. Tengri yarlıkadukın uçun özüm kutum bar üçün kağan olurtum. Kağan olurup yok sğany budunuğ kop kubratdım. Çiğany budunuğ bay kıldım. Az budunuğ öküş kıldım. Azu bu sabımda igid bar gu?

Turk begler budun bunı eşiding. Turk budun tirip il tutsukıngin bunda urtum. Neng neng sabım erser benggü taşka urtum. Angar körü biling. Turk amtı budun begler bodge körüdme begler gu yangıltaçı siz?

Men benggu taş tokıtdım Tabğaç kağanda bebizçi kelürtüm, bedizettim. Mening

nim sözümü qırmadılar. Çin xanlığının nəzdindəki rəssamı göndərdilər. Ona ayrı bir türbə tikdirdim. İçinə və çölünə ayrı bir rəsm çəkdirtdim. Daş yondurtdum. Ürəyimdəki sözlərimi nəqş etdirdim. Onu oxu oğluna.

sabımın simadı. Tabgaç kağanıng içreki bedizcig iti. Angar adıncıg bark yaraturdum. İçin taşın adınçıg bediz urturdum. On ok oğlınga.

Sona qədər bunu görüb bilin. Əbədi daş yondurdum, il isə, belə yetişməli yerdə, yəni əldə olunması çətin olmayan yerdə ədəbi daş yondurdum ki, onu görəndə biləsiniz bu daşı yazdıran qardaş oğlu Yolluq Tiqindir.

Tatınga tegi bunı körü biling. Benggu daş tokıttım. Bu il erser, ança takı erig yirte irser, ança erig yirte benggu daş, tokıttım, bitiddim. Anı körüp ança biling. Ol taş dım. Bu titing bitigme atısı Yolluğ Tigin.



# İMAM ƏBU HƏNİFƏ

(İmam-i A'zam)

İnsan yaradılan məxluqların ən şərəflisidir: əşrəf-i məxluqatdır...

İnsan ağıl ilə təchiz olunmuş, düşünən bir varlıqdır...

İnsan cəmiyyət içində yaşayar: törəsi və adət-ənənəsi vardır...

İslam inancına görə həll olunması lazım olan bir məsələ ilə qarşılaşsam hər şeydən əvvəl, Qur'ani-kərimə baxaram sonra isə sünnəyə... Məsələmi yenə həll edə bilməsəm: icmaya, din elminin bu məsələyə aid bir fikrinin olub-olmadığına baxaram... Yenə də məsələmi həll edə bilməsəm, o zaman müqayisəyə girişərəm. "İnsanın dini ağlıdır. Ağlı olmayanın dini də olmaz, deməmişdimi İsa Peyğəmbərimiz? Müqayisə ilə də məsələmi həll edə bilməsəm, həlli insan tərəfindən uyğun görülən, "Müsəlmanların gözəl gördükləri Allah qatında da gözəldir" hədisini yada salaram... Məsələmi yenə həll edə bilməsəm, bu səfər adət və ən'ənələrimizlə həll edərəm!

Əbu Hənifə belə deyir...

Bu böyük İslam günəşi bir türk oğludur!

Hanəfi məktəbinin qurucusu...

Xüsusiylə qanun məcəlləsində, ağlı qiymətləndirən görkəmli bir alim...

Bu gün müsəlmanların çoxu onun yoluyla gedir...

Əsl adı Nu'man b.Sabit... 699-cu ildə doğulub. 16 yaşında Hacca gedib. Türk könlünün bütün saflığıyla inanıb, dörd əllə sarıldığı müsəlmanlıqda daha irəliyə getmək istəyirdi. Onun hədəfi islam elmini ucaltmaqdı. Bu səbəblə Həccdan döndüyü zaman Küfədə qaldı və oxumağa, öyrənməyə başladı... Gəncliyində söz, nitq elmi ətrafında tanınmışsa da, o, daha çox fıkıh elminə həvəsliydi. Əbu Əmr Amir Şa'bıdan çox şey öyrəndi. Hüquq mövzusunda özünü ən çox yetişdirən adam isə Xamməd b.Əbu Süleyman oldu.

Ərəb dilini bütün incəlikləriylə oyrəndi, ədəbiyyatını yaxşıca tanıdı. Əslində Qur'ani-Kərimi uşaqlıq yaşlarında əzbərləmişdi...

Müəllimi Əbu Süleymanın heç bir dərsini qaçırmadı və müəllimi öləndən sonra onun yerini tutdu, dərs verməyə başladı. Əbu Hənifənin dərslərini dinləmək, ondan xüsusiylə fıkıh mövzusunda faydalanmaq üçün insanlar axın-axın gəldilər. Ərəbistanın, Türkistanın, Xarəzmin, Xorasanın elmə susşamışları məkan olaraq seçdilər Əbu Hənifənin yaşadığı şəhəri... 30 il ərzində 4000 tələbə yetişdirdi. Bunlardan çoxu hüquq mövzüsunda fikir söyləyə biləcək qədər inkişaf etmişdi.

O, artıq imam'i Azam'dı, Böyük imamdı...

İmam-i A'zamın yaxşıca məşhurlaşdığı sıralarda səltənət can verirdi... Nə e'tibarı qalmışdı, nə də gücləri. Əməvilər, imam-i Azam Əbu Hənifəyə bürünmək, ondan güc almaq istəyirdilər: Ona "Qazilik" təklif etdilər. Əhli Beytə olmayan pisliyi edən bu hakimiyyətin təkliyini rədd etdi Əbu Hənifə... Əməvilər bu hərəkəti öfkə, hirs ilə qarşıladılar, Əbu Hənifəni döydülər, qırmancladılar, işgəncə verərək zindana saldılar...

Əbu Hənifə bir fürsət taparaq Əməvi zindanından qaça bildi və Məkkəyə getdi. O, orada çox hörmətlə qarşılandı və İmam Məlik ilə görüşdü... "Siyasət" onun yaxasını heç cur buraxmırdı... Əməvilər yıxılmış, Abbasilər hakimiyyətə gəlmişdilər. Onlar da Əbu Hənifədən "Qazilik" etməsini istədilər. O sırada təkrar Kufəyə dönmüşdü. Kufədə Əbu Cəfər Mənsur illa "Qazi" olmasını istəyirdi... İmam-i A'zam Əbu Hənifə Mənsurun bu təklifini yenə də inkar etdi. Mənsur zülmkardı:

— Qaziliyi qəbul etməyində çox böyuk fayda vardır.

Əbu Hənifə qəti qərarlı idi:

— Mən millət e'tibarıyla Ərəb deyiləm. Bu səbəblə ərəblər fikirlərimlə razı olmaya bilərlər.

Xəlifə Mənsur da məcbur edirdi:

— Qazilik millət ilə deyil, elmlə əlaqəlidir. Sən alimlərin ən böyüyüsən, İmam-i Azamsan...



— Mən qaziliyə layiq deyiləm.

— Xeyr, layiqsən!

— Əgər mən doğru deyirəmsə, layiq deyiləm. Əgər mən yalan deyirəmsə, o zaman yalançıya qazilik əmanət edilməz!

Bu cavab Xəlifəni çox hirsləndirdi və o, Hənifənin zindana atılmasını əmr etdi. Bu böyük islam alimi zindana atıldıqdan 15 gün sonra Allahın rəhmətinə qovuşdu... 767-ci il idi...

İmam-i A'zam türk millətinin yetişdirdiyi ən boyük islam alimlərindəndir. Onun ağıllı şərhləri, ağılı üstün tutması onu digərlərindən fərqləndirirdi. Malik məktəbinin qurucusu İmam Malik də ondan tə'sirlənmişdi. Bu günə qədər çatmış olan əsəri "Al-Qanun al-Əkbər" çox tanınmışdır.

Əbu Hənifənin yoluyla gedənlərə "Əhl-i Re'y" də deyilir.

İslam bürcündan doğan bu gunəş bu gün bir çox insana yol göstərir. İrak, Suriya, Anadolu, Hindisdan, Çin, Balkanlar, Qavqaz, Pakistan, Əfqanıstan İMAM-i AZAM ƏBU HƏNİFƏNİN yoluyla getməkdədir, onun fikirləriylə islami mövzular aydınladılmaqdadır.

Bu alim atamızı rəhmətlə xatırlayırıq.

# İMAM BUXARİ

Peyğəmbərimizin sevimli sözlərini bir yerə yığıb, sonra onları bir kitab halına gətirib, müsəlmanların xidmətinə təqdim etmək qədər faydalı bir iş ola bilərmi?

Bax, İmam Buxari bu faydalı işi görənlərdən birisidir... Həm də ən başda gələni... Bir çox adam peyğəmbərimizin sözlərini toplamış, amma İmam Buxarinin istər mə'lumat vermə üslubu, istərsə də peyğəmbərimizin sözlərini nəql edən şəxslərin əxlaqları üzərinə etdiyi tələbkar tədqiqi nə qədər diqqətli olduğunu isbat etməsi Buxarini qaynaq və mənbə halına gətirmişdir.

Bu gün peyğəmbərimizin "Hədis" deyilən sözlərini toplayanlar arasında ən zəminli, ən həqiqi mənbə olaraq İmam Buxarinin çalışması və əsəri göstərilir. Bütün islam aləmi, İmam Buxarini Hədisdə baş sıraya qoyur.

Kimdir bu İmam Buxari?

İmam Buxari buxaralı bir türkdür... Buxarada doğulduğu üçün və buxaralı olduğu üçün, bütün islam aləmi onu qısaca "Buxari" və yaxud "İmam Buxari" deyə tanıyır və bilir. Həqiqi adı-Əbu Abdullah Məhəmməd bin İsmildir. O, 810-cu ildə Buxarada doğulmuşdur. Atasını kiçik yaşlarında itirmişdir. 11 yaşında ikən hədislər ilə maraqlanmağa başlamışdır. O, tanınmış hədis alimlərinin söhbətlərinə qatılmışdır. 15 yaşına çatmamış ətrafındakı hədis alimləri kiçik Buxari ilə məsləhətləşib, topladıqları hədislərin doğru olub-olmadığını soruşardılar. 16 yaşında ikən zamanın önəmli islami əsərlərini əzbərləmişdi.

Gənc yaşlarında anası və qardaşı ilə birlikdə Məkkəyə gedərək Hacı oldu. Hacc ibadətini yerinə yetirdikdən sonra qardaşını və anasını Buxaraya göndərdi. Özü isə Məkkədə qaldı.

Hədisləri toplamaq və dərs vermək üçün altı il Məkkədə qalan Buxari, daha sonra bir çox islam ölkələrini gəzdi. Misir və İraqa getdi. Bəsrədə beş il yaşadı. Bu yerlərdə gecə-gündüz peyğəmbərlərimizin sözlərini bir araya yığdı. Olduğu yerlərdə Hədis müəllimliyi etdi. İrana da getdikdən sonra doğulduğu yer olan Buxaraya gəldi. Ancaq Buxarada dinc olmadı. Çünki Buxara Valisi Xalid Bin Məhəmməd Buxaridən uşaqlarına Hədis dərsi verməsini istədi. Buxari bunu qəbul etmədi. Belə olduqda o, Buxarada çox qala bilməzdi. Buxaradan ayrılacağı zaman Səmərqəndin tanınmış adamları onu də'vət etdilər. Buxari bu də'vəti məmnuniyyətlə qəbul etdi. Ancaq yenə də bir bəxtsizlik doğdu. Də'vət edənlər ilə bə'zi səmərqəndlilər arasında münaqişələr oldu. "Dincliyin, sakitliyin pozulmasına səbəb olaram" — deyə Buxari Səmərqəndə getməkdən vaz keçdi və Səmərqənd yaxınlığındakı Xartəngdə yerləşməyi qərarlaşdırdı. Daha sonra səmərqəndlilər yenə də onu rahat buraxmadılar. Buxarini yenidən də'vət etdilər. Bu dəfə alim qardaşlarını bütün səmərqəndlilər də'vət etmişdilər. İmam Buxari də bu də'vəti rədd etmədi. Səmərqəndə getmək üçün atına minərkən bayıldı və Allahın rəhmətinə getdi... Olduyü zaman 59 yaşında idi, məzarı Xartəngdədir.

İslam alimi, atamız İmam Buxarinin bir çox əsəri var. Hədisi toplayan şəxslərin şəxsiyyətlərini anlatdığı əsərlə Buxari Hədisdə tənqidçiliyini başlamışdır. Yenə ilqinç bir əsəri də Buxara Valisi ilə özünün arasında olan mubahisəni nəql edən bir əsərdir. Əlbəttə, bunlardan ən çox əhəmiyyətlisi və Buxarini bütün dunyada tanıdan, ona şöhrət qazandıran "SAHİH-İ BUHARİ" deyə bilinən "Cami'u's-Sahih" adlı əsəridir. 7275 Hədisi əhatə edən bu əsər, bütün islam dunyasında Qur'ani-Kərimdən sonra müraciət ediləcək ən e'tibarlı mənbəə olaraq bilinir.

Bütün türk budunları bu qiymətli islam alimi atamızla nə qədər öyünsə, yenə də azdır.

Ruhu şad olsun.

# ƏR MANAS

*"Batur Manas önünə*
*Doğru kimsə gəlməmiş.*
*Aydınlığından ay qorxmuş,*
*Parlaqlığından günəş!"*

Zaman: 10-cu yüzilin sonları... Altayların ətəyindəki bir qırğız obasına arxasındakı sazıyla bir aşıq gəlir. Oba bəyinin çadırında qonağ olur...

Ozan bir gecə qalıb, yoluna davam edəcəkdi...

Axşam yeməyi yeyilir və söhbət başlayır... Çamçak-çamçak (ağac qulplu su qabı-çömçə) kımız dolub-boşalır bardağlardan... Nə'şənin zirvəyə çatdığı zaman oba bəyi ozana deyir:

— Buyur, ozanım, Manas şənləndirsin gecəmizi!

Aşıq bu istək qarşısında nə edəcəyini bilmir.

— Aman, bəy, onda günlərcə, həftələrcə mənim burada qalmaın lazımdır... Bir gecəyə sığarmı Ər Manasın dastanı?

Oba bəyi inad edir:

— Sığdığı qədər olsun, Ozanım, sığdığı qədər...

Aşıq bu inaddan sonra alır sazını əlinə, toxunur tellərinə...

Zaman qısa, dastan uzun... Nə etsin ozan? O da qısa-qısa başlayır söyləməyə:

— Bəyim, Qaraxan oğlu Cakıp xan Aydar xanın qızı Çıyrıcı ilə evlənir. İllər keçsə də Çıyrıcı xatun bir erkək övlad verməz Cakıp xana... Cakıp xan da dərdli-dərdli deyinir:

*"Ey Xuda, Taala mənə yar olsun!*
*Çıyrıcının qarnında*
*Bir oğlan vücud tapsın!"*
*Diləyi yerinə gəlir Cakıp xanın...*
*"Cakıp xan arvadı Çıyrıcıdan*
*İndi bir oğlan doğdurdu.*
*Oğlunun üzünə baxdı,*



*Ağ əti pambıq kimi,*
*Sümükləri mis kimi,*
*Bir ağ madyan kəsdirdi*
*Cakıp xan doğan oğlunun adını*
*Dörd ulu peyğəmbərə*
*"Manas" qoydurdu"*

Cakıp xan oğlu Manas hələ beşikdə ikən yenilməz bir ər olacağını qışqırırdı atasına.

*"Manas beşikdə yatarkən danışdı:*
*"Ağsaqqal atam, Cakıp xan,*
*Müsəlman yolunu açacağım,*
*Kafirin malını saçacağım,*
*Kafiri sürərək qaçırıb,*
*Müsəlmana nicat salacağım!"*
*Sakıp xan bu sözü eşidincə*
*Müxtəlif başlı çakır rahvanı (at yürüyüşü)*
*Gətirib əgər vurdurdu.*
*Yaxası qızıl, yeni mis,*
*Deşikləri quş gözü qədər*
*Kiçik ağ zirehinin*
*Altından naxışlı düzəltdirdiyi,*
*Gumüşdən naxışlar tokdurdüyü*
*Zirehini geyincə*
*Cakıp xan belə qışqırdı:*
*"Bəyin oğlu Bakay xan!*
*"Bəri gəl böylə qarşıma*
*Sənə deyəcəklərim var.*
*Mənim ər Manas oğlum*
*"Ata minəcəyəm" dedi,*
*"Uzaq səfərə gedəcəyəm" dedi,*
*"Mədinədən sıyırıb,*
*Ulu Buxaradan dolanıb*

*İt-keçüüdən keçəcəyəm!" dedi,*
*"Beş-tərəkdən də aşaraq*
*Beycindəki konur-Bəyə*
*Çatıb vuracağam!" dediğ"*

Ozan çaldı, söylədi... Baxdı ki, sabah olacaq, belə qısa xülasə ilə nəticələdi:

Cakıp xan Manası yaxşı yetişdirdi... Manas on yaşında ox atmağı öyrəndi. 14 yaşında orduya sahib olub, xan oldu. Adı şöhrətləndi. O, artıq ƏR MANAS dı! Qaşqardakı çinliləri Turfana doğru sürüb atdı... Çinliləri Turfanda da buraxmadı, onları Ağsuya qovladı. Beləcə Ər Manas çinlilərə, sartlara, iranlılara qalib gəldi.

O, ərdi! O, yenilməzdi! Atı da elə idi, heç bir at ona çata bilməzdi!

Zirehi o qədər sağlam idi ki, sərçə gözlü ağ zirehini bir ox deşib keçə bilməzdi. Onun müvazinətində bir qəhrəman yox idi. Bir ara mecusilərin içindən Ər Yolay deyə biri əmələ gəldi. Manasa bərabər bir igid oldu. Amma Ər Manas nə etdi, — ona da qalib gəldi.

Ozan çox yorulmuşdu... Səhər açılmaq üzərəydi. Oba bəyi ozanı yolundan yubandırmaq istəmirdi. Ancaq Manas dastanı mövzusunda Ozanı sınamaqdan da qalmadı:

— Səni yorduq... Bilirəm, yolçu yolunda gərək... Azuqən hazır... Ər Manas dastanında başdan sona hansı hadisələr nəql edilir? Söylərsən könlümüz fərəhlənər...

Ozan sınandığını anladı:

— Bəy, mən hələ "Manasçı" ola bilmədim. Bilirsiniz "Manasçı" olmaq asan deyil...

— Bildiyin qədər olsun, ozanım, bildiyin qədər...

— Bəy, bir çox hadisələr nəql edilir Manas dastanında. Qısaca belə nəql edə bilərəm: Manasın doğuşu. Alməmmədin müsəlman olaraq əvvəl Kökçoya, sonra Manasa sığınması... Manasın Alməmmədin keçmiş dostu Ər Kökço ilə savaşması...



Manasın evlənməsi... Manasın ən sadiq və vəfalı dostu olan arvadı Kenikeyin bir sözünü dinləməyərək səhv etməsi və ölməsi... Ancaq bir yüksək səviyyəli insanın əmələ gəlməsi, yenidən dirilməsi... Oğlu Semeteyin doğulması... Manas sonsuzluğa köçdükdən sonra oğlu Semetey ilə nəvəsi Seytekinin macəraları... Bax, belə sürüb gedər, bəy...

Biz Aşıq ilə Oba bəyini baş-başa buraxaq və öz sözlərimizi davam etdirək...

Biz türklər dastanlarla böyüdük, dastanlarla yoğrulduq. Hansı türk, xalqının övladları — Ər Manası, Oğuz xanı, Dədə Qorqudu, Çingiz xanı bilməyir?

Dastanlar türklüyün havasıdır, suyudur... Xalqlarımızın dilində birliyimizin, bütünlüyümüzün gözəl ifadəsidir dastanlarımız.

Türk xalqları geniş bir coğrafiyaya dağılmış olsalar da, dastanlarımız onları tək tarixdə, tək coğrafiyada birləşdirə bilir... Söz gəlmişkən: Orkun Benqü daşlarındakı ifadələrin oxşarlarını "Dədə Qorqud"da, "Manas" dastanlarında görə bilirik... Türklərin ən köhnə inanclarını bütün türk dastanlarında görmək mümkündür. Türk xalqlarının ortaq dəyərləri olan qonaqsevərliyimiz, igidliyimiz, at-silah oynatmağımız, qadına verdiyimiz yüksək qiymət, vətənə olan məhəbbətimiz, Yaradana olan sonsuz sevgimiz, yaxşı insanı öyməyimiz, pislərə yer verməməyimiz... Və daha bir çox xüsusiyyətlərimiz dastanlarımızın bağrında yaşayır... Bu baxımdan "Manas" dastanı xüsusilə islamiyyətlə bərabər türklər arasında əmələ gələn dastanların başında gəlir. Və "Manas" dastanı bu gün 400.000 sətiri ilə dünyanın ən uzun dastanıdır. Biz türklər, bu dastana sahib olmaqla qürur hissi duyuruq.

"Manas" bizim igid ifadəmiz... "Manas" bizim qəhrəmanlığımız... "Manas" biz türklərin müsəlmanlığa nə qədər səmimi bir

inancla sahib olduğumuzun bir ifadəsidir... 10-cu yüzildən bəri, xalqın dili ilə desək, bir sübutdur.

Bu ulu dastan 10-cu yüzildə Qırğız elində əmələ gəlməyə başlamış və dalğa-dalğa bütün türk elinə (Türküstana) yayılmışdır. "Manas" bu gün bütün türk xalqlarının dilində və könlündədir. Min ildir ki, geniş bir zövq ilə söyləyir və dünya durduqca Ər Manası söyləyəcəyik!

"Manas" qırğızın içindən çıxmasına baxmayaraq, qazağın, türkmənin, özbəyin, azərinin, uyğurun, anadolu türkünündür... Qısacası, Manas eynən Oğuz xan kimi, Dədə Qorqut kimi bütün türklüyün malıdır!

"Manas"dan hər söz açılanda ululuq gəlir gündəliyə...

Bu ululuq türk millətinin ululuğudur!

Bir və qardaş olan bütün türk xalqlarının ululuğu...

Salam olsun hamısına...



# FARABİ

Dunyanı gəzmək üçün bir səyahətə çıxınız... Bu səyahətdə bilən adamlara belə bir sual veriniz:

— Ərəblərə öz dillərində ilk böyük ensiklopediyanı qazandıran, Şərqə Aristoteli həqiqi anlamda tanıdan, Qərbə musiqi alətləri haqqında ilk həqiqi tə'limatı verən, fəlsəfə, musiqi, riyaziyyat, tibb və botanika alimi kimidir?

Alacağınız cavab FARABİ olacaqdır!

Bir fikir adamı düşünün ki, düşüncələri, fikirləri yüzillər boyu mübahisə doğurur...

— "Farabi o mövzuda haqlıdır"...

— "Xeyr! Belə deməsi lazım idi..."

— "Amma bu səbəbdən, Farabi elə demişdir..."

— "Ancaq belə deməsi lazım deyildimi?.."

Bu mübahisələr hələ də, bəli, hələ də davam edir... Baxın nə qədər qüvvətli işıqdır ki, onun fikir qüdrəti mubahisələrə indiyə kimi aydın bir zəmin gətirir.

Ey, Uzlukoğlu Farabi... Ey qoca türk!

Bizi hələ də danışdırmaqdasan!

Bu gedişlə hələ yüzillər boyu barəndə mübahisə edəcəyik...

Ərəbcə yazmısan..* Nə qəm! Yeddi göbək türk məğlubdur bizə görə.

* Qiymətli oxucu... 9-cu yüzildə türk xalqları kəşf etmiş kimi, islamiyyəti qəbul etməyə başlamışlar... Dini birlik baxımından olduğu qədər, coğrafi yaxınlıq baxımından da ərəb və fars mədəniyyəti ilə iç-içə yaşamağa başladılar. Dərhal ifadə etmək lazımdır ki, bu iç-içə yaşamaqda türklərin vəzifəsi rəhbərlik idi... Millətlərin mə'lum bə'zi xarakter xüsusiyyətləri vardır. Türk millətinin ən qəbul olmuş xüsusiyyətlərindən biri də "yumşaqqəlbli" olmasıdır. 9-cu yüzildən e'tibarən türk dilində meydana gələn dəyişikliklərin təməlində türk xasiyyətindəki bu ucalığın dilimizdə mənfi əks olunması yatır. Türk millətı tarix boyu rəhbərlik etdiyi müsəlman millətlərinin dillərini, o

Orta çağın bu böyük filosofu, türk oğlu türk Farabi, yenə də bir türk ölkəsi olan Qazax elində, Seyxun çayının Aris qolu ilə birləşdiyi yerdəki Farab şəhərində doğulmuşdur. Bax buna görə də Farabi (Farablı) deyə adlanır.

---

millətlərə bir şəfqət hissi ifadəsi olaraq ucaltmışdır. Bu şəfqət hissi yumşaq könüllülük uzun zaman içində öz dilimizin dağılmasına qədər gəlib çatmışdır. Əfsuslar olsun ki, idarə etdiyimiz ərəb və farsların dillərini yüzillər boyu elm və dövlət dili olaraq ön plana çıxardıq. İstifadə etdiyimiz sifət, ad və ünvanlarda ərəb və fars kəlmələrinə bol-bol yer verdik. Bu vəziyyət mədəniyyətin təbii bir tə'siri olmaqdan çox, biz türklərin xüsusi bir qeyrəti ilə əmələ gəldi. Ərəbcə varkən, türk dilində kitab yazmağı və ya türkcə oxumağı özümüzə bir ayıb bildik. Türk dövlət rəhbərləri, türk elm adamları, sənətçiləri ərəb və fars dillərini başları üstündə tutdular. Otaqlarında və ya evlərində türkcədən başqa bir dil danışmadıqları halda, xanlar, alimlər və sənətkarlar ərəbcə və farsca yazdılar... Rəhbərlik etdiyimiz yerlərdə bu dillərin istifadə olunması, onlara verilən e'tibar bəlkə də izah edilə bilər. Bizim bu alışqanlığımız Anadoluya da daşınmış, Səlçuk dövlətinin paytaxtı Konya, farscanın ədəbiyyat və dövlət dili olaraq davam etməsinə səbəb olmuşdur. Eyni vəziyyəti Osmanlı dövləti üçün də söyləmək olar. Onların da ərəb və fars dillərindən istifadə etdiklərini ifadə etmək mümkündür. Bu iki dilin hakimiyyətinin dəyişik vəziyyətdə davam etməsini bu gün də söyləmək mümkündür. Daşımış olduğumuz öz adlarımızdan yeni qurulan türk xalqlarının dövlət adları daxil olmaqla, indi də xarici əlavələrlə də xatırlanır: Türkiyə, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan kimi...

Farabi ərəbcə yazmış... Mövlana farsca yazmış... Bir çox Səlçuklu və Osmanlı xanları "Sultan" deyə adlanıb, farsca və ərəbcə ad və rütbələr almışlar. Heç şübhəsiz, türklər səmimi müsəlmandırlar. Bu səmimiyyətə tarix və indiki dövrümüz şahiddir. İndiki türk xalqları Peyğəmbərimizə sonsuz hörmətlərindən ötrü çıxdıqları kavmin xüsusiylə fərd isimlərini hələ də yaşadırlar. Ancaq bu həqiqət də bilinməlidir ki, yenə bu gün biz türk oğlu türk Farabiyə ərəblərin, Mövlanaya farsların sahiblənmələrindən ağrı hissi keçiririk.

Unutmayaq ki, dil, bir millətin səs bayrağıdır.



Atasının adı: Uzluq oğlu Turxan... Farabinin tam adı isə belədir, — Əbu Nəsr Məhəmməd bin Uzluq əl-Farabi əl Turki...

Yaşadığı gündən (870) öldüyü günə qədər hər zaman və hər yerdə türk geyimlərindən istifadə etdi. Hər zaman türkcə danışdı, fəqət dövrün tələbinə uyğun gəlmək üçün ərəbcə yazdı. İlk təhsilini doğulduğu şəhərdə görən Uzluq oğlu Farabi atasının tovsiyəsi ilə Bağdada getdi. Ərəb dilini Bağdadda öyrəndi və hüquq elmi aldı. Sonra orada hakim vəzifəsində işlədi. Amma əsl marağı fəlsəfə elminə idi. Bu istəyinə çatmaq üçün xristian filosofu Əbu Bişr Məta bir Yunusdan fəlsəfə məntiqi öyrəndi. Əbu Bəkir Saracdan ərəb dilinə aid qrammatika dərsləri aldı. Fəlsəfəyə olan eşqi Farabini elə bürümüşdü ki, bu elmin o çağlarda bilinən ustalarını tədqiq etmək ona tapşırıldı. Sonralar Harrana gedərək Yuxanna bin Xaylandan öyrəndiyi bilgiylə fikir dünyasını daha da genişləndirdi.

Həkimliyə marağ göstərən Farabi nəzəri olaraq tibb elminin incəliklərini qavradı. O zamanın bütün elmlərinə əl atdı Farabi. Deyirlər ki, bütün bunları fəlsəfədə dərinləşmək üçün etmişdir. Musiqi mövzusunda nəzəriyyəçi, həm də icraçı olan Farabi riyaziyyat və botanika ilə də məşqul oldu.

Keçmiş yunan filosoflarından ərəbcəyə çevirdiyi kitablarına bir çox əlavələr edərək onları daha asan, oxunaq halına gətirdi. Xüsusilə Aristotelin əsərləri üzərindəki apardığı tədqiqi işlərdən sonra şərqli alimlər onu "Mualim-ı Sani" yə'ni Aristoteldən sonra "ikinci müəllim" yüksək adına layiq gördülər.

Bu filosof atamız elə dərin fikirlər ortaya atdı ki, yaşadığı zamanın və daha sonra gələnlərin rəğbətini qazandı. İbn-i Xallikanın atamız Farabi üçün etdiyi təsbit belədir:

"Farabi islam filosoflarının ən böyüyüdür. Bildiyi fənlərdə heç kimsə onun mərtəbəsinə yüksələ bilməmişdir".

İbn-i Sina və İbn-i Rüşt kimi Şərqin böyük alimləri onun əsərlərindən faydalandılar. İbn-i Sinanın bu sozləri Farabinin dəyərini ortaya qoymağa yetər: "Mezat (açıq artırına) yoluyla aldığım Farabinin bir kitabını oxudum, "Al ibana" kitabı sayə-

sində o zamana qədər anlaya bilmədiyim metafizikanı tamamən qavradım. Bu hala çox sevindim, Tanrıya şükürlər diləyərək səcdə etdim, kasıblara sədəqə dağıtdım..."

Farabinin bir çox əsərləri vardır. Ən tanınmışları bunlardır: "İhsau'l-Ulum" (Elmlərin sayımı"), "Kitabi Fususu'l Hikem" ("Hikmətlərin özləri"), "Siyasətu'l Medeniyye" ("Siyasət"), "Medinetü'l Fazıla" ("Fəzilət sitəsi"), "Felsefetu Eflatun" (Əflatunun fəlsəfəsi"), "Felsefetu Aristo" ("Aristotelin fəlsəfəsi").

Farabinin "İhsau'l Ulum" əsəri ərəb dilində yazılmış ən böyük ilk elmlər ensiklopediyasıdır. Onun latıncaya çevrilmiş dörd əsərindən biridir. Bu əsər elmlərin bolümlərə ayırma nəzəriyyəsi baxımından çağlar boyu fikir dünyasına böyük tə'sirlər göstərmişdir.

Dünyamıza gələn ən böyük elm günəşi Farabi 950-ci ilin yanvar ayında vəfat etmişdir. Məzarı Şam yaxınlığında Bab-ul Saqir bayırındadır.

Bu böyük alim atamızı qürurla xatırlayırıq.



# İMAM MATURİDİ

Heç bir İslam tədqiqatçısı, qurucusu türk olan islama qarşı məzhəb və ya şəxslərin din və inanc xüsuslarında qurduqları sistemin varlığından söz edə bilməz! İslamın bilinən əsas qaydalarına qarşı məzhəb və ya şəxslərin din və inanc xüsusları yoxdurmu? Vardır! Ancaq bunların qurucusu türk deyildir.

Türklər din movzusunda insan cəmiyyətlərinin ən səmimi, ən konuldən inanan kəsidir. Onlar, ilhamlarını öz mənbələrindən alır, "əsrin idrakına" uyğun hala gətirirlər... Ağlı olanlar məs'uliyyətli olduqları "din", türk soylu islam alimləri tərəfindən, Peyğəmbərimizdən sonra, ən mukəmməl şəkildə nəql olunmuşdur.

Turklərin yaşadıqları coğrafiyaya bir baxınız...

İqlim baxımından bu coğrafiya nə soyuqdur, nə isti, orta vəziyyətdədir... Həddindən artıq olmaq türkün iman dünyasında yer tapa bilməz. Türk davamlı olaraq "orta yolu" və daha əhəmiyyətlisi — "ağlı" gundəliyə gətirərək düşünür və inanır...

Və yenə heç bir dilçi, dunyanın heç bir dilində "KÖNÜL" kəlməsinin mə'nasını bir kəlmə ilə tapa bilməz! Bəli, tapa bilməz! Bu kəlmə yalnız türk dilində vardır. O könul ki, türkun ürəyindəki mə'na və duyğu sarayıdır.

Türk düşünmək üçün duşunməz... Xalqa və həyata faydası olan şeylər üçün baş sındırar, uyğulamaq uçün hökmlər çıxardanda da əsl mahiyyətdən uzaqlaşmaz.

İslam dunyasına bir nəzər salın, türkün qurduğu olan məzhəb Hənifəlik ən çox tərəfdar tapandır...

Türk konül sahibidir. Onun könlunə tən gələn başqa bir konül yoxdur. Ondan məğlubiyyət və pozğunçuluq çıxmaz! O, inandımı, tam inanır, konuldən inanır. Onun əsgərləri olkələr fəth edərkən haqsızlığa, ədalətsizliyə qarşı əllərindəki qılıncı tayı-bərabəri olmayan bir hünərlə istifadə edirlər.

Onun islam alimləri mahiyyəti təhrif etmədən, kimsənin düşünə bilmədiklərini düşünür, islamı ucaldan, sadələşdirən, həyatın kökünə gedən nəticələr çıxardır.

Türkün əsgəri əlində qılınc haqsızlığa qarşı savaşarkən, onun islam alimləri də islamı öz axınından çıxarmaq istəyənlərə qarşı söz ilə, elm ilə amansız şəkildə mübarizə aparırlar.

Bax, o elm qəhrəmanlarından biri İMAM MATURİDİDİR!

Matutidi səmərqəndli bir türkdür. Səmərqəndin Maturib məhəlləsində doğulmuşdur. Doğuş tarixi qəti olaraq bəlli deyildir. Öldüyü il 944-cü il olduğuna görə və uzun ömür sürdüyünü bildiyimizə görə, təxminən 852-ci ildə doğulmuş olduğunu söyləyə bilərik.

Maturidi Türkistanda Hənifi məzhəbinə mənsub alimlərdən dərs aldı. Dərs aldığı adamlar Əbu Hənifinin zincirləmə tələbələri idilər.

Maturidinin tam adı: Əbu Mənsur Məhəmməd Maturididir. Səmərqəndli olduğu üçün ona, Səmərqəndli deyənlər də vardır.

İslam mahiyyətinin yox edilməyə çalışıldığı, onun əsas qaydalarının pozulmağa can atıldığı bir zamanda Maturidi kəlam-e'tiqad mövzusu yoluyla gedən Əbu Hənifinin bu mövzudakı fikirlərini, özünə xas dəlillərlə müdafiə etmişdir. Mütəzilə anlayışını — bu anlayış əhli sünnə (sünnət, Peyğəmbərimiz Hz. Məhəmmədin mübarək davranışları və söylədiyi sözlərin, hədislərin bütünüdür) camaat anlayışına qarşıdır — ağıl və məntiqi bəlilləriylə çürütmüşdür, Qur'ani-Kərimin gətirdiyi inanc əsaslarını məntiqli və ağıllı dəlillərlə müdafiə etmişdir.

Yenə bir türk olan Əbu Hənifinin inanc sistemi Maturidinin əlindən mükəmməl şəkilə girdi və ən gözəl şəkildə ifadəsini tapdı. Hənifi təfsirində "ağıl" əhəmiyyətli idi. Maturidinin inanc sistemində də ağıl öndə gəlirdi. Belə ki, İMAM MATURİDİ özünün ən əhəmiyyətli əsəri olan "Kitabu't Tevhid"də belə deyir:



"Elmi görüşü inkar edənlər üçün elmi görüşdən və "ağıllı" düşünməkdən başqa bir dəlil yoxdur. Əslində bu xüsus onları ağlı görüşün zəruri olduğunu e'tirafa məcbur edər. Qaldı ki, onlar düşüncəni necə inkar edə bilərdilər? Ona görə şəxsən Cənabi Haq qullarını düşünməyə cağırmaqla onlara təfəkkür və tədbirli əmr etməklə və onların ibrət və öyud almalarının zəruri olduğunu xəbər verir. Bu təfəkkür və ağıllı düşüncənin elmi mənbələrindən biri olduğuna dəlildir."

Maturidi öz düşüncələrinə yaxın, müasir Eş'ar və Tahavi ilə birlikdə islamın əsaslarını laxlatmağa çalışanlara qarşı fikir mücadiləsi apardı.

Onun "Tevhid" kitabı ən əhəmiyyətli əsərlərindən biridir. İslamın ana mövzusu olan inanc sistemini işlədiyi bu kitabında Maturidi islam xaricində olan inanclara qarşı öz fikirlərini izah edir və onları tənqid edir. Maturidinin Qur'an təfsirinə aid və Qur'an oxumağa dair əsərləri ilə yanaşı, Mutəzilə inancını ağır bir ölçüdə tənqid edən bir kitabı daha vardır.

İslam ağıl dinidir!

Bunu bizə təbliğ edən Peyğəmbərimizə və onun yolunda çilovlanaraq qaçan Türkoğlu Maturidiyə* salam olsun!

* Maturidinin inanc sistemi bütün türklər arasında geniş yayıldı. Daha sonra bir çox islam millətləri arasında tərəfdar tapdı. Beləcə güclü bir inanc sisteminin yenə belə geniş bir kütlə tərəfindən qəbul edilməsinə baxmayaraq, Qazzali və İbni Haldun başda olmaqla yazarlar, bu Türkoğlu alimdən heç söz etməzlər. Bə'zi tədqiqatçılar bu sözü edilməyən Maturidinin görüşlərinə yaxın fikirləri olan imam Eşar tərəfdarı olduğunu söyləyirlər. Elə də olsa, "Türkistanda da bir Maturidi var" deməlləri lazım deyildimi? Bu vəziyyət çox maraqlıdır və üzərində düşünülməsi lazımdır.

# TİRMİZİ

Özbək elinin cənubunda, Amu-Dərya və Sır-Dərya çaylarının birləşdiyi yamacda həyat durur, çağlar bir-birinə qarışır... Bir qayaya söykənib gözlərinizi yumduqda, küləyin uğultusu torpağın dastanını söylər, Tirmiz şəhərinin hekayəsini nəql edər.

Ağ hunların ağ atlarının nal səslərini eşidərsiniz...

Üzümüzə vuran külək, fırtına uğultusu çıxartdığında Çingiz Xanın mükəmməl yaxınlaşdığını hiss edərsiniz... Sonra bir yuxu ağırlığı çökər gözlərinizə... Gözləriniz bir kərə yumularsa, düşüncənizi əsir alar yamacın tarixi. Tirmizli alimlər səf-səf keçər gözünüzün önündən, biri deyər: "Mən seyid Burhanəddinəm! Tirmiz də deyərlər mənə... Səsimi Mövlana Anadolusuna qədər çatdırdım!.."

Başqa biri yaxınlaşaraq: "Mənə Tirmizi deyərlər... Əsl adım Məhəmməd bin Əli el Hakimdir. Təsəvvüf yolunda yeriyən Xorasan nəfəslilərindənəm.."

Üçüncü alim yaxınlaşır... Yerişində bir başqalıq vardır onun... Ağır-ağır danışır: "Tirmizi deyə tanınırıq. Adımızın uzunu belədir: Əbu İsa Məhəmməd bin İsa Sevrə bin Şəddad... Peyğəmbərimizin sözlərini toplamaqla məşhuram. Atımı Hədis yolunda çox çapdırdım. Amma gözümüz yumuludur, könül gözümüz arş-i alayı görür..."

Sonra bir fəryad eşidirsiniz... Bu fəryad bir az daha cənubdan, Çəyən təpəsindən gəlir. Orada Osmanlı orduları Baş komandiri Xəlifə-i Ruyi zəminin kürəkəni Ənvər Paşa, bütün Türkistanın istiqlalı üçün qılınc yelləməkdədir... Çaş-baş qalırsınız!.. Zaman Qurban bayramının sabahıdır... Ənvər Paşanın bütün Türk xalqlarının azadlığı uğrunda rus gülləsiylə şəhid olmasına şahid olursunuz...

Birdən ayılırsınız... Yerinizdən qalxa bilməyirsiniz... Zaman keçməyə başlayır, ancaq siz hələ də keçmiş zamandasınız...

Amu-Dərya ilə Sır-Dərya çaylarının birləşdiyi yerdə həyat durur.



*Çağlar bir-birinə qarışır*
*Və torpağ öz dastanını söyləyir*
*Saf-saf keçər gözümüzün önündən*
*Ağzı dualı Tirmizli alimlər...*

Tirmiz torpağından alimlər göyərən bir türk şəhəridir... Anadoluda sevgi və sülhün, birliyin və diriliyin təşəbbüskarı olan Mövlananın müəllimi olan Seyid Burhanəddin Muhakkik Tirmizi, 12-ci yüzilin sonundan e'tibarən konüllər fəth etməyə başladı. Anadolunun könül sultanlarından olan Mövlananı ilahi eşq tabağında yoğuran, əli, dili hünərlilərindən biri. Tirmizdən durub Anadoluya gəldi və əlindəki Xorasan işıqlı təsəvvüf çırağıyla könüllər alışdırdı. Əvvəl Konyanı məkan olaraq seçdi. Sonra ölüm tarixi olan 1241-ci ilinə qədər Kayseridə qaldı. Gözəl Türkistanın Anadoluya birlik və bərabərlik nişanəsi olaraq göndərilən bu böyük insanın türbəsi Kayseridədir.

Bir başqa Tirmizi isə, Əbu Abdullah Məhəmməd bir Əli el Hakimdir. O, 859-cu ildə Tirmizdə doğulmuşdur. Bir çox ərəb şəhərləri dolaşdı, islam elmini hakqıyla öyrəndi. Hədis, təfsir, kəlam, təsəvvüf mövzularında saysız əsərlər verdi.

932-ci ildə ölən bu qiymətli alimin türbəsi Tirmizdədir.

Bu iki alimdən başqa, bütün islam dünyasında xüsusilə "Hədis" mövzusunda məşhurlaşan və TİRMİZİ deyildiyi zaman ilk olaraq tanınan adam *Əbu İsa Məhəmməd bin İsa bin Sevrə bin Şəddaddır. 9-cu yüzildə yaşamışdır.* Hədislərə görə tam bir ömür xərclədi. "Elş-Camiü's-Səhih" adlı hədis kitabı yazmış olduğu altı kitabdan biridir.

Bu qiymətli alimin gözlərinin görmədiyi söylənir. Hədis kitabı xaricində bir başqa əsəri də Peyğəmbərimizin fiziki portretini və şəxsiyyətini nəql edən kitabıdır.

Hamısının yerləri cənnət olsun!

# ALPARSLAN

Göy Türklər zamanından bəri güclü bir türk boyu olan Oğuzlar 10-cu yüzilin əvvəllərində Xəzər dənizinin şimali-şərqində əhəmiyyətli bir qüvvət halına gəldilər... Bu arada islamiyyəti qəbul etmələriylə, akıncı ruhlarını daha da ataşləyən yeni bir maya qatdılar... Ələ-ovuca sığmaz oldular.

Bir yabqu* rəhbərliyi altında yaşayan bu Oğuz kütləsi, elə bir hərəkətlilik içinə girdilər ki, ətraflarında yerləşmiş dövlətlər bu yeni gücdən çəkindilər. Qısa bir zamanda Maveraün çayına endilər.

"Yabqululuların" cənuba doğru enişi və sonra Qərbə doğru qıvrılması bərəkət yayan bir çayın axışı kimiydi...

Və gün gəldi Dukak oğlu Selçuk Yabqu olaraq Oğuzun başına gəldi...

Müsəlman oğuzları TURKMƏN deyə xatırlandılar...

Səlçuk bəy ağıllı idi. Sağlığında oğlu Arslanı** öz yerinə hazırladı. Şəhid oğlu Mikayılın övladları olan Çağrı və Tuğrulun yetişmələriylə şəxsən özü maraqlandı. Uzun bir ömür sürdü. 1007-ci ildə, yüz yaşdan artıq yaşı olan zaman dünyadan köçdü. Özü öldü, amma adı yüzlərcə il yaşadı: "SƏLÇUKLU" əzəməti türklüyün şanını zirvələrə çıxartdı.

Atasının yerinə keçən Arslan Yabqu türkmənlərin adını daha da çox yaydı. Qardaşı oğulları Tuğrul və Çağrı bəylər durmadan Qərbə tərəf axın edirdilər. Qərb haradır? Qərb diyarı Rumdur! 1017-ci ildən bəri durmadan yoxlayırdılar gələcəyin əbədi türk vətəni Anadolunu!

* YAVQU — Türklərdə hunlardan bəri Kağandan (xandan) sonra gələn bir addır...

** Arslan Yabqu, kutalmışın atası. Arslan Yabqunun nəvəsi olan kutalmışoğlu Süleyman şah (xan) 1075-ci ildə Anadoluda Türkiyə (Türk eli) dövlətinin təməllərini atan Türkün ulu bəxtli övladlarından biridir



Türkün qabağa çıxan, bu ələ-ovuca sığmaz Türkmən xalqının savaşqanlığı, yenə bir türk olan Qaznəli Mahmudu narahat etdi. Doğru deyirlər: "Kimsə etməz Türkün türkə etdiyini". Qaznəli Mahmud bir hiylə ilə Arslan Yabqunu yanına çağırdı və onu həbs etdi.

Bu qədər əmək boşamı gedəcəkdi? Xeyr! Ox yaydan çıxmışdı... Tuğrul və Çağrı bəylər daha da təşkilatlandırdılar türkmənləri. Və Qaznəli ilə bir hesablaşma gərəyi hiss etdilər... 1040-cı ildə Dandanəkanda böyük bir meydan döyüşündə Qaznəlilərə qalib gəldilər. Bu döyüş Selçuk oğullarına "Dövlət olma" iradələrini həqiqiləşdirmək fürsəti verdi. Çağrı bəy böyük olmasına baxmayaraq kiçik qardaşı Tuğrulu dövlətin başına keçirdi, özü də orduların komandanı oldu, savaşsız, gurultusuz... Nə üçün olsun ki? Məqsəd nədir? Turkluyu ucaltmaq deyilmi? Belə məqsədlər əlbəttə ki, fədakarlıqla həyata keçirilir. Qardaşın qardaşı qırmasıyla bir turk xalqının digərlərini alçaltmasıyla deyil! Çağrı və Tuğrul bəylərin bu hərəkətləri: türklərin anlaşaraq, qardaşcasına danışaraq aşa bilmədikləri heç bir əngəl yoxdur və bu bir isbat olaraq qarşımızdadır...

Tuğrul Bəyin zamanında türklər islam xalqlarının əsgəri gücünün əsasını təşkil etdilər.

Qısa zamanda türklər İslamın həm qılıncı, həm də konüllərə axan yolu oldular...

Tuğrul Bəy (sultan), Səlçukluların Baş komandanı olaraq Anadolunu Türkün Vətəni olaraq yaratmaq üçün yollar axtarırdı. Anadolunun hər tərəfinə məşhur sərkərdələrlə hucumlar təşkil etdi.

Tuğrul Bəyin ölümündən sonra Çağrı Bəyın oğlu Alparslan Səlçuk taxtına oturdu.

Alparslan!..
Bütün Türk xalqlarının fəxrlə, öyünərək xatırladıqları ad!

Çağrı bəy oğlu Alparslanı uşaqlığından bəri xüsusi olaraq yetişdirdi. Alparslanın gəncliyi səfərlərdə keçdi. Əmisi Tuğrul bəyin rəhbəri olduğu Səlçuklu Dövlətinin ucaltması üçün qeyrət göstərdi. O, Tuğrul bəyin ölümündən sonra Səlçuklu Dövlətinin başına keçdi. Baş verən səltənət davasından qalib çıxdı. Bu səltənət davalarının ən əhəmiyyətlisi Arslan Yabgunun oğlu Kutalmış ilə əlaqəliydi. Kutalmış çox böyük bir Səlçuklu bəy və Yabqu övladı idi. Dövlətdə birlik hər şeydən əhəmiyyətli idi. Dünyada türkün var olduğu gündən bəri, üstündə titrədiyi bir xüsus: Dövlətdə **birlik və millətdə dirilik idi.** Bəli... Kutalmış həqiqətən yüksək qabiliyyətli, bilgili, igid bir türk bəyiydi. Ancaq Selçuklu dövlətinin başı bəlli olmuşdu. Onun başı Alparslan idi. Bundan sonra baş verəcək hər bir mübarizə, əlbəttə, üsyan anlamı daşıyırdı. Necə ki, Alparslan da vəziyyəti elə qiymətləndirirdi və heç arzu etmədiyi halda, Kutalmışın döyüş meydanında ölümü baş verdi. Alparslan Kutalmışın ölümünə günlərcə yas tutdu, ağladı. Cənazəsini böyük bir təntənə ilə qaldırıb, əmisi Tuğrul bəyin məzarının yanında, Rey şəhərində dəfn etdirdi.

Daxildə sülh olduqdan sonra, Alparslan yönünü Anadoluya çevirdi. Anadolu turkün bəxti idi! Və Anadolu mütləq alınmalıydı! Buyruğundakı bir çox türk bəyini Anadoluya səfərə göndərdi. Yaradanın eşqiylə, qabına sığmayan, vəcdə gəlmiş türklər Diyar-i Ruma axışırdı!

***Ötükən zindanında döyülmüş qılınclar ilə,***
***Çin hücumlarının dastanlarıyla böyümüş əsgərlərlə,***
***Dağ sinəli qəhrəmanlarla,***
***Yasəvidən düstur almış ərənlərlə***
***Axışırlardı Anadoluya!***

Alparslan əvvəl Qafqaza yönəldi, başlıya baş əydirdi, dizliyə diz çökdürdü. Türkün törəsini hakim qıldı gürcüyə, ermənivə! 1064-cu ildə Ani və Karsı fəth etdi... Türk gücü Anadolu qapısını zorlayırdı... Anadoluda yayılmış olan və yüzillər hökm sürən Bizansın qolu qanadı, yavaş-yavaş yıxılırdı. Alparslan, əmisi



Tuğrul Bəyin ala bilmədiyi Malazgirt qalasını bir həmtədə aldı. Sonra cənuba endi, Diyarbəkirdən Hələbə endi. Beləliklə, Bizans dövləti, Alparslan liderliyindəki Səlçuklu gücünün qeyri-ciddi bir güc olmadığını anladı.

Bizansın başında sözdə imperator Romanos Diogenez adlı, xəyal ilə həqiqəti bir-birinə qarışdıran biri vardı. 200 min nəfərlik ordusu ilə paytaxtları Konstantinopoldan hərəkət etdi. Ordusu həqiqətən tunlük idi. Amma sadəcə tünlükdü! Hər millətdən əsgərlərlə doluydu: İdealsız, şüursuz, inancsız, quru bir tunlük...

İgid Alparslan Diogenesin Malazgirtə doğru irəlilədiyini öyrəndiyində, hədəfi Misir olan səfərini yarıda buraxıb, təqribən 40 min adamlıq gücüylə, yerə-göyə sığmayan Bizanslıları Malazgirt dərəsində qarşılamaq üçün geri döndü.

Bizanslıların ordusunda Balkanlar və Qara Dənizin şimalındakı türk yurdlarında yaşayan peçeneq və uzlar (oğuzlar) da var idi.

Alparslanın sülh təklifini rədd edən Bizans imperatoru guya qarşısındakı sayca az olan türk gücünu əzib keçəcək və səlçuklunun paytaxtı olan Reydə qışlayacaqdı...

İki ordu 26 avqust ayı 1071-ci cümə səhəri Malazgirt ovasında qarşılaşdı. Döyüş başlamazdan əvvəl Alparslan səcdəyə qapanaraq Allaha yalvardı. Türk könlünün bütün şəffaf və təmizliyi ilə belə söylədi.

"Ya Rəbbi!

Sənin əzəmətinin qarşısında üzümü yerə sürtüb, səni özümə vəkil edərək, sənin uğrunda müqəddəs edirəm.

Ey Tanrım!

Niyyətim xalisdir, mənə yardım et! Sözlərimdə xilaf varsa məni məhv et!"

Yaradana olan yalvarışını bitirdikdən sonra bəylərinə və əsgərlərinə səsləndi:

**"Burada Allahdan başqa Sultan yoxdur. Hər əmr və tale tamamiylə onun əlindədir. Bu səbəblə mənimlə bir-**

likdə savaşmaqda və ya savaşmamaq üçün uzaqlaşmaqda sərbəstsiniz!"

Bu sözləri eşidən iman və inanc ordusu, bir ağızdan hamısı Malazgirt göylərini inlədircəsinə bağırdı:

"Əsla əmrindən ayrılmayacağıq!.."

Bu sözlər Alparslanın dik başını daha da dikləşdirdi. Qələbəyə olan inancını daha da möhkəmləndirdi. Kəskin baxışların daşıdığı polad ifadə ilə qarşısında səf-səf duran əsgərlərini qısaca süzdü... Nəhayət, bu bir döyüşdü, kimin sağ qalacağı bəlli deyildi... Hər kəsin bir-biri ilə vidalaşmasını istədi. Sonra da ağ paltarlar geydi. Atının quyruğunu türk adəti ilə toppuz halında bağladı. Yüyənini, sutunlarını bir daha yoxladı. Başını çevirib qarşısında duran ikiyüz min nəfərlik Bizans ordusuna bir müddət baxdıqdan sonra, əlindəki ox və yayını buraxıb, qılınc və toppuzunu alaraq bir həmlədə atına mindi.

Bütün ordu eyni hərəkəti etdi.

Atının üstündə bir dağ kimi dururdu. Üzü əsgərlərinə gələcək tərəfə atını çevirdi. Vəsiyyət sözlərini səsi heç titrəmədən söyləməyə başladı.

**"Ey əsgərlərim!**

**Əgər şəhid olsam bu ağ paltar kəfənim olsun...**

**O zaman ruhum göylərə çıxacaqdır. Bu təqdirdə, Məlik şahı mənim əvəzimə taxta çıxardınız. Və ona bağlı qalınız. Qələbə qazansaq, o zaman önümüzdə çox xeyirli günlər olacaqdır!.."**

Artıq Alparslan və onun ordusu döyüşə hazır idi! Bu zaman Bizanslıların ordusunda olan, amma hələ müsəlman olmamış peçeneq və uz türkləri öz qardaşları ilə savaşacaqlarını başa düşdülər. Uzların Baş komandanı Tamış bəy üç-beş Bizans qızılı üçün qardaş qanı tökmənin lazımsız olduğunu düşündü və Səlçuklu ordusuna xəbər göndərərək, Səlçuklu sıralarına keçdilər!

Döyüş başlayanda peçeneq və uzlar canla-başla qeyrət edirdilər. Türk qardaşlarıyla çiyin-çiyinə idilər. Xalqları fərqli olan Peçeneqlər daha qeyrətliydilər... Oba, boy, uyruq, xalq nə idi ki



elə? Bir qardaş deyilmi bütün xalqlar? Türklük qədrini bilmək və ləzzətini yaşamaq varkən, sahildə durmaq və ya qardaşa düşmən olaraq varını törəmizdə?

*"Bu dünyaya türk gəlmənin,*
*Türklük qədrini bilmənin*
*Türk yaşayıb, Türk kimi ölmənin*
*Ləzzətinə erilməz!"* *

— dedilər və Malazgirt dərəsində Bizansa yükləndilər!

Səlçuklular və hələ müsəlman olmamış qardaşlarımız türkə xas bir igidliklə döyüşdülər. Türk törəsincə vuruşdular. Qələbəyə aypara şəkilli, türk at döyüşü üsuluyla qovuşdular!

Alparslan ağ paltarla, kəfəninə bürünmüş halda döyüşdü!

Afşın bəy, Sanduk bəy, Dilmaçoğlu, Savlı bəy, Aytəkin, Savtəkin və daha neçə türk bəyi zorladılar Anadolunun qapısını Malazgirtdə!

Döyüşün başlandığı cümə gününün axşamı türk qələbəsinin xoş xəbəri idi. Günəş bənövşəyi rəngli dağların arxasında yox olarkən, sonsuza qədər qalacaq olan bir yurdun qucağı Türklərə açılırdı.

Malazgirt meydan döyüşü türklüyün üz ağı, qələbələrinin ən əhəmiyyətlisi idi. Bu böyük qələbənin nəticələri də böyük oldu. Türklərin yüksək xarakteri ifadə baxımından ən əhəmiyyətli hadisə idi: Biri Sultan Alparslanın Bizans ordusunun Baş komandanı imperator Romanos Diogenesin həyatını bağışlamasıdır. Digər tərəfdən, türklük üçün yeni bir Vətənin qapısının açılması idi... Bu qələbədən sonra türk kütləsi Orta Asiyadan axın-axın bu yeni yurda doldu.

Türklük qərbə yönəldi... Səlçuklu əzəmətindən sonra Osmanlı ucalığı yaşandı və bu gün bu əbədi Vətəndə sonsuzluğa qədər var olacağ qüdrətli Türkiyə Respublikası Dövləti yaşa-

---

* Şe'r 20-ci yüzilin yetişdirdiyi ən böyük dastan şairi Niyazi İldırım Gəncosmanoğlunundur.

maqdadır... Tarixin qarşımıza qoyduğu həqiqət budur ki, bu var olmanın əsasında Alparslan böyüyümüzün qeyrəti vardır.

Malazgirt qələbəsi dünyada böyük əks-səda doğurdu. Abbasi Xəlifəsi, Səlçuklu Dövlətinin rəhbəri olan qəhrəman Alparslan üçün Bağdadda qələbə şənlikləri qeyd etdi. Şə'ninə yaraşan rütbələr verdi.

Sultan Alparslan Malazgirt qələbəsindən bir il sonra — 1072-ci ildə Orta Asiyaya doğru ordu göndərdi. Çünki Qaraxanlılar bir-birinə girmiş və qardaş-qardaşa düşmən kəsilmişdi. Oralarda dincliyi saxlamaq üçün Azərbaycan üzərindən Maveraün çayına doğru yola çıxdı. Eyni ildə Barzam qalasının komandiri Yusif tərəfindən hiylə ilə öldürülmüşdü.

Ölmədən əvvəl söylədiyi sözlər onun nə qədər açıq sözlü olduğunu göstərməsi baxımından əhəmiyyətlidir:

"Bir təpə başına gəldiyimiz zaman ordunun əzəmətindən və əsgərin çoxluğundan altımda yerin titrədiyini hiss etdim və özözümə dedim: Mən dünya Sultanıyam, mənə kimsənin gücü çatmaz. Bu ordu ilə Çini belə fəth edərəm dedim. Bu qürur üzündən belə aciz vəziyyətə düşdüm. Halbu ki, hər hansı bir səfərə gedərkən daima Tanrıdan kömək istərdim..."

Alparslanın ölümündən sonra yerinə Məlik şah keçdi.

Sultan Alparslan çox mərhəmətli və şəfqətli idi. Divanında kasıbların adları yazılıydı. Onlara maaş verirdi. Hər Ramazanda yoxsullara pul paylayardı. İlin bəlli günlərində, bəylərinə keçmiş bir türk adət-ən'ənəsinə uyğun olaraq sarayını qarət etdirirdi... Şairləri, sənətkarları qoruyurdu. Elmə maraqlıydı. 1067-ci ildə Bağdadda tikdirdiyi mədrəsə dövrünün ən böyük universiteti idi. İmam-i Azam türbəsi, Xorasan məscidi, Nişapurdakı Şaydan qalası tikdirdiyi əhəmiyyətli əsərlərdən idi.

O, sifarişlə böyük Nizamiyə ölməz poema yazdırmış və anasının şərəfinə Naxçıvanda məşhur Möminə xatun türbəsini tikdirmişdir.

Alparslan atamızın ruhu şad olsun!



## MALAZGİRT MARŞI

*Aylardan avqust, günlərdən Cümə,*
*Gün doğmadan əvvəl iqlim-i Rum'a*
*Bozqurdlar ordusu keçdi hücuma...*
*Yeni bir şövq ilə gurladı göylər:*
*Ya Allah... Bismillah... Allahu-Əkbər!*
*Qarşıda yalın qılınc Türkmən Baş komandiri,*
*Ardında Oğuzun əlli min tüyü...*
*Andırır Altaydan qopan bir çığı,*
*Budur Peyğəmbərin öydüyü türklər...*
*Ya Allah... Bismillah... Allahu-Əkbər!*
*Türk, Ulu Tanrının soylu sevgisi*
*Malazgirt Bizansın Türkə səcdəsi,*
*Bu səs insanlığa haqqın müjdəsi...*
*Bu səsdə birləşir bütün ürəklər,*
*Ya Allah... Bismillah... Allahu-Əkbər!*
*Nə'rəmizdən bu gün göy gurultusu,*
*Qanımızdan bu gün yerin örtüsü...*
*Qazi atlarının nal parıltısı,*
*Qılınclarımızdır çaxan şimşəklər...*
*Ya Allah... Bismillah... Allahu-Əkbər!*
*İgidlər qan tökər, bayraq solmağa,*
*Anadolu başlayır Vətən olmağa...*
*Qızılalmaya hey... Qızılalmaya...*
*Ən gözəl marşını vurmada mehter*
*Ya Allah... Bismillah... Allahu-Əkbər!..*

*(əsgər musiqi qrupu)*

*NİYAZİ İLDIRIM GƏNCOSMANOĞLU*

# NİZAMİ GƏNCƏVİ

*"Nizami, söz incisi mahiyyətinin e'tibarlı xəzinədarıdır".*

*Əlişir Nəvai*

Nizami Gəncəvi Azərbaycan türküdür və gəncəlidir... 12-ci yüzildə Gəncədən doğan bu ədəbiyyat günəşi təkcə türk ellərini deyil, bu günə qədər dünyanın bir çox yerini işıqlandırdı...

Mövlananın o geniş düşüncə dənizində Nizami Gəncəvinin duru fikir çaylarının suları vardır. İranın Sə'disinin "Bustan"ında Nizaminin fikir çiçəkləri açar... Əlişir Nəvai ona heyrandır. Dövrlərin şairi, o qoca Fizuli Nizamidən lazımı qibasını almışdır.

Təkcə Şərq mütəfəkkiri və şairi deyildir o. Deyirlər ki, avropalı bir çox fikir və sənət təşəbbüskarlarının düşüncə və duyğu dünyasında Nizami Gəncəvinin fikir cizgiləri ən qalın xətlərlə qeyd olunmuşdur!

İngilis şairi İsaak Dizrealının "Leyli və Məcnun" şe'rinin öz əli ilə yazdığı mə'lumdur. Xammer Nizaminin "Xosrov və Şirin"inin tə'siri altında qalır və o da "Şirin" şe'rini ədəbiyyat dünyasına hədiyyə edir. Bunlardan əlavə, bir çox avropalı sənətkarlar tə'sirlənirlər Nizamidən...

Prof. Dr. R.Azadə onun üçün belə deyir:

"Fikir və şe'r tərəfi, şöhrətinin məşhurluğu və tə'siri baxımından Nizami Gəncəvinin yaradıcılığı zaman və məkan tanımayır. Nizaminin əbədi əsərlərinin ölməzliyini tə'min edən ən əhəmiyyətli tə'sir, onun sosial və estetik fikri hər dövr üçün faydalı olması və insan problemləri ilə bir bütünlük yarada bilməsi ustalığıdır. Nizaminin sənəti insanın şəxsiyyət, qürur, ağıl, iradə, tükənməz və coşğun qabiliyyətinin böyüklüyünü, şe'rin yaradıcı qüdrəti ilə himayə edən bir sənətdir."



O, "İsgəndərnamə" ilə dastanlarda dolaşır... "Leyli və Məcnun" ilə nağıllar dünyasına dalar, amma yenə də həyatın içindəki hadisələri şe'r dəzgahında incə-incə işləyər... Fəzilət, ucalıq və gözəl olan nə varsa insana yaraşdırar. Çalışqanlığı oyar...

"Kərpickəsən qoca" şe'rində kərpic kəsən bir yaşlının bu zəhmətli işi görməsini başa düşməyən bir gəncin: "Kimdən istəsən bir parça çörək verər sənə". — deməsinə qarşı yaşlı qocanın verdiyi cavab güllə kimidir:

*"Kərpic kəsmək işi yetişmiş kamil adam işidir*
*Minnətçilik işi isə qullarındır.*
*Bu sənətə əl atdığım nə üçündür?*
*Bir gün sənə əl açmamaq üçündür.*
*Kimsəyə mal üçün mən heç əl açmam,*
*Əmək verib, yeyərəm, işdən də qaçmam.*
*Bu sözləri bizim igid eşitmiş,*
*Qızarmış, ağlamış, çəkilmiş getmiş."*

"İsgəndərnamə"sində İsgəndəri ölkə-ölkə gəzdirərkən Qıpçaq elinə də aparır. Gözəl Qıpçaq qızlarının əsgərləri başdan çıxaracağı qorxusu ilə İsgəndər qızların üzlərinin örtülməsini istəyir. Bax burada qıpçaqların belə bir törəsinin olmadığı vurğulanır Nizaminin o misilsiz anlatımıyla:

*"Taxılırsa gözə bir örtü, niqab,*
*Nə günəş görünür, nə də ki mehtab. (ay işığı)*
*Şahin əmrindəyik, fəqət yalnız*
*Elin adətinə necə qıyarız!"*

O, hey türkü ucaltdı. Türk onun üçün ədalətin ən gözəl rəhbər adıdır! Dövrünün tələbinə uyğun gəlmək üçün şe'rlərini farsca yazmışdır. Amma onun ürəyindəki türklük eşqi, o və ya bu şəkildə şe'rlərində əks olmuşdur. Söz gəlişi, ədalətsiz Sultanı alçaldan bir şe'rində söylədiyi bu sözlər 12-ci yuzil türk dünyasındakı rəhbərliyin ucaldığını vurğuladı:

*"Türklərin çünki yüksəldi dövlətləri,*
*Ədalətdən bəzəndi hey vilayətləri.*
*Madam ki, sən zülmə səbəb olursan,*
*Bir türk deyil, qarətçi bir Hindistan!"*

Nizami Gəncəvi sosial həyatın əyriliklərini, insanın comərdini, hər xalqdan qəhrəmanları dilə gətirir. "Gözəl" olan hansı xalqda varsa onu ucaldır. "Çirkin" olan bir hərəkət hansı xalqda varsa onu alçaldır... Amma bir həqiqət var ki, Nizami şe'rlərində türkü əl üstündə tutar. Azərbaycanda başlanan bu türklük şüuru Nizaminin bütün bədənini bağlamışdır.

Nizaminin Alp Ər Tunqadan (Əfrasiyab) xəbəri vardır. Qəhrəmanının soyunu ona bağlayır... Bütün dünyanı fəth etməyə çıxan Makedoniyalı İsgəndər azərbaycanlı Nüşabə qarşısında dizə gəlir... Azərbaycan gözəlləri Şahların ruhlarını ovlayır, gəlişdirirdi... Leyli və Məcnun görünüşdə ərəb qiyafətlərindədir, amma həqiqətdə onları türk olaraq dolaşdırır Nizami...

Nizami Gəncəvi Türklüyün qururunu, TÜRK adını qəhrəmanlıqla, ucalıqla, gözəlliklə bir mə'nada istifadə edir və incə, zərif bir Türkçülüyün ifadəsini yaradır.

Atamız Nizami Gəncəvi bir çox şe'rlər yazdı. Heyf ki, onların bir çoxu zəmanəmizə qədər gəlmədi. Bu gün onun "Mahzen-i Əsrar", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Hefd-Peykər" və "Şərəfnamə", "İqbalnamə" bölümləri olan "İsgəndərnamə"si bilinən əsərləridir.

Nizami bu əsərlərini farsca yazmışdır. Bir başqa ifadə ilə türk ruhunu fars diliylə anlatmışdır. Libas fars malıdır, amma bədən və ruh türkündür!

Dünya əbədiyyatının zirvəsində dayanan Nizami Gəncəvi atamızı qürurla xatırlayırıq.



# SÖZ VƏ ŞƏRHÇİ

*Xəzinələrin açarları*
*Söz bilənin dilindədir.*
*Taxtların vəziyyəti*
*Yürür sözün əlindədir.*
*Şərhçi qoyun bir bülbülü,*
*Kim ona bənzəməkdədir?*
*Tutuşduqda düşüncəsi*
*Mələklər ölçüsündədir.*
*Söz söyləmək məharəti*
*Peyğəmbərin özündədir.*
*Tanrı yanındakı mərtəbə*
*Peyğəmbərdə, həm şairdədir.*
*Hər ikisi bir dost tanıyır,*
*Bir ruh iki bədəndədir.*

*("Mahzən-i Əsrar"dan...)*

*Siz deməyin ki, Şərhçilər öldülər,*
*Yalnız sözün dəryasına girdilər.*
*Çağırsanız adlarıyla onları,*
*Balıq kimi sudan çıxar başları.*
*Sözdən gözəl övladı,*
*Dünyamız doğmadı.*
*Nə etdisə Yaradan,*
*Qalan bir sözdür ondan.*
*Bilir duyulmazlığı,*
*Oxuyur yazılmayanları.*
*İnsandan bir yadigar,*
*Sözdür ancaq məxrəs.*

*("Həft-Peykər"dən...)*

*Nizami Gəncəvi*

# İBNİ SİNA

Buxara türk elminin, türk sənətinin məhsuldar bir baxçasıdır... Bu baxçada yetişən güllərin ətri sonsuzluğa qədər yayılır, durur...

Buxara elmin, gözəlliyin, düzgünlüyün məkanı...

Buxara əzəldən əbədiyyətə gedən bir ulu türk şəhəri! Yetişmişlərin və bilmişlərin yurdu... Buxarada toplanır bilginin otağı. Bilginin astanası, alimlərin beşiyi Buxara...

Ulu Türk yurdunun (Türkistanın) Özbək elindəki Buxara şəhərimiz 980-ci ildə dünyanın hələ də heyranlıqla andığı bir böyük alimin doğumuna şahid olur.

Bu alim İBNİ SİNADIR. Avropalıların "AVİSENNA" dedikləri İbni Sina... Əsl adı: *Əli Hüseyin*.. Atası Abdullah, Buxara yaxınlarındakı Afşanda maliyyəçi idi... İlk təhsilini Buxarada almış, on yaşında Qur'ani-Kərimi əzbərlədi. Bir neçə il sonra arı-ayrı müəllimlərdən həndəsə, astronomiya, fizika və hüquq oxudu. Buxaraya gələn məşhur alim Abdullah Natilidən məntiq və fəlsəfə öyrəndi. Bu arada həkimlik dərsi də alırdı, nəzəri bilgilərini yavaş-yavaş xəstələr üzərində tətbiq edirdi. İlk tibb müəlliminin ibni Yəhya olduğu söylənilir.

İbni Sina öz həyatı haqqında Curcaniyə verdiyi bilgidə deyir:

— On səkkiz yaşıma qədər fasiləsiz olaraq çalışmağa davam etdim. Gecələri də oxumaqla, yazmaqla məşqul olurdum. Yuxum gəldikdə bir bardaq bir şey içər, açılar, yenidən çalışardım. Yuxuda belə zehnim oxuduqlarım ilə məşqul olardı. Çox vaxt oyandığımda əvvəl həll edə bilmədiyim bə'zi şeylərin yuxuda ikən həll edilmiş olduğunu görürdüm... Daha sonra Mə'bəd ül Təbia ilə məşqul olmağa başladım. Bu məsələyə dair Aristoteli bəlkə qırx dəfə oxuduğum halda anlamamış və ümidsizliyə düşmüşdüm..."

İbni Sina Aristoteli bir türlü anlaya bilməyirdi. O zaman ki, mezatda Farabinin "Al İbana" adlı məşhur əsərini alıb oxuduqdan sonra Aristoteli qavradı. Əldə etdiyi bu nəticə üçün şükür



namazı qıldı. İbni Sina öz sözləriylə ifadə edir ki, fəlsəfi bilqisinə görə Farabiyə borcludur.

(Bir həqiqəti dərhal ifadə etməkdə fayda vardır: Müsəlman elm adamlarının Aristotel kimi keçmiş yunan filosoflarının kitablarını tə'kidlə oxumaları, onlara qarşı duyduqları heyranlıqdan deyil, şərqdəki mövzuların qeyri-müəyyənliyindən irəli gəlirdi. Çünki bunlar həm yaxşı tərcümə edilməmiş, həm də dağılmışdılar).

İbni Sina gənc yaşda Buxarada kitabxana müdüri oldu. Buradakı kitabları əzbərlərcəsinə oxudu. 20 yaşında qoruyucusu hökmdar oldu. Buna görə Xarəzmə getdi. Böyük alim Biruni ilə bərabər işlədi, çalışdı. Fikirləri səbəbiylə tə'qib olundu və bir çox adamın qısqanclığına hədəf oldu. Bu vəziyyətin təbii nəticəsi olaraq İranda şəhərdən-şəhərə köçdü. Amma bütün bu çətin həyat şərtlərinə baxmayaraq böyük həcmli bir çox əsərlər yazdı. 100-dən artığ əsərin sahibi olan İbni Sina dövrün tələbinə görə ərəbcə və farsca yazdı. Onun bir sıra şe'rləri də vardır. Əsərləri tibb, fizika, astronomiya, fəlsəfə, kəlam, musiqi və digər sahələr üzrədir. Ensiklopedik əsəri "Eş-şifa" və onun qısaldılmışı "En-Necat"dır. Tibb üzrə qədər aldığı əhəmiyyətli əsəri "El-Qanun fi't-Tibb"dir.

İbni Sina Həmədanda 21.06.1037-ci ildə öldü... Öldü, ancaq əsərləri yüzlərcə il, xüsusiylə Avropa universitetlərində dərs kitabı olaraq oxuduldu. Əsərləri zamanında latıncaya, ibrani dilinə və digər Avropa dillərinə çevirildi. Bunların bir çox çapı dəfələrlə oldu. İbni Sinanın bitkilərdən əldə edilən dərmanlar ilə bə'zi müşahidələri hələ də mö'təbərdir. Bu gün bütün Dünya, xüsusiylə bitkilərin şəfa mənbəsi olması həqiqətini İbni Sinadan öyrənməyə davam edir. Və bütün dünya İbni Sinanı hamı dünya tarixinin ən böyük həkimi olaraq görməkdədir. Digər tərəfdən, "Kitabü'n Nefs" adlı əsəri ilə psixologiya elminin qurucusu olaraq qəbul edilir. Tasavvuf, musiqi, fizika, biologiya üzrə yazmış olduğu kitablar hələ də maraqla incələnməkdədir.

İbni Sina elm baxçası olan Buxaranın bir gülüdür...

Türk-İslam dünyasının həqiqi qürurudur.

# BİRUNİ

Bir çiçək baxçasını təsəvvür ediniz... Bu çiçək baxçasında hər cür çiçək olsun və təbii olaraq da ətirləri, rəngləri ayrı-ayrı olsun...

Türk tarixi, türk mədəniyyəti məhz belə bir çiçək baxçasıdır!

Türk xalqlarının ata-babaları dünyanın misilsiz çiçəklərindən əmələ gələn bir dəstədir.

Bir çiçək baxçası olan Türk mədəniyyəti içində yaşamaq, bu dünyada dincliyin zirvəsində olmaq deməkdir. Həcc səfərlərində olan yazıçılar, Türkü əzəldən düşmən görən Lord Bayronlar deyir: **"Ey Türk, sən yüksək əxlaqını şəkilləndirən mədəniyyətinlə bizim əlimizi-qolumuzu bağlamaqdasan. Ey düşmən, sən nə üçün bu qədər xeyirxah və ucasan?"**

Allaha şükürlər olsun ki, bizi Türk yaratmışdır!

Və o Uca Yaradan bizə əzm və cəhd versin ki, o uca mədəniyyəti meydana gətirən atalarımıza layiq bir övlad olaq...

Biruni...

Bu millətin övladı... Bizim ətimiz, qanımız, sümüyümüz... Bizim ruhumuz, bizim mədəniyyətimiz...

Biruni, bir başqa çiçəyidir Türk mədəniyyətinin.

O, elə bir çiçəkdir ki, hələ dünyada tayı-bərabəri yoxdur!

Birunini 11-ci yüz ildən gətirib hər hansı bir Qərb universitetinə müəllim olaraq yerləşdirsəniz, qərblilərin müəllimlərinin "tələbə" olaraq Biruniyə növbəyə girmələrinin şahidi olarsınız...

Tarix elmi üzrə alim Sarton nə gözəl söyləmiş: **"Biruni bütün dövrlərin ən böyük elm adamlarından biridir."**

Birunini tanıyan adam istər-istəməz belə düşünür: "Görəsən, elm qaydaları 11-ci əsrdən bu günə qədər heç inkişaf etməmişmi?"

Biruni bir başqa çiçəkdir...

Gəlin, bilim dünyasının o uca şəxsiyyətini bərabər tanıyaq...



Qısa adı Birunidir... Dövründəki qaydaya görə, uzun bir adı var: Əbu'r Reyhan Məhəmməd b.Əhməd al Biruni al Xarizmi...

Adından aydın olur ki, bir Türk eli olan Xarəzmdə (Xarizm), 973-cü ildə Kas şəhəri yaxınlarındakı Şah Abbac Vəli mühitində anadan olmuşdur. Təmiz türk övladıdır... Farsca və ərəb dilində ana dili qədər mükəmməl danışırdı. Zamanının böyük alimlərindən olan Samet El Hakim və İbni Sinadan dərs almışdır. Xarəzm şahlılarının sarayında da oldu. Qəznəli Mahmudun Hindistanın şimali-qərbini işqal etməsi ilə əlaqədar Biruni Hindistana getdi. Sanskritcə öyrəndi. Hind elmini və adət-ən'ənəsini tanıdı...

Riyaziyyat, astronomiya, fizika, coğrafiya elmlərini qavradı. Xüsusilə həndəsə və triqonometriya sahəsində uğurlar əldə etdi. Astronomiya alətləri üzərində çalışdı. Tibb və fizika təcrübələri apardı. Özü düzəltdiyi bir alətlə və özünün metoduyla mə'dənlərin ayrı-ayrı çəkilərini bu gün əldə olunmuş nəticələrə yaxın bir şəkildə ölçdü.

Tarix və İslam mövzusunda tədqiqatlar apardı... Məşqul olduğu hər bir sahədə bərabəri olmayan əsərlər yaratdı. Meydana gətirdiyi əsərlərin sayı bu böyük Türk aliminin qiymətini ortaya qoyur. Mühəndislik, əczaçılıq, həndəsə, mə'dənçilik, tarix mövzularında saysız-hesabsız tədqiqatlar apardı. Gözəl bir tarixçi və dinlər tarixinin tədqiqatçısı olan Biruni xüsusilə Hindistan haqqında geniş incələmələr apardı. Ərəb dilində şe'rlər də yazan Biruni, ərəbcəyə o qədər hakim idi ki, bu dilə sonradan girmiş kəlmələri təsbit edə bilirdi.

Biruni, tam bir elm adamı tələbkarlığı ilə işləyirdi. Qərəzsiz idi. Müsbət elmə və ağla uyğun olmayan mövzulara əyilməzdi. Şübhəli tərəfi tənqidi bir zeyniyyətlə incələyər, kifayət qədər tardıqdan sonra həqiqəti açıqlayardı.

Sehr, cadu, üfürük kimi əsassız düşüncələrə aldanmadı. Biruni insana qiymət verdi. İnsanların inanclarının fərqli ola biləcəyini, mədəniyyətin bu fərqlilikdən doğa biləcəyini ifadə etdi.

Biruni siyasi elmlərlə də məşqul oldu. Bir dövlət rəhbərinin necə olmasını anlatdı. Allahın yaratdığı insanı ən şərəfli varlıq olaraq gördü. Ağılla bəzənmiş olan bir insan iradəsindən istifadə edərək pisliklərdən qoruna bilməyi bacarmalıdır. İnsanın xoşbəxt olması üçün, öz inancını, qısqanclığını və təhsilini digərlərinkindən yüksək görmə yanlışlığının və hürafələrin toruna düşməməsinə işarət etdi.

Kainatın Allah tərəfindən yaradıldığını sübut etməyə çalışdı Biruni. Fəlsəfəyə maraqlı yeniliklər gətirdi: Elmi nəticələri bir sistem kimi gördü və fəlsəfə elmini insanları xoşbəxtliyə aparan bir dərs olaraq göstərdi.

İnsanları təkbaşına yaşamalarının mumkün olmadığını, ancaq ictimaiyyət içində yaşayışın olduğunu və mədəni alış-verişlərin zəruri olduğunu qeyd etdi. Biruni həqiqi qəhrəmanlığın özünü deyil, başqalarını düşünmək olduğunu və yeri gəldikdə ictimaiyyətin dincliyi üçün müəyyən sıxıntılara qatlanmaq lazım olduğunu anlatdı.

Yüksək əxlaqı öydü Biruni. Mə'nəvi dəyərlərə hörmət olunmasını, mərhəmət göstərilməsini məsləhət bildi və insanda iç və xarici təmizliyin əhəmiyyətli olduğuna işarə etdi.

Biruni türk mədəniyyət baxçasının bir fərqli çiçəyi idi...

O, məşqul olduğu bütün elm sahələrinin dərinləşməsinə çalışdı və incələmələr apardı. Çox elm adamlarının bu gün belə istifadə edə bilmədiyi bə'zi metodları atamız Biruni təkbaşına həyata keçirdi.

13 dekabr 1048-ci ildə Qəznədə vəfat edən bu alim atamızın dühası bu gün də istifadədədir.

Onu rəhmətlə xatırlayırıq.



# XARİZMİ

Türk yurdu Xarəzın (Xarizın) qəhrəmanlar eli olduğu qədər, elmin və sənətin də beşiyidir...

Bu gün bütün türk xalqları iki xarəzmli ilə qürur duyurlar. Onların ikisinin də adı doğulduqları yerlə bağlıdır: Xarizmi...

Birinci Xarizmi hələ də istifadə olunan modern riyaziyyatın qurucusudur. İkinci Xarizmi isə 14-cü əsrin ədəbiyyat günəşi, böyük şe'r ustasıdır...

Riyaziyyatçı Xarizmi, adından anlaşıldığı kimi, türklərin Ata yurdu Xarəzmdə doğulmuşdur. Doğum və ölüm tarixləri dəqiq olaraq bəlli deyildir. Ancaq yaşadığı əsrin 10-cu əsr olduğunu bilirik.

Xarəzmdə təhsilini tamamladıqdan sonra Bağdada getdi və orada Xəlifənin xidmətinə girdi. Riyaziyyat elmi üzrə çalışmalarıyla şöhrət qazandı. O, bu elmə cəbri əlavə edərək yeni bir cığır açdı. **Cəbrin yaradıcısı və ad atası olaraq bütün dünyada şöhrət qazandı.** Ən əhəmiyyətli əsəri olan "Kitabü-l-cəbr və mukaabelə (qarşılıq)" qərb dillərinə çevrildi. Bu kitabın adından yola çıxan avropalılar "Alqebre" və ya "Alqebra" ismiylə cəbr adını riyaziyyat ədəbiyyatına soxdular.

Cəbr elminin qurucusu atamız Xarizmi dünyanın ən böyük dahisi olaraq hələ də elm aləminə hakimlik edir.

Təkcə cəbrmi? Xeyr! **Xarizmi triqonometriyanın da qurucusu olaraq tanınmaqdadır.** Onun astronomiya üzrə də əsərləri vardır və Bağdad xəlifəsinin əmri ilə yazdığı "Kitabü süreti'l Arz" adındakı göy üzünün atlası, o zamanın ən böyük kəşflərindən biri idi.

Türk millətinin ikinci qüruru, 14-cü əsrin ədəbiyyat günəşi şair Xarizmidir...

O, elə qüdrətli bir şair idi ki, şöhrəti sadəcə Xarəzmə deyil, Altınordu və Misirə qədər yayılmışdı... Ana dili olan türkcə yazdığı qəzəllər əsrlər sonra hələ də maraqla oxunur...

Xarizmin Altınordu dövlətinin rəhbərlərindən Məhəmməd Xoca Biqə ithaf etdiyi "Məhəbbətnamə", ondan sonrakı şairlərə də tə'sir etmişdir.

*"Uluğ Tenqrinin atını yad qıldımö*
*"Məhəbbətnamə'ni bünyad qıldım"*
*"Doqquz qat zər-nigar eyan-ı vala*
*Yaratdı altı gündə Haq Taala*
*Qara tokfadın sünbül yaratdı*
*Tikanlar arasında gül yaratdı"*

Xarizmin türkcəsi hələ də gözəldir... Deyimində Süleyman Çələbinin doğulduğu yerin ahəngi var.

Mamluklular dövründə Misirdə yaşayan kıpçaq şairi Seyf Sarayının və azərbaycanlı şair Həsənoğlunun Xarizmin qəzəlinə bənzər yazmış olmaları, bu böyük şairin nə qədər tanınmış və güclü olduğunun bir ayrı dəlilidir.

Digər tərəfdən, Əlişir Nəvainin Orta Asiya türk musiqisində "Məhəbbətnamə" adlı bir bəstə olduğunu ifadə etməsi də, Xarizminin yazdığı şe'rlərin nə qədər sevilib bəyənildiyini göstərir.

Xarizmi adıyla tanınan bu iki atamızı rəhmətlə xatırlayırıq.



# XOCA ƏHMƏD YASƏVİ

(Piri Turküstan)

11-ci əsrdən e'tibarən Oğuz xalqından Selçukoğullarının Anadoluya yönəlmələri, Osmanoğullarının Avropaya girmələri sadəcə "qılınc gücü" ilə olmadı. Bu torpaqların fəthi, həqiqətdə könüllərin fəthidir.

Coğrafiyada məsafə tanımayan bir hərəkətliliyin təmsilçisi olan türk milləti, getdikləri hər yerdə bir "xilaskar" olaraq qarşılandılar. Xristian xalqları turklərin gəlişinə bir bayram havasında şənləndilər... Selçuk ordularının Urfaya hakim olmalarını, xristian tarixçilərinin dediyi kimi, xristianlar Tanrıya "Şükür ayinləri (dini təntənə)" ilə bayram etdilər.

Bütün bunlar nəyə görə belə olurdu? Çunki türklər, qılınc fəthindən əvvəl könülləri fəth edirdilər. Turkün fəth üfuqündə olan "qızıl almaya çatmaq üçün hərəkət edən türk orduları qarşılaşdıqları insanlara "öldürüləcək canlılar" kimi baxmırdılar, onları Allahın yaratdığı müqəddəs varlıqlar olaraq görürdülər. Yaradılanları Yaradandan ötrü sevir, 72 millətə bir gözlə baxırdılar... Beləliklə, min ildən artıq bir zamandır Qərb türklərinin Anadolu yaylağında var olmalarını, Bosnada "bir aypara uğrunda" insanların şirin canından keçməsinin səbəbi, türkün könül fəthiylə izah olunur.

"Əvvəl könüllərə girmək" prinsipinin türk şüuruna yerləşdirilməsi Xoca Əhməd Yasəvinin işi idi. Türklərdə "Təsəvvüf" yolunu başladan bu böyük insan, islam imanıyla daha da durulaşan millətimizin sevgi çaylarını bol-bol coşdurdu... Və türklər getdikləri yerləri bu çaylarla suladılar...

Türk fəth tarixində könüllərin qazanılmasında vəzifələrini yerinə yetirən iman ərlərinə "Xorasan ərənləri" deyirdilər. O Xorasan ərənləri bütün Türküstanın mə'nəvi xanı Xoca Əhməd Yasəvidən elm və dil almışdılar. Anadoluda Taptukun, Yunusun, Hacı Bektaşinin, Avropada Saru Saltukun sevgi çaylarının mənbəyi Xoca Əhməd Yasəvi olmuşdur.

Sadəcə türklərmi heyran idi bu Türküstan Sultanına? Farslar belə bu böyük türk günəşinə "Piri Türküstan" deyərək, haqlarını təslim etdilər ona.

Kimdir bu Xoca Əhməd Yasəvi?

Tarixçilərdən soruşsaq, belə deyərlər: Xoca Əhməd Yasəvi 11-ci əsrin axırlarında Türküstanın qərbində, Sayram qəsəbəsində doğulmuşdur. Əsl adı Əhməddir. Atası İbrahim şeyx idi.

Kiçik Əhməd yeddi yaşında ikən atasını itirmişdir. Böyük bacısı ilə birlikdə Türküstanın Yesi şəhərinə köçmüşdü. Sonradan bu şəhərin adı Türküstan adlanacaqdır. Bu şəhərdə Arslan Baba adlı bir türk tərəfindən qurulan bir təsəvvuf inamı var idi. Şəhərdə mə'nəvi iqlim hakim idi və Əhməd Yasəvi, insanı insan etmək, Allah eşqiylə yüksək səviyyəli insan olmaq və Allahın dünya üzərində bir görüntüsü olmaq kimi, bir sözlə, TƏSƏVVUF düşüncəsinin ilk bilgilərini bu şəhərdə aldı.

Daha sonra Buzarıya köçən Əhməd Yasəvi orada alim və sofi (dinin buyruqlarına uyan) Şeyx Yusif Hamedanın tələbəsi, müridi (inanılmış adam) və xəlifəsi oldu. Zaman içərisində şeyxinin "postuna" oturdu. Ona Turkusdanda (Yesidə) islamı oyandırma vəzifəsi verildiyi üçün, ilk təsəvvüf bilgilərini aldığı şəhərə döndü.

Əhməd Yasəvinin Yesiyə dönüşü Türk-islam mədəniyyətinin yeni bir səhifəsinin açılmasına səbəb oldu. Əhməd Yasəvi, Yesidə o böyük təriqətini (din və inanc xüsuslarında qurulan sistem) quraraq, türk könüllərinin Allah yolunda eşq atəşiylə yanmasına qeyrət etdi. Türklərin yaşadığı o ucsuz-bucaqsız çöllərə Əhməd Yasəvinin mə'nəvi iqlimi hakim oldu.

1166-cı ildə Yesidə ölən Əhməd Yasəvinin soyu onun qızı Govhər Şahnaz tərəfindən yaşadıldı. Gövhər Şahnazın övladları əsrlər boyunca Əhməd Yasəvinin nəvələri olmaq kimi bir qüruru yaşadılar. Bu yüksək insanın əsrlər sonrası Anadolu türklüyü içində yenə çox fərqli bir nəvəsi dünya çapında bir şöhrət oldu. Bu insan qiymətli səyahətnaməsi ilə məşhur olan Evliya Çələbi idi...



Əhməd Yasəvi gözəl türkcəsi və könüldən gələn ifadələriylə türklərdə təsəvvüf ədəbiyyatının ilk nümayə ndəsi idi. Şe'rlərinin yer aldığı Divan-i Hikmət, ondan sonra gələn təsəvvüf şairlərinə nümunə oldu... Yunuslar, Abdal Musalar, Hacı Bektaşilər onun kimi yazdılar və danışdılar.

Yasəvinin qurduğu təriqət, bir çox türk təriqətinə zəngin mənbə oldu, Xorasanda çıxan Heydərilik, Anadoluda inkişaf edən Babailik, Bektaşilik kimi... Bundan başqa, Nəqşibəndilik üzərində də Yasəviliyin tə'siri olduğu bilinir...

Bu böyük insan üçün ədəbiyyat tarixçilərinin verdiyi qiymət — ə'ladır.

Türk xalqı necə tanıyır, necə bilir Piri-Türküstanı? Dərhal ifadə etmək lazımdır ki, türklər tarixi həqiqətlərə və insanların dastanlaşdırdığı həyat hekayələrinə hörmətlə yanaşırlar. O kişi bir İslam böyüyüdür. Xoca Əhməd Yasəvi də böyüklüyünü Allahın evliyası olduğunu ifadə edir, kəramətlərlə, qeyri-adi davranışlarla bəzəyərlər onu. Bu vəziyyət, bir mə'nada, türklərin gözündə ucalmış bir şəxsiyyətin, xalqın xəyalında yaşamasının ifadə şəklidir.

Türk xalqının hafizəsində yer alan Xoca Əhməd Yasəvinin həyatı nəql olunurkən, doğulduğu yer yenə Sayram olaraq keçir. Arslan Baba, Şeyx Yusif Həmədanı yer alırlar onun həyatında... Fərqli olan, Əhməd Yasəviyə olan sonsuz sevgi və bağlılığını və onu fövqəl'adə hadisələrin qəhrəmanı olaraq göstərilməsidir. Belə vəziyyət təsəvvüf mədəniyyəti üçün təbiidir. Kəramət, xüsusiylə xalqın nəzərində, səmimi inamın təbii bir nəticəsi qavramına gəlmişdir.

Digər tərəfdən, türk xalqının könlündə yaşayan Əhməd Yasəvinin həyatı inanan insan üçün heç də həqiqətdən uzaq deyildir.

Bir cihad günündə peyğəmbərimizdən yiyəcək istəmişlər. Peyğəmbərimiz dua etmiş, Cəbrayıl da cənnətdən xurma gətirmişdir. Xurmalar yeyilən zaman bir xurma yerə düşmüş. Buna görə Cəbrayıl: "Bu xurma sizin türküstanlı hümmətinizdən

olan Əhməd Yasəvinin qismətidir," demiş və sevgili Peyğəmbərimizə Əhməd Yasəvinin xəbərini vermişdir. Bunun üzərinə Hz. Məhəmməd dərhal Arslan Babanı Çağırtdırmış və demiş ki: "Məndən sonra uşaq doğulacaq. O, hümmətimin seçkinlərindəndir. Get, onu tap və bu xurmanı ona ver."

Arslan Baba peyğəmbər tapşırığını aldıqdan sonra bütün dünyanı axtarmış və ən axırda Türküstanda yetim Əhmədi tapmış. Arslan Baba Əhmədə salam vermiş. Uşaq salamı alarkən "Baba, əmanətiniz hanı?" deyə soruşmuş. Arslan Baba çaşmış, "Haradan bilirsən?" — demiş, uşaq da "Baba, Allah tərəfindən bildirildi," deyincə Arslan Baba axtardığı uşağın bu olduğunu anlamış və ömrünün sonuna qədər Əhməd Yasəvinin müəllimi olmuşdur...

Əhməd Yasəvi əlinin əməyi ilə qazanıb yaşamışdır. İbadətdən artıq qalan zamanlarında taxtanı yonaraq qaşıq-çömçə düzəldərdi. Onları satar və yeməyini tə'min edərdi. Ona gələn çox sayda hədiyyələri kasıblara paylayardı. Əhməd Yasəvi, düzəltdiyi qaşıq və çömçələri bir öküzün belinə heybə ilə qoyar, bazara göndərərdi. Alıcılar heybədən aldıqları qaşıq və çömçələrin pulunu yenə heybəyə qoyardılar. Birisi pulunu verməsdikdə, öküz onu gözdən qoymaz və adam pulunu ödəyənə qədər arxasınca gedərmiş.

Əhməd Yasəvi cümə günləri Türküstandan Misirə gedər və Qahirədəki Ezher Məscidində cümə namazını qılar, eyni gündə Türküstana dönərmiş.

Bir gün Teymur xan Əhməd Yasəvini yuxusunda gördü və ondan qələbə sevinci aldı. Qələbəsi gerçəkləşincə Əhməd Yasəvinin qəbri üstündə möhtəşəm bir türbə tikdirdi. Bu türbə bütün görkəmiylə hələ də qalmaqdadır. Və Yesi şəhəri adətən bu türbə ilə tanınır. Teymur xanın tikdirdiyi bu türbə, daha sonra Özbək eli xanları tərəfindən tə'mir etdirilərdi.

Əhməd Yasəvinin türbəsi son zamanlarda Türkiyə Respublikası tərəfindən baxım və tə'mirə alındı. Bu türbə Özbək və bütün Orta Asiya türkləri tərəfindən tez-tez ziyarət edilir.



Məscid və dərgahı ilə görkəmli qübbələr Xoca Əhməd Yasəvinin ululuğuna yaraşan görüntülərdir.

Bu müqəddəs atamızı rəhmətlə xatırlayır, onun islama, Türklüyə etdikləri xidmətləri heç unutmayırıq.

## YİR ASTIĞA KİRDİM MUNA

*Ol küdirim kudret birlen nazar kıldı,*
*Hürrem bolup yir astığa kirdim muna.*
*Qarip bendeng bu dünyadın güzel kıldı,*
*Mahrem bolup yir astığa kirdim muna.*

*Zəkir bolup, şəkir bolup hakını taptım,*
*Dünya ukba həram kılıp yançıp tiftim.*
*Şeyda bolup, rüsva bolup cəndın öttim,*
*Bi-ğam bolup, yir astığa kirdim muna.*

*Şomluğumdın tağ'u taşlar sögti mini,*
*Fasih tilde söğüp aydı fi'ling kanı,*
*Aşık bolsang evvel barıp hakını tanı*
*Merhem bolup yir astığa kirdim muna.*

*Sizni bizni hak yaratt, tə'at üçün,*
*Ey bü'l-acep içmek yimek rəhat üçün,*
*Kəlü belə didi rühum mihnet üçün,*
*Edhem bolup yir astığa kirdim muna,*

*Nefsim mini köp yügürtti hakka baumay,*
*Kiçe-gündüz bi-gam yördüm yaşım akmay.*
*Həy u hevas mə vü menlik otka yakmay*
*Pür-ğam bolup, yir astığa kirdim muna.*

*Candın kiçip, mihnet tattım bendem didi*
*Kanlar yutup allah didim rahm eyledi.*
*Düzeh içre bolmasun dip ğamım yidi,*
*Hurrem bolup, yir astığa kirdim muna.*



*Yaşım yitti altmış üçke, bir künçe yok,*
*Və dirıgə haknı tapmay könglüm sınuk,*

*Yir üstide sultan min dip boldum uluk,*
*Şəkir bolup yir astığa kirdim muna.*

*Şeyh min diben da'və kılıp yolda kaldım,*
*Fes ü destar püçek pulga satıp kildim.*
*Nefs ü heva tuğyan kıldı barıp kaldım,*
*Bi-dem bolup yir astığa kirdim muna*

*Başım tofrak, özüm tofrak, cismim tofrak,*
*Hak vaslığa yıtar min dip rəhum müştək.*
*Köydüm yandım bola'lmadım hergiz afak,*
*Şebnem bolup yir astığa kirdim muna*

*Pir-i muğan nazar kıldı, şarap içtim,*
*Şibli yanaglığ sema urup cəndın kiçtim.*
*Sermest bolup il ü halkdın tanıp kaçtım,*
*Zemzem bolup yir astığa kirdim muna.*

*Kul Həce Ahmed npasih bolsang özüngge bol,*
*Əşık bolsang cəndın kiçip bir yolı öl.*
*Nədənlarga aytsang süzüng kılmas kabül*
*Muhkem bolup yir astığa kirdim muna.*

*XOCA ƏHMƏD YASƏVİ*
*("Divani Hikmət"dən...)*

# QAŞQARLI MAHMUD

*"İctimai dildə var idi zabt-ü üsul,*
*Bunlara düşmüş idi cümlə okul,*
*Türk dilinə kimsələr baxmaz idi,*
*Türklərə heç bir konül axmaz idi.*
*Türk belə bilməz idi bu dilləri,*
*İncə yolu ol ulu mənzilləri."*

*Aşıq Paşa* *

Turkcəmizi bir şe'r gözəlliyində, Orxun Bəngü Daşlarına naxış açan Yolluq Tiqindən sonra, türkcənin ən böyük vürğununun adı Qaşqarlı Mahmuddur... Gözəl turkcəmizin ilk böyuk lüğətini və dıl bilgisini hazırlayan boyük alimdir Qaşqarlı Mahmud...

Qaşqarlı Mahmud Qaşqarda doğulmuşdur. Atası Qaraxanlılarlı xan ailəsindən Hüseyin İbni Məhəmməd adlı bir bəy idi. Mahmud çox yaxşı yetişdi. Ərəb dilini mükəmməl bir şəkildə öyrəndı. Türk yurdunu başdan-başa gəzdi, dolaşdı, bütün xalqları, boyları tanıdı. İllər boyu türk obalarında dastanlar hekayələr dınlədi. Turk dilinin butün ağızlarını öyrəndi və öyrəndiklərini beyninə və könlünə naxış etdi. 1072-ci ildə "Divani-it TURK" adlı o möhtəşəm əsərini yazmağa başladı. İki il fasiləsiz çalışdı və 1074-cu ildə əsərini tamamladı.

Mahmud bu çox gözəl əsərını yazmaq uçün necə səy göstərdiyini belə nəql edir:

* Alım və mutasavvıf olan Aşıq Paşa, 13-cü əsrin sonlarında və 14 əsrin başlanqıcında Anadoluda kırşəhər mühitində türkcənin bayraqdarlığını edən bir könül əridir. 12 min beytlik "Qəribnamə" adlı əsərini duru bir türkcə ilə qələmə almışdır. Türk dilinin böyük bir dil olduğunu anlatmağa çalışmışdır.



"Mən türklərin ən düzgün danışan dillisini, ən açıq nəql edənini, ən doğru başa düşənini, sayca ən köklüsünü, mizraqdan ən yaxşısını istifadə edən savaşçısı olaraq, türklərin bütün şəhərlərini, çöllərini başdan-başa gəzdim, dolaşdım. Turkün, türkmənin, oğuzun, çigilin, yağmanın, qırğızın dillərini, geyimlərini öyrənib, faydalandım. Bütün türk boyunun dilini ən yaxşı şəkildə öyrəndim."

Qaşqarlı Mahmud bir ömür xərclədi və topladığı bilgiləri türkcə lüğət və dil bilgisi olaraq ortaya çıxartdı... Buna nə üçün ehtiyac hissi duydu? Bəli, o da çağının türkləri kimi, "hakim millət" olmağına verdiyi əhəmiyyətsizliklərlə, idarə etdiyi ərəb və farsların dillərinin inkişafına tamaşaçı olaraq qala bilərdi... Amma xeyr! O, bir dahidir, liderdir...

O, türkün böyukluyünü incə bir üslubla anlatmaq istəyirdi. O, Firdovsini tanıyırdı... Nə deyirdi Firdovsi? "Şahnamə"ni yazmaq üçün çox sıxıntı çəkdim, amma nəticədə də Fars millətini və dilini diriltdim..."

Qaşqarlı Mahmud turk dili bilgisini — türkcə lüğəti ərəbcə yazaraq, ərəblərin başı müsəlmanların xəlifəsi olan Muktədiyə verdi... Eynən Firdovsi "Şahnamə"sini Qaznəli Mahmuda verdiyi kimi...

Bağdadda turk dili oyrətməyə çalışmaq şuurlu turk hakimiyyətinin ən gozəl bir ifadəsi olmalıdır...

Qaşqarlı Mahmud bir mədəniyyət numunəsidir...

Bəlkə də bilirdi, eşitmişdi. 9-cu əsrdə Xəlifə Mutasımın ordusunda ıslamı yaymaq uçun bir çox çətinliyə qatlanan qəhrəman Afşin Bəyin, "Turk dilində kitab oxuduğu uçun" zəhərlənib öldürulduyunu

Ərəbcənin və farscanın qəti hakimiyyətinin olduğu bir dövrdə Xəlifəyə "Turk dili dərsi" vermək qəhrəmanlıq deyildir, bəs nədir?

1071-ci ildə boyuk Turk xanı Sultan Alparslan, Malazgirtdə "Divar-ı Rumun qapısını qılıncıvla turklərə açdı. Bundan 3 il sonra Qaşqarlı Mahmud turkcənin boyukluyünu sənədləş-

dirdi, həm də ərəb və fars dillərinin çox modda olan bir zamanında...

Qaşqarlı Mahmud deyilən türk igidi iki şeyə inanırdı: Türk milləti digər millətlərdən yalnız silah qüvvətiylə deyil, mədəniyyət baxımından da yüksək idi... O, bilirdi ki, o tarixlərdə xor görülən və kimsənin marağını çəkməyən türk dili, digər dillərdən heç də geri qalmırdı. Və Qaşqarlı Mahmud, bütün ömrünü bu həqiqəti açıqlamaq üçün xərclədi və nəticədə "DİVANİ LÜĞƏT-İT TÜRK" kimi hələ də çox maraqla incələnən bir şərəf abidəsi ortaya qoydu.

İlahi, nə möhtəşəm bir əsərdir o! Dünyadakı bütün türklərin evində olmalı bu kitab turkcənin bir çiçək baxçasıdır... O möhtəşəm əsərdə, türk ellərində xalqın dilində dolaşan və 2500 il əvvəldən gələn Alp Ər Tunqa dastanını tapa bilərsiniz... O illərdə, xalqın ağzında dolaşan eşq şe'rlərini, hekayələri və türklüyün əlçatmaz əzəmətini oxuya bilərsiniz...

İstər özbək, türkmən, azəri olaq, istər Anadolu turkü, istər qazax, qırğız, uyğur, tatar olaq... Qaşqarlı Mahmud atamızın bu böyük xidmətini minnətdarlıqla anmaq bizim üçün bir milli borcdur!

XÍ əsrdə Qaşqarlı Mahmudun bu çıxışı haqsızlığa bir üsyandır. Bu böyük türk aliminin öz üslubunda bir baş qaldırmasıdır... Həqiqətən, düşünmək lazımdır ki, elminlə, qüdrətinlə, comərdliklə müzəffər və hakim ola bilərsən, amma öz dilini deyil, sənə tabe olan millətlərin dilini irəli çıxararaq istifadə edəcəksən! Əlbəttə, bu bir haqsızlıqdır! Qaldı ki, türk dili bunu heç də haqq etməmişdi. Türkcənin mükəmməlliyi və türkün o çağdakı "əfəndi" vəziyyəti belə bir rəftara layiq deyildi! Qaşqarlı Mahmud bu həqiqəti kitabının giriş hissəsində belə izah edir:

**"Peyğəmbərimiz, türk dilini öyrəniniz! Çünki onların uzun sürəcək səltənətləri olacaqdır, buyurmuş... Bu hədis doğru isə, türk dilini öyrənmək vacibdir. Əgər uydurmadırsa o zaman ağıl bunu vacib etdirir..."**

Beləliklə, Qaşqarlı Mahmud türk dili kitabını ərəbcə yazaraq, Peyğəmbər buyruğunu yerinə yetirmək istəyənlərə kömək



olmağı qarşısına məqsəd qoymuşdu. Şübhəsiz, Qaşqarlı Mahmud səmimi və qatı bir müsəlman idi. Qur'ani-Kərim ərəbcə yazıldığı üçün bütün müsəlmanlar ərəb dilini müqəddəs bir dil olaraq qəbul etmək və ona hörmət göstərmək, mə'nəvi ədəb və tərbiyə gərəyi idi. Belə ki, Qaşqarlı Mahmud ərəb dilini istər elm, iman və istərsə də ədəbiyyat dili olaraq türk dilindən çox yüksək olan həyatı qarşısında üzüntü duyurdu, türk dili üçün bir haqsızlıq olaraq görürdü və kitabında belə deyirdi:

"Türk dili ərəb dili ilə qaçış atları kimi yarışa girə bilərdi..."

**XI** əsrdən bizə səslənən və türk dilinə sahid çıxmamızı istəyən bu alim atamızı heç unutmayacayıq.

"Gördüm ki, Uca Allah, dövlət günəşini türklərin bürclərindən doğdurmuş. Göylərdəki dairələri onların dövlətləri çərçivəsində döndürmüş".

Onlara türk adını özü vermiş, onları yer üzünün kağanı (xanı) qılmışdır. Əsrimizin xanlarını onlardan çıxarmış, bütün millətlərin cilovlarını onların əlinə vermiş və onları hər bir xalqa rəhbər etmişdir. Həqiqətdə onlara hər zaman kömək olmuş və onlara qatılanları, onlara xidmət edənləri əziz tutmuş, bütün arzularını yerinə yetirmişdir, belə kimsələri pisliklər şərindən qorumuşdur.

Oxların sancılmasından qoruna bilmək üçün, ağlı başında olanlara türklər ilə bərabər olmaqdan başqa çarə qalmamış.

Halbuki, onlara dərd dinlətmək və könüllərini qazanmaq üçün öz dilləriylə danışmaqdan daha gözəl vasitə yoxdur.

Hər kim onların dilinə sığırsa, onu özünkülərindən sayıb, hər cür təhlükədən qurtarırlar. Bunun üçündür ki, türk olmayanlar da türk dilinə sığınmaqda və bu yolla zərər və ziyanlardan qurtarmaqdadırlar.

*Qaşqarlı Mahmud*
*(Divani LÜĞƏT-İT TÜRK)*

# ZAMAHŞERİ

*"Ey ərəblər! Atalarınızın, babalarınızın dilini gəlin məndən öyrənin!.."*

Bir ərəbin və ya farsın öz mədəniyyət sahələrində gəncliklərini keçirib, sonra türk dilini bir türkdən daha mükəmməl bilməsi mumkündürmü? Deyəlim ki, bildi öyrəndi... Amma türk dilinin bütün incəliklərinə vəqf olması, bu dildə türk ədiblərini, alimlərinə heyran edəcək ölçüdə əsərlər verməsi, türk dilini bir türkdən daha gözəl şəkildə türklərə öyrətməsi mümkün ola bilərmi?

Tarix, belə bir insanın varlığına şahid deyildir...

Gələcəkdə də var olması bir xəyaldır...

Kim nə deyirsə desin, həqiqət bu ki, bir türkün ərəb dilini, fars və ya bir başqa dili, o millətin fərdlərindən daha mükəmməl şəkildə öyrənməsi və o dildə o millətə dərs verməsi mümkündür! Bu sözlərimiz millətimiz haqqında nə quru bir öygü, nə də bir şişirtmədir... Bu hal gerçəyin tam özüdür! Bu sözlərimizin doğruluğunu Əlişir Nəvaidən alaq, belə deyir türk millətinin o ulu şairi:

"Farslarla eyni həyat şərtləri altında yaşadıqları halda, türklər böyüklərindən kiçiklərinə, bəylərindən qullarına qədər fars dilini öyrənmişdilər. Hətta, türk şairləri fars dili ilə müxtəlif şe'rlər söyləyib, gözəl sözlər yaratdılar. Buna qarşı Sart milləti zənqinindən avamına, ulusundan aşağısına qədər, heç birisi türk dilində danışmazlar. Danışdıqlarının da mə'nasını bilməzlərmiş. Əgər yüzdə, bəlkə də mində biri bu dili öyrənib, danışsa belə, dinləyənlər onun təcrubəsiz olduğunu anlar və o öz dili ilə özünü gülünc vəziyyətə salar..."

Həqiqət budur!

Əlişir Nəvainin dediyi kimi: "Allah bu məzmunda türkləri fərqli yaratmış..."



Türk millətinin bu mövzuda görkəmli övladlarından birisi də Zamahşeridir...

Zamahşeri 1075-ci ildə Xarəzmin Zamahşer qəsəbəsində doğulmuşdur. Əsl adı Əbü'l Qasım Zamahşeridir... Uşaqlığından e'tibarən islami bilqilərlə zənginnləşdi. Ətrafındakı din alimlərindən dərs aldı. Gənc yaşda böyük bir din alimi oldu. Şöhrəti türk dünyasını aşdı. Ərəb dilini bir ərəbdən çox daha mükəmməl şəkildə öyrəndi. Çox gəzdi. Dəfələrlə Bağdada və Məkkəyə getdi. Bir müddət Məkkənin yaxınlarında yaşadı. Təfsir, Hədis, Müsəlman qanunu kimi İslami elmləri dərindən öyrəndi. Ərəb dilini elə mükəmməl, elə dərindən öyrəndi ki, ərəblər və bütün islam aləmi Zamahşeriyə heyran oldu. Bugün də hələ EL-KEŞŞAF adlı Qur'anın təfsirini ilgi, diqqət və heyranlıqla incələməkdədirlər. Bu təfsir, təfsir elmində yeni bir cığır açmış, bütün islam dünyasında öygü ilə qarşılanmışdır. Digər tərəfdən, bu təfsirdə zamahşerinin istifadə etdiyi incə, ədəbi, qıvraq üslub, bu türk oğlunun ərəblər tərəfindən ucaltılmasına səbəb olmuş, əsəri ərəb ədəbiyyatının klassikləri arasına girmişdir.

Zamahşeri sadəcə bir din alimimidir? Xeyr! O, bir o qədər də güclu bir şairdir... Belə ki, o da dövrunün tələbinə uyaraq, ərəbcə yazmağı üstün tutmuş... Ərəbcə Divanında türklüyə duyduğu heyranlığını və türk olmanın qururunu ən gözəl şəkildə anlatmışdır.

Zamahşeri "Mükaddimetü'l Ədəb" adlı əsərində: Oğuz, Qıpçak, Kanklı türklərin ləhçələri haqqında geniş tə'limatlar verir. Bu əsərdəki hər bir sətir, ərəbcə, farsca və xərəzm türkcəsi ilə yazılıdır. Yüzillər boyunca mədrəsələrdə dərs kitabı olaraq istifadə olundu. Zamahşeri bu əsərini Xərəzm şahı ATSIZIN tələbi ilə türk dilinə üstünlük verərək yenidən yazıb ona hədiyyə etdi.

Ərəblərə, "Atalarınızın, babalarınızın dilini gəlin məndən öyrənin" deyərək meydan oxuyan bu ulu türk, 1134-cü ildə Xarəzmdə, Curcaniyyə qəsəbəsində öldü.

Yüksək qabiliyyəti ilə millətimizə şərəf verən Zamahşeri atamızı qürurla xatırlayırıq.

"Sə'daya belə söylə:

Bizim sənə ehtiyacımız yoxdur. İri və geniş (ərəb gözləri) bizi çəkməz, çünki dar gözlər və dar gözlü türk gözəlləri bizi bizdən almışdır. Ağlımız, fikrimiz onlardadır, xəyallarımız, düşüncələrimiz onlarla doludur. Onlar baxdıqları zaman, yalnız gözlərinin qaraları görünür və güləndə bu qaralar da örtülüb, görünməz olurlar.

Türk gözəlləri, Allah onları kəm gözlərdən qorusun, ayın ondördü kimidirlər. Onların yolunda kisələr xərclənəcək və qızıllar veriləcək, üzlər bu üzlərdir. Türk gözəllərinin üzlərində insanı qəşş etdirəcək gözəlliklər vardır. Bunlardan dolayı başqa gözəllərə baxmayın, gözlərinizi bu türk gözəllərinə çevirin.

Allahın yaratmış olduğu neçə incə gözəlliklər bunlardadır. Belə ki, adam onlara baxdıqca, Allahın qüdrətinə və qüvvətinə heyran olur..."

*Zamahşeri*



## ÇİNGİZ XAN

Türk-Monqol imperiyasının qurucusu Çingiz xan 1155-ci ildə Onan çayının sağ sahilində yerləşən Dülün-Boldaqda doğulmuşdur. Əsl adı TİMURÇİNDİ. Monqol bəylərindən Yesüqey Bahadırın oğlu olan bu fövqəl'adə döyüşçü həqiqətən fövqəl'adə işlər gördü...

Atası Yesüqey Bahadır 1167-ci ildə öləndə Timurçin hələ 12 yaşında idi. Anasının zəkası və tədbirləri sayəsində bir zamanlar atasının idarə etdiyi oymaq dağılmaqdan qurtarıldı.

Timurçin böyüdükcə liderlik qabiliyyəti də inkişaf edirdi. Gəncliyi boyunca qüvvətli və intizamlı bir ordu qurmaq üçün gecə-gündüz çalışdı. Zaman-zaman çox böyük sıxıntılar içinə duşdü. Gün gəldi, tək başına qaldı. Amma heç bir zaman ümidsizliyə düşmədi. Polad bir iradə, bitməz, tükənməz bir əzmlə "qüvvətli bir ordu qurmaq" xəyalını addım-addım gerçəkləşdirdi. Təkbaşına böyük bir ordu qurdu. Yenə də öz cəhdiylə o zamanlar dünyasının yarısına hakim oldu və ÇİNGİZ XAN olaraq tarixə keçdi.

Əlli yaşına qədər ətrafındakı boyları buyruğu altına almaq üçün döyüşdü. Nəticədə Türk-Monqol boylarını suverenliyi altına aldı.

Roy bəyləri tərəfindən bir qurultayda Timurçin Qaraqumun taxtına Xan seçildi. Beləliklə Türk-Monqol imperiyasının əsası atıldı...

Timurçin 1206-cı ildə Naymanlara hücum etdi. Qazandığı qələbədən sonra ona Çingiz adı verildi. Çinlilər ona "Göylərin oğlu" deyirdilər. Bütün Türk-Monqol oğulları onu göydən müqəddəslik almış olaraq görürdülər.

Zəka, ağıl, cəhd və tədbir... Bütün bu üstün insan xüsusiyyətlərini daşıyırdı Çingiz xan. O, sadəcə yaxşı bir döyüşçü deyil, çox yaxşı bir adət-ən'ənə — qanun tərafdarı idi. Rəhbərlik mövzusundakı görüşləri maraqlı və sadə xüsusiyyətlər daşıyırdı. Bu mövzuda ölkələr fatihi Çingiz xan belə deyirdi:

"Evində qayda-qanunu saxlayan bir kimsə, dövlətdə də saxlaya bilər. On kişiyə mükəmməl şəkildə komandirlik edən birisi min və ya on min kişinin də komandirliyini edə bilər..."

Həqiqətən Çingiz xan bu sözlərlə adətən özünü anladırdı. Oymağında necə kiçik bir ailə böyüyü kimi uğurlu olmuşdursa, imperator olduqda da eyni uğuru əldə etmişdir.

Çingiz xanın ilk fəth etdiyi ölkə Çin oldu. Çini bütün almaq üçün illərcə savaşdı və nəticədə imkansız olanı bacara bildi, 1215-ci ildə Pekini aldı. Bu inanılmaz qələbədən sonra bütün Orta Asiya Çingiz xanın buyruğu altına girdi. Uyqurlar, Karluklar, Qara-Hitaylılar Çingiz xanın buyruğunu dinləməli oldular.

Gün gəldi qərbə tərəf yönəldi, Xarəzm dövlətini yıxdıqdan sonra Qara dənizə qədər gəldi. Qara dənizdən Çin dənizinə qədər ucsuz-bucaqsız bir ölkənin sahibi oldu.

Çingiz xanın sağlığında hər biri bir ordu komandiri olan oğulları: Cuci, Çiğatay, Ugedey, Tuluy işğal etdikləri olkələri atalarının adından idarə edirdilər. Çingiz xan öz yerinə oğlanları arasında ən ağıllısı olaraq gördüyü Ugedeyi vəliəhd olaraq seçmişdi. 1227-ci ildə öldüyü zaman oğullarının hər biri hakim olduqları torpaqlarda ayrı-ayrı dövlətlər halında təşkil oldular. Cuci Çingiz xan sağ ikən olmuşdu. Ancaq onun oğlu Batı xan türk tarixində Qızılordu və qızıl kimi bir səhifənin yazılmasını tə'min etdi. Digər tərəfdən ÇIĞATAY Türküstan muhitinə hakim oldu və bu muhitdə yeni əmələ gələn ləhçəyə çığatay ləhçəsi deyildi. Ortaya çıxan mükəmməl ədəbiyyata çığatay ədəbiyyatı adı verildi. Çingiz xanın nəvələrindən Ülaqü İranda İlhanlılar dovlətini qurdu.

Dunya hakimi, yenilməz döyüşçü Çingiz xan qoyduğu qanunlarla yüzillər sonra da xatırlandı.

Orta Asiyanın bu qəhrəman türk övladını biz də qürurla xatırlayırıq.



ÇİNGİZ XANIN QANUN NİZAMNAMƏSİNDƏN

— Kainatın yaradıcısı tək bir Tanrıdır. Bu Tanrı üçün ediləcəkdir.

— Çingiz xanın erkək soyundan olmayan kimsə özünü xan e'lan edə bilməz. Erkək soyundan gələnlər ancaq qurultay qərarı ilə xan ola bilərlər.

— Düşmən təslim olmayınca onlarla süllı müqaviləsi imzalanmamalıdır.

— Ordu yüz, min, on min nəfərlik kütlə halında olmalıdır. Silahları qoruyan muvəkkil zabit əsgərlərə silahları oz əliylə təslim edər. Əsgərlər silahlarını qışda ova getmək üçün ala bilərlər.

— Saray və orduya qışda yemək tapmaq uçun xalq mart ayından may ayının əvvəlinə qədər ceyran və ona bənzər heyvanlar ovlayar.

— Heyvanların qanı və bağırsaqları yeyilə bilər.

— Döyüşə getməyənlər abadlıq işlərində çalışmaq məcburiyyətindədirlər. Bundan başqa həftədə bir gün xanın xidmətində olmaq məcburiyyətindədirlər.

— Oğurlanan əşyalar qiymətlidirlərsə, oğrular e'dam edilirlər, əşya əhəmiyyətli deyilsə, oğruya yeddi və ya yeddiyüz dəyənək vurulur. Oğurlanan malın doqquz qatı mal verənlər dəyənək cəzasından qurtarırlar.

— Zina edənlər e'dam olunurlar. Zina edən günah zamanı yaxalanırsa, yaxalayan şahid onları öldürə bilər.

— Casuslar, yalançı şahidlər, homoseksualistlər, sehirbazlar və cindarlar e'dam olunurlar.

— Zimmətinə pul keçirən mal mə'murları e'dam olunurlar. Əgər ihtilas kiçikdirsə, Xanın hüzuruna çıxardılırlar..."

# MÖVLANA

*"Hər nə qədər Farsca danışıramsa da, əslim türkdür!"*

Mövlana... Ulu türklərin (Türküstanın) Anadoluda parlayan günəşi... Sözüylə, sazıyla, oyunuyla, İslam imanını bir gözəl üslub ilə könüllərə işləyən sevgi əri...

Onun üflədiyi neydən çıxan səs e'lanı eşqin çığlıqlarıdır.

Onun işıq ətrafında fırlanan kəpənəklər kimi səması, Yaradana olan sevgisinin Mövlanaca bir ifadəsidir.

O, ulu türk elinin Anadoluya ən gözəl bir hədiyyəsidir.

O, bir alim-filosofdur, o bir şair, bir ibadət çırağıdır.

Qəhrəmanların dolu dizgin qaçdığı, ərənlərin çiçək ilə, ney ilə danışdığı çağda Anadoluda idi; o, bir könüllər sultanıdır...

Mövlana... düşüncəsiylə, fəlsəfəsiylə, islamın insana baxışını qanadlandırıb, dünyanın dörd tərəfinə uçurdan; kafirinə, büdpərəstinə barmaq dişlədən bir ulu hünər sahibidir...

30 sentyabr 1207-ci ildə, hal-hazırda Əfqanıstan torpaqlarında olan Belhdə dünyaya gəldi. Atası dövrün böyük din alimlərindən Bahaəddin Vələd idi. Mövlana Cəlaləddinin anası Xarəzm şahlarının xan ailəsindən gələn Mümine xatun idi...

Bir türk oğlu olan Mövlana beş yaşında ikən atası ilə bərabər, bir türk şəhəri olan Belhdən ayrıldı. İrana, Bağdada, Hicaza uğradıqdan sonra Anadoluya gəldi.

Mövlana və atasının Anadoluya gəldikləri zamanda Anadoluda Oğuzların kınık boyundan sürüb gələn Səlçuklulardan, Kutalmış oğullarının qurduğu dövlətinin ən böyük xanı var idi. O böyük xanın adı Əlaəddin Keyqubad idi... Əlaəddin Keyqübad Mövlananın atası Bahaəddin Vələdin nə qədər böyük bir alim olduğunu bilirdi. Onu Konyada böyük bir sayqıyla qarşıladı.

Mövlana istər bu uzun yolçuluqda, istərsə də Anadoluda bir çox şəhər gördü. Karamanda Səmərqəndli bir ailədən olan Cövhər xatun ilə evləndi. Hələ 21 yaşında olan Mövlana alim atasının yanında çox mükəmməl təhsil aldı. Atası Konyada öldükdə, onun tələbələrinə dərs verəcək bir təcrübədə idi.



Mövlana, Konyada ətrafına toplanan adamlara müraciət edərkən onları aydınlıq üfüqlərə aparır; hər kəsi heyran edirdi. Səlçuklu anadolusunun paytaxtı Konya Mövlana kimi alim ilə daha da məşhurlaşdı. Xüsusilə atası və onun tələbələrindən Seyid Burhanəddin Tirmizidən aldığı bilgilərlə Mövlana çoxdan dolmuş və hətta daşmağa başlamışdı. 37 yaşına qədər böyük bir İslam alimi olaraq məşhurlaşdı. Təbrizli Şəmsin Konyaya gəlməsi və Mövlananın Şəms ilə tanış olması böyük alim Mövlananı böyük bir könül adamı etdi. Mövlana, tasavvüf (dinlə əlaqəli) düşüncələrini yorulmadan şe'rə tökdü, neydən üflədi. O, artığ ətrafıyla, şe'rlə danışırdı. Ney ilə xəbərləşirdi, səma ilə görüşürdü. O, artıq ibadət dəryasında yelkənləri rüzgar ilə dolu bir gəmi idi...

O, elə gözəl danışırdı ki, xristian, müsəvi, atəşpərəstlər; hər kəs Mövlanaya heyran qalırdı.

Sevdiyi müridlərindən (inanılan adam) biri olan Çələbi Hüsaməddin Mövlanayı kitab yazmağa məcbur etdi. Mövlana söylədi, Çələbi Hüsaməddin qələmə aldı.. Beləcə bütün dünyanın heyran qaldığı MƏSNƏVİ əmələ gəldi...

Mövlana 17 dekabr 1273-cü ildə Konyada öldü. Məzarı Konyada Mövlana türbəsindədir. Əsərləri arasında olan Məsnəvi, bütün islam dünyasında heyranlıqla oxunur. Mövlana, əsərlərini dövrün dəbinə uyğun gəlmək üçün farsca yazdı. Amma özünün türk olduğunu xüsusiylə söylədi:

"Hər nə qədər farsca yazıramsa da əslim türkdür..."

Məsnəvidən başqa, "Divan-i Kəbir", "Kifi Marih", "Məktubat və Mecalis-i Seba" adlı əsərləri də vardır.

Mövlana dünyanın tanıdığı ən böyük islam düşünürlərindən biridir. Onun düşüncələri üzərinə qurulan Mövləvilik sistemi isə yenə dünya çapında bir sistemdir.

Mövlananın fikirlərinin yaşadılmasında oğlu Sultan Vələdin böyük əməyi var. Mövlananın soyu bu gün də davam edir.

Mövlana xüsusilə insanı ilahi eşqə layiq bir varlıq olaraq qavradı. İnsanın belə uca bir eşqə layiq ola bilməsi üçün onun iman, əxlaq və ibadətlə çalışması lazımdır. İnsan uca Tanrını sevdikcə, onun buyruqlarını tutduqca, pisliklərdən uzaqlaşdıqca Uca Tanrı da o insanı sevər... Beləliklə, Mövlana, bu uca sevgiyə, Allah sevgisinə gedən yolda insanlara öyüd verib, onları Allah sevgisində birləşdirmək istədi, butun insanları bir tutdu. Xoşgörü ilə səsləndi. Bu səbəblərdir ki, o öldüyü zaman cənazə təntənəsinə Konyadakı bütün müsəlmanlar yanında xristianlar, müsəvilər də qatıldılar.

Şöhrəti dünyanı bürüyən bu dahi atamızın ruhu şad olsun!..

BİLQİ QÜVVƏTDİR

"Bilqi, Süleyman mülkünün möhrüdür, butun aləm surətdir, elm rahtur.

Bu hünər üzündən dənizlərin, dağların, ovaların yaradılmışı insan oğluna qarşı aciz qalmışdır.

Ondan kaplan da, aslan da siçan kimi qorxurdular. Ondan böyük çayların timsahları belə qorxaraq titrər.

Ondan pərilər, zəbanilər kənara qaçar, hər biri gizli bir yerdə məkan tutar.

İnsanın gizli düşməni çoxdur, tədbirli insan ağıllıdır.

Yaxşı və pis neçə gizli varlıqlar vardır, hər dəqiqə könül qapısını çalıb dururlar.

Qəflətdən gələn səslərin iztirabları minlərcə adamdan gəlir, bir adamdan deyil.

Şübhə edirsənsə səbr et, duyğuların dəyişincə onları görəcəksən və müşkül həll olunar. O vaxt kimlərin sözlərini rədd etdiyini, kimləri özünə baş olaraq gördüyünü anlayacaqsan.

*MÖVLANA*



# HACI BƏKTAŞİ VƏLİ

*"Bir olaq, diri olaq, iri olaq..."*

*Könüllər ümidi, yollar qovşağı*
*Bir mənzilə yetişsəm, öpsəm əlini,*
*Qırx verənli Hünkar Bəktaşi sünbülü,*
*Saltuk Ağam! Desəm, öpsəm əlini!..*

Bolqarıstanda, Rumıniyada, Üsküpdə, Bosnada və türkün Avropada ayaq basdığı hər yerdə Sarı Saltukun hələ də könüllərdə yaşayan hekayələrini dinləmiş olarsınız...

Sarı Saltuk əfsanələr ilə hörülü həyatıyla Avropa türkünün kafir önündəki islam qılıncıdır!

Sarı Saltuk Hacı Bəktaşi ocağının könül sacında cüt qovrulan canlardandır!

Bugün Balkanlarda, Adriatik sahillərində alınan nəfəs, Hacı Bəktaşi nəfəsidir! Yüksələn səs onun səsidir!

Sadəcə Sarı Saltukmu? Hacı Bəktaşi sunbülü üçün biz söz gəlişi "qırx verənli" dedik! Daha neçə Hacı Bəktaşi ocağından fərmanlı, ağzı dualı ərlər ilə könüldən fəth edildi o qoca Rum eli!

Şair nə gözəl demişdir: "Rum elinin sahilini dəst-i Allah rzası üçün almışıq".

Hacı Bəktaşi Vəli, Orxan Qazidən bəri şövq verir Yeniçəriyə!

1444-cu ildə Varnada, bir sonra Kosovada ordu hissəsində özünüzü sayın. Murad xan hüzurunda səf-səf duran Yeniçəri böyüyünü seyr edin...

Yeniçərinin xərcliyi verilmişdir... Və Yeniçəridən yüksələn bu səsi dinləyərsiniz:

*"Allah! Allah!*
*Eyvallah!*
*Baş çıplaq, sinə açıq, qılınc yalın.*
*Bu meydanda neçə başlar kəsilir, olmaz ki, soran!*
*Eyvallah! Eyvallah!*

*Üzülməyimiz, qılıncımız, düşmənə ziyan!*
*Qulluğunuz padişaha ayan!*
*Üçlər, yeddilər, qırxlar!*
*Gülbangı Məhəmmədi, Nuru Nəbi, Kərəmi Əli,*
*Pirimiz Hacı Bəktaşi Vəli!*
*Gerçək ərənlər dəminə, dövranına*
*Hu deyək, huu!*
*Eyvallah!..”*

İndiki zamanda, 21-ci yüzilin astanasında Anadoluda və bütün türk ellərində Hacı Bəktaşinin sözləri dolaşır... Yolunun fəziləti dilə gəlir:

— “Bir olaq, diri olaq, iri olaq!..”

— “Elinə, dilinə, belinə sahib ol!”

Dedikləri bu Hacı Bəktaşi Vəli kimdir?

Verdiyi ruh və şüurla ordu quran, yolu, öyüdü hələ könüllərdə duran bu Hacı Bəktaşi Vəli kimdir?

İzləsək öz mənbəmizə gedərik; Ulu türklərin Türküstanda taparıq ayaq izlərini!

Oraya çatıb soruşduğumuzda bir ağsaqqal qoca belə deyir: “Hacı Bəktaşinimi soruşursunuz? O, Buxara Nisaburludur. Qardaşlarımızdan bir bölümü Rum diyarını fəth etməyə getdiyində o da könüllü olaraq, könül fəthinə çıxdı onlarla...”

Türk birliyinin sirri açılacaqdır! Demək, qərb türklərinin içində dolaşan zaman dilimində parlayan, bə’zi zamanlar bərəkətsiz ruhlara islam çayı olaraq çağlayan Hacı Bəktaşi Vəli türklüyün bir nişanəsidir! Demək, Buxaralı Hacı Bəktaşi eyni sayar Anadolu türkünü, şərqin türküylə! Demək, Yasəvidən bəraat olan Hacı Bəktaşi qardaş sayar bütün türk xalqlarını!

Bu üzdən hələ də yanqılı səslər çıxarar onun sözləri türk dünyasında:

*— “Bir olaq, diri olaq, iri olaq!..”*
*Heey, Hacı Bəktaşi Vəli!*
*Heey, Yasəvi cerərağı, Xorasan əri!*



Biz bütün türk xalqları, sənin idealını düşünməkdəyik! 21-ci əsrə girərkən Türkmən, Qırğız, Qazax, Azəri, Özbək, Uyqur, Tatar və daha bir çox türk xalqları, qardaş olduğumuzu hamımız bilirik!

Eyni atanın, eyni babanın övladlarıyıq, soyumuz birdir!

*Eyni dilin kimsələriyik, inancımız birdir!*
*Eyni dili danışırıq, sözümüz birdir!*
*Bax onun üçün diri olacağıq,*
*Bax onun üçün iri olacağıq!*
*Heey, Hacı Bəktaşi Vəli!*

Həyata keçiririk qeyrətində gizli olan diləyini.

XI əsrin əvvəllərində Orta Asiyadan türkün bir hissəsi qopub Rum diyarına yönəldi... Qorxusuz döyüşçülər idi onlar. Anadolu deyilən bu torpağa türkün möhrünü vurdular! Türk çerisi yalnız deyildirlər, yanlarında, önlərində ağzı dualı Xorasan ərənləri var idi. Və torpağ ilə könül bərabər fəth edilir! Əhməd Yasəvinin buyruğu ilə yola çıxan Əmir-i Çin Osman Bozok yaylasına gələrək məskunlaşır... Mövlana Konyaya gələrək, şəhərlilərin könül tellərini titrədir... Çöllərimiz boşmu qalacaq? Xorasanın Nişapur kəndində doğulan Hacı Bəktaşi onlara səslənir...

Beləliklə, ancaq qılıncıyla deyil, İslamın anlatılmasını tam könlüylə bilən könül ərləriylə fəth edər, Vətən edər Anadolunu türk!..

Orta Asiyadakı türk xalqlarından bir hissəsi olan Anadoludakı bu döyüşçü türklər, yeni yurdlarında qarşılaşdıqları hər kəsi Allahın yaratdığı xoşbəxt bir varlıq olaraq görürlər! Bax, türk əsgərini belə düşündürənlərin biri də Hacı Bektaşi Vəlidir.

Əhməd Yasəvinin tələbələrindən olan Loğman Parendənin əlində yetişib bişənlərdəndir. Bəktaşi İslamın könül alışdıran

çırağını əlinə alaraq, Anadoluya qaçır... Amasiya, Kayseri, Sivas uğradığı şəhərlər arasında. Sonra, indi Hacı Bəktaşi deyə bilinən və o zaman Suluca Qaraböyük deyə anılan yerdə qərar verir... Anadolunu anlatmağa başlayır və türk könüllərinin sultanı olur.

XIII əsrdə Suluca Qaraböyük çöllərindən sevgi, qardaşlıq, birlik səsləri yüksəlir və günümüzə qədər gəlib yetişir.

İntizamsızlıq içində olan XIII əsrin Anadolusu Hacı Bəktaşi Vəli nəfəsiylə sakitləşdirilir...

XIV əsrin əvvəlində, Osmanlı ucalığı başladıqdan sonra, Bəktaşinin susmayan səsi, sevincli nəfəsi dövlət qapısından içəri girdi və osmanoğluna yol göstərdi. Onun ocağının şövqü Yeniçərinin könlünü aydınlatdı. Bu eşqə Yeniçəri, "Qızılalma" harda isə, oraya qədər yorulmadan gedər...

Hacı Bəktaşi Vəli, Fatihə, Bismilla təfsirlərindəki kimi, bir çox əsərlərində oxumuşlara səslənir...

Onun səsində yaxşılıq, elm, xoşgörü, birlik əks-səda verir...

Onun yolunda, elə-belə dilə xəyanət olmaz!

Onun üfüqündə, Yasəvi otağında olduğu kimi kadın ucadır.

Hacı Bəktaşi Vəli bir iman, e'tiqad, ibadət, əxlaq, irfan, fəzilət, şəriət, təriqət, hikmət əsgəridir.

O, islamı başa salan bir türk səsidir! Türk könüllərinin nəfəsidir!

O, bir Buxara şitilidir, Anadoluda yaşardı!..

O, Türk xalqlarının birlik nişanəsidir.

Hacı Bəktaşi Vəli, Xoca Əhməd Yasəvi atamızın Anadoluya bir hədiyyəsidir!



# YUNUS ƏMRƏ

*"Gəlin tanış olaq, işin asandından tutaq,*
*Sevəyin, seviləyin dünya kimsəyə qalmaz".*

Kim demiş ulu türk eli (Türküstan) Anadoluya uzaqdır?
Biz, hər an ulu türk elinin havasını alırıq...
Könül bulaqlarımızın qaynağı oradır.
Anadolu — ulu türk elindən el almış, dil almış könül ərlərinin otağı.
Zaman, məkan nədir ki?
Yasəvi dərgahından el və yol alan Emir-i Çin Osman Gələr, məkan edər Bozok yaylağını.
"Osman Paşa" olur adı!
Yasəvi bulağının suları əvvəl Xorasana yol tapar,
Sonra axar Anadoluya, sulayar başdan-başa!
Çiçəklər bitər; Tapdıq, Bəktaşi, Yunus adlı...
Alp-Ərənlər dolaşar,
Yasəvidən fərmanlı!
Kim demiş, ulu türk eli (Türküstan) Anadoluya uzaqdır?

Bir sevgi çağlayanı... Sülhün, qardaşlığın, duru imanın ifadəsidir O... İslamın özünü türk könüllərinə işləyən naxış ustasıdır O... Turk dilinin ən cəzbedici gözəlliyilə şe'r söyləyən bir qoca türkmən idi O!

*Adı — Yunus Əmrə!*
*Şe'ri dillərdə,*
*Eşqi könüllərdə..*

Kimdir bu Yunus Əmrə? Gəlin, onun həyatını və dünyasını seyrə çıxaq.

Mən deyim 1241, siz deyin 1242... Anadoluda, kimə görə Sarıkənddə, kimə görə də Karamanda Yunus adlı bir uşaq gəlir dünyaya... O, söz və dil meydanında necə hünərlər göstərir; Yaradanın eşqiylə qovrulur və sonra könüllər alışdırır.

Sözü tarixçilərə, ədəbiyyat tarixçilərinə versək, deyəcəklər: Yunus Əmrə, çox yaxşı təhsil və tərbiyə gördü. Ərəbcə və farsca bilirdi. İslam tarixini öyrənmiş, mükəmməl bir təhsil almış, ibadətdə neçə yollar aşmış, könüllərdə taxt qurmuş bir şair idi...

Bunlar doğru şeylərdir...

Yunus könüllərdə taxt qurduğuna görə, onu ancaq könlündə taxt qurduğu insanlar, xalq başa sala bilər. Baxaq görək, xalqımız necə nəql edir o könül sultanını:

Anadoluda, Əhməd Yasəvidən könül yolu almış Xorasan ərənlərindən dolub daşdığı, Mövlananın, Hacı Bəktaşi Vəlinin və daha neçələrinin məkan etdiyi bir çağda. Sivrihisarın şimalında Sarıkənd deyilən bir yerdə Yunus adlı kasıb bir kəndli yaşayırdı...

O zamanlar qorxunc bir qıtlıq oldu: tarlalar buğda vermədi, baxçalar, bağlar qurudu... Yoxsul Yunus dərdli idi; evdə uşaqlar ac qalacaq... Yeməyə buğda tapmalı idi, amma necə və haradan?

O sırada Hacı Bəktaşi Suluca Qaraböyük deyilən yerdə pay dağıdır, nəfəs verirdi. Onun söhbətinə Anadolunun dörd bir tərəfindən insanlar gəlirdi, könülləri xəzinələrlə dolu olaraq dönərlərdi...

Yoxsul Yunus da bundan xəbər tutmuşdu...

— Hacı Bəktaşi qapısına gələni boş qaytarmırmış!"

Yunus belə fikirləşir: "Gedim, halımı danışım ona. Həlbət mənə də bir şey verər, mən də uşaqlarımın qarnını doyuzduraram... "

Bu düşüncələrlə arabasını hazırlayar, öküzünü qoşar, yola çıxar. Eee... Əliboş getmək olmaz:

Dağdan alıc (meyvə ağacı) toplayıb, arabasına yükləyərək, düşər yollara...

Hacı Bəktaşinin hüzuruna çıxaraq vəziyyətini başa salır, hədiyyəsini verir, sonra da buğda istəyir... Hacı Bəktaşi Yunusu



gördükdə, onun könlünün yeddi verən sevgi güllərinin bitəcəyi bir baxça olduğunu başa düşür. "Buğda yerinə sənə nəfəs verim" — deyir... Yunusun ağlı evdəki ac uşaqlarında idi və tə'kidlə buğda istəyir. Hacı Bəktaşi Vəli də Yunusun arabasını buğda ilə doldurub yola salır.

Yunus Hacı Bəktaşi durağından biraz uzaqlaşdıqdan sonra səhv etdiyini başa düşür: "Buğda yeyilincə qurtarır, amma nəfəs heç tükənməz!" Bu fikirlə geri, Hacı Bəktaşinin qapısına dönür... Bu dəfə Hacı Bəktaşi belə deyir: "O iş bundan sonra olmaz. Biz o kilidin açarlarını Tapdıq Əmrəyə verdik, get ondan al..."

Yunus, buradan ayrılaraq arabasını Tapdıq Əmrənin qapısına sürür... Və onun huzuruna gələrək Hacı Bəktaşinin sözlərini ona çatdırır... Tapdıq Əmrə deyir: "Halın bizə mə'lumdur, ancaq bizə xidmət et, əmək yetir, sonra da nəsibini al..."

Yunus tam otuz il Tapdıq dərgahına xidmət edir... Özü də elə bir xidmət ki, hətta dərgahın yanındakı dağdan odun daşıyan zaman, gətirdiyi ağacların əyri olub-olmamasına belə diqqət edir. Soruşanlara da belə deyir: "Bu qapıdan içəri odunun belə əyrisi girə bilməz!"

Vaxt gəlir, şeyx Tapdıq Əmrədən izin çıxır, Yunusun könül kilidi açılır, dili çözülür, hikmət dənizindən neçə incilər saçılır...

O artıq kamil bir insandır. Mənlik əngəlini aşmış, gerçək insanlığa çatmışdır. O, Haqla bir yerdədir gecə-gündüz. Yaradılmışların ən şərəflisi olan İNSAN Yunus Əmrə üçün ucadır, xoşbəxtdir. Bu "ölümlü dünyada" yaşayan insanın insana pislik etməsi, insanın könül sındırması Yunusa görə qınanır, şe'r oxunun hədəfi olur.

Yunus, keçdiyi yolda artıq Yaradanın bir parçası olmuşdu. İnsanın, etməsi lazım olan ibadətlərə sığınıb, haqq yeməsi, könül incitməsinin qorxuncluğunu Yunus ən açıq dillə başa salır. Həm də xam sofuların, İslamı şəkildə axtaranların qınamalarına, hücumlarına əhəmiyyət vermədən...

Qoca Yunus çox şeylər demişdir. Baxaq gorək nələr demişdir...

*Bir dəfə könül yıxdınsa,*
*Bu, qıldığın namaz deyil,*
*Yetmiş iki millət daxil,*
*Əlin-üzün yuyan deyil.*

Könül incitmənin nə qədər pis olduğunu başa salan Yunus, bu yolda belə deyir:

*Könül cənabın taxtı,*
*Allah könülə baxdı.*
*İki cahan bədbaxdı,*
*Kim könül yıxar isə.*

Və dönər özünü bilməyənlərə səslənərək deyir o qoca türkmən:

*Elm elmi bilir,*
*Elm özünü bilir.*
*Sən özünü bilməsən,*
*Bu necə oxumaqdır?*
*Oxumaqdan mənə nə,*
*Kişi haqqın bilməkdir*
*Çünkü oxuyub bilməsən,*
*Bu necə oxumaqdır?*
*Oxudum, bildim demə,*
*Çox təat qıldım demə*
*Ər haqqı bilməsən,*
*Əbəs yerə yelməkdir.*

Yunus davadan uzaqdır. Onun işi könülləri sevgiylə, xoşgörüylə doldurub, insanı Yaradanın istədiyi yolda ucaltmaqdır.

*Mən gəlmədim dava üçün,*
*Mənim işim sevgi üçün.*
*Dostum evi konullərdir,*
*Könüllər yaratmağa gəldim.*

Yunus Əmrəmiz zahiri elmlərlə məşqul olaraq təkəbbürlənənlərə ox atmaqdan geri qalmaz.



*Dostur bizi oxuyan,*
*Üstümüzə banlayan,*
*İndi üç yarım oxuyan,*
*Dərin məsləhətçi olur...*

O, insan sevgisiylə doludur. Hansı millətdən olursa-olsun, Yunus üçün insan ucadır, xoşbəxtdir.

*Bütün yaradılmışlara*
*Bir gözlə baxmayan*
*Xalqa müəllimdirsə*
*Həqiqətdə üsyançıdır.*

XIII və XIV əsrlərdə yaşayan sevdiyimiz Yunus Əmrəmizin harada öldüyü qəti olaraq bilinməyir. Əslində bunun heç bir əhəmiyyəti yoxdur. Onun məzarı istər Karamanda olsun, istər Sarıkənddə... Əslində onun yeri bütün könüllərdədir...

Yasəvi mənbəli çayların suladığı Anadoluda göyərən Yunus Əmrə çiçəyi bir türk və İslam gözəlliyidir.

Biz bu gözəlliyi çox sevirik!

Bütün həyatımızda onun izləri vardır... Dünənki Osmanlı əzəmətli, yetmiş iki millətə bir gözlə baxmışsa, bu baxışdakı şüurun olmasında Yunusun fikir təməlləri, ulu türklərin (Türküstan) piri Yasəvi hikmətləri vardır.

İslamın bir gözəl izahatıdır Yunus Əmrə...

Və Yunus, Yasi çıxışlı, Xorasan dayanacaqlı, bir ulu mənzilin Anadoludakı qonağıdır.

*Kim dedi, ulu türk eli (Türküstan) Anadoluya uzaqdır?*
*Biz hər dəm ulu Türk elinin havasını alırıq.*
*Könül çaylarımızın mənbəyi oradır!*
*Çiçəklər bitər, Tapdıq, Bektaşi, Yunus adlı..*

*Alp-Ərənlər dolaşır Anadoluda*
*Yasəvidən izinli!..*

## SÖZ

*Keleci bilen kişinün*
*Yüzüni ağ ide bir söz.*
*Sözi bişirüp diyenün*
*İşini sağ ide bir söz.*

*Söz ola kese savaşı,*
*Söz ola bitüre başı,*
*Söz ola ağulu aşı,*
*Bal ile yağ ide bir söz.*

*Gel ahi iy şehriyari,*
*Sözümüzü dinle bari.*
*Hezar gevher ü dinarı,*
*Kara toprağ ide bir söz.*

*Kelecilerün bişirgil,*
*Yaramazını şeşırgil,*
*Sözün us-ila düşürgil,*
*Dimegil çağ ide bir söz.*

*Kişi bile söz demini,*
*Dimeye sözün kemini,*
*Bu cihan cehennemini*
*Sekiz uçmağ ide bir söz.*

*Yüri-yüri yolun-ila,*
*Qafil olma bilün-ile,*
*Key sakın ki, dilün-ile,*
*Canuna dağ ide bir söz.*



*Yunus imdi söz yatından,*
*Söyle sözü qayetinden,*
*Key sakın o şeh katından*
*Seni ırağ ide bir söz.*

## OLISAR

*İşidün iy ulular ahır zaman olısar,*
*Sağ müsülman seyrekdür ol da güman olısar.*

*Danişmend okur dutmaz derviş yolın gözetmez,*
*Bu halk öğüt eşitmez sağır heman olısar.*

*Gitdi beğler mürveti binmişler birer atı,*
*Yidüğü yoksul eti içtüğü kan olısar,*

*Ya'ni az kopdı erden el çekmezden murdardan,*
*Deccal kopısar yirden anlar uyan olısar.*

*Birbirine yavuz sana itdüğüm kalur sana,*
*Yarın mahşer güninde işi yayan olısar.*

*İy Yunus, imdi senün ışk-ıla geçsün günün,*
*Sevdüğün kişi senün canuna can olısar.*

YUNUS ƏMRƏ

# MOLLA NƏSRƏDDİN

Molla Nəsrəddin, türk xalq zəkasının ən mükəmməl bir ifadəsidir. Uzun və zəngin bir tarixin yoğurduğu türk xalq fəlsəfəsinin, sərraf söz və lətifə ədəbiyyatının XIII əsrdə Molla Nəsrəddinin adı ilə ifadə olunması, mədəniyyətimizin bir başqa istiqamətini ortaya çıxartdı.

Molla Nəsrəddin türk xalqının yüksək bir ifadə gücüdür. Mollanın hər mövzuda kəskin fikirlərlə bəzənmiş lətifələri ancaq türklər arasında deyil, bütün dünya millətləri tərəfindən də sevilib, təqdir edilmişdir. Xüsusilə türklər, Orta Asiyadan Balkanlara qədər Molla Nəsrəddin lətifələrində özlərinin yüksək yumor dahiləri olduqlarını tapmış, o lətifələri çox sevmiş və çoxaldaraq yaymışlar.

Onun lətifələri xalqın dilidir. Türk xalqı zəka bacarıqlarını Molla Nəsrəddin lətifələrində göstərir. Molla Nəsrəddin lətifələrində türkün ucalığını görürsünüz. O, Anadolu türklüyü içindən çıxmışdır, amma bütün türk dünyasının, bütün türk xalqlarının ortaq atasıdır.

Molla Nəsrəddin türk xalqının tükənməz nə'şəsi, qırılmaz iynəsi, yenilməz silahı olmuşdur əsrlər boyu.

O, türk xalqının hadisələrə, həyata baxışının, uca türk mədəniyyətinin xalqın diliylə izahı etməsidir.

Molla ədalətin yanında haqsızlığa qarşıdır. O, xalqın mə'nəvi inanclarını pisliyə doğru istifadə edənlərlə incə bir üslubda əylənir... Zülm edən bəylər, rəhbərlər qarşılarında Molla Nəsrəddini görürlər. Zalımlar, yaltaqlar Mollanın lətifələrində çox gülünc vəziyyətlərə düşürlər. Mindikləri budağı kəsənlərin həzin aqibətləri, şəxsi çıxarlarından başqa bir şey düşünməyən eqoistlərin gülünclükləri Mollanın ən gözəl lətifələridir. İnsanların elmlərinə, fəzilətlərinə deyil, xarici görüşlərinə, qılıq və geyimlərindəki bəzəyə qiymət verənlərin aldanmaları ən gözəl şəkildə yer alır Molla Nəsrəddinin lətifələrində. Yalançılar, acgözlər Mollanın iynələrinin hədəfidir. Molla lətifələrində insanların dürüstlüyünü də sınayır, dürüst olmayana da cəza verir. Yeri gəlmişkən, Mollanın lətifələrindən birini nəql etməmək mümkün deyildir...



"Bir gün Molla qonşusundan borc bir qazan istəyir. Ertəsi gün qazanı qonşusuna geri verərkən içinə kiçik bir qazan qoyur. Qonşusu soruşur:

— Molla, bizim qazanın içindəki bu kiçik qazan nədir?

— Sənin qazanın doğdu, o da balasıdır, — deyir.

Qonşu heç səsini çıxarmadan qazanların ikisini də alıb evinə aparır...

Bir neçə gün sonra Molla qonşusundan yenə bir qazanı borc istəyir. Qonşu sevinir, çünkü Mollanın evində onun qazanı doğurdu, bir qazan verib, iki qazan geri alırdı. Belə sevinc içində o böyük qazanı Mollaya verir... Aradan bir neçə gün keçir, amma Molla qazanı geri vermir. Nəticədə qonşu, Mollanın qapısını döyür:

— Molla, sənə qazan vermişdim, bizim qazan nə oldu?

— Molla üzgün bir görünüşlə:

— Sənin qazanın Allahın rəhmətinə getdi, öldü, — deyir.

Molla Nəsrəddinin bu sözlərinə qonşusu çox çaşaraq soruşur.

— Aman, ay Molla, qazan da ölərmi?

Bax, bu zaman Molla qonşusunun dərsini verir və deyir:

— Qazanın doğduğuna inanırsan, öldüyünə inanmırsan?"

Türk xalq filosofu Molla Nəsrəddin XIII əsrin ilk illərində Sivrihisarın Hortu kəndində doğuldu. İlk dərsini kənd imamı olan atasından aldı. Daha sonra Ağşəhərə gedərək Seyid Mahmud Heyrani və Seyid Hacı İbrahim kimi dövrün tanınmış alimlərindən aldığı dərslərlə özünü yetişdirdi. XIII əsrin sonlarında Ağşəhərdə öldü. Ağşəhərdə Molla Nəsrəddinin şə'ninə və lətifələrinə yaraşan bir türbəsi var. Şə'ninə yaraşır dedik, çünki onun türbəsi görkəmli və baxımlıdır. Lətifələrindəki gülünclüyə yaraşır, çünki həyat divarları olmayan türbənin qapısı vardır və qapısında da böyük bir kilid asılıdır...

Molla Nəsrəddin türk mədəniyyətinin bir fərqliliyidir. O, dərya, dəniz olan türk xalq fəlsəfəsinin yüksək bir ifadə gücüdür. Mollanın verdiyi dərslər başqa millətlərin məsəllərində, hekayələrində kəsinti halındadır və Mollanınkına görə də zəifdir. Molla uzun-uzun nəql etməz. Həqiqi bir türk xarakterinin ifadəsi olaraq minnətsiz gedər dərsini verər... Bu xüsusiyyətilə Molla Nəsrəddinin lətifələrindən üstün dünyada bir başqası yoxdur. Onun lətifələrini nə Beydebanın Kəlilə ilə Dimnəsində tapa bilərsiniz, nə də La Fontenin misallarında... Bu baxımdan, Molla Nəsrəddin dünya üçün də bir fərqlilikdir.

Türkün bağrından çıxan bu ilginc atamıza rəhmətlər olsun.



# TİMUR XAN

*"Biz ki, mülük-ü Turan, Emir-i Türküstanıq.*
*Biz ki, Türkoğlu Türkük.*
*Biz ki, millətlərin ən qədimi və ən ulusu*
*Türkün ən böyük komandiriyik!.."*

Dünyaya fəthlər üçün gəlmişdi... Qılıncı əlindən heç düşmədi. Nə çətinliklərdən qorxdu, nə də yolların uzaqlığından...

Döyüşçü olaraq doğulmuşdu, kiçik bir uşaqkən üzük deşiyindən ox keçirərdi. Uşaqlıq oyunları döyüş mövzularında olardı... Uşaqları başına toplayar, onlara xəyali dövlətin vəzifələrini paylayar və sədaqət andını içdirərdi.

Ataları Mətənin, Çingizin, Atillanın döyüşçülük qabiliyyətini özündə toplamışdı. Fırtına kimiydi, yerləri silib-süpürərdi...

Türküstanda, Səmərqəndin cənubunda Xoca İlqar ərazisində 1336-cı ildə dünyaya gəldi. Atası Barlas Oymağı bəylərindən Turqay (Taraqay) Bəydi. Atası öldükdən sonra, 1361-ci ildə təktəkha, bir türk bəyi olaraq ətrafını qiymətləndirməyə başladı... Yaşadığı coğrafiyada hökm sahibi olanların çarəsizliyinə şahid oldu. Dövlət əcnəbi qadınlarla evli vəzirlərin əlində oyuncaq halında idi. Nə qayda-qanun qalmışdı, nə də adət-ən'ənə. Sağlam niyyətli bəylər, xanlar dövlət içinə sızan casuslarla zəhərlənərək öldürülürdülər...

Biri ortaya çıxıb bir şeylər etməliydi. Hələ, əmisi Əmir Hacı Barlas Bəyin öldürulməsi bütünlüklə onun içinə fırtınalar salmışdı...

Düzəlməli idi bu dünya!

Qılıncsa, qılıncla... Gücdürsə, güclə... Bu dünya mütləq düzəlməliydi!

Bəyliyin işlərini ona buraxırkən atasının söylədiyi sözləri yadına saldı:

"Mənim Timurum, bu dünya ilanla, əqrəblə doludur. Mən bu dünyadan təngə gəldim. Ona görə dərvişlər ilə bərabər, bir yerdəyəm. Amma sən Babalarının qəhrəmanlığını davam etdir!.."

Təkbaşına qaldığı günlər oldu Timurun, amma heç unutmadı bu sözləri... Arvadı ilə bərabər dağlarda neçə çətinliklərə qatlandı, qorxmadı! Və qılıncını əlindən heç buraxmadı!

Ağıllı idi. Atasının yanında ərəbcə və farsca öyrənmişdi. Elmi, bilqini tanıyandı, amma bir əli qılıncda idi.

Əvvəl, Səmərqənd valisinin yanında minbaşı rütbəsində qələbələr qazandı. Çığatayların Səmərqənddəki səlahiyyətli nümayəndəsi Kazqan xan öldürüldükdə macəralı həyatı başladı Timurun... Türküstanda güclü komandir olaraq adını hiss etdirdi. 1369-cu ildə Əmir Hüseyinin öldüyünə görə Maveraünnehrə təkbaşına hakim oldu... Türk ən'ənəsinə görə, eyni ildə "Ağ keçə" üstünə oturdularaq, Xan e'lan edildi... Artıq dünyaya hökmetmə mübarizəsinə başlaya bilərdi. Belh şəhərində aldığı Kağanlıq rütbəsiylə kifayətlənmək istəməyirdi, bütün türklər içində "Böyük xan olmaq istəyirdi".

Əvvəl ətrafındakı başçılara baş əydirdi. Qafqazdan Altınorduya yetişdi və Altınordu tacını aldı. Böyük Xanlığın Səlçuklular və Osmanlılarla Qərb türklərinin əlində olduğunu bilirdi. 1402-ci ildə Osmanlı Xanı İldırım Bayazit ilə qarşılaşdı və Osmanlı ordusunu Çubuq dərəsində dağıtdı. O, İzmirə qədər getdi və orada Roma qalıntıları olan bir çox yerləri dağıtdı...

İldırım Bayazit xanı özüylə Türküstana götürməyi, ölkəsini göstərib geri göndərməyi düşünürdü. Bayazit xanın ölümü bu düşüncəsini həyata keçirməkdə ona mane oldu.

Türküstan, Hindistanın böyük bölümü, Misir, Anadolu, Qara dənizin şimal hissəsi... Qısacası köhnə dünya artıq Timurun idi! Türk dünyasının tək hakimi idi o. Bu hakimiyyətin qılınc gücünə əldə olunması onun ən böyük əksikliyi idi. O, fikir və könül birliyindən əvvəl qılıncla davranmışdı.

Türk ölkələrindəki fəthlərdən sonra Səmərqənddə tikinti fəaliyyətinə başladı. Görkəmli bir saray tikdirdi. Xoca Əhməd



Yasəvinin türbəsini təzələdi. O, həqiqətdə şüurlu bir türk idi. Türkün alçalmasına tahammül edə bilmirdi... İran şairi Firdövsi yazmış olduğu "Şahnamə" əsərində türklərin hey məğlub olduğunu göstərir. Bunu daxilində həzm edə bilməyən Timur xan İrandan keçərkən Firdövsinin məzarı başına getdi və belə dedi:

"Şahnamə"ndə hər zaman məğlub olaraq göstərdiyin türkü, qalx və gör!

Biz ki, mülük-ü Turan, Emir-i Türküstanıq.

Biz ki, Türkoğlu Türkük!

Biz ki, millətlərin ən qədimi və ən ulusu Türkün, ən böyük Komandiriyik!"

1404-cü ilin son aylarında dincəlməyə çəkilmiş kimi görünürdü artıq. Çin adətən çəkirdi onu. Həm də, bu vaxta qədər hey müsəlmanlar ilə, Türklərlə savaşmışdı... Üstəlik, İslamı Çinə yaymaq qədər gözəl bir hərəkətdən başqa nə ola bilərdi?

Bu niyyət ilə ordusunu hazırladı. Yaşlı Timur xan bu uzun səfərə dözə bilməyəcəyini bilə-bilə çıxırdı. "Qılınc əlində ölmək" istəyirdi sanki... Belə ki, 1405-ci ilin 19 martında Çin sərhəddinə yaxın olan Otrar ərazisində həyata gözlərini yumdu.

Böyük bir dünya buraxdı övladlarına... Şahru atası Timur kimi Böyük bir xan idi. Nəvəsi Uluğ Bəy, dünya çapında bir astronomiya alimi olaraq şan-şöhrət qazandı. Yenə bunlarla yanaşı nəvələrindən Bəbir Hindistanda türk adını kökləşdirdi.

Dövlət idarəsi haqqında bilgiləri əhatə edən bir "Nizamnamə"ni özündən sonra gələnlərə rəhbər olaraq buraxdı.

O, həqiqi bir qəhrəman idi!

O, Türkün döyüşçülük qabiliyyəti ilə bəzənmişdi.

Timur atamızın ruhu şad olsun!

*" — Dövlət işlərinə xaricilər qarışdırılmamalıdır, dövlət fəlsəfəsinin gərəyi budur. Rəhbərlik xaricilərə əsla buraxılmaz, çünki dünya elə bir sevgilidir ki, aşiqi çoxdur. Bu səbəb ilə sağlam bir hökm ilə taxta çıxmaq istəyər. Bundan şiddətlə qaçınmalıdır.*

*— Xan, heç kimsənin xəbərdarlığını kiçiltməsin. Uyğun gördüklərini növbəsi gəldikdə istifadə etmək üçün yaddaşında saxlasın.*

*— Rəhbərlik, ordu və xalq işlərində xan kimsənin tə'siri altında qalmamalıdır. Vəzirlər və ya komandirlər bir-birilərinin lehində və ya əleyində danışırlarsa, onları hekayə yollu dinləməli. Həqiqət ortaya çıxdıqda irəlini düşünərək, sağlam hərəkət etməlidir.*

*— Xan hər bir işdə ədaləti gözləməlidir. Vəzir seçərkən ədalətli, fəzilətli, iffətli və doğru olmasına əhəmiyyət verməli.*

*— Xanın davranış və işlərində başqasının tə'siri olmamalı. Verdiyi əmrləri də geri qaytarmamalı, çünki əmrlərin dəmir kimi sağlam olması xana ən böyük gücü tə'min edər."*

*TİMUR XAN*
*(Tüzükat-i Timürin)*



## ULUĞ BƏY

("Taxtda oturan alim")

22 mart 1394-cü ildə Sultaniyyədən yola çıxan bir kuryer Mardinə doğru irəliləyirdi... Dördnala çaparaq şad xəbəri tezliklə Timur xana çatdırmaq istəyirdi.

Mardinə çatmaq üzrə idi.

Yol kənarında Timur xanın ordusuna aid qolunu gördü. Atından enmədən bir zabitə yaxınlaşıb dedi:

— Timur xanın arvadı Saray Mülk xanımın kuryeriyəm. Timur xana muştuluqlu xəbərim var. Haradadır?

Zabit coşquyla cavab verdi:

— Bizim də muştuluğumuz var. Mardini aldıq. Hal-hazırda Timur xan Mardin Məliyi İsa Bəyin sarayındadır...

Kuryer atını qamçıladı və çox keçmədən saraya çatdı.

Sarayda, günlərdir Mardini müdafiə edən və Timur xana qarşı çıxan İsa Bəy şəxsən Timur Xan tərəfindən sorğu-suala tutulurdu. E'dam edilməsi an məsələsi idi... Elə bu vaxt elçilər Sultaniyyədən xatununun kuryeri gəldiyini bildirdilər. Timur xan sorğu-suala ara verib, kuryeri hüzuruna çağırdı.

Kuryer həyzcanlıydı.

— Timur xanım, oğlunuz Şahruxdan bir erkək nəvəniz dünyaya gəldi. Gözünüz aydın olsun!

Timur xanın İsa Bəyə olan hirsindən gərginləşən üzü birdən soyudu. Gül iyləmiş bir adam kimi sevindi və İsa Bəyə dönərək sarayı inlədəcək səslə bağırdı:

— Bu Mardindən də əhəmiyyətlidir! Səni bağışladım, İsa Bəy, çıx get hüzurumdan! — Kuryerə dönərək coşqu içində danışmağa başladı. Adını Məhəmməd Tarağay qoydum nəvəmin... Dünən Mardini aldım, bu gün bir başqa muştuluqla şənləndi könlüm. Bu bir Uluğ sevincidir!..

22 mart 1394-cü ildə Sultaniyyədə doğulmuş Uluğ bəyin doğum xəbəri Mardini aldığı günün ertəsi günü babası Timur xana çatdırılmışdı...

Adı Məhəmməd Tarağay (Turqay) idi. Ancaq hər zaman Uluğ bəy deyə çağrıldı. Atası — Timur oğlu Sultan Şahrux, anası Gövhərşad Xatun idi...

Uluğ bəy, 1409-cu ildə atası Şahruxun böyük xan olması ilə əlaqədar, şahzadə və səltənət naibi oldu. 41 il boyunca atasının adından böyük bir ölkəni idarə etdi. Atası öldükdən sonra taxta çıxdı. Taxta keçdikdən üç il sonra bir sui-qəsd nəticəsində, 1449-cu ildə Xorasan şəhərində öldü...

Uluğ bəy ilk günlərdən e'tibarən bütün həyatı boyunca, zamanını və əməyini dövləti idarə etmə incəliklərindən çox sənətə və elmə həsr etdi özünü. Bax, buna görə də ona — "Taxtda oturan alim" deyirdilər.

Uluğ bəy alim hökmdar olaraq dünyada ilk sırada yer alırdı. O, siyasətdə heç bir zaman qızışmadı, bütün enerjisini riyaziyyat və astronomiyaya verdi. Buna görə də atası Şahrux öldükdən sonra azad bir hökmdar olaraq siyasətdə uğurlu ola bilmədi. Uca Yaradan onu başqa xüsusiyyətləri ilə dünya çapında bir insan olaraq ucaltdı. O, həqiqi bir bilim adamı idi. İxtisas sahələri riyaziyyat və astronomiyadan başqa digər mövzularla da maraqlandı.

Ədəbiyyata marağı var idi, şe'rlə məşqul oldu. Çingiz xan xanədanına dair yazdığı tarix kitabı hələ də tapılmadı. Qorxunc bir yaddaşı var idi. Qeyd dəftəri itdiyi zaman, o dəftəri yenidən əksiksiz yazardı.

Şübhəsiz, Uluğ bəyin yetişməsində müəllimlərinin böyük bir yeri vardır. Söz gəlişi, onun müəllimlərindən, zamanın Əflatunu olaraq tanınan Bursalı Səlahəddin Musa İbn Məhəmməd Kadizadə Rumi və Kəşanlı Qiyasəddin Cəmşid İbn Mə'sudu göstərmək olar.

Bilirik ki, Timur xan və onun oğlu Şahrux zamanında Özbək elindəki Səmərqənd şəhəri, dünyanın ən əhəmiyyətli elm və



sənət mərkəzi olaraq məşhur idi. Bir çox sənət və elm adamları bu gözəl şəhərdə yaşayırlardı. Bu səbəblə də, Uluğ bəy mükəmməl bir təhsil görmək imkanına sahib idi. Uluğ bəyin tələbəsi olaraq, onun yanında olan Əli Quşçu, bir tələbədən çox, Uluğ bəylə fikir mübadiləsi aparan bir insan idi.

Uluğ bəyin dünya çapında bir elm adamı olaraq şöhrət qazanmasının səbəbi, şübhəsiz, astronomiya elmi üzrə apardığı ilginc tədqiqatları idi. Səmərqənddə o zaman qurduğu rəsədxana hələ də ilgi çəkməkdədir. Rəsədxanada qurdurduğu "Fəxri Sekstant" adı verilən alətin böyüklüyü, ağıllara durğunluq verəcək ölçülərdədir. Bu alətin yüksəkliyi İstanbuldakı Ayasofya Məscidinin yüksəkliyi qədərdir. Bütün dünya bilir ki, astronomiya tarixində o zamana qədər bu böyüklükdə və hissiyatda alət qurulmamışdı.

Bu alim atamızla nə qədər qürur duysaq yenə də azdır... Astronomiya, yə'ni göy cisimlərini incələyən elmi ilə əlaqəli olaraq yazdığı və qısaca "ULUĞ BƏY ZİYCİ" adlı kitabı əsrlər boyu Avropa universitetlərində əsas əsər olaraq oxuduldu.

Bu əsərdə nələr yoxdur ki... O zamanın dünyasında mövcud təqvimlərin bir-birlərinə çevirilmə hesabları... Hər ölkənin təqvimində yer alan əhəmiyyətli günlər... Triqonometrik funksiyalar... Ekliptikal və ekvatoral koordinatlar... Meridian doğrultusu... Eninə-boyuna ölçülərin tə'yini... Ulduzların uzaqlık məsafələrinin hesabı... Ay və Günəş tutulmaları... 1018 ulduzun vəziyətinin tə'yin olunması.

Atamız Uluğ bəy, Səmərqənddə dünyanın ən böyük rəsədxanasını tikdirməklə yetinmədi, bu böyük türk şəhərini me'mar baxımından çox yüksək səviyyəli tikintilər ilə bəzədi. Karvansaraylar, hamamlar, mədrəsələr Uluğ bəy zamanında yüksəldi. Mirzələr hamamı, Uluğ bəy məscidi, Böyük qübbəli ibadət yeri və Uluğ bəy mədrəsəsi bunlardan bə'zləridir.

İslami inanışda və hər işində mahiyyətə və onun əhatəsinə əhəmiyyət verən Uluğ bəy tikdirdiyi mədrəsənin divarına belə bir yazı yazdırdı:

"Elmli olanların olmayanlardan üstün olması on beşinci gecəsində olan ayın, digər ulduzlardan parlaqlıq fərqi qədərdir."

Dünyanın heyranlıqla andığı bu alim atamızın nəvələri olmaqdan qürur duyuruq.

Özbək elindən doğan bu elm günəşi, bütün türk xalqlarının yaşadığı coğrafiyanı dünya durduqca işıqlandıracaqdır.

Bizlər, Uluğ bəyin nəvələri olaraq, bu aydınlıqda daha parlaq işıqları yaxalamaq üçün birlik içində fəaliyyətdə olacaq, çox işləyəcəyik...



## DƏDƏ QORQUD

Milli dastanlar millətin, xalqın hafizəsindəki tarixidir deyə bilərik. Türk milləti zəngin tarixinə yaraşan dastanların sahibidir. Oğuz xan, Manas, Dədə Qorqud kimi bir çox dastanlar ulu türk millətinin tarixini anladır.

Müsəlmanlığı qəbul etdikdən sonra ən böyük dastanımızın MANAS olduğunu bilirik. Manasdan sonra Dədə Qorqud gəlir... Bu iki dastan diqqətlə incələndiyində görülür ki, hadisələrin, hekayələrin əmələ gəlməsi və işlənməsi bizə millətimiz haqqında geniş mə'lumatlar verir. Manas, müsəlman olmuş şərq türklərinin iman və həyəcanı üzrə qurulmuş bir çox hadisələrin əksidir. Manasdakı mövzuları qərb türkləri arasında əmələ gələn Dədə Qorqud dastanında da görə bilirik. Dərhal ifadə etmək lazımdır ki, Dədə Qorquddda da eynən Manasda olduğu kimi, türklərin müsəlmanlıqdan əvvəl inanclarının tə'sirini fərq edə bilirik.

Manas dastanında hər bir hekayə doğrudan və ya digər səbəblə Ər Manasın ətrafında cərəyan edərkən, Dədə Qorqudda Bayandır xanın liderliyindəki Oğuz xalqlarında yaşanan hadisələr nəql olunur. Yenə bu iki dastanda nəql olunan hekayələrdə, Oğuz xan dastanının izlərini və Göytürk Benqü Daşlarındakı yazılan ifadələrin tə'sirini görürük. Bu baxımdan dastanlarımız türk xalqlarının ortaq tarixi, ortaq kədər, ortaq mədəniyyət və ortaq gələcəyinin də qiymətli bir nişanəsidir.

Dədə Qorqud hekayələri, Qərb türklərindən Oğuz xalqının içində keçər. Hekayələrə görə Bayandır xan Oğuzların başçısıdır. Ancaq Oğuzları Bayandır xan adından Qazan bəy idarə edir. Bu vəziyyət, türk tarixindəki rəhbərlik anlayışına da uyğundur. Bir nümunə vermək lazımdırsa, o zaman Timurun sağlığında oğlunun ölkəni idarə etməsini deyə bilərik...

Dədə Qorqud mövcud dastanlarımız içində verdiyi xəbərlər baxımından ilk sırada yer alır. Bu vəziyyət həqiqətən çox əhəmiyyətlidir. Mə'lumdur ki, dastanların yaradıcısı bir nəfər

deyildir, bütün bir millətdir, bir millətin güzgüsüdür. Onda millətin xüsusiyyətlərini rahatca tapa bilirik. Türk dastanları türk millətinin ortaq dahiliyinin məhsuludur.

Türk millətinin misilsiz xüsusiyyətləri Dədə Qorqudda bir-bir sıralanmışdır: Türk dilinin ifadə gözəlliyi, səmimi müsəlmanlığımız, qəhrəmanlığımız, Vətən və Allaha sevgimiz, qonaqsevərliyimiz, heyvanlara olan sevgimiz, təbiətə sevgimiz, dövlət şüurumuz, birlik və bərabərliyə verdiyimiz dəyər, çalışqanlığımız, qəzəbimiz, fitnə nəticəsində doğan milli fəlakətlər... Bunlardan əlavə daha bir çox xüsusiyyətlərimiz Dədə Qorqudun bağrında yaşayır.

Dədə Qorqud hekayələrində, hiss edilməsi çətin olan xüsusiyyətimiz daha var. Bu xüsusiyyət, hekayələrin nəql olunmasında sezilən "üstün şüurumuzdur". Dədə Qorqudda mövcud olan 12 hekayədən hansını oxuyursunuz-oxuyun, hakimiyyət ədasının verdiyi o coşqun üslubu görə bilərsiniz. Bu üslub, türklərin özlərinə olan inamını ifadə edir. Bu vəziyyət, bir anlamda, türklərin dünyada ən qüvvətli və iqtidarlı bir millət olduğunu "dastan dili ilə" nəql etməkdədir.

Manasımız kimi Dədə Qorqud da bir ulu dəryadır... Sizi yüz illər öncəsinə aparır. Dədə Qorqudda VIII əsrin türk tarixinin izlərini çox rahat tapa bilərsiniz. Söz gəlişi, Göytürklərin zamanında tikilən Orkun Benqü Daşlarında yazılmış olan "sağdakı Şadapıt bəyləri, soldakı Tarkanlar, buyuruq bəyləri..." deyə başlayan sözlərin bir bənzəri Dədə Qorqudda belə keçir:" Sağda oturan sağ bəylər, solda oturan sol bəylər, dibdə oturan təmiz bəylərdir, xoşbəxt olsun dövlətiniz..."

İndi bir hesab aparaq: Dədə Qorqud hekayələri XV və XVI əsrlərdə yazıldı... Orkun Benqü daşları isə VIII əsrə aid əsərlərdir... Arada yeddi yüz illik bir zaman var...

Digər tərəfdən, Dədə Qorqud hekayələrinin keçdiyi məkan: Azərbaycan və Anadolu yeridir... Orkun Benqü daşları isə Asiyanın göbəyində... Arada minlərcə kilometr məsafə var! Bax bu vəziyyət bizə, biz dünya türklərinə: dildə, fikirdə, işdə birlik



şüurunun zaman və məkan tanımadığını, hər an millətimizin yaddaşında canlı olduğunu da isbat edir. Çox yaxşı... Bəs bu Dədə Qorqud kimdir?

Ona, bə'zi yerdə Ata, bə'zi yerdə Dədə Qorqud deyərlər türklər.

O, türklərin var olduğu gündən bəri türk xalqlarına yolyordam göstərən adət-ən'ənə bilicilərimizdən biridir... Uluğ türk kimi, Irkıl Ata kimi, bir ulu insanımız... Xanların yanında olmuş, anlaşmazlıqları həll etmiş... Obalarda doğan uşaqlara ad qoyar... Onun ağzı dualı olmuş, pislikləri qovmuş...

İndi biz işin asandından yapışaq; XV və XVI əsrlərdə Dədə Qorqudu yazıya köçürənlər o böyük türk qocasını anlatsınlar bizə:

"Rəsul Əleyhissalam zamanına yaxın, Bayat boyundan Qorqud Ata deyilən bir əsgər ortaya çıxdı. Oğuzun tam bilicisi idi o adam. Nə deyirdisə olurdu. Qeyb olmuşlardan cürbəcür xəbərlər söyləyərdi. Allah Taala onun könlünə ilham verərdi.

Qorqud Ata Oğuz xalqının çətinliklərini həll edərdi. Hər nə iş olursa — olsun Qorqud Ataya danışılmayınca həll olmazdı. O, nə buyursaydı qəbul edərdilər. Onun sözünü dərhal yerinə yetirərdilər. Dədə Qorqud demiş: "Allah deməyincə işlər düzəlməz. Qadir Allah verməsə adam zəngin olmaz. Əvvəldən yazılmasa qul başına qəza gəlməz, əcəl vaxtı çatmayınca kimsə ölməz...

Qara eşşəyin başına qəm versəm qatır olmaz. Qulluqçuya gözəl paltar geyindirməklə ondan xanım olmaz... Köhnə pambıqdan bez olmaz, köhnə düşməndən dost olmaz. Qara qoç ata qıymayınca yol tükənməz. Qara qılınc çalmayınca düşmən dönməz. Adam malına qıymayınca adı çıxmaz. Qız anadan görməyincə öyüd almaz. Oğul Atadan görməyincə süfrə çəkməz... Dövlətli oğlu oğul olsa ocağının közüdür. Oğul nə etsin atası öldükdə malı qalmasa. Ata malından nə fayda, başda dövlət olmasa. Xan, sizi dövlətin şərindən Allah saxlasın!"

Dədə Qorqud bir daha belə demiş: "Sür'ətli bir ata namərd minə bilməz, minməsindən minməməsi daha yaxşıdır! Mərd qılıncı çalar kəsər, namərd çalmasa daha yaxşıdır! Vurmağı bacaran igidə ox qılıncdan daha yaxşıdır! Qonağı gəlməyən evlər dağılsa daha yaxşıdır."

Dədə Qorqudu yazıya köçürən adam bir ozan imiş, aydındır ki, belə bir girişdən sonra o da Dədə Qorqud hekayələrinə başlayar... Tamam 12 hekayə. Hər biri dastan nağıllar kimi bəzəkli, ayrı-ayrı bir gözəllikdə... Dirsə Xan oğlu, Boğac xan... Salur Qazan evinin qarət edilməsi... Kam Pürenin oğlu Bamsi Beyrək... Qazan bəyin oğlu Uruz bəyin əsir olduğu... Dahi Qoca oğlu Dəli Dumrul... Kanqlı Qoca oğlu Qan Turalı... Qazılıq Qoca oğlu Yigənək... Basatın Təpəgözü öldürməsi... Beqil oğlu Emrən... Uşun Qoca oğlu Seqrək... Salur Qazan oğlu Olup oğlu Uruzun Çıxardığı... İç Oğuza xarici Oğuz üsyanı olub, Beyrəyin öldüyü...

Bu hekayələrin hər birində Oğuz türkcəsinin gözəlliyi ən cəzbedici halıyla göz qabağındadır. İgidli, mərhəmətli, ana, yar sevgisi-qısacası türkün bütün xüsusiyyətləri Dədə Qorqudda vardır.

Dədə Qorqud, elə bir xəzinədir ki, bu dastanda türk heyvanla, ağacla danışır.

"Kafirlər Uruzu alıb biçim çəngəlinin dibinə gətirdilər. Uruz dedi:

— Buraxın məni, bu ağac ilə danışım, çağırıb ağaca söyləmiş, xan sağ olsun, baxaq görək nə söyləmiş:

*Ağac, ağac deyərsəm sənə, üzülmə, ağac,*
*Məkkə ilə Mədinənin qapısı ağac,*
*Böyük-böyük suların körpüsü ağac,*
*Qara-qara dənizlərin gəmisi ağac,*
*Adamların şahı Əlinin Düldülünün əgəri ağac,*
*Zülfüqarın kini ilə tutacağı ağac,*
*Şah Həsən ilə Hüseyinin beşiyi ağac,*



*Başına doğru baxar olsam, başsız ağac,*
*Dibinə doğru baxar olsam, dibsiz ağac,*
*Məni sənə asarlar, çəkinmə, ağac,*
*Çəkinsən olsan igidliyim səni tutsun, ağac,*
*Bizim eldə olmalıydın, ağac,*
*Qara hindli qullarıma buyuraydım*
*Səni param-parça doğruyalardı, ağac."*

Türklərdəki ailə bağı, "Dəli Dumrul" hekayəsində ən qalın xətlərlə ortaya çıxır... Canını almaq üçün gələn əzrailə öz yerinə canını verməyən ana və atasından sonra Dəli Dumrul vəziyyətini arvadına başa salır. Arvadı:

*"Nə deyirsən, nə söyləyirsən?*
*Göz açıb gördüyüm,*
*Könül verib sevdiyim"*

— dedikdən sonra qəlbinin bütün səmimiyyətilə belə davam edir:

*"Ərş şahid olsun! Göy şahid olsun!*
*Yer şahid olsun!*
*Ulu Tanrı şahid olsun!*
*Mənim canım sənin canına qurban olsun!"*

Dədə Qorqud hekayələrində "qadın" türk adətindəki "ata minən, yay çəkən, ordu idarə edən" qadındır. Tomris Xatun Elbilgə xatun, Altuncan xatun kimi "alp" xarakterli qadın tipi Dədə Qorqudda yaşayır... Bu sözlər Dirsə xanın "Xan qızı" arvadına aiddir:

*"Xan atamın qatına mən çatım,*
*Ağır xəzinə bol ləşkər alım.*
*Azqın dinli kafirə mən çatım,*
*Paralanıb paya atımdan enməyincə,*
*Qələbə ilə alça qanımı silməyincə,*

*Qol-bud olub yer üzünə düşməyincə,*
*Yalnız oğul yollarından dönməyəyim..."*

Və türk erkəyi qadınına olan sevgisini çarpıcı dillə ifadə edir:

*"Bəri gəl, başımın baxdı, evimin taxtı*
*Evdən çıxıb yeriyəndə səlvi boylum,*
*Qurulu yaya bənzər çatma qaşlım,*
*Ekiz badam sığmayan dar ağızlım,*
*Payız almasına bənzər al yanaqlım!"*

Dədə Qorqud hekayələrində din hər zaman irəli çıxar. Ancaq müteasib bir müsəlmanlıq yoxdur. İnanmış bir millətin bundan böyük güc almış ruhu anladılır. Cihad atmosferində, "Ucalardan uca Tanrıya", "Adı qörklü Məhəmmədə" sevgiləri sonsuz, inancları dərindir...

Dədə Qorqudda sabah vaxtının anladılması bir şe'r gözəlliyindədir:

*"Dan yelləri sərin-sərin əsəndə,*
*Boz saqqallı çayır quşu ötdüyündə,*
*Böyük cins atlar sahibini görüb kişnədiyində,*
*Uzun saqqallı müəzzin əzan oxuduğunda,*
*Ağlı-qaralı saçılan çağda*
*Qüdrətli Oğuzun, gəlininin qızının bəzəndiyi çağda,*
*Köksü gözəl qoca dağlara gün doğanda,*
*Bəy igidlərin, qəhrəmanların bir-birinə qoyulduğu çağda".*

Dədə Qorqud, hər hekayəsindən sonra o məşhur duasını edir:

"O, öydüyüm Uca Tanrı dost olub, yardım etsin! Yerli qara dağların yıxılmasın! Kölgəli qaba ağacların kəsilməsin! Görklü suyun qurumasın! Qanadlarının ucu qırılmasın! Diksinərkən ağ-boz atın sürüşməsin! Çalışarkən qara polad qılıncın kədedilməsin! Dürtüşərkən rəngbərəng bayrağın kiçilməsin! Ağ



birçəkli ananın yeri cənnət olsun! Ağ saqqallı atanın yeri uçmaq olsun. Allahın yandırdığı çırağın daima yansın! Axirətdə ar ilə iman ayrılmasın! Amin! Amin deyənlər Tanrının üzünü görsün! Seçsin, yığsın günahlarınızı adı gözəl Məhəmməd Mustafa üzü suyu hörmətinə bağışlasın, xanım heey!"

Bu Dədə Qorqud duası bütün türk xalqlarına yarasın...

Və biz dahi Dədə Qorqudun diliylə yazımıza son verək:

Qırğız Qazağdan küsməsin! Türkmən Özbəyə arxa çevirməsin! Azəri sahildə durmasın! Anadolu türkü uzaqda qalmasın! Aramıza fitnə qılıncı girməsin! Sıralarımız sıx olsun! Arxamız güclü olsun!

Ey Ulu Tanrım! Ucalardan ucasan, kimsə bilməz necəsən! Görklü Tanrı! Bə'zi qafillər səni yerdə və göydə axtarar: sən inanan könüllərdəsən! Bu gəlimli-gedimli dünyada, bu son ucu ölümlü dünyada: Sakitliyimizi, dincliyimizi, birliyimizi pozma! Bizi bir-birimizdən ayırma! Türkü türkə qırdırma!

Türk xalqları özgənin fitnə dolu dadlı sözlərinə uymasın!

*Türk xalqları yatmasın!*
*Bir olsunlar! Diri olsunlar!" İri olsunlar!*
*Ey görklü Tanrı, ucasan!*
*Bu dünyada Türkü güclü qıl!*

# ƏLİŞİR NƏVAİ

*"Ana dilim üzərində düşünməyə başladım:*
*Türkcənin dərinliklərinə dalınca, gözlərimə on səkkiz min aləmdən daha yüksək bir aləm göründü.."*

Türkcə!..
Nə gözəldir səni sevmək...
Nə gözəldir səninlə düşünmək!..
Qırğız, Özbək, Türkmən, Azəri, Qazax, Tatar...

Və bu gözəl xalqların gözəl ifadəsi... Səni dinlərkən qopuzda, tarda, sazda, ağıl qalarını başda? Çeşidi-çeşnəsi geniş çiçəksən: məsələn; lalə...

*Türkcə!*
*Sən türklüyün səs bayrağısan!*
*Sən türklüyün ulu dayağısan!*
*Dilim,*
*Ürəklər dilim-dilim,*
*Yadlar danışsın başqa,*
*Türkcə mənim öz dilim!*
*Səni unutmaq ölümə bərabərdir!*

Can evimizə nəfəs kimisən... Sahiblərin o qədər çoxdur ki... Yanılaraq birimiz saymazlıq göstərsək sənə, ətrafımızdan bir başqası yüksəldər səsini: Qaşqarlı Mahmud üsuluyla, Nəvai diliylə, Karamanlı* öfkəsiylə... Və günü, saatı gələr, dövlət quşunun qanadı ilə zirvələrə çıxarsan, Mustafa Kamal Türkiyəsilə.

Türkcə!

---

* Karamanlı Məmməd Bəy. 1277-ci ildə Konyada aldırdığı qərarda belə deyirdi: "Bundan sonra divanda, bərgahda, dərgahda, məclisdə və meydanda türkcədən başqa dil istifadə olunmayacaqdır!"



Sən qolumuz, qanadımızsan.
Şanlı keçmişimizin aydınlıq bəxtimizsən!

Açın tarix kitablarını, xüsusilə ədəbiyyat tarixi ilə əlaqəli olanları: Əlişir Nəvaidən söz edən bölmələrdə onun türkcəyə olan sevgisini dərhal fərq edərsiniz... Bir çox şairlər gözəl şe'rlər yazarlar. Dildən ustalıqla istifadə edərək yüz illər sonrasına əl atan şair, əlbəttə ki, fərqlidir.

Bax, Əlişir Nəvai "fərqli" şairlərimizdən biridir: Füzuli kimi... Onun tərzi, üslubu bir çox şairə tə'sir etdi. Türk ədəbiyyatının əhəmiyyətli bacası olan Orta Asiya ədəbiyyatı, onun varlığıyla daha da gözəlləşdi və geniş yayıldı...

Şərqi türkcəsinin bütün gözəl ifadələrini özündə toplayan Əlişir Nəvai 1441-ci ildə Heratda doğuldu. Atası "Kiçkinə Bahadır" və ya "Kiçkinə Bahşi" deyə anılan Qiyasəddin Kiçkinədir. Bir dövlət adamı olan atasının vəziyyəti ilə əlaqədar, Nəvai kiçik yaşda doğulduğu yerdən ayrılıb İraqa getdi. Onun uşaqlıq dövrü İraqda keçdi. Atası öldükdə, Əbü-l Qasım Babürün himayəsi altında yaxşı bir təhsil gördü. Məşhəd, Səmərqənd kimi əhəmiyyətli elm və mədəniyyət mərkəzində yetişdi.

Əlişir Nəvainin bəxti uşaqlıq və məktəbli dostu Hüseyin Baykaranın Xorasan Xanı olmasıyla açıldı. Baykara Nəvaiyə yüksək dövlət vəzifələri verdi və o, elə fərmanlar verdi ki, — Nəvaiyə göstəriləcək hörmət ona göstərilmiş kimi sayılacağını e'lan etdi.

Hüseyin Baykara Nəvainin çox böyük bir sənətkar olduğunu bilirdi. Əslində özü də sənətkar idi. Baykaranın zəmin hazırlamasıyla Nəvai Herat şəhərinin elm və mədəniyyət həyatını alışmadığı bir şəkildə canlandırdı. Nəvainin təşəbbüsüylə sultan Baykaranın ətrafında toplanan söhbət məclislərində sənət daha da incəlir, fikir isə ucalırdı. Əslində, Herat mövcud halı ilə belə bir faydalı fəaliyyətlərə hazır idi. Çünki Molla Cami kimi

böyük bir alim, Xatifi kimi qüvvətli bir şair, Dövlətşah kimi məşhur bir yazıçı Heratın mədəniyyət və sənət mənbələri kimi ortada idilər. Bu gözəl şəraitdə Nəvai şərq türkcəsini həqiqətən şaha qaldırdı. Elə bir cığır açdı ki, şe'rlərində istifadə etdiyi dil ilə "Nəvai dili" olaraq ədəbiyyatımızda yer aldı. Təkcə mədəniyyət və sənət sahəsində deyil, Hüseyin Baykara Herat şəhərinin "Baş Nazir"i olaraq buranı karvansaray, hamamlar, mədrəsələr, xəstəxanalarla tə'min edərək, işgüzar bir dövlət adamı olaraq özünü göstərdi.

Nəvai türk dilinə aşiq idi. O, türk dilinə çox tələbkar idi. Ancaq bu tələbkarlığı ilə xalqın başa düşə bilməyəcəyi bir dil siyasəti güdmədi. Türklərin başa düşəcəyi ərəb və fars kəlmələrindən də öz əsərlərində istifadə etdi və türkcənin böyüklüyünü göstərməyə çalışdı.

Nəvainin dördü türkcə, biri isə farsca yazılmış beş divanı var. Türk ədəbiyyatında beş mənzuməli yazan ilk şairdir. Beşi ilə də yetinməyib, altıncı mənzuməsini də yazdı. Sadəcə şe'r deyil, elmi və əbədi əsərlər də yazdı. Cəmi əsərlərinin sayı 30-dan artıqdır...

Nəvai çox şüurlu bir türk aşiqi idi. Türk millətinin böyüklüyünü və türkcənin ucalığını çox yaxşı başa salırdı. Farscanın "ədəbiyyat dili" olaraq tanınmış olmasına heyrət edərdi. "Mühakemetül Lüğateyn" adlı əsərində farscaya adətən meydan oxudu. Bu əsərdə saydığı yüzə qədər türkcə fe'lin farsca qarşılığı olmadığını isbat etdi və kitabında belə dedi:

"Türkün biliksiz və zavallı gəncləri gözəl sayaraq Fars dilində şe'r söyləməyə sə'y göstərirlər. Həqiqətdə isə bir insan yaxşı və dərindən düşünsə, türkcədə bu qədər zənginlik varkən, bu dildə şe'r söyləmənin, hünər göstərmənin daha yerində və asan olacağını anlayar..."

Əlişir Nəvai fikirləri və əsərləriylə bir çox mövzuda liderlik etdi. Məsələn: "Mecalüsü-Nefais" adlı əsərində, ilk dəfə türk ədəbiyyatında "şairlər təzkirəsi" ağını açdı.

Nəvai türklüyün bir bütöv olduğunu bilirdi. Türk millətinin ayrı coğrafiyalarda yaşamış olmaları onun könül və fikir bağlarında heç bir olumsuz tə'sir etmirdi. Türklüyün Avropa qarşısında adətən bir "Son Bəyi" olan Qərb türklərinə-Osmanlıya sevgiylə baxırdı. Anadolu türkünün qərbə doğru "haraları" gücləndirdiyini və bu gücləndirmənin türk dünyasına gətirmiş olacağı qazancın fərqində idi. Bu sevgi, bu anlayış və bu nümunə könül bağıdır ki, yazdığı şe'rləri Bizans Fatihi Sultan Məhməd xana göndərirdi. Türküstanın türklük günəşi Əlişir Nəvainin bu hərəkəti, türk birliyinin, türklər arasındakı könül bağının coğrafiya tanımadığı həqiqətini ifadə edir.



3 yanvar 1501-ci ildə Heratda vəfat edən, türklüyün bu böyük şairi dünya durduqca türk könlümüzdə yaşayacaqdır.

## *MÜHAKEMETÜL LÜĞATEYNDƏN...*

*"Ana dilim üzərində düşünməyə başladım, türkcənin dərinliklərinə dalınca gözlərimə on səkkiz min aləmdən daha yüksək bir aləm göründü. Bu aləmin naxışlar, ziynətlər içərisində genişlənən göyü, doqquz göydən daha yüksək idi. Orada neçə fəzilətlər, neçə ucalıqlar xəzinəsinə rast gəldim. Bu xəzinənin inciləri, ulduzların ləl-cavahirlərindən daha da parlaq idi.*

*Bu aləmin gül baxçalarına girdim. Gülləri fələyin günəşindən daha parlaq idi. Hər tərəfində gözlə görülməyən, əl çatmayan daha nələr vardı, nələr....*

*Amma bu ambarın e'lanı qan tökəndi və güllərinin tikanı saysız-hesabsızdı. Bunları gördükdə düşündüm və dedim ki: Deməк, bizim türk şairlərimiz bu qorxulu və tikanlı yollardan çəkindikləri üçün türkcəni buraxıb getmişlər.*

*Bu yol, çox çalışmaq istəyirdi. Mən bu yoldan vaz keçmədim, onun şe'rindən doya bilmədim. Bu yolda getməkdən qorxmadım və hürkmədim.*

*Türkcənin fəzasında təbiətimin atını çaptırdım, xəyalımın gücünü qanadlandırdım. Vicdanım bu xəzinədən son dərəcə*

*qiymətli daşlar, dəyərli incilər aldı. Könlüm bu gül baxçasının hər cür çiçəklərindən, ucsuz-bucaqsız, cürbəcür qoxular iylədi.*

*Zənn edilməsin ki, mənim türkcəni öyməm türk olduğumdan və təbiətimin sözlərə türkcə alışmasından və farscanı bilmədiyimdən irəli gəlir. Əslində fars dilini öyrənmək üçün heç kimsə mənim qədər qeyrət göstərmədi və bu dilin doğrusunu və yanlışını mənim qədər yaxşı öyrənməmişdir..."*

*Əlişir Nəvai*



# ƏLİ QUŞÇU*

Özbək eli, Qazax eli, Türkmən eli, Qırğız eli, Azərbaycan yüzlərcə ildir dillərdə, kitablarda (farsca əlavə) Türküstan (Türk eli) olaraq ifadə edilmişdir. Türk xalqlarını ortaq ata-babalarının bir çoxu, bu böyük türk vətəninin bağından çıxmışdır. Bax, Əli Quşçu da bunlardan biridir.

Şöhrəti bütün dünyanın elm aləmini bürüyən bu böyük türk riyaziyyatçısı və astronomu 1400-cü ildə Özbək elində, Səmərqənd şəhərində doğuldu. Atasının peşəsinə görə "Quşçu" ləqəbiylə çağırıldı. Atası "Alim hökmdar" olan Uluğ Bəyin "Şahinlər başçısıydı."

* Qiymətli oxucular, tarix elminə gələcəyin aynası deyərlər... O aynada keçmişdəki atalarımıza baxdığımızda gələcəyimizin nə qədər görkəmli olacağını indidən təsbit edə bilərik. O böyük atalarımızın, o böyük xanların fəaliyyət əzmi və elmə susamış olduqlarını anlayıb uyğulaya bilsək, yetər. Bu sözlərimiz nə bir şişirtmə, nə də qeyri həqiqidir. Bir düşünün: Farabinin, Uluğ Bəyin, Biruninin, Əli Quşçunun, Mətənin, Timurun çıxdığı bir millətin gələcəyi qaranlıq ola bilərmi? Millət eyni millətdir, əgər bugün biz, o şanlı atalarımıza layiq bir "həyat anlayışı" içində deyilsək, məhşər günü bunun hesabı bizdən sorulacaqdır! Şanlı bir tarixin kölgəsində yatmaq, türkün işi ola bilməz! "Miras yedi" vəziyyətinə düşmək bizi yox edər...

Çalışmaq...

Birlik içində olduğumuz zaman millətimizə canlılıq gəlmiş. Bir türk xalqı digər bir türk xalqı ilə nə zaman qardaşca yaşayıb, əməkdaşlıq içində olmuşdursa o zaman millətimizin "iki günü bir-birindən gözəl" olmuş... Tarix aynasındakı gerçək bu ki: O, uca Hədisin işarət etdiyi "çalışqanlıq" türklərin həyat düsturu olmuşdur.

Farabilər, Əli Quşçular elə çıxmışlar... Elm və mədəniyyət mərkəzləri olan Səmərqəndlər, Buxaralar, İstanbullar elə yaradılmışlar...

Tarix gələcəyin aynasıdır...

Aynaya baxacaq atalarımızın təmiz üzləri, ağ alınları ilə özümüzü müqayisə etməyimiz lazım deyilmi?

Haradasan ey Əli Quşçunun milləti?

Əli Quşçu dünyanın ən böyük universitetlərindən sayılan Səmərqənd mədrəsəsində təhsil gördü. Şəxsən Uluğ Bəydən və Bursalı Hadizadə Rumidən dərs aldı. Xüsusiylə Uluğ Bəy gənc alim Əli Quşçuya çox böyük qiymət verdi. Onu tələbəsi olmaqla yanaşı bir qardaş kimi gördü: Bərabər ova çıxdılar, öz sarayında qonaq etdi, qulluğunda durdu...

Əli Quşçu çox işgüzar, çalışqandı... Susuz çöldə bir insan suyu necə arzularsa, Əli Quşçu da elmi elə sevərdi...

Bir gün, daha çox öyrənmək üçün Uluğ Bəydən gizli Girmana getdi. Girmanda təhsilini tamamladıqdan sonra, Ayın şəkillərinin o zamana qədər bilinməyən tərəflərini həll etmək üçün "Risale-i Hall-ül Eskəl-i Kamer" adlı bir əsər hazırladı.

Səmərqəndə döndüyündə Uluğ Bəy Əli Quşçuya "Bizə nə gətirdin?" deyə soruşduqda, o da hazırladığı əsərini ona verdi... Əli Quşçunun əsərini incələyən Uluğ Bəy, izinsiz getməsindən doğan nöqsanını bağışladı.

Uluğ Bəyin Səmərqənddə qurduğu rəsədxananın rəhbərliyində olan Qiyasəddin Cəmşid ilə Bursalı Hadızadə qısa aralıqlarla ölüncə, Əli Quşçu rəsədxanənin başına keçdi. Bu vəzifədə ikən Uluğ Bəyin şəxsən yazdığı "Uluğ Bəy Zeyci" deyə bi-

---

**Dünya çoğrafiyasını ağlı ilə, çalışqanlığıyla evinin həyəti edən millət, haradasan?**

**Və sən haradasan "göbəyinə günəş doğmayan" nəsil?**

**Yatmaq...**

**Cismən və ruhən yatmaq qatilimiz olacaq!**

**Yeni meydan zəfərləri qazanmağımız lazım...**

**Bu zəfərlərin meydanları laboratoriyardır, fabrikalardır, universitetlərdir...**

**Əli Quşçunu yazarkən, beynimin yarısını məşqul edən bu düşüncələr həvəsləndirir məni: Bişkek, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Ankara... Elmin, iqtisadiyyatın, mədəniyyətin XXI əsrdə dünya mərkəzləri olacaqlar!**

**Bu bir xəyal deyil...**

**Qələmimin coşquyla yazması bu üzdəndir!**



linən o məşhur əsərin tənziminə kömək etdi. Bu arada "Uluğ Bəy Mədrəsəsində" müəllimlik etdi.

Uluğ Bəyin ölümündən sonra Hacca getmək üçün yola çıxdı. Təbrizə gəldiyində, Ağqoyunlu türklərinin lideri Uzun Həsən Bəyin tə'kidi ilə onun xidmətinə girdi. Uzun Həsən Bəyin çox dərin hörmətini qazandı. O zamanlar Anadoludakı Osmanlı dövləti ilə Ağqoyunluların arası o qədər də yaxşı deyildi. Uzun Həsən Bəy, sülh şəraiti yaratmaq üçün Əli Quşçunu İstanbula elçi olaraq göndərdi. Osmanlı Dövlətinin başında olan Fatih Sultan Mehmed xan Əli Quşçuya İstanbulda çox e'tibar etdi. Onun özü ilə uzun-uzun söhbətlər etdi. Ona İstanbulda qalması üçün rica etdi. Əli Quşçu bir türkə yaraşan şəkildə: "Vəzifəm bitsin, gələcəyəm", — dedi. Həqiqətən, Əli Quşçu elçilik vəzifəsini tamamladığını Təbrizdə Uzun Həsən Bəyə söylədikdən sonra, söz verdiyi İstanbul yolunu tutdu.

Əli Quşçu İstanbulda əl üstündə saxlandı. Gündəlik iki yüz monet ilə Ayasofiya mədrəsəsinə müəllim olaraq tə'yin edildi. Riyaziyyat, həndəsə və kosmoqrafiya fənlərindən dərs verdi. Bunlardan əlavə bir kurs açaraq riyaziyyat öyrətməyə başladı.

Fatih çıxdığı səfərlərdə dahi Əli Quşçunu yanından heç ayırmadı. Fatihin yanında çıxdığı bir səfərdə ərəbcə yazdığı "Risalət-i Fethiyye" adlı əsərini Fatihə verdi. Fatih bundan çox xoşhal oldu.

Bu böyük türk alimi Əli Quşçu 16 dekabr 1474-cü ildə İstanbulda öldü. Məzarı Əyyub türbəsi yaxınlarındadır.

Əli Quşçu astronomiya və riyaziyyat kimi dəqiq elmlərlə yanaşı hədis, təfsir kimi islami elmlərlə də məşğul oldu. Əli Quşçunun ən böyük xidməti Osmanlı dövlətində astronomiya elminin əsasını qurmasıdır. Anadolu türkü bu baxımdan Əli Quşçuya çox fərqli baxmışdır. Əli Quşçu Anadolu türkü ilə öz ölkəmiz olan Orta Asiya arasında bir nümünə körpü olaraq görülmüşdür. Taleyin onu Orta Asiyadan ayrılıb Anadolu yaylağına gətirdiyi türklər ilə Türküstanda qalan türklər arasın-

dakı birlik duyğusunun canlı nümunəsi olaraq hafizələrdə yer etmişdir.

Ağıllı adamın həll edə bilmədiyi nə vardır?

Uluğ Bəylə dost, Uzun Həsən Bəylə və Fatih Bəylə candost bir Əli Quşçu... Belə ki, bu üç türk rəhbəri ayrı-ayrı türk coğrafiyalarında, ayrı dövlətlərin başında idilər. Əli Quşçu bu üç lider, bu üç dövlət üçün xidmət verərkən, sanki belə deyirdi:

"Biz bir bütünük. Birimiz hamımız üçün..."

Alim atamız Əli Quşçunu rəhmətlə xatırlayırıq.



# FATİH SULTAN MƏHMƏD XAN

Orta Asiyadan qopub qərbə doğru gələn türklər nəfəs aldıqları hər yerə vətən şüuru ilə baxdılar. Dayandıqları hər bir yerdə "Dövlət sarayı" tikdilər... Xan otağı qurdular, Xorasanda, Reydə, İznikdə, Konyada...

Türklər qərbə axışırdı... Ağıllara durğunluq verən axış idi bu! Otükenin duru bulaqları, sevincli mənbələri yol tapmışdı qərbə, Anadoluya...

*Getdikləri hər yer vətən,*
*Gördükləri hər iş dastandı!*
*Onlar Peyğəmbərdən muştuluqluydu.*
*Onlar Allahın ordusuydu!*

Nə sədd dayandırırdı onları, nə əngəl... Həm də qaranlıq dayana bilərdimi parlaq işığa? Onlar işıq idi bütün insanlığa!

Qırğızın, Özbəyin, Qazağın, Uyqurun, Tatarın qardaşları Oğuzlar: "Bismillah" deyib girmişdilər Anadoluya...

Oğuzların kınık boyu Selçuklu əzəmətini yaratdı bu yeni vətəndə. Elə bir əzəmət ki, dünənki Çinin yerini alan Bizans əvvəl Malazgirtdə, sonra Miryakofelon-Karamikbelində əzildi, büzüldü...

Elə bir əzəmət ki, Konyada güllər açdı, Hacıbekdaşda novruzgülü... "Gəl, nə olursan ol" deyən dillər, "Elə, belə, dilə" sahib olan ərlər Anadolunu könüldən fəth etdilər!

Gün gəldi yoruldu kınık boyu...

Bu sırada Oğuzun kayı boyu önə çıxdı, türkün istiqlal bayrağını qapdıqları kimi, Söyütdə tikdilər! *

Ərtoğrul Qazi oğlu Osman Qazi ilə Söyütdə parlayan OSMANLI günəşi, qısa zamanda üç qitəni aydınlatmağa başladı... Dövlət sarayı əvvəl Söyütdə, sonra Bursada tikildi. Çox keçmədən Ədirnədən eşidildi.

* Türk tarixi bir bayraq yarışı kimidir... Tarix boyunca türkün istiqlal bayrağı heç yerə düşmədən, bir boydan digərinə, bir xalqdan digərinə dolaşıb durub... Bu yarışda "Böyük xanlıq" sancağı da əldən-ələ keçər.

Kosovada, Niğboluda, Varnada gücü sınandı Osmanoğlunun. Bilməyənlərə yaman əsgər olduqları döyüş meydanlarında bildirildi.

Rum eli daxil, bütün Anadolu Orta Asiya türkünün sevgi, dinclik, mərhəmət, ədalət atmosferində nəfəs alan oldu. Bu tərtəmiz hava, bugünkü İstanbulda Bizans dövlətçiliyi, Trabzonda Pontus tərəfindən pozulurdu, kirlədilirdi. Bu iki yer sağlam insanı gəmirən çürümüş hüceyrə kimi idi və yenidən təmizlənməliydi!

Türkün gündəliyində əvvəl Bizans var idi...

Qaldı ki, Bizansı — Konstantinopolu fəth etmək bir Peyğəmbər buyuruğuydu. Və bu şəhəri ancaq "gözəl əsgərlər" fəth edə bilərdilər!

Türk əsgəri gözəldi... Onun komandiri gözəldi... Rum elinin yaxasını "dest-i ibadət ilə" alan əsgərlərin gözəlliyi, Peyğəmbərimizin hökmünə layiq bir gözəllik idi!

Bizans, tarixə qarışmaq üzrə Türkü gözləyirdi... Gözəl əsgəri, gözəl komandiri gözləyirdi.

*"Fəthdən əvvəl cuma günü Ayasofiyada cuma namazını qıldılar və rutbe-i İslam oxundu. Sultan Məhməd xan Qazi adına kim, ol Sultan Murad xan Qazi oğludur. Və ol Sultan Məhməd xan Qazi oğludur. O dahi Sultan Bayazit xan oğludur. Və o, dahi Murad Hünkar oğludur. O, dahi Orxan Qazi xan oğludur. Ol dahi Osman Qazi xan oğludur. Ol dahi Ərtoğrul Qaazi xan oğludur. Ən sonunda Gök-Alp nəslindəndir, OĞUZ XAN oğludur..."*

*(Aşıq Paşazadə)*



İkinci Murad xan oğlu Fatih Sultan Məhməd xan 1432-ci il martın 30-da səhər vaxtı Ədirnə şəhərində dünyaya gəldi. Anası türk soylu Hüna Xatun idi.

Gələcəyin Fatihi kiçik yaşlarından başlayaraq iç-içə yaşadı. Əvvəl Amasiyada, daha sonra Manisa valiliyində yer aldı.

İkinci Murad xan oğlunu çox yaxşı yetişdirdi. Şahzadə Məhməd, dövrün ən tanınmış elm, mədəniyyət, hikmət və sənət ərbablarından dərs aldı. Şahzadə Məhmədə müəllimlik edənlər arasında kimlər yoxdur ki... Molla Qurani, Xocazadə, Xızır bəy Çələbi, Əli Tusi, Molla Zirək, Sinan Paşa, Molla Lütfi, Fəxrəddin Acəmi, Xoca Xeyrəddin və daha neçələri... Müəllimlər yorulmadan öyrədir, gənc Fatih isə yorulmadan öyrənirdi... Bir cür elmdən doymurdu. Gün keçdikcə iradəsi polad kimi bərkiyirdi, beyni mükəmməlləşirdi.

Qısa zamanda Çığatay ləhçəsini, ərəb və fars dillərini öyrəndi. Dil öyrənmək yeni dünyalar tanımaqdı. O bunu bilirdi: Yunan, Sirp, İtalyan, İbraniçə dillərini öyrəndi... Ərəb və fars ədəbiyyatı ilə yaxşı-yaxşı tanış oldu. Müsbət elmlərdən isə gənc şahzadənin ən çox əhəmiyyət verdiyi fənlər: riyaziyyat, fizika, astronomiya, həndəsə və savaş taktikası. Aydın idi ki... Xan olma növbəsi gəldiyi üçün Xan olmayacaqdı!

Aydın idi ki... O, çağı bağlayıb, çağ açacaqdır!

Gənc şahzadə belə bir hədsiz həvəs və əzmlə hazırlanırdı...

O, on üç yaşında idi... Tale, bə'zən xan ailəsinin üzvlərinə bu yaşda da dövlətə "Baş olma" məs'uliyyəti yükləyir. Gələcəyin Fatihi üçün də belə oldu. Macarlar ilə 10 illik sülh müqaviləsi bağlayan Sultan İkinci Murad xan, bu sakitlik şəraitində gənc şahzadəsinə məs'uliyyəti vermək istədi. Əslində, bu on üç yaşındakı, sözdə "uşaq", həmyaşıdlarından ən az on yaş böyük bir bəyin gücünə sahib idi...

Gənc şahzadə, atası taxtdan vaz keçdikdən sonra, Osmanlı dövlətinin başına Padişah olaraq keçdi... O, qısa bir adam idi, uşaq görüntüsündəydi. Avropalı dövlətlər, bunu bir fürsət bilərək, Papanın təşviqi ilə yeni ordu qurdular. Avropalı dövlətlər

bağladıqları sülh müqavilələrini özləri də pozdular... Osmanlı dövlətinin əhəmiyyətli dövlət böyükləri, "ikinci Məhməd xanın kiçik yaşda olduğunun Baş komandirlik vəzifəsini bacara bilmək üçün əngəl ola bilər deyə" Manisada istirahətdə olan atası ikinci Muradı vəzifə başına çağırdılar. İkinci Murad xan təkrar dövlətin və ordunun başına döndü... Düşmən ordularını Varna meydanında qarşıladı... Bu elə bir qarşılama oldu ki; türk ordusu şanlı bir fırtına idi! Sözündən dönən düşmənə elə bir dərs verdi ki, türk tarixində birinci Varna zəfəri kimi tarixə keçən müdhiş bir müvəffəqiyyət əldə etdi.

İkinci Murad, təkrar Manisaya döndü və taxtını yenə də oğluna verdi. Belə olduqda Avropalı düşmən dövlətlər yenə hərəkətə keçdilər. Murad xan yenə də Manisadan döndü və 1448-ci ildə ikinci Kosova meydan zəfərini türk tarixinə hədiyyə etdi... Bu qələbədən uç il sonra, bu mükəmməl, çox gözəl ata, bu böyük türk xanı həyata gözlərini yumdu...

İş Fatihin boynuna düşmüşdü... Manisada olan gələcəyin Fatihi Ədirnəyə doğru yola çıxarkən, əzmin, iradənin, elmin, comərdliyin işığında dünyada yeni üfüqlər açmağı düşünürdü... Bu həvəslə at çaptırır, böyük həyəcanla tez Ədirnəyə yetişməyə çalışırdı. Gənc idi və o, uşaqlıq çağını çoxdan aşmışdı. O yetişmiş, kamil bir adam idi, fiziki baxımdan gənc, fikiri baxımdan yetişmişdi artıq...

Ədirnəyə çatan kimi, dərhal dövlətin gələcəyini düşünməyə başladı. Çox düşünmək lazım gəlmirdi, çünki hər şeydən əvvəl, Bizans deyilən o dövlətin ayaq altından yox edilməsi gərək idi...

Manisada ona dərs verən Molla Hüsrev müəlliminin söhbətini və ona vermiş olduğu sözü heç unutmamışdı...

Molla Hüsrev belə demişdi: Mədinədə bir məsciddə toplanılmışdı, oradakıların ağıllarından belə bir sual keçirdi: "Görəsən Konstantinopol fəth ediləcəkmi?"

Bu sual orada olan peyğəmbərimizə əyan oldu. Peyğəmbərimiz oradakılara belə dedi: "Əlbətdə... Əlbətdə, Konstantinopol fəth olunacaqdır. Onu fəth etməyi bacaran amir çox gözəl hökmdar və çox gözəl əsgər olacaqdır."



Bu sözləri dinləyən gənc şahzadənin gözləri dolmuş, yerindən qalxıb müəlliminin əlindən öpərkən belə demiş: "Bir gün təkrar padişah olsam əyər, peyğəmbərimizin sevincli qıldığı sərdar mən olacağam!..

Bu söhbət ikinci Məhməd xanın yaddaşına nəxş olunmuşdu. Konstontinopol fəth olunmalıydı!

Dərhal fəth hazırlığına başladı... Geriyə dönülməz bir yolda idi: "Ya mən Bizansı alıram, ya da Bizans məni!"

Belə bir iradə gücü ancaq Türk xanında ola bilərdi. Eyni Mətə xan kimi... O da: "Bütün türk xalqlarını birləşdirəcəyəm!" deyirdi. Birləşdirdi də...

Boğazın sahilinə qalalar tikdirdi. Bu qalalar yenə də sağsağlamdır. Toplar tökdürdü; balistik hesablamaları şəxsən özü etdi.. Dünyanın ən mükəmməl ordusunu yenidən gözdən keçirtdi, bütün əksikləri tamamladı... Bu arada ağzı dualı bir ər ortaya çıxdı... Uluğ türk kimi, Irkıl ata kimi, Dədə Qorqud kimi! Könlü kimi adı da ağdı... Ona Ağ Şəmsəddin deyirdilər. O qoca dövlətin başı, padişahı onu görüncə ayağa qalxır, bir tələbə kimi hörmətlə əl-ələ divana dururdu...

Kim idi bu ağ Şəmsəddin?

O, Ankara göllərində könülləri bayram edən, Bayram Vəlidən dəm almış, düstür almışdı... O, gənc padişahın iman ifadəsiydi. O, fəth hazırlığının mə'nəvi baş komandiri idi!

Molla Hüsrevin şahzadəliyi zamanı ona anlatdığı olayı, o da padişaha pıçıldadı... Üstəlik, Sahabələr zamanında Konstantinopolu fəth etməyə gələn, amma uğurlu ola bilməyən İslam ordusunun sancaqdarı Əyyub Sultanın məzarının Bizansda — Konstantinopolda olduğunu yuxusunda təsbit etmişdi. Bu təsbitini də izah etdi...

Bundan sonra çürümüş Bizans ordusu bu iman ordusuna dayana bilərdimi?

Dayana bilmədi də... Padişah ikinci Məhmədin, qan tökülmədən təslim təklifini rədd edən Bizans imperatoru bu iman ordusunun ağılalmaz hücumlarına dayana bilmədi!

Gəmilər üzdürüldü sahildən... Dua səsləri ərşə çıxdı qalalardan... Könüllər fəth eşqiylə doluydu. O gün, bütün bəxtlər uluydu!.. Bir əsgər var idi ki, onun bəxti daha da gözəldi: Ulu bəxtliydi! Aldı türk sancağını əlinə, ox yedi, qarğı yedi, güllə yedi, dayanmadı... Tələsdi, qaçdı və fəthi müjdələrcəsinə düşmən qalasının bürcünə taxdı! Onun adı yalnız Həsən deyil, Ulu bəxtli Həsəndi! Və bütün türklər yüz illər boyu bu adla andılar onu.

Açıldı o köhnə Bizansın günah qapıları... İslam imanının, Türk ən'ənəsinin mərhəmətiylə, ədalətiylə və nəhayət, türk gücüylə açıldı o qapılar... Və gözəllik gəldi o yeddi təpəli yeni türk şəhərinə.. Bizans yox olmuşdu... Konstantinopol yox olmuşdu, artıq İstanbul var idi. Dünya durduqca bu şəhər bu adla anılacaqdı!

Padişah ikinci Məhmədin adı artıq FATİH SULTAN MƏHMƏD XAN idi.

O, bütün xristianları sərbəst buraxdı. Mala, cana, ırza heç bir təcavüz olmadı. Bizansın Baş naziri Lukas Notaras Fatihin hüzurunda şəxsən Fatihdən iltifat gördü... Yüz illər boyu e'tinasızlıq görən şəhər xarabalığa dönmüşdü və qısa bir zamanda imar edildi. Yeni Patrikin seçilməsini şəxsən Fatih istədi. Bundan sonra Patriklərin protokolda Vəzir-Marşal hörmətini görməsini əmr etdi... Türkləri Anadoludan atmaq üçün XI əsrdən bəri axın-axın Avropadan gələn xaçlı orduların presi və zülmü altında əzilən şəhər xalqı çaş-baş qaldı bu əsil rəftarlar qarşısında...

Türk və islam dünyası bayram etdi... Məmlüklular Qahirədə günlərcə şənləndilər... Cənubi Hindistanda hakim olan Timurun nəvələri şəxsi elçi göndərərək Fatihi təbrik etdilər. Abbasi xəlifəsi bütün məscidlərdə Bizansın fəth olunmasında şəhid düşənlərin ruhuna Qur'an oxutdu... Dünya ayağa qalxdı! Hörmətlə salamladı bu fəthi.

Fatih, təkcə Bizansı deyil, könülləri də fəth etmişdi. Elmi ilə, mədəniyyəti və dahiliyi ilə türk xanları arasında ən görkəmlilə-



rindəndir. Türk birliyini tə'min etmək üçün əvvəl fikri birliyinin lazım olduğuna inanırdı. Uluğ Bəyin tələbəsi, dostu olan Əli Quşçunu yanına çağırtdı. Türküstanın iman abidəsi Molla Caminin kasıb olduğunu eşidincə, dərhal ona pul göndərdi və İstanbula də'vət etdi. O Molla Cami ki, atının bir yüyənini Hüseyin Baykara, bir yüyənini də Əlişir Nəvai tutarmış. Molla Cami Türküstandan qalxıb İstanbula, Fatihə yetişmək üçün yollara düşdü. Konya şəhərinə çatdıqda Böyük türk xanının, Fatihin ölüm xəbərini alınca geri döndü. O, elmin, alimin qiymətini bilirdi. Alimləri qoruyar və onlara son dərəcə hörmət hissi duyardı. Padişah olduqdan belə sonra müəllimlərinin əllərini öpər, onları gördükdə isə ayağa qalxardı. Çığatay türkcəsinin böyük şairi Əlişir Nəvai yazdığı şe'rləri Fatihə göndərərdi. Fatih, dünyadakı bütün türklərin qardaş olduqlarını bilir, onların bir-birlərinə xoş hisslərlə baxmasını istərdi.

Fatih bir dahi idi. Səhv etməkdən uzaq, bir alim Padişah idi. Peyğəmbər kimi əxlaqlı, türk adət və ən'ənəsinə sadiq və alışqan idi. Qanun-qaydaya ilk olaraq şəxsən özü əməl edər, bir haqsızlıq etmişsə də, barəsində çıxan hökmə qarşı e'tiraz etməzdi. "Yetmiş iki millətə eyni gözlə baxardı". *

Fatih, mükəmməl bir şair idi. "Avni" ləqəbiylə gözəl şe'rlər yazardı. Birlik və bütünləşməyə qarşı olan, türk dünyasında hər ağızdan bir söz çıxardanlara qarşı düşmən idi. Karamanoğlu Bəyliyinin liderliyinə də qəzəbli idi. Ona görə yazdığı şe'rin bir beytində belə deyirdi şair Fatih:

*"Bizimlə səltənət lafını edərmiş ol karamani*
*Xuda fürsət verirsə qara yerə karam anı!"*

Fatih, Trabzondakı Pontus dövlətçiliyini də aradan qaldırdı. Qara dənizi bir türk gölü halına gətirdi və neçə qələbələrlə

* Bu mövzuda o qədər irəli getmişdi ki, dövlətə qarşı qüsuru olan türklər yüksək vəzifə ala bilməzdilər. Dövlətin yuxarı orqanlarına, rəhbər vəzifələrə idarəçi hazırlayan "Enderun məktəbinə" millətcə türk olmayanlar da girə bilirdilər.

türkün tarixinə şanlı səhifələr əlavə etdi. Heç şübhəsiz dünya çapında ən böyük qələbəsi Fatihin Bizansı fəth etməsiydi. Bu fəth nəticəsində orta çağ qapandı və yeni çağ başladı. Bütün türklər, bu qəhrəman atasını dünya durduqca hörmətlə anacaq. Onun xidmətini bir neçə səhifədə deyil, bir neçə kitabla ancaq anlatmaq mümkündür.

Dünyada türk əsrini başladan bu böyük atamızı rəhmətlə xatırlayırıq.



## FƏTH MARŞI

*Yelkənlər biçiləcək, yelkənlər tikiləcək*
*Dağlardan çəkdirilər, qalionlar (hərbi gəmi) çəkiləcək*
*Kəlbətinlərlə surun (qala divarı) dişləri söküləcək!*

*Yeri hələ nə deyə oyunda oynamaqdasan,*
*Fatihin İstanbulu fəth etdiyi yaşdasan!*

*Sən də keçə bilərsən yardan, anadan, başçıdan...*
*Sənin də dastanını oxuyarıq əzbərdən...*
*Xəbərin yox kimidir daşıdığın dəyərdən;*

*Eldə sənsən, dildə sən: konüldəsən, başdasan,*
*Fatihin İstanbulu fəth etdiyi yaşdasan!*

*Üzünə vurmaq gərək zamanın fəndini!*
*Göstər; qabaran sular necə yıxar bəndini!*
*Kiçik görmə, xor görmə-dəliqanlım — özünü,*

*Bu qırıq abidəni yüksəldəcək daşdasan;*
*Fatihin İstanbulu fəth etdiyi yaşdasan!*

*Bu kitablar Fatihdir, Səlimdir, Süleymandır;*
*Bu mehrab Sinanüddin, bu minarə Sinandır;*
*Haydı artıq, yatan dastanını oyandır!*

*Bilməm nədən gündəlik işlərlə təlaşdasan...*
*Qızım, sən də Fatihlər doğacaq yaşdasan!*

*Dəliqanlım, işarət aldığın gün atandan,*
*Yeriyəcəksən... millət yeriyəcək arxandan!*
*Sənə salam gətirdim Ulu bəxtli Həsəndən;*

*Sən ki, bürclərə bayraq olacaq qumaşdansan*
*Fatihin İstanbulu fəth etdiyi yaşdasan!*

*Burax; xarab saatlar yalan, yanlış işləsin!*
*Çələbilər çəkilib hərəmlərdə qışlasın!*
*Yeri aslanım, fəth hazırlığı başlasın..*

*Yeri – hələ-nə deyə özünə savaşdasan,*
*Fatihin İstanbulu fəth etdiyi yaşdasan!*

*Arif Nihat Asya*



## GÖNÜLNAME

*Sevdün ol dilberi söz eslemedün vay gönül,*
*Eyledün sen özini aleme rüsvay gönül,*
*Sana cevr eylemede kılmaz o pervay gönül,*
*Cevre sabr eyleyemezsün nideyin hay gönül,*
*Gönül, eyvay gönül, vay gönül, eyvay gönül.*

*Çak olan dest-i cefa ile giribanundur,*
*İlişen har-ı gam ü mihnete damanundur,*
*Dökülen yere bela tigi ile kanundur,*
*Her dem ağıza gelen mihnet ile canundur*
*Gönül, eyvay gönül, vay gönül, eyvay gönül.*

*Tali-ün yüzi gülüb olmadı handan, nideyin,*
*Yüregün derdüne bulunmadı derman, nideyin,*
*Kasduna yar çekerek hancer-i bürran, nideyin,*
*Viriserün bu gam u mihnet ile can, nideyin,*
*Gönül, eyvay gönül, vay gönül, eyvay gönül.*

*Vasl-i dilberle nasib olmadı dil-şad olmak,*
*Dest-i cevr ile yıkılan dilün abad olmak,*
*Dam-ı gamden dil ü can bulbülü azad olmak,*
*Niçeye dek işçün efgan ile feryad olmak,*
*Gönül, eyvay gönül, vay gönül, eyvay gönül.*

*Bilmedüm derd-i dilün ölmek imiş dermanı,*
*Öleyin derd ile tek görmeyeyin hicranı,*
*Mihnet ü derd ü game olmağıçün erzani,*
*Avni'ya sencileyin mihnet ü gam keş kanı,*
*Gönül, eyvay gönül, vay gönül, eyvay gönül.*

*AVNİ (Fatih Sultan Məhməd xan)*

# BABUR ŞAH

Timur xanın nəvələrindən olan Zahirüddin Məhəmməd Babur Şah 14 fevral 1483-cü ildə Fərqanədə anadan olmuşdur. Atası Fərqanə hökmdarı Ömər Şeyx Mirzə, anası isə, Kulluğ Nigar xanım olmuşdur... Gənclik illəri təhsil və tərbiyə yanında, siyasi mübarizələr içində keçdi. Atası öldükdən sonra Fərqanə taxtına oturdu. Yaxşı yetişmiş, döyüşkən və qorxusuz idi. Tale onun qarşısına daha döyüşkən və davakar bir başqa türk oğlunu çıxardı. Bu böyük dava ustası Şeybani Xandı!

Bu iki böyük türk arasında, qarşı-qarşıya öldürücü mübarizə başladı. Türk türkü qırırdı!* Bu böyük mübarizədə Şeybani xan üstün gəldi və Babur türk elini tərk etdi.

Amma o, mübarizədən vaz keçmədi. Kabula gəldi və özünü Padişah e'lan etdi. Ağlında Şimali Hindistan var idi. Özünü "Padişah" e'lan etdiyi gündən e'tibarən Hindistana hakim olma düşüncəsi ilə məşğul oldu. 1514-cü ildən başlayaraq illər boyu Hindistana hücumlar təşkil etdi. Axırda 17 noyabr 1525-ci ildə Hindistanı fəth etmək üçün ordusu ilə bərabər Kabuldan hərəkət etdi. Panipat meydan döyüşünü yeddi saat içində qazandı və Hindistana hakim oldu. Aqranı paytaxt e'lan etdi.

Babur haqqında yazı yazan tarixçilər, tədqiqatçılar bu böyük dahinin hansı tərəfini daha çox yazmaları lazım olduğunu hey

* Şübhəsiz, hər bir hadisəni baş verdiyi zamanın şərtləri içində dəyərləndirmək lazımdır. Türk könlümüz, hansı səbəblə olursa-olsun, türkün türkü qırmasına razı qalmaz! Timur ilə İldırım, Toxtamış ilə Timur, Yavuz ilə Şah İsmayıl, Şah İsmail ilə Şeybani xan, Şeybani xan ilə Babur Şah və daha neçələri arasında keçən mübarizələrdə tökülən qanlar türkün qanı idi! Türk xalqlarının "siyasət ehtiyacı" və ya "Böyük xanlıq" uğrunda bir-birinə girməsi hər halda türklüyün keçmişdəki bir zəifliyi olmuşdur. Atalarımız "ən yaxşı yol olaraq" müharibə yolunu seçmişlər. Bundan sonra türk xalqları belə problemləri "birlik və qardaşlıq" meydanlarında həll etmək məcburiyyətində olmalıdırlar. Tarixin "ibrət" meyvələri qarşımızdadır...



tərəddüdə düşərdilər... Çünki elə bir şəxsiyyət ilə qarşılaşırdılar ki, çaş-baş qalırdılar. Babur xan həm yüksək səviyyəli əsgər, həm dövlət adamı, həm də zamanının ən böyük şair və yazıçısı idi... İki xüsusiyyəti də uzun-uzun anlatmalı bir şəxsiyyət idi. O, həm ədəbiyyatçıların, həm də tarixçilərin söz söyləyəni idi.

Yaradan onu bir çox xüsusiyyətlərlə bəzəmişdi... Xoşsöhbət və nə'şəli idi... Dövlət adamı olaraq yüksək qabiliyyətli, əsgər olaraq polad intizamlı idi! Şair, yazıçı, ədəbiyyat, botanika mütəxəssisi, zoologiya alimi, gözəl yazı yazan, bağça me'marı... Bu xüsusiyyətlərlə Babur Şah atamız təkcə türk dünyasında deyil, bütün dünyada tanınmışdır.

Babur Hindistanda qurduğu türk dövləti ilə hindlilərə də sevinc, xoşbəxtlik gətirdi. Adil, dürüst rəhbərliyi ilə könüllərdə taxt qurdu. Bütün hindlilər turklərə "qardaş" gözüylə baxdılar. Hindli filosof KEBİR belə deyirdi:

"Ürək təmizliyi Qanqda yuyunmaqdan daha əhəmiyyətlidir. Hindlilər və türklər, eyni torpaqdan düzəldilmiş bir saxsı kimidirlər. Allahı sevənlər və ona yaxşı əməl edənlər qardaşdırlar..."

Babur Şah Çığatay turkcəsinin ən usta şairlərindəndir. Divanı, Əruzu, Risalesi, Mubeyyen adlı iki misralı mənzumələri, Risale-i Validiyyesi və o böyük, müəzzəm "Baburnamə"si hələ də maraqla incələnməkdədir.

Doğulduğu vaxt ona Babur (bəbir) adını verən Xoca Ubeydullah Ahrarın farsca yazdığı **"Qanunlar məcmuəsi"** kitabını türkcə olaraq nəzmə çəkməsi döyüş meydanlarında gün keçirən bir insanın, bir dövlət adamının fövqəl'adə qabiliyyətlərinin varlığını ifadə edər. Sadəcə bu fəaliyyətləri ilə kifayətlənsə yenə də yaxşı idi. Fəqət o, xatirələrini topladığı "Baburnamə" əsəri ilə dunyanın ona qarşı heyranlığını aldı. Macar türkoloq Rasoyi "Baburnamə" üçün deyir: "Dünya ədəbiyyatının ən maraqlı əsəridir". Fransız alimi Grenard "Baburnamə"ni, Sezarın "Qalya səfəri" adlı xatirələrindən daha üstün tutur.

Bəstəkar, me'mar, zooloq, botanik mütəxəssisi olan Babur şah, "Hatt-i Baburi" adını verdiyi bir yazı çeşidi icad etmişdi.

Bəstələrinin olduğu bilinməkdədir, amma onlardan bizə çatanı olmamışdır.

Babur şah Anadolu türkləri ilə davamlı əlaqəli olmuşdur. Osmanlılar, xüsusilə əsgəri təchizat baxımından Hindistan türk dövlətini müdafiə etmiş və ona kömək əli uzatmışdır. Söz gəlişi, topçu Mustafanı Baburun əmrinə vermişdi.

Babur 1530-cu ilin dekabr ayının 25-də ölmüşdür. O, öldüyü zaman Hindistan türk dövlətinin* sərhədləri bu günkü Pakistan, Banqladeş, Əfqanıstan, Hindistan torpaqlarının içinə almaqda idi.

Bu böyük çox qabiliyyətli atamızın ruhu şad olsun.

* Hindistanda qurulan bu türk dövləti dərin izlər buraxdı. Məşhur Tac Mahal, Babur oğullarının əsəridir. Dövlət Alemgir Şah zamanında dağılmağa başladı. Çünki ingilislərin 17-ci əsrdən e'tibarən başladıqları ticari fəaliyyətləri siyasi mahiyyət kəsb edirdi. İngilislər sakitliyi pozmağa başladılar. Alemgir Şahın oğlu Bahadur Şah zamanında SİH-lər üsyana başladılar. Əfqanlar isə dövlətdən ayrıldılar. 1766-cı ildə İngilislər ilə bağlanan Allahabad müqaviləsiylə dövlət İngilislərin xeyrinə xidmək edəcək vəziyyətə gəldi. Bu tarixlərdə ruslar Orta Asiyanı, ingilislər isə Hindistan və onun şərqini, türk xalqlarının birlik içində olmamasından istifadə edərək öz tə'siri altına aldılar... Bahadur Şah zamanında Sipahilərin üsyanını yatırdan ingilislər, 1858-ci ildə kraliça Viktoriyanı Hindistan kraliçası e'lan etdilər. Beləliklə, Baburun minbir əməklə qurduğu dövlət yıxıldı. Hindistan ingilislərin əlinə keçdi. Amma türkün Şimali Hindistandakı tə'siri uzun zaman davam etdi. Kişanların, Ağ Hunların, Qaznəlilərin, Timurluların və Baburun əməyi boşa getmədi.



# FÜZULİ

Türk dünyasının ən məşhur şairi Füzuliyə "acıların, iztirabların şairi" deyilsə daha doğru olar...

Həqiqətən, bu böyük şair hey acılar içində yaşadı. Çəkdiyi acıları şe'r qafiyəsində naxış-naxış işlədi... Eşq ona iztirab, eşq ona çilə oldu.

*"Ey Füzuli, yar əgər cevr etsə ondan incimə:*
*Yar cevri aşiqə dəm məhəbbət təzələr"*

Şe'rlərinə baxdığımızda onu bir qara sevda şairi olaraq görürük. Bu mövzuda söyləntilər də vardır... Deyirlər ki: Füzuli gəncliyində Rəhmətullah Əfəndi adlı alim və yüksək mövqeli bir adamdan dərs alırkən müəlliminin qızına aşiq olmuş... Ancaq eşqini qıza və qızın atası olan müəlliminə aça bilmədiyi üçün də belə yanıqlı şe'rlər yazmışdır...

Bu rəvayət nə qədər doğrudur bilinmir. Ancaq bir həqiqət var ki, bu böyük Azəri şairi şe'rlərində dərin bir eşqi tərənnüm edir.

*Məni candan usandırdı, cəfadan yar usanmazmı?*
*Fələklər yandı ahımdan, muradım şəm'i yanmazmı?*

*Qəmim pünhan tutardım mən, dedilər: "Yarə qıl ruşən"*
*Desəm, ol bivəfa, bilməm, inanarmı, inanmazmı?*

Bu necə bir qara sevda? Bir gözələ duyulan dərin bir eşqmi? Yoxsa, bütün bu gözəl söyləyişlər Allaha ulaşmaq üçün yoğun bir sevgi ilə ibadət yolunda doğru düzgün qaçınaqmı?

Ədəbiyyat tarixçiləri bu sualın cavabını axtarmaqda olsunlar, biz şairimiz Füzulini anlatmağa çalışaq...

Əsl adı Məhəmməd olan Füzuli, təxminən 1490 ilə 1495 illəri arasında İraq türklərinin yoğun olaraq yaşadıqları Kərkükdə doğulmuşdur (əslində doğulduğu şəhər və doğum tarixi bilinməyir). Oğuzların Bayat boyuna mənsubdur.

Füzuli yaxşı bir təhsil görmüşdür. Ərəb və fars dilləri ilə bu dillərin ədəbiyyatlarını öyrəndi və çox gənc yaşlarından e'tibarən şe'r yazmağa başladı.

Füzuli bütün ömrünü Bağdadda və onun ətrafında keçirmişdir. İş fəaliyyəti mə'lum deyildir. Bildiyimiz tək şey, həyatını yoxsulluq içində keçirdiyidir. Yaşadığı ən rahat dövr Kanuni Sultan Süleymanın Bağdadı fəth etdikdən sonrakı dövrdür. Kanuni, bu böyük şairə, Bağdad fondlarını gəlirlərindən hissə verilməsini əmr etmişsə də, bu ödəmənin Füzuliyə davamlı olaraq ödənməməsini yazmış olduğu "Şikayətnamə" adlı əsərindən anlayırıq.

Şübhəsiz, fikir və sənət baxımından çox yüksək bir insan olduğu halda, həyatda layiq olduğu rəfahı əldə edə bilməmiş olması da Füzulini dərdli-dərdli danışdırmışdır. Ancaq Füzuli dərdli, acılı olmaqdan da xoşbəxtdir.

*"Çox olduqca qəmim, dərdim bu eşq yolunda xoş halım,*
*Füzuli, şad olub şükr etməyimmi, ne'mətim artar..."*

Eşqin acısından, iztirabından bəhs edər, fəqət bundan həzz duyduğunu və qurtulmaq istəmədiyini də anladır. O, sadəcə dərin və yanıq bir şair deyil o, şe'r sənətinin zirvəsidir. Bir çox misrasını dövründə keçərli olan söz sənət hünərləriylə işləmişdir. Şe'rlərində parlayan zəka, zarafat işıqları, bu böyük türk şairinin nə qədər incə fikirli, yetişmiş, təcrübəli bir sənətkar olduğunun dəlilləridir.

Füzuli türk şe'rində bir cığırdır. O, həyatda ikən belə şöhrəti Anadolu və Azərbaycan türkləri arasında yayılmışdı. Dövrünün bir çox şairi ona "nəzirə"lər yazmışlar. Bakı, Bağdadlı Ruhi, Cəlal Çələbi, Cəfəri, Şahi kimi... Nedim və Şeyx Qalib də Füzuliyə nəzirə yazanlar arasındadırlar.

Hələ də bütün türk xalqlarının arasında ən sevilən şairlər arasındadır Füzuli.

Şübhəsiz, Füzulinin yüksək bir söyləyiş gözəlliyi ilə eşqi tərənnüm etməsi və çilə dəryasından səslənməsi, çiləli olmaqdan zövq almaq bu böyük ustanı fərqli qılmışdır.



Həqiqətən, Füzulidə şe'r çox gözəldir...

*"Bildim ki, təhlükə ilə doludur eşq yolu, fəqət,*
*Mən dönməzim bu yoldan ölüm olsa qayəti.*

*Boyun həlakıyam, düşə bilməm ayağına,*
*Bir dərdə düşmüşəm ki, tapılmaz nəhayəti.*

*Mən ki səni görəndə gedər əldən ixtiyarım,*
*Gəlməz bəyana minnəti eşqin şikayəti.*

*Şükür et, Füzuli, etmə füqan, yar etsə cevr*
*Ki, əhli eşqə cevrdir onun inayəti"*

Şe'rlərində ibadət sıxlığı vardır. Ancaq bu "sıxlıq" şe'r sənəti içində gizlidir. Oxucu düşünərək bu ibadət sıxlığını tapır...

Füzulinin şe'rlərində çox bilinən, ibadət şairləri kimi açıq ifadələr yoxdur. O böyük şe'r ustası, adətən, sınayar, imtahan edər oxucunu...

Füzuli türkcə yanında ərəbcə və farsca da yazdı. Əsərləri arasında Türkcə Divanı, "Leyli və Məcnun", "Şikayətnamə" adıyla tanınan məktubu, Həsən ilə Hüseynin çəkdikləri iztirabı anladan "Hadikat-üs Şueda" kitabı çox tanınmışdır. "Hadikat-üs Şuada" adlı əsərinin digər xüsusiyyəti də bu əsərində "Türk Füzuli" könlünün bütün səmimiyyəti ilə hayqırır... Bu kitabın girişində Füzuli türk dilindən ən gözəl şəkildə istifadə etmək istədiyini dilə gətirir və bu mövzuda Allahdan kömək istəyir.

Türk dünyasının ən məşhur şairi 1556-cı ildə Kərbəlada öldü. Onu rəhmətlə xatırlayırıq...

Ey Füzuli!

Sənin üçün yazdığım bu yazını burada bitirmişdim... Yazdıqlarımı oxuduqca sənin qarşında ədəbi bilməzliyin dərin quyusunda olduğumu anladım... Çünki səni çox quru, çox səthi ifadələr ilə anlatmışam, bağışla!

Bağışla və məni başa düş.... Çünki səni layiq olduğun qədər başa salmaq mümkün deyildir... Bunun üçün ən az sənin dörddə birin qədər şe'rin incə sənətində usta olmaq lazımdır... Bu da imkansız bir şeydir! XVII əsrdən bu yana sənin kimi bir şair hələ yetişmədi! Əslində səni aşdığımız an, çox şey dəyişəcək Türk dünyasında...

Sən əzəmət çağının şairisən, ey Füzuli!

Sən "Türk əsrinin" tapılmaz, ləzzətli bir meyvəsisən!

Ərəb dilinin hökmran olduğu bir məkanda türk dilinin səsisən!

Ən maraqlısı türk gücünün zirvəyə çatdığı o çağda sən başqa bir zirvəsən... Baxıram o çağa, məsləkdaşların hey səni anmışlar qürurla...

Qanuni dövründə səninlə eyni çağda yaşayan Bakı sənə nəzirə yazmış. Yəhya Bəy, Xəyali Bəy də elə... Bağdadlı Ruhi, Cəlal Çələbi, Cəfəri, Şahi hey səni anmışlar şe'rlərində... XVII və XVIII əsrlərə ulaşmış gücün: Naili, Nedim, Şeyx Qalib tə'sir altında qalmış, şe'rlərində sənə yer ayırmış, nəzirələr yazıb, heyranlıqlarını ifadə etmişlər...

Ey Füzuli!

Səninlə söhbətimiz davam edərkən ağlıma bir şey gəldi... Sən kərküklü idin! Və sən o çağda Türk bilirdin, Türk yurdu sayırdın "Burcu evliya" dediyin Bağdadı...

Ah Füzuli... İndi bir görsə idin o diyarları... Türkün əsaməsi oxunmaz oldu... Ağızları pıçaq açmaz, dillər paslıdır...

Kərkükdə Türkmənin yaslıdır!

Dövr-dövran elə dəyişdi ki... O illərdə türkcə danışmaq ruxsata tabe idi... Sənin dövründə İstanbulda, xan otağında vurunca Məhmədin köşü, əks-sədası Bağdadda, Kərkükdə eşidilirdi!..

İndi...

İndi, boynubükük horyatlarla səslənirik oralara...

*Türkümüz var,*
*Mahnımız, Türkümüz var...*



*Bilsin ki, unudanlar*
*Kərkükdə türkümüz var!*

Ah Füzuli, nə qədər şanslısan indi yaşamadığına görə... Sən o dövrdə, o məkanda Səlcuklu qartalının qanadlarıyla, Osmanlı fərmanının rahatlığıyla mö'cüzələr yaratdın türkcə ilə!

Bizim çağımızda sənin qardaşların türkmənlər ipə çəkilən oldular...

Yaxşı ki, yaşamadın 1959-cu ilin 14 iyulunu...

Sənin yolunla gedənlərin bir çoxu 14 iyul günü şəhid oldular...

Ey Füzuli, haydı biz çəkilək aradan, o şəhidlər danışsınlar:

Biz, şəhadət şərbətini içənlərdənik...

Biz, türklük uğrunda şirin candan keçənlərdənik...

*Adım Osman Xıdır...*
*Məkanım, aslan yatağı...*
*Günahım, Kərkükdə türk olmaqdır!*
*Necə başa salım bilmirəm ki...*
*Qarşımda itlər kimi hürdülər,*
*Sonra öldürdülər.*
*Çırıl-çıplaq soyub,*
*Cəsədimi küçələrdə sürüdülər!*

*Adım Osman Xıdır!*
*Bu zalım yerdə,*
*Türkün taleyi budur!*

*Mən Ata Xeyrullah!*
*İki jip arasında gərdilər əvvəl...*
*Sən lidersən dedilər,*
*Sürdülər... Sürdülər...*
*Ağaca asıb, cəsədimə tüpürdülər!*

*Mən, Ata Xeyrullah!*
*Alışmadım öz yurdumda dustaqlığa,*
*Ərəbdən əvvəl gəldim Kərkükə,*
*Bilirəm əvvəlallah!*

*Adım, Seyid Qanı!*
*Baltalarla parçaladılar məni!*
*Eh, bəxtlisi mənəm bəlkə,*

*Dar gəldi bu Kərkük mənə, dardır!*
*Devirdim qarşıma gələni,*
*Son nəfəsimə qədər!*
*Bir ara Süleymanı gördüm,*
*Onu arxadan vurdular!*

*Mən, Abdullah Bəyatlı!*
*Mən, Qasım Neftçi!*
*Mən, Adil Hamid!*
*Mən Hacı Necim!*
*Mən, bütün Kərkük!..*

Ey Füzuli, indi o diyarlarda yaşamaq ölümdən betərdir. Sən o dövrdə "Hadikat-üs Suada"nın girişində "Dünyanın ən böyük və fəzilətli xalq bölümünü təşkil edən Türklər" üçün öygülər düzmüsən, doğru demisən! Bəs böyüklük necə olur! Türk xalqlarının bir-birləriylə qardaşcasına yaşamasıyla, elmdə, texnikada irəli getməklə olur... Sənin dövründən bəri yatan ulu türk mədəniyyətini ayağa qaldırmaqla olur...

Sənə bir xoş xəbər verim!

Qardaşca günləri salamlayırlar Anadolu və Ulu türkləri!

Ankara, Bişkək, Bakı, Alma-Ata, Daşkənd, Aşqabad azad olmanın, bir olmanın, böyük olmanın coşqusunu yaşayır!



*O coşqu daşar bir gün,*
*Kərkükü də aşar bir gün!..*
*Rahat yat sən, Füzuli*
*Türkə qarşı düşmənlik*
*Kar gətirməz, Füzuli!..*

*"Bə'zən ərəbcə şe'rlər söylədim və Ərəb fasihlərini cürbəcür mənzumələrimi məxsus etdim. Bu mənim üçün asandır, çünki ərəbcə elmi mübahisə dilimdir. Bə'zən, təbiətimin atını Türk dili meydanlarında çapdım və türkcədəki söz gözəllikləriylə, Türk zəriflərinə zövq verdim. Bu da mənim üçün o qədər müşkül olmadı. Çünki türkcə mənim selika-i əsliyyəmə uyğundu. Bə'zən də fars dili ipliyinə incilər düzdüm. O daldan da könül meyvələri topladım..."*

*FÜZULİ*
*(Farsca "Divan" müqəddiməsindən).*

*Səpmə, ey göz, yaşdan önlümdəki odlara su,*
*Kimdir deyən tutuşan odlara qılmaz çarə su.*

*Suya versin bağıban gülzarı, zəhmət çəkməsin,*
*Bir gül açılmaz üzüntək versə min gülzara su,*

*Qəm günü əsirgəmə xəstə könüldən xəncəri*
*Haydır vermək qaranlıq gecədə bimarə su!*

*İstə oxun, ey könül, hicrində dindir atəşimi*
*Susuzam, bir kəs bu səhrada mənim üçün axtar su!*

*Su yolun ol kuydan torpaq olub tutsam gərək,*
*Çünki rəqibimdir dahi ol kuyə qoymam varə su.*

*Əlini öpmək arzusu ilə ölərsəm, dostlar,*
*Dolça eylən torpağım, verin onunla yarə su!*

*FÜZULİ*
*("Su" qəsidəsindən)*

# ƏBÜLQAZİ BAHADUR XAN

Türk millətinin tarix yazan bir övladı da Əbülqazi Bahadur xandır... O, xanlıqlar dövrü Orta Asiya türklüyünün şüurunda və türk olaraq yaradılmış olmanın iftixarını duyan bir türk böyüyüdür...

Müharibə şəraitində dünyaya gözlərini açdı. 1603-cü ildə atası Ərəb* Məhəmməd xan ruslara qarşı qazandığı bir qələbədən sonra dünyaya gəldi. Atası qazandığı bu qələbəni oğluna yaşatmaq istədi və buna görə də oğluna "Əbülqazi" adını qoydu. Əbülqazi Bahadur xanın atası və anası özbək xanlarından olan Yadigar xanın nəvələridirlər. Anası, Mihr Banu Xatundur.

Əbulqazi 16 yaşına qədər Urgəncdə yaşadı. Atası Məhəmməd xan taxt şərərini Xivəyə köçdükdə, Əbülqazini də Kat vilayəti valiliyinə tə'yin etdi. Bax bu vəzifədən sonra Bahadur xan üçün əziyyətli günlər başlayırdı...

Onun iki qardaşı dincliyi pozmağa başladı. İlbars və Habəş adlı bu qardaşlar atalarına üsyan etdilər. Əbülqazi atasının tərəfini tutdu. Amma atasının qüvvətləri məğlub oldular. Atası öldürüldü, Əbülqazi isə Buxara xanına sığındı. O burada boş durmadı. Türkmənlərin köməyi ilə atasını öldürən qardaşlarına qarşı hərəkətə keçdi. Xeyirsiz qardaşlardan atasının intiqamını aldı, onlara qalib gəldi və Xarəzm xanı oldu. Fəqət, hüzursuzluklar bitmək bilmirdi; digər qardaşı İsfəndiyar Əbülqazini taxtdan endirdi. Əbülqazi əvvəl Səfəvilərin yanına, daha sonra da Təkə və Manqışlaq türkmənləri arasına girdi. Uzun illər boyu buralarda yaşadı. Tale Əbülqaziyə belə hərəkətli və fırtınalı bir həyat hazırlamışdı... O heç qorxmadı və bir ara da kalmıkların yanında yaşadı. Burada monqol dilini öyrəndi. Gənc yaşlarında öyrəndiyi ərəb, fars və daha sonra öyrəndiyi monqol

---

* Ərəb adı Peyğəmbərimizin çıxdığı kavme hörmətən, Türklərcə uğurlu bir ad olaraq uşaqlara qoyulurdu. Bu adət Anadoluda hələ də yaşamaqdadır...



dilləri ilə incələmələr və tədqiqatlar apardı... Eşitdiyi hər şeyi qeyd edir, rast gəldiyi hər bir kitabla da bilgisini artırırdı.

1642-ci ildə qardaşı İsfəndiyar öldü. Əbülqazi bundan sonra əvvəl Urgəncdə, daha sonra isə bütün Xarəzmdə hakimiyyətini qurdu. Beləliklə, Xivə xanı oldu. 21 il xanlıq etdikdən sonra — 1663-cü ildə öldü.

Əbülqazi Bahadur xan qorxmazlığı və geniş mədəniyyəti ilə böyük bir dövlət adamı idi. Bütün türk xalqları onu hər şeydən əvvəl bir xüsusiyyətinə görə yada salarlar, bu da onun tarixçiliyidir. Türk dünyasına buraxdığı iki əsər hələ də maraqla incələnməkdədir. Əbülqazinin digər bir xüsusiyyəti isə onun böyük bir sevgi ilə türk dilini sevməsi və Rusların Türk Dünyası üçün nə qədər böyük bir təhlükə olduğunu bilərək o günlərdən tədbir almağa çalışmasıdır.

Əbülqazi atamız, eynən Babur kimi, hərəkətli bir həyat, fırtınalı günlər yaşamasına baxmayaraq, qələmini heç buraxmadı. Onun bu yazma və araşdırma sevgisi nəticəsində türk mədəniyyəti iki əhəmiyyətli əsərə sahib olmuşdur.

Birinci əsəri "Şəcare-i Terakimə", ikincisi isə, "Şəcare-i Türk". "Şəcare-i Terakimə"də Oğuz dastanı və bu dastan haqqında xalqın arasında dolaşan sözləri toplamışdır. Bahadur xanın xüsusilə istifadə etdiyi dil baxımından da bu əsər əhəmiyyət daşıyır: Türk dilini xalqın anlayacağı sadəlikdə istifadə edən Bahadur xan, bu əsərində Dədə Qorqud hekayələrinin qəhrəmanlarına da yer vermişdir.

Bir əlində qələm, bir əlində qılınc tutan bu böyük atamızı qürurla xatırlayırıq.

*"Bilin ki, bizdən əvvəl türkcə tarix yazanlar ərəbcə lüğətləri qatmışlar farscaya, türkcəni seçmişlər. özlərinin hünər və ustadlıqlarını xalqa mə'lum qılmaq üçün.*

*Biz bunların heç birini etmədik, çünki bu kitabı oxuyan və dinləyən, əlbətdə, türk olacaqdır. Təbii ki, türklərin hər birinin anlaması üçün onlara türkanə söyləmək lazımdır.*

*Bizim söylədiyimiz sözləri bilməsələr, nə faydası? Əgər onların içindən biri və ya ikisi ağıllı olarlarsa, sözlərimizi anlayarlarsa, bil-*

*məyən çoxluğa söyləyib anladarlar. Belə olduqda elə söyləmək gərəkdir ki, yaxşı-pis, hamısı bilsin və könülləri kafi olsun.*

*İndi Adəmdən taa bu zamana kimi, min yetmiş birdir, Türkmənlərin və son Türkmən adını daşıyıb türkmənə qatılan illərin bildiyimiz qədərini bir-bir söyləyək. Bilmədiyimizə nə çarə?*

*Əbülqazi Bahadur xan*

*("Şəcərə-i Tərakimə")*



# ADƏM ƏLEYHİSSALAMIN ZİKRİ

"...Yerdən su çıxdı, göydən yağmur yağdı, yer üzündəki canlıların hamısı qərq oldu. Nuh Peyğəmbər üç oğlu və iman gətirən səksən adam ilə gəmiyə mindi. Bir neçə aydan sonra yer, Allah Taalanın əmri ilə, suyu özünə çəkdi. Gəmi Musul deyilən şəhərin çox yaxınında Cudi deyilən dağdan çıxdı.

Gəmidən çıxan insanların hamısı xəstə oldular. Nuh Peyğəmbər üç oğlu və üç gəlini ilə yaxşılaşdılar. Onlardan başqa insanların hamısı öldülər.

Ondan sonra Nuh Peyğəmbər üç oğlunun hər birini bir yerə göndərdi. Kam adlı oğlunu Hindistana, Sam adlı oğlunu İrana və Yafəs adlı oğlunu Şimal Qütbü tərəfinə göndərdi. Və üçünə də dedi: "İnsan oğullarından siz üçünüzdən başqa kimsə qalmadı. İndi üçünüz üç yurdda qalın, nə zaman uşaqlarınız çoxalarsa o yerləri yurd qılıb oturun".

Yafəsə bə'ziləri peyğəmbər demiş, bə'ziləri isə əksini söyləmişlər. Yafəs atasının əmri ilə Çudi dağından çıxıb İtil və Yayıq suyunun sahilinə gəldi. İki yüz əlli il orada yaşadı, sonra vəfat etdi. Öldüyü zaman səkkiz oğlu var idi. Uşaqları çoxalmışdı. Onların adları belə idi: Türk, Xəzər, Saklap, Rus, Minq, Çin, Kiməri/Tarix.

Yafəs öldüyü zaman böyük oğlu Türkü yerinə oturdub digər uşaqlarına dedi: "Türkü özünüzə padişah bilin, onun sözündən çıxmayın". Türkə Yafəs oğlu deyə ləqəb verdilər. O çox ədəbli və ağıllı bir insan idi. Atasından sonra bir çox yerləri gəzdi. Sonra gəzdiyi yerlərdən birini bəyənib orada oturdu. Bu gün oraya İşıq göl deyirlər. Çadırdan ev qurmağı o çıxartdı, türklərin içindəki bə'zi adətlər var, ondan qaldı.

Türkün dörd oğlu var idi. Birincisi Tütək, ikincisi Çigil (Çəkəl), üçüncüsü Barsçak (Bərseçar), dordüncüsü Amlak (Əmlak). Türk öləcəyi zaman Tütəyi öz yerinə padişah qılıb uzaq səfərə getdi. Tütək ağıllı və dövlətli bir padişah idi. Türklər içində adətlərin çoxunu təzədən qıldı. Təcrübəsiz

padişahlarının ilki Keyumers ilə müasir idi. Günlərin birində ova çıxır, ahu ovlayaraq kabab bişirtdirib yeyib oturmuşdu. Bu zaman əlindən bir tikə ət yerə düşdü, onu götürüb yedikdə ağzına çox xoş dad gəldi, çünki o yer Tuzla idi. Yeməyə duz qoyulması o zamandan qalmış oldu. İki yüz qırx il ömründən keçdikdən sonra oğlu Amılca xanı öz yerinə oturtdu, gedər-gəlməz səfərinə getdi.

Amılca xan da çox illər padişahlıq etdi, aşlarını yedi, yaşlarını yaşadı və atasının ardından getdi. Öləcəyini anladıqda oğlu Bakuy Dip xanı yerinə oturtmuşdu.

Dipin mə'nası taxtın yeri, Bakuyun mə'nası vilayət böyüyü mə'nasına uyğun gəlir. O, daha çox yaşadı, padişahlıq etdi, dostlarının güldüyünü, düşmənlərinin ağladığını gördü, sevindi, sonra öləcəyini bildi və oğlu Kök xanı taxtına oturtdu və öldü.

O da uzun illər padişahlıq etdi və atasının yolundan qırağa çıxmadı. Xəstələndiyində oğlu Alınca xanı öz yerinə oturdub, uzaq səfərə getdi.

Alınca da uzun illər padişahlıq etdi. Vilayətləri atasınkından çox oldu. Onun ekiz oğlu oldu. Birinin adı Tatar, digərinin isə Monqol idi. Ata qocaldıqda yurdunu iki yerə bölüb oğlanlarına verdi və vəfat etdi.

Alınca xan öldükdən sonra Tatar və Monqol qardaşları ayrı-ayrılıqda hər biri öz yerlərində padişahlıq etdilər.

Monqol xanın dörd oğlu var idi. Böyügünün adı Qara xan, ikincisi — Kür xan, üçüncüsü — Qır xan, dördüncüsü — Or xan idi. Monqol xan böyük oğlu Qara xana yurdunu verib, hər kəsin getdiyi yurda getdi.

Qara xan Or və Kör dağlarını yaylaq olaraq düzəltdirmişdi. Bu zaman onlara Uluğ Tağ (Ulu dağ) və Kiçik Tağ (Kiçik dağ) deyirlərdi: Qış olunca Sir suyunun ağası, Qara qum və Bursuqda qışlayardı.



## OĞUZ XANIN DÜNYAYA GƏLİŞİNİN ZİKRİ

Qara Xanın böyük xatunundan bir oğlu oldu. Gözəlliyi aydan, günəşdən çox idi. Üç gecə-gündüz anasını əmmədi. Hər gecə o anasının yuxusuna girərək deyərdi: "Ey ana müsəlman ol, əgər olmasan, ölsəm belə sənin məməni əmmərəm". Anası oğluna qıya bilmədi və Allahın birliyinə iman etdi. Ondan sonra o kiçik oğlan uşağı məməsini əmdi. Amma anası gördüyü rö'yasını və müsəlman olduğunu kimsəyə söyləməyib gizli tutdu. Onun üçündür ki, türk xalqı Yafəsdən tutmuş taa Alınca xan zamanına qədər müsəlman idi.

Alınca xan padişah olduqdan sonra xalqın nüfusu və malı çox artdı. Sərvətdən sərxoş oldular və Allahı unutdular. Bütün ölkə kafir oldu. Qara xan dövründə kafirlikdə elə möhkəm idilər ki, əgər atalarının müsəlman olduğunu eşitsə idilər onu oğlu öldürərdi və ya oğlu müsəlman olsa atası tərəfindən öldürülərdi.

O dövrdə Monqolun adəti elə idi ki, oğlan uşağı bir yaşına gəlməyincə ona ad qoymazdılar. Oğlu bir yaşına gəldikdə Qara xan bütün ölkəyə də'vətnamə çıxartdı və böyük bir toy etdi.

Toy günü oğlunu meydanın ortasına gətirib Qara xan bəylərinə dedi: "Bizim bu oğlumuz bir yaşını tamamladı, indi buna nə ad qoymaq istəyirsəniz qoyun, — dedikdə, bəylər cavab vermədən əvvəl uşaq özü dilləndi: "Mənim adım Oğuzdur!"..

*Əbülqazi Bahadur xan*

*("Şəcərə-i Tərakimə"dən)*

# KOROĞLU

Türk milləti igidliyə, qorxusuzluğa, qəhrəmanlığa aşiqdir. Tarix boyunca türk xalqının sevgisi qəhrəmanları və böyükləri üçün gur çaylar kimi axmışdır. Milləti ucaldanlar, könül əsgərləri, ədalətsiz qüvvətlilərdən zəifləri qoruyanlar, xalqın şüurunda ucaldıqca ucalmış... Dastanlar əmələ gəlmiş onların ətrafında... Atadan oğula, anadan qıza anlatılaraq günümüzə gəlmiş o fovqəl'adə insanların heyranlıq verən macəraları...

Hər türk dastanında olduğu kimi, "Koroğlu dastanı"nda da türk millətinin xarakter xüsusiyyətini görmək mümkündür. Qəhrəmanlıq, ədalətdən yana olmaq, ağıllılıq, çalışqanlıq və düşkün adamın əlindən tutmaq...

Ədəbiyyat tarixçiləri "Koroğlu dastanı" üçün belə deyirlər: Göytürklər zamanındakı Türk-İran müharibələrinin izləri vardır... Oğuz xalqının İran ilə apardığı döyüşlərdən qalmış və inkişaf etmişdir...

Heredota görə isə: Saka türkləri arasında keçmiş hadisələrdən ortaya çıxmışdır...

Nəyə görə bu mülahizələr doğru olmasın?

Anadoludan yola çıxsanız, Azərbaycanda nəfəs alsanız Koroğlunu dinləyərsiniz... Oradan Özbək elinə uğrasanız qarşınıza Koroğlu (Küroğlu) çıxar... Və bütün Orta Asiyada bu dastanın müxtəlif və fərqli hekayələrinə şahid olarsınız.

Koroğlu, əlində sazı, belində qılıncı, haqsızlığa qarşı çıxmış və gözələ qoşmalar düzən, ələ, ovuca sığmayan bir igitdir... O, elə bir igitdir ki, qəhrəmanlıq haqqında təsadüfi deyildir:

*Mərd dayanar, namərd qaçar,*
*Meydan gumbul-gumbul gumbuldayır.*
*Şahlar şahı divan açar,*
*Divan gumbul-gumbul gumbuldayır.*



*İgid özünü öyəndə,*
*Oxlar mənzili döyəndə,*
*Şeşbər qalxana dəyəndə*
*Qalxan gumbul-gumbul gumbuldayır.*

*Ox atılar qalasından,*
*Hakk saxlasın bəlasından,*
*Koroğlunun nə'rəsindən*
*Hər yer gumbul-gumbul gumbuldayır.*

İgid Koroğlu, oğlu Həsən üçün Telli xanımı almaq istər. Koroğlu qızın necə bir qız olduğunu düşündükdə, Telli xanım belə söylər.

*Türk qızıyam, soyum, sopum bəllidir,*
*Gözüm ilə saçım siyah tellidir.*
*Türk qızının dili dudu* dillidir*
*Bunu sən bil, inan olsun, Koroğlu.*

*Bizim eldə əhdə vəfa edilir,*
*Kəm söylənməz doğru yola gedilir,*
*Heç çaşılmaz, namus yolu güdülür,*
*Maraq etmə, mənə inan, Koroğlu.*

Koroğlunun qarşısına çıxan gözəllər fəzilətli, soyu-sopu bəlli, türklüyü ilə öyünməli olmalıdır!

Koroğlu kimdir?

Tarixi mənbələr Anadoludakı Koroğlu üçün belə deyir: Koroğlu dağları, xüsusilə Bolu dağlarını məskən olaraq tutmuş, qanun tanımaz, əli sazlı, gur avazlı bir xalq qəhrəmanıdır... Bu

* Dudu-Bülbül

sübutlar doğrudur... Ancaq nə üçün Koroğlu dağa çıxmış? Bax, bu sualın cavabını türk xalqının yaddaşında yaşayan dastanlardan alaq...

Koroğlunun atası, xidmət etdiyi zalım bir Bəyə seçdiyi iki dayçanı bəyəndirə bilmədiyi üçün onun gözləri oyulur... Belə bir zülm görmüş atanın övladı Koroğlu böyüyür və igid, dəliqanlı bir qəhrəman olur. Atasının bəyə bəyəndirə bilmədiyi dayçalardan biri də onun atı "Qırat" olur...

Koroğlunun atası oğlunu Qırata mindirib və intiqamını almaq üçün onu dağlara yollayır... Beləliklə, Koroğlu Çənlibelə yerləşir. Az bir zamanda onun adı hər tərəfə yayılır və onun ətrafında neçə-neçə igidlər toplanır. Bu igidlər fədakar və vəfalıdırlar... Zəifləri qoruyar, kimsəsizlərə arxa çıxarlar...

Çənlibeldə Koroğlunun eşqləri olur... Sinə-sinəyə döyüşləri olur və bu döyüşlərdə onun igidliyi sınaqdan çıxır... Zaman keçir, tüfəng icad olunur, mərdlik pozulur... Düşməninə görünmədən, uzaqdan atılan və düşməni öldürən güllələrin əmələ gəlməsi ilə bərabər Koroğlu meydanlardan çəkilir...

Koroğlu elə bir igid idi ki, düşməninə qıymazdı, məsələn; onu öldürməyə gələn və çadırının qapısında duran "Zor Bəyin oğluna" qıymamış və onun igidlik qururunu oxşayaraq, özünə dost etmişdi. Bu hadisə belə olmuşdu: Koroğlu Nigar xanım ilə çadırında oturub oxuyurmuş. Onu öldürməyə gələn "Zor bəyin oğlu" Koroğlunu dinləyirmiş. Bu vaxt Koroğlu alıb sazı əlinə:

*Bir atı var alapaça,*
*Aman verməz Qırat qaça.*

*Xanım kim, Nigar kim?*
*Bir bəyin oğlu, Zor Bəyin oğlu.*

*Hay edən də haya təpər,*
*Huy edən də huya təpər,*
*Koroğlunu suya təpər*



*Xanım kim, Nigar kim?*
*Bir bəyin oğlu, Zor Bəyin oğlu."*

Bu sözləri dinləyən Zor Bəyin oğlu gəlir və Koroğlunun əlini öpür...

Bu vəziyyət, türk xalqının, insanları qazanmaq üçün fədakar olmaqla bərabər, şirin sözün də dəyəri öyüd-nəsihət baxımından əhəmiyyətlidir. Buna bənzər bir çox şeylər, hadisələr "Koroğlu dastanı"nda yer alır. Hadisələrin hörgusündə qəhrəmanlıq, dostluq, vəfa, zəiflərin qorunması işlənir.

Anadolu yaylağından Orta Asiya səhralarına uzanan Koroğlu dastanı türk xalqlarının əzəmətli ortaq mədəniyyətidir.

# EVLİYA ÇƏLƏBİ

Özünün ifadəsinə görə: Ulu Türk elinin (Türküstan) piri, Xoca Əhməd Yasəvinin nəvələrindəndir...

Doğrudurmu? Bilməyirik... Doğru olmasa da, belə böyük ata ifadəsinin varlığı, Evliya Çələbinin fərqliliyini, ucalığını anlatmağa yetər...

Həqiqətən, fərqli həyatıyla, fərqli üslubuyla, fərqli əsərləriylə Evliya Çələbi bir böyüyümüzdür...

Üslubu o qədər fərqli idi ki, gəzdiyi, gördüyü yerləri, qarşılaşdığı hadisələri və ya duyduqlarını özünə xas bir obrazlıqla anlatdı. Bu böyütmələrdə belə dahi bir gözəllik vardır.

Əsərləri də fərqlidir onun, "Səyahətnamə" türk ədəbiyyatında bu mövzuda yazılan əsərlər arasında ən yüksək səviyyəli əsərdir. Evliya Çələbi atamız bu əsəriylə bizə XVII əsrin Osmanlı torpaqlarındakı həyat tərzini, şəhərləri, əşyaları, yamacları, dağları, təpələri; qısacası, adətən bir dövrü anladır.

Evliya Çələbi atamızın çox əhəmiyyətli və fərqli xüsusiyyətləri vardır. Bu da onun qəlbimizi, könlümüzü qürur hissləriylə dolduran türkçülüyüdür! Evliya Çələbi, "Səyahətnamə"sində Osmanlı adını əsasən bir dövlət kimi qələmə alır və Osmanlı xalqının, xüsusilə də əsgərinin adını "türk" olaraq anır... Bu vəziyyət, XVII əsr yazıçısı üçün yüksək bir milli şüur ifadəsidir. Evliya Çələbi türk olmanın ucalığını bilənlərdəndir. O, "Səyahətanamə"sində "Ağdəniz adaları və Girit fəthi" bölümündə tez-tez türk adını sevinclə və öyərək çəkir!

Onun əsərlərini oxuyarkən obrazlı anlatmalarıyla tanış oluruq. Amma bu bədiilik "Evliya Çələbi" anlatımında, həqiqi Evliya üslubundadır! Qış aylarında Ərzurum və ətrafındakı o sərt soyuqları hamımız bilirik... Bu soyuğun şiddətini Evliya Çələbi belə ifadə edir: "Bir pişiyin damdan-dama tullanarkən havada donması"... Dunaydan tutulan balıqların çoxluğunu Evliya Çələbi: "Bu balıqlar bütün Avropaya göndərilir" deyərək anladır... Bunları oxuyarkən üzünüzə şirin bir təbəssüm gəlir, şişirtmələrin içindəki xoş niyyəti dərhal anlayırsınız...



Evliya Çələbinin həyatı səfərlərdə, ölkələri gəzməklə keçdi. Osmanlı Sarayına yaxınlığıyla bilinir və dövlət adamları tərəfindən sevilən bir insan idi. Onun bu nüfuzu, çox yer görməsində və gəzməsində tə'sirli oldu. Bildiyimiz qədər, Fatih Sultan Məhməd xandan bəri Evliyanın ailəsi dövlətin himayəsi altında olmuş şəxslərdən əmələ gəlirdi. Onun babaları dövlətə çox xidmətlər vermişlər. İndi də onu bir az daha yaxından tanıyaq...

Evliya 25 mart 1611-ci ildə İstanbulda Unqapı səmtində doğulmuşdur. 1648-ci ildə yüz yaşını aşmış halda ölən atası Dərviş Məhməd Zilli geniş mədəniyyətə sahib bir sənətkar idi. Məhməd Zilli Fatih Sultan Məhməd xanın mirələmlik xidmətində olmuş Yavuz Ər Bəyin nəvələrindəndir. Yavuz Ər Bəy fəth zamanı payına düşən qənimət puluyla Unqapı səmtində bir çox əmlak almışdı. Zaman keçdikcə bu əmlaklar nəvəsi Məhməd Zilliyə qədər vərasət etmiş oldu. Bax, Evliya Çələbi Unqapıdakı bu evlərdən birində doğulmuşdur.

Məhməd Zilli babası Yavuz Ər Bəy kimi dövlətə əhəmiyyətli xidmətlər etmişdir. Kiprin fəthində Mağosanın açarlarını səfər komandiri Lala Mustafa Paşa İstanbula Məhməd Zilli ilə göndərdi. Məhməd Zilli Sultan Əhməd zamanında Məkkədə xidmət etdi. Sultan Əhməd Camisinin naxışlarını işlədi.

Belə sənətkar bir atanın övladı olan Evliya Çələbi yaxşı bir təhsil gördü. Mədrəsə təhsilini tamamladıqda atasının yanına gələn Evliya dövrün alim və sənətkarlarının söhbətlərini dinlədi... Bu söhbətlər Evliya Çələbidə gəzmə, görmə və yazma arzusu oyandırdı. İlk əvvəl, on doqquz-iyirmi yaşlarında ikən İstanbul və onun ətrafını gəzdi. Gördüklərini və eşitdiklərini yazdı. Səyahət marağı onu elə bürüdü ki, başqa heç bir şey düşünməz hala gəldi.

Evliya Çələbi gəzmək marağına tutulmasının səbəbini öz üslubuyla çox gözəl anlatdı. 19 avqust 1630 tarixli qədir gecəsi, yuxusunda İstanbulda Yemiş İskelesi yanındakı Ahi Çələbi

Camisində böyük bir camaat içində Hz. Peyğəmbəri görür və hüzurunda:

— Şəfaat ya Rəsulallah! - deyəcəyi yerdə həyacanlanır:

— Səyahət ya Rəsulallah! — deyir...

Beləcə, Peyğəmbərimiz tərəfindən səyahət işi ilə vəzifələndirilir. Bundan əlavə, Sə'd ibn-i Vakkas tərəfindən də gördüklərini qələmə almaq işi də bərk-bərk nəsihət edilir.

Gördüyü bu yuxusunu zamanın böyük şeyxlərinə yozduraraq Evliya Çələbi özünə "gəzmə izni" alıb İstanbulu və onun çevrəsini dolaşmağa başladı. "Səyahətnamə"nin ilk cildi bu gəzintinin qeydləri və özünə görə İstanbulun tarixidir.

Fərqli bir insan idi Evliya Çələbi... Ailəsindəki bir çox fərdlər kimi, o da dövlət əhəmiyyətli xidmətlərdə iştirak etdi. Xalası oğlu Mələk Əhməd Paşanın sədarət vəzifəsinə gəlməsiylə, saraya müsahib olaraq girdi. Səfərlərdə gözəl səsiylə komandirlərini, paşaların əzan verənlərini, imamlıqlarını əvəz edərdi. Şirin söhbətləri ilə hər kəsin sevgi və tə'rifini qazanmışdı.

Gəncliyindən bəri tanımadığı millət, görmədiyi mühit qalmayan bu yüksək və kəskin zəkalı atamız xidmətləriylə mədəniyyətimizə bir dəyişik ləzzət qatmışdır.

Haraları gəzmədi ki?

Anadolu, Osmanlı imperiyasının Avropada olan bütün torpaqları, Suriya, İraq, Misir, Girit, Hicaz, Macarıstan, Tronsilvaniya, Moldaviya, Polşa, Avstriya, Almanya, Hollandiya, Dalmaçya, Bosna-Hersək, Kırım, Cənubi Rusiya, Qafqaz, İran... Bu ölkələri yorulmadan, təngə gəlmədən, usanmadan gəzdi və gördüklərini qələmə aldı. XVII əsrdə nəqliyyat imkanları aşağı olan bir zamanda bu işləri görmək asan olmamış hər halda... Bir ömrün tam əlli ilini bir yerdən digər yerə gəzərək keçirmək hər bir insanın görə biləcəyi iş deyildir.

Evliya Çələbinin son gördüyü yer Misir olmuş. Bu gəzisini 1676-cı ildə etmişdir. 1682-ci ildə də öldüyü təxmin edilir.

Bu maraqlı insanlığı olan atamızın ruhu şad olsun.



## SƏYAHƏTNAMƏDƏN

"...Doğru sözə görə Türklər Yafəsin nəvələridirlər. Qısaca deyə bilərik ki, bütün türk boyları ondan yayılıb, bir bahadır, təmiz inanclı, dözümlü və görkəmli insanlar olmuşlar. Rum diyarına ilk ayaq basan Selçuklu ailəsi 1174-cü ildə Danışmentli bəyləriylə el və könül birliyi edərək Malatya, Kaysəri, Alanya, Antalya, Karaman, Konya yaşayış yerlərini Rum kaysərlərinin əlindən alıb, başlarında buyuran padişah oldular. Amma ilk çıxışları Maveraün çayındandır. Hicrətin 600 (1203/4) tarixində Selçuklular çökməkdə olan Turan vilayətlərindən Mahan şəhəri bəylərindən Süleyman şah və Ərtoğrul bəy Rum diyarına, Selçuklulardan Sultan Əlǝddinin yanına doğru gəldilər. Bəy ikən Ələddinin komandirlərindən biri oldu. Ətraflarda neçə fəthlər həyata keçirdi. Ələddin öldükdə, irəli gələnlərin səs verməsi ilə Ərtoğrul təkbaşına Bəy oldu..."

## KALİQRA SULTAN ZAVİYƏSİ

"Oradan, Kaliqra Sultan təkkəsinə (dərvişlərin görüşdükləri yer) gedərək dərvişlərlə can söhbəti etdik. Kölələrim ilə mənə bir hücrə verdilər. Təkkədə on gecə rahat yuxu içində yatdıq. Soyuqdan və qorxudan çəkdiyimiz sıxıntılar nəticəsində müxtəlif xəstəliklərə tutula bilərdik. Yataqdan çıxmayaraq başımı yastıqdan qaldırmadan qalmışdım. Allaha minnətdarlıqla on xətm oxumuşdum. Gəncliyimdən bu günə qədər min altmış xətm oxumuşdum. Bu təkkənin Bektaşi canlarıyla sağlığıma qovuşana qədər can söhbətləri etdik. Kölələrimdən biri belə, mən filana satılmış bir qulam deməyərək, sanki mənim candan malım imiş kimi elə qaldılar. Gah əzan çəkərək, gah imamlıq edərək çulu çıxartdıq."

## SOFYA ŞƏHƏRİ

"Sofyan vadisinin cənubunda, Vitos dağının ətəyində, Qurd bağları deyilən İrem baxçalarının aşağısındakı düzənlikdə qurulmuş bir böyük şəhərdir. Batı və şimal tərəfi bərəkətli, gül və gülüstanlarla bəzəkli və baxımlıdır. Kənd kəndin içinə girmişdir burada. Bana, Çələbi, Gülcami, Mahmud Paşa, Paşa, Siyavuş Paşa və İmarət buranın əsas məhəllələrindəndir. Paşa sarayı Vitos dağına baxır və bəzəkli bir tikilidir. Geniş meydanlarında cirid oyunu oynanır, bura at meydanıdır..."

## ƏDİRNƏ AĞZI

Neçə kəndlilər burada oturmuş, şəhərli dilində desək pot qurmuşlar. Söz gəlişi: "Amet çibu gide idik anlarla vafir kaşarlandık", yə'ni zövq aldıq. "Sinbaza vardık", yə'ni məzarlığa çatdıq. "Akatlandık", yə'ni güldük..."

*EVLİYA ÇƏLƏBİ*

*(Sadələşdirən: İsmət Barmaqsızoğlu)*



## MAHTUMQULU

*"İgid ölər yurd üstündə,*
*Canını verər ar üstündə!"*

Aləm-i Ervahda, o ruhlar aləmindəki Yunus Əmrə, Koroğlu, Dadaloğlu, Qaracaoğlan bir araya gələrək belə demişlər: "XVIII əsrdə Türkmən elində Mahtumqulu adında bir adam ortaya çıxaraq, uca biləkli, qəhrəman ürəkli, ulu qəlbli, dili hünərli... Ona əl verək, yol verək, sözümüzdən, sazımızdan, şe'r sənətimizdən ona da pay göndərək! Anadolunun söz ustaları belə danışırkən, yaxınlaşan Qorqud ata da bir-iki söz söyləmiş, baxaq görək nələr demiş: "Allahın izniylə mən də Mahtumqulu dili ilə səslənəcəyəm!.."

Yunus Əmrə boynunu büküb söyləmişdir:

— Sevgi, birlik tərəfdarıyam, mən sevgi və birlik verdim Mahtumqulu şe'rlərinə.

At üstündə doğulmuş Koroğlu bir əlində qılınc, bir əlində saz:

— Mən igidliyə sevdalı meydan əsgəriyəm. Mərd dayanar, namərd qaçar hüzurumdan! Mahtumqulunun şe'rlərinə igidcə deyişmələr verəcəyəm! — demiş.

Dadaloğlu əlindəki sazını qaldırıb söyləmiş:

— Mən də Koroğlu qardaşım kimiyəm. Əsgər meydanının diliyəm! Nə varsa qoşmalarımda verdim getdi Mahtumquluya!

Qaracaoğlan ətrafına baxmış, söz sırasının ona gəldiyini anlamış və başını əyərək yavaş-yavaş söyləmiş, baxaq görək nə demiş:

— Ağalar, mən gözəli sevərəm, gözəl olan nə varsa onun üçün söylərəm: qara gözlu, incə belli, kəklik ayağlı, inci dişli gözəllərə... Uca zirvəli dağlara, gözəl ellərə söz söylərəm... Mahtumquluya verəcəyim sadəcə bunlardır.

Ozanların sözləri bitincə hər kəs Dədə Qorquda baxmış. Qorqud ata əvvəl saqqalını sığallamış, xeyli vaxt incə-incə fikirləşmiş və sonra belə demiş:

— Gozəl söz yaraşır ozana əldə qopuz olunca, Ozan nə etsin başda dövlət olmayınca! Mən, bu gəlimli-gedimli dunyada Mahtumquluya dövlət sevgisi verdim...

Beləcə vidalaşıb ayrılmışlar...

XVIII əsrdə, Türkmən elinə sevgi, birlik, igidlik buludları olaraq axar Mahtumqulu... Dövlət olmanın ucalığı cücərir könüllərdə. Əsgərlər daha da qəhrəmanlaşır onun sözləriylə. Birliyin gətirəcəyi birlik danışılır Turkmən odalarında... Mahtumqulu şe'rlərin qanadlarına taxar mərdliyi, uçurar turkmən elinin ucsuz-bucaqsız səhralarında.

Bu hünər, ata hədiyyəsi bir xüsusdur Mahtumquluda... Atası Dövlət Məhməd Azadilərin düşüncəli alimidir. Babası Mahtumqulu Yonacı isə misralarda düşünur, şe'rlə söyləşirdi. Ulular nə demişlər: 'İnsan atadan gördüyünü edər..." Umumiyyətlə, atası Dovlət Məhməd Mahtumqulunu yaxşı yetişdirməyə sə'y göstərir, şəxsən özü oxudur, oyrədir onu. Mədrəsələrdə oxudur Mahtumqulunu.

Mahtumqulu ərəb və fars dillərini oyrənir. Ədəbiyyatın bütün sirlərini qavrayır. Turk dilinin usta şairlərinin əsərləriylə bəslənir, Nəvaini bilir, Nizami və Füzuliylə tanış olur... Ulu türk elini (Turkustanı) dolaşır, türk xalqlarının yaşadıqları yerləri gəzir, Hindistana qədər gedir.

Gün gəlir gordüklərini və bildiklərini şe'r dəzgahında incə-incə toxuyur. Sonra qəlbinin bütun gümrahlığıyla bunları xalqına aşılayaraq, onları birliyə çağırır, dövlət olmanın ululuğunu işləyir onların ruhlarına. Bununla da yetinməz və əgər muharibə etmək lazım gəlirsə, yaxşı savaşmağı, mərdcə vuruşmağı, əsgərcə döyüşməyi tövsiyə edir onlara! Allaha olan



sevgisi Mahtumqulunun ürəyində taxt qurmuş, ən gözəl şe'rlərində dilə gətirir bu eşqi... Bə'zən bir gözəl qız görürsə, onun qara gözləri cəllad olur Mahtumquluya...

Və belə deyər Mahtumqulu:

*"Səbəb oldu yanan cana,*
*Cəlladdır qara gözlərin.*
*Yetirməz nurbət amana*
*Cəlladdır qara gözlərin."*

Türkmən elində birlik, dirilik Mahtumqulunun üzərində titrədiyi, həsrət çəkdiyi bir mövzudur:

*"Türkmənlər bağlasa bir yerə beli,*
*Qurudur Gulzumu, Dəryanı, Nili,*
*Təkə, Yomut, Göklən, Yazır, Alili,*
*Bir dövlətə qulluq etsək beşimiz."*

O, Əhməd Yasəvi, Hacı Bektaşi ocağından xəbərdardır. Ümumiyyətlə tələbəliyində Xoca Əhməd Yasəvi mədrəsəsini görənlərdəndir. Onun izini sürdürənlərdən kömək istəyir:

*"Hacı Bektaşi Əbdülqadir,*
*Xoca Əhməd, İmam Rızadır,*
*Feridun bir evliyadır,*
*Barından hümmət istərəm."*

Allah sevgisi, onun könlündə çağlayan bir çaydır; Peyğəmbər eşqiylə belə söyləyir:

*"Ya həbib, Haqq rəsulusan,*
*Canı — candan sevmişəm səni*

*Dərvişlər qadir gecəsini*
*Sevəntək sevmişəm səni."*

Dövlət ifadəsi isə, Dədə Qorqud gözəlliyindədir.

*"Yamandan yaxşı sədd olmaz,*
*Əsli yaxşılar bəd olmaz.*
*Dünyalıqdan dövlət olmaz*
*Oğul can dövlətə bənzər."*

XVIII əsrdə şe'rləriylə də xüsusilə igidlik, mərdlik duyğusunu Türkmən elinə işləyən Mahtumqulu könülləri coşdurur... Mahtumqulunun şe'rlərində bu "Qəhrəman şəxsiyyət" arayışı, Koroğlunun, Dadaloğlunun qoşmalarındakı ifadələrlə atbaşı gedər.

*"Nər bədənli bəylər, xanlar*
*Atlansa, dolar meydanlar.*
*Sökdü dərə, tökdü qanlar,*
*Qoçaqlar sərindən keçdi."*

* * *

*"Mərd igid mərd ərdən önər,*
*Namərd əsil mərd olmaz.*
*Qurdun gözündə od yanar,*
*Çaqqal tülkülərdən qurd olmaz".*

1780-ci illərdə əbədiyyətə köçən bu ulu şair atamızın ruhu şad olsun.



## TÜRKMƏNİN

*Ceyhun belə bəhr-i Xəzər arası,*
*Çöl üstündə əsər yeli Türkmənin.*
*Gül qöncəsi qara gözüm qarası,*
*Qara dağdan enər seli Türkmənin.*

*Haqq qəlmə vardır onun sayəsi,*
*Çırpınşar çölündə nəri, mayası,*
*Rəngbərəng gül açan yaşıl yaylağı,*
*Qərq olmuş reyhana çölü Türkmənin.*

*Al yaşıl bürünüb çıxar pərisi*
*Kükrəyib bərk urur ənbərin isi,*
*Bəy, törə, ağsaqqal yurdun ayəsi,*
*Kürən tutar gözəl ili Türkmənin.*

*Ol mərdin oğludur, mərddir pədəri,*
*Koroğlu qardaşı, sərxoşdur səri,*
*Dağda, düzdə qovsa sayyatlar diri,*
*Ala bilməz, yolbars oğlu Türkmənin.*

*MAHTUMQULU*

# İBRAHİM ABAY

*"Gün ardından gün doğar,*
*İrəliləmə dəyişməz.*
*Fikir fikri sürüklər,*
*Yelə minsən, yetişməz."*

Qazax elində və bütün türk dünyasında o, qısaca ABAY adıyla tanınır. Qələmini tənbəlliyə, haqsızlığa, ayrılığa, sevgisizliyə, düşmənliyə qarşı ustaca istifadə edən bu ulu insan 10 avqust 1845-ci ildə Qazax elinin Semey rayonunun Abay qəsəbəsi Çingiztavda doğulmuşdur. Atası Kunanbay bəy, anası Ulcan xanım idi...

Təhsilinə 1857-ci ildə Semeydə, Əhməd Rıza mədrəsəsində başladı. Mədrəsə təhsilini davam etdirərkən ərəb və fars dilləri ilə tanış olur. Çağdaş ədəbiyyatını incələyir... Bu mədəniyyətlərin şe'r dünyasına dalaraq, şe'r zövqünü dadmış olur.

Rus məktəbinə davam edərkən də, Puşkin, Lermontov, Turgenev kimi yazıçı və şairlərin əsərləriylə bilgi çərçivəsini böyüdür.

Üzünü Avropaya çevirir. İngilis şairi Lord Bayronu oxuyur. Alman Getenin əsərlərini bir-bir oxuyur və beləliklə Abay yetişir!

Ailəsi zəngin olub. Atası idarəçi olmuş, hətta özü də idarəçilik edərdi. Maddi baxımdan heç bir sıxıntıları olmamışdır. Rəhbər olması ictimaiyyətdə ona qarşı hörmət də yaradır... Hər hansı bir insanın xoşbəxt ola biləcəyi şərtlərə sahibdir Abay... Amma xeyr! Abay sıravi bir insan deyildir və maddi rahatlıqla, şöhrətiylə dinc olması mümkün deyildir!

Həqiqətən, Abay fərqli bir insandır! Heç də dərd edə bilmirdi o Qazax-Türk sosial məsələlərini... Qazağın hər bir səhvini özünün səhvi, hər doğrusunu isə öz doğrusu kimi qəbul edərdi... Qazax türkünü rahat buraxmayan pis xasiyyətləri çəkinmədən



bir-bir sayıb, bunların gətirəcəyi fəlakətləri açıqca saydı. Cəsurcasına tənqid etdi. Bir söz vardır Anadoluda: "Qəssab sevdiyi və bəyəndiyi dərini yerdən yerə vurar"... Bax, Abayın da Qazax türkünə münasibəti belə idi. O, qazaxları çox sevdiyi üçün onların heç bir yanlışına dözə bilmirdi. O, dostdur və dost yanlışını açıqca söyləyər!

Abay, qazax türkünün XIX əsrdəki igid səsidir! Yazdığı şe'rlərlə nəsillərə, qazax türkünə doğru yolu göstərən bir ulu insandır Abay!

Onun sözləri və idealı bu gün də dillərdədir!

Abay, qazax türkünün birliyini dilədi, çalışqanlıq tövsiyə etdi, sevdiyini, bildiyini ucaltdı.

Hələ qazax elinin ucsuz-bucaqsız səhralarında onun səsi əks-səda verir: "Bunu yazan adamın adını bilmə, sözünü bil!"

Geniş bir sadəlöhvlüklə belə deyir Abay... Ancaq, biz həm sözünü bilirik, həm də adını! Və heç unutmayacağıq Abayı, qazax türkünə doğrunu göstərəni!..

Böyük mütəfəkkir Abay hər bir gözəlliklə maraqlanırdı. Mövsümün gözəlliyi misra-misra tökulür Abayın qələmindən...

*"İlk bahara qalmaz qışın ayazı,*
*Mərmər kimi gurlaşır yer üzü.*
*Canlılar, insan oğlu söyləyə bilsə,*
*Ata, ana kimi duyğulanır günəşin gözü."*

Bə'zən də bir gözəl qızın yaraşıqlı halı otaq qurar Abayın duyğu dünyasına:

*"Sənsən canın ləzzəti,*
*Sənsən bədən şərbəti,*
*Səni üstün yaradan*
*Allahın qüdrəti".*

# İBRAHİM ABAY

*"Gün ardından gün doğar,*
*İrəliləmə dəyişməz.*
*Fikir fikri sürüklər,*
*Yelə minsən, yetişməz."*

Qazax elində və bütün türk dünyasında o, qısaca ABAY adıyla tanınır. Qələmini tənbəlliyə, haqsızlığa, ayrılığa, sevgisizliyə, düşmənliyə qarşı ustaca istifadə edən bu ulu insan 10 avqust 1845-ci ildə Qazax elinin Semey rayonunun Abay qəsəbəsi Çingiztavda doğulmuşdur. Atası Kunanbay bəy, anası Ulcan xanım idi...

Təhsilinə 1857-ci ildə Semeydə, Əhməd Rıza mədrəsəsində başladı. Mədrəsə təhsilini davam etdirərkən ərəb və fars dilləri ilə tanış olur. Çağdaş ədəbiyyatını incələyir... Bu mədəniyyətlərin şe'r dünyasına dalaraq, şe'r zövqünü dadmış olur.

Rus məktəbinə davam edərkən də, Puşkin, Lermontov, Turgenev kimi yazıçı və şairlərin əsərləriylə bilgı çərçivəsini böyüdür.

Üzünü Avropaya çevirir. İngilis şairi Lord Bayronu oxuyur. Alman Getenin əsərlərini bir-bir oxuyur və beləliklə Abay yetişir!

Ailəsi zəngin olub. Atası idarəçi olmuş, hətta özü də idarəçilik edərdi. Maddi baxımdan heç bir sıxıntıları olmamışdır. Rəhbər olması ictimaiyyətdə ona qarşı hörmət də yaradır... Hər hansı bir insanın xoşbəxt ola biləcəyi şərtlərə sahibdir Abay... Amma xeyr! Abay sıravi bir insan deyildir və maddi rahatlıqla, şöhrətiylə dinc olması mümkün deyildir!

Həqiqətən, Abay fərqli bir insandır! Heç də dərd edə bilmirdi o Qazax-Türk sosial məsələlərini... Qazağın hər bir səhvini özünün səhvi, hər doğrusunu isə oz doğrusu kimi qəbul edərdi... Qazax türkünü rahat buraxmayan pis xasiyyətləri çəkinmədən



bir-bir sayıb, bunların gətirəcəyi fəlakətləri açıqca saydı. Cəsurcasına tənqid etdi. Bir söz vardır Anadoluda: "Qəssab sevdiyi və bəyəndiyi dərini yerdən yerə vurar"... Bax, Abayın da Qazax türkünə münasibəti belə idi. O, qazaxları çox sevdiyi üçün onların heç bir yanlışına dözə bilmirdi. O, dostdur və dost yanlışını açıqca söyləyər!

Abay, qazax türkünün XIX əsrdəki igid səsidir! Yazdığı şe'rlərlə nəsillərə, qazax türkünə doğru yolu göstərən bir ulu insandır Abay!

Onun sözləri və idealı bu gün də dillərdədir!

Abay, qazax türkünün birliyini dilədi, çalışqanlıq tövsiyə etdi, sevdiyini, bildiyini ucaltdı.

Hələ qazax elinin ucsuz-bucaqsız səhralarında onun səsi əks-səda verir: "Bunu yazan adamın adını bilmə, sözünü bil"

Geniş bir sadəlövhlüklə belə deyir Abay... Ancaq, biz sözünü bilirik, həm də adını! Və heç unutmayacağıq Abayı, qazax türkünə doğrunu göstərəni!..

Böyük mütəfəkkir Abay hər bir gözəlliklə maraqlanır. Mövsümün gözəlliyi misra-misra tökülür Abayın qələmindən:

*"İlk bahara qalmaz qışın ayazı,*
*Mərmər kimi gurlaşır yer üzü.*
*Canlılar, insan oğlu söyləyə bilsə,*
*Ata, ana kimi duyğulanır günəşin gözü."*

Bə'zən də bir gözəl qızın yaraşıqlı halı otaq qurar Abayın duyğu dünyasına:

*"Sənsən canın ləzzəti,*
*Sənsən bədən şərbəti,*
*Səni üstün yaradan*
*Allahın qudrəti".*

*"Saçları arxadan burma-burma,*
*Saç bağı şınqıldar, yerisə yavaş-yavaş,*
*Bəzəkli şalı, ağ gərdanlı, qara qaşlı*
*Qızın beləsini gördünmü həyatında?"*

Və o, qazax türkü olmanın mə'suliyyətiylə **XIX** əsrdə belə səslənir öz xalqına:

*"Böyük xalqım, Qazağım, zavallı yurdum,*
*Küt ülgüc ağzına düşdü bığlarım.*
*Yaxşıyla pisi ayıra bilmədim,*
*Bir qan, bir yağ olmuş iki ovurdlarım."*

Sadəcə şe'rləri ilə deyil, nəşrləriylə də fərqli olduğunu göstərir Abay... Onun sözləri bir ata sözü olaraq dolaşır türk dünyasını...

*"Adama ağlına görə kömək edin, ağılsıza etdiyin kömək sonunda üzər səni."*

*"İgid çox istəsə də aza razı olur. Eqoist az istəsə, çox da versən məmnun olmaz."*

*"Uğurlu olmaq istəyirsənsə, sakitcə işlə".*

*"Tox dilənçi şeytan, tənbəl sofu yalançıdır".*

*"Gücü olmayan qızğınlıq, sözündən dönən aşiq, çırağı olmayan alim heçdir."*

Türk dünyasında, **XIX** əsrdə Qazax elində bir günəş kimi doğan İbrahim Abay, ömrünün sonuna qədər qazax türkünün birliyi, xoşbəxtliyi üçün düşündü, çalışdı... 23 iyun 1904-cü ildə Abay ölmüş, amma onun fikirləri, onun düşüncələri hələ də yaşayır.

Onu rəhmətlə xatırlayırıq.

*İnsan doğulduğu zaman ağıllı olmaz: işləyər, görər, tutar, dadar, baxar, dünyadakı yaxşıyla pisi fərq edər. Onlardan dərslər çıxardan adam ağıllı olur. Ağıllı insanların söylədiklərini diqqətlə dinləyən*



*insanın özü də ağıllı olur. Hər ağıl təkbaşına işə yaramaz. Bu ağıllardan faydalanmağı bilən adam yaxşı şeylərdən dərs alarsa, pisliklərdən uzaqlaşar, adam olar. Buna bənzər sözləri eşitdiyində diqqətsiz davranırsa, can-qulağı ilə dinləməzsə, əhəmiyyət verməzsə, birisinin yanında sözün həqiqətinin fərqinə vara bilsə də, çölə çıxdığında unudursa, istəksiz davranırsa, yaxşı eşitmədiyini təkrar soruşaraq öyrənməzsə, eşidib eşitməmənin nə faydası var? Bir alim, "söz anlamayan adama söz söyləməkdənsə, səni tanıyan heyvana baxsan daha yaxşı olar", — demiş. Bu da onun kimi bir şeydir..."*

*ABAY*

# İSMAİL QASPIRALI

*"Dildə,*
*Fikirdə,*
*İşdə*
*Birlik"*

XIX əsrin sonlarında Kırımda bir adam ortaya çıxdı. Əlində elə güclü, elə tə'sirli bir silahı vardı ki, onun türklər arasında dolaşan "fitnə" düşməni tir-tir əsərdi... O igid kişinin silahı qarşısında sün'i ayrılıqlar sınər, hunəri fitnə olan şeytan künc-bucağa qaçardı...

Silahı çağın ən üstün silahıydı...

Olduğu meydan çağının əsgər meydanıydı...

O, ər kişinin silahı fikirdi, qələmdi, sözdü!...

Bəlli ki, əl alınışdı Yolluq Tıqindən, Qaşqarlı Mahmutdan, Nəvaidən... Hər şeydən əvvəl dərdi Turk diliydi!

İdealı bütün türkləri dildə, fikirdə, işdə birləşdirməkdi!

O, Mətə xanın yetişdiyi nəticəyə çatmaq istəyirdi çağının üsulları ilə.

XIX əsrin sonunda Kırımda bir adam ortaya çıxdı... Mən deyim Yasəvi dilli... Sən dahi de, Ozbək xan heybətli!..

Türk dilini islam imanının qanadı edən Yasəvinin milli işığını vəsf edənlərdən və "Var olsun Turk!" deyənlərdəndı. Onun hər sözü, urəyi türk uçun vuranlara tərcuməçi idı. Belə deyirdi:

"Biz türklərın Kabul-ü İslamdan müqəddəm milli yazımlarımız var idi. Kabul-ü İslamdan sonra elm və ədəbiyyat meydanında bir çok xidmətlərimiz göruldü. Bunlar iste'dad-i mədəniyyətımızın nışanələridir. Var ıdik, var olacağıq..."

Moskva Prensi Yuriy necə titrəmişdirsə Ozbək xan qarşısında, o da titrətdirdi çağının ruslarını... Belə ki, o igid turkdən qorxan bir rus elm adamı, Rusiya prokuroruna gondərdiyi məktubda: "Bu adam Rusiyadakı müsəlmanları (türkləri) çağın elmi ilə təchiz etmək və onlara, xüsusilə Türkiyə türkcəsinin tə'siri ilə birliyə götürmək istəyir..."

Kırımda doğulan o adam İSMAİL QASPIRALI idi!

1851-ci ildə Kırımın Baxçasaray yaxınlarındakı Ovçu kəndində doğulmuşdur. 12 yaşında ikən əsgəri məktəbə girdi. Rus əsgər məktəbində oxumağa başladığı zaman həqiqətlərlə üz-üzə gəldi. Qaspıralının qarşılaşdığı həqiqətlər rusçuluq və türk düşmənliyi idi.

Qaspıralı oxuduğu məktəbdə rusların necə bir qatı millətçilik şüuruyla yetişdiyini görüncə qərarını verdi; Türklük uğrunda hər çiləyə qatlanacaqdı! O gündən sonra İsmail Qaspıralı türk dunyasının dərdini dərd etdi, sevincini sevinc...

Türklük eşqinin ürəyini alışdırdı, o sıralarda Osmanlı türkləri Giritdə savaşırdılar. Gənc Qaspıralı ilgisiz qala bilməzdi! Bəli, o bir Kırım türkü idi... Nə fərqi var idi ki? Bütün türklər sevincdə, kədərdə ortaq olmalı idilər... O, türk idi! O halda, Osmanlı türkünün köməyinə gəlməliydi...

O, belə düşündü...

Çox vaxt itirmədən İstanbula gedəcək bir gəmini gözləməyə başladı... İstanbula gedəcək və Girit savaşında qardaşlarının yanında çiyin-çiyinə vuruşacaqdı.

Gəmiyə mindiyi zaman tutuldu. Arzusu gerçəkləşməmişdi, amma ürəyindəki "Harada türk varsa, onun dərdi mənim dərdimdir" prinsipini canlı tutdu.

Bir ara müəllimlik etdi. Xarici dil öyrənməyə çalışdı. Xarici dili yerində öyrənmək üçun Fransaya getdi. Orada qaldığı iki il içində bilgisi, təcrubəsi daha çox artdı. Kırıma döndüyündə Avropa haqqındakı düşüncələrini çap etdirərək Avropanın nə dərəcədə inkişaf etdiyini türklərə anlatmağa çalışdı.

Baxçasarayda Bələdiyyə rəhbərliyinə seçimi qazandı, amma arzu etdiyi imar və təhsil movzusunda boyuk proyektləri, maddi imkansızlıqlar səbəbiylə nəticəsiz qaldı.

Onun dərdi təhsil idi! Bütün Türkləri savadlandırmaqdı! Bunun yolu bır qəzet çıxarmaqdır. Bu elə bır qəzet olmalı idi ki,

qəzetin dili birliyə xidmət etməliydi. Turk xalqları arasında türkcənin ən çox danışılan ağısı-şivəsi Anadolu turkcəsiydi... O halda qəzet Türkiyə türkcəsiylə çıxmalı idi... Elə də etdi!

1883-cü ildə çıxmağa başlayan "TƏRCÜMƏÇİ" [illegible] muddətində birlik, bərabərlik, inkişaf uzrə olan duşuncələrini açıqladı. Qəzet çapı arasında bir çox kitab da nəşr olundu. Harada bir türk varsa onun məsələsiylə yaxından maraqlandı. Dünya müsəlmanlarının geri qalma səbəbləri uzərində baş sındırdı.

İsmail Qaspıralı bu qatı həqiqətə inanırdı. Turk milləti bir bütündür. Bu millətin fərdlərinə coğrafi ayrılıqlar, dildəki ləhcə fərqləri butünlük mövzusunda mənfi tə'sir göstərə bilməz! Çünki türk dili millətin fərdləri arasında ən quvvətli bir bağ olaraq durur. Bu gözəl dildəki ərəb və farsca kəlmələr zaman içində yavaş-yavaş təmizlənməlidir. Kırımdakı, Bakıdakı, Daşkənddəki, Alma-Atadakı bir türk İstanbulda və ya Bişkekdə nəşr olunan bir kitabı rahatca oxuya bilməlidir!

Bu onun dəyişməz idealı idi!

"Tərcüməçi" bu idealın həyata keçməsinə bir vasitə idi... Həqiqətən də qısa bir zamanda "Tərcüməçi" qəzeti türk dünyasında ehtiyac duyulan bir qəzet oldu. Belə ki, İsmail Qaspıralının xüsusilə dildə birlik kəlməsi turkluyün uğur açarı idi, qələbə qapısını asan açmayırdı. Çünki "Tərcüməçi"nin ləhcəsi Türkiyə ləhcəsi idi. Fəqət, Rus tə'sirindəki turklərə ruslar bu ləhcəni, Özbək, Qırğız, Azəri, Qazax, Turkmən qardaşlarımıza öyrədilməsi movzusunda imkan vermirdilər. Ruslar özlərini haqlı bilirdilər!

Qoca bir Türk ictimaiyyətini istədikləri kimi idarə etmələri, əlbəttə mumkün deyildi! Soyu bir, tarixi bir, mədəniyyəti bir uca bir milləti kiçik parçalar halında tutmaq onlar uçün əlverişli idi. (Türkcənin bu acı vəziyyəti, Çar Rusiyasından çox bolşevik idarəsi zamanında daha da pisləşdi. Hər türk xalqına "ayrı millət" şüuru verə bilmək üçün, şivələrini xüsusilə inkişaf etdirməyi hədəf seçdilər).



Dildə birlik çox əhəmiyyətli idi. Qaspıralı bunu çox yaxşı bilirdi. **Türk dünyasında əvvəl dildə, sonra fikirdə, sonra isə işdə birlik** olmalıydı. Bu ideal uğrunda çox çalışdı. Kırımda bir çox konqreslər təşkil etdi. Həqiqətən Qaspıralı böyuk filosoflar arasında idi. Onun rəhbərlik etdiyi Rusiya Musəlmanları konqresinin 1906 ildəki son iclasında qəbul etdiyi qərarları Çar hokuməti həyata keçirsə idi, tək Rusiyadakı turklər deyil, ruslar da dinclik içində olardılar. Hətta, bu prinsiplər həyata keçirilsəydi Rusiyada bolşeviklərin 1917-ci il inqilabı olmazdı. Çünki konqresin istər sosial həyat və istərsə də Rusiyanın umumi vəziyyətinə yaraya biləcək qərarlar var idi. Fəhlələrin problemləri və əməyin haqqı Rusiyanın tək insan tərəfindən idarə olunması sistemi içində çağdaş bir quruluşa qovuşdurulması... kimi o günün Rusiyasının ehtiyacı olan qaydalar konqres qərarları arasında idi.

Şübhəsiz, İsmail Qaspıralının rəhbərliyi altında toplanan bu konqresin qəbul etdiyi maddələr arasında olan 30-cu maddə çox əhəmiyyətliydi. Bu maddə belə idi:

**"30 əbədi türk dilinin (Türkiyə türkcəsinin) öyrədilməsinə əhəmiyyət veriləcəkdir. Bu dərs Müsəlman (türk) tələbələri üçün orta məktəblərdə məcburi olub, imkan daxilində ibtidai məktəblərdə də oxudulmalıdır..."**

Qaspıralıdakı turklük eşqinin bəslədiyi çalışma əzmi bir cür bitmirdi... Onu Orta Asiyada birlik, bərabərlik uğrunda şəhər-şəhər dolaşarkən gorənlər; onu İstanbulda "bilən adamlarla" sohbətdə olanlar heç çaşmayırlardı.

O, həqiqi bir türk sevdalısıydı! Bundan əlavə, o boyük insan, dunya Musəlmanlarının geri qalmışlığının səbəblərini axtarar, üzərində baş yorar, bunun həlli üçün addımlar atardı. İndiki zamanda millətlərarası islam konfrans və birliklərinin ilk toxumlarının atılmasında bu fikir qəhrəmanının əmək payı vardır. Misirdə, Qahirə kuçələrində "Buxara Çapanı" geymiş bir İsmail Qaspıralı Dunya müsəlmanları konqresinin hazırlıq narahatlığını yaşamaqda idi.

Onun gözü şanda, şöhrətdə deyildi. Vəzifə, mövqe, unvan onun üçün əhəmiyyətli deyildi... Əslində, İstanbuldakı millətçi türklər İsmail Qaspıralıya 1912-ci ildə Osmanlı Məclisində "Ayan-senator" olması yolunda təklif etdilər. Fəqət, o bunu qəbul etmədi...

Öldüyü tarix olan 1914-cü ilə qədər Baxçasarayda dunya türklərini nəşr yoluyla işıqlandırma vəzifəsini sürdürdü...

**XIX** əsrin sonlarında Qızıl ordu məkanında bir əsgər ortaya çıxdı... Əlində güclü bir silah var idi... Onun silahı: fikirdi, qələmdi, sözdü!

Söz gəlişi, o kırımlıydı.

Həqiqətdə isə, o, Türk harada idisə, oradaydı...

Adı İsmail Qaspıralı idi!..

*"... Deməк istəyirdi ki, ərəb, türk, fars və hind xalqları islamiyyətinin bugünkü düşkünlüyü yaradılış və təbiətlərindən irəli gələn bir hal deyildir. Belə isə fəaliyyət yolumuzu kəsdirən dini mübihi islamdırmı? Xeyr, xeyr! Müşərrəf olduğumuz dinin, İslamın irəliləmə mənbəyidir, əvvəlcə görülmüş irəliləməmizin bəlkə də baş səbəbi və mühərrikidir. Dinimiz elə bir qanunu müqəddəsdir ki: "Cümləniz çalışınız, oxuyunuz, tədbir və sənət ilə yaşayınız" qeydləri amirdir. Bizlər isə hazırda bu evamiri şərifənin tam əksini işləyirik. İşsizlik, sənətsizlik, nadanlıq, hamısı bizdədir! Hikmət halımızın burasındadır! İqtisadi düşkünlüyümüzə, fikir və ağıl hərəkətsizliyi, yəni şərq aləmində bir fikir, bir əsər və bir ədibin ortaya çıxmasına qarşı qərb aləmində yüz fikir, yüz əsər, yüz ədibin baş göstərməsi əlavə olunarsa, halımızın nə qədər müşkül olduğu daha gözəl anlaşılmış olur..."*

*İSMAİL QASPIRALI*



# ZİYA GÖKALP

*"Demə mənə: Oğuz, Kayı, Osmanlı.."*
*Türkəm, bu ad hər ünvandan üstündür.*
*Yoxdur Özbək, Noqay, Qırğız, Qazanlı,*
*Türk milləti, bir bölünməz "bütündür."*

Böyük türk filosofu və milliyyətçisi Ziya Gökalp 1876-cı ildə Diyarbəkirdə doğulmuşdur. Əsl adı Məhməd Ziyadır. Atası Muftüzadə Tofiq Əfəndidir. Anası — Pirinczadə Zəlixa xanım olmuşdur.

Ziya Gökalp ziyalı bir atanın övladıdır. Atası Diyarbəkirdə əhəmiyyətli dövlət vəzifələrində olmuşdur. Oxuyan, yazan birisiydi Ziya Gökalp. Diyarbəkir vilayətinin rəsmi qəzetinin nəzdində olan "Diyarbəkir" qəzetini nəşr etdirirdi. Onun baş yazıçılığını oz üzərinə götürmuşdu. Vətənsevər idi, Namiq Kamala heyran idi... Şübhəsiz, belə bir atanın övladı ancaq Ziya Gokalp kimi ola bilərdi!

Zıya Gökalpın aqressiv xarakterinin, vətən və millət sevgisinin və tədqiqatçı xüsusiyyətinin əsasında atasının qoyduğu material var idi.

Diyarbəkir əsgəri orta məktəbini bitirdikdən sonra mülkiyyət sahibliyini davam etdi. Bu zamanlar "millət" eşqiylə dolmaya başladı. Milləti padişahdan "üstün tutma" düşüncəsini məktəbdə oxuduğu zaman bir hərəkata dönüşdürmüşdü. Dövlət prinsipi olaraq, məktəb təntənələrində söylənən "Padişahım çox yaşa", sözünün yerinə "Millətim, çox yaşa" deyə bağırdı və düşüncəsinin çiləsini gənc yaşından başlayaraq çəkməyə başladı.

Özü-özünə fransızca öyrəndi. Əmisindən ərəb və fars dilləri haqqında dərslər aldı. İslam tarixi və ibadət mövzularında incələmələrdə iştirak etdi. Sıx zehni fəaliyyətlər gənc Ziyanı boğdu, ruh və zehni gücü yoruldu; bir ara intihar təşəbbüsünə qalxdı. Daha sonra həyata yenidən sarıldı. Yüksək təhsil gör-

mək üçün İstanbula gəldi. Havayı internat olduğu üçün "Baytar Məktəbi Alisinə", yə'ni yüksək veterinar məktəbinə girdi. Bu məktəbdə Əbdülhəmid xanın rəhbərliyinə qarşı fəaliyyət göstərən gizli cəmiyyətə girdi. Məktəbdən çıxarıldı. Məhkum oldu, Diyarbəkirə sürgünə göndərildi.

1899-cu ildən 1908-ci ilə qədər Diyarbəkirdə oxumaqla, tədqiqat işi və gəncləri işıqlandırmaqla məşğul oldu. "Diclə" adlı bir qəzet nəşr etdirdi. "Birlik və Tərəqqi Siyasi Partiyasının" Diyarbəkir şö'bəsini qurdu. 1909-cu ildə partiyasının də'vəti üzərinə Selanikə getdi. Partiyasının qurultayında Mərkəzi Aparatın üzvülüyünə seçildi. 1911-ci ildə Selanikdə nəşr olmağa başlayan "Gənc qələmlər" jurnalında fikirlərini yazmağa başladı. Bu jurnalda:

*"Vətən nə Türkiyədir türklərə, nə Türküstan;*
*Vətən böyük və əbədi bir ölkədir: Turan..."*

sözləriylə bitən yazılarıyla türk könüllərində böyük həyəcan və tə'sir yaratdı. Osmanlılıq ruhu kimi, yamaqlı bir boxça düşüncə içində unudulmağa üz tutmuş türklüyü və onun yaşadığı böyük çoğrafiyanı şe'r diliylə açıqca anlatdı.

Ölmüş ruhlara bir canlılıq, bir yenilik verdi. Türk sənət və ədəbiyyatında olduğu qədər, türk düşüncə həyatında da yeni bir istiqamət müəyyən etdi.

Davamlı, yorulmadan yazdı... Məqalələri ilə yetişmiş bir fikrə sahib olduğunu göstərdi. Əksər yazılarına "Tevfik Sədat" imzası atdı, bə'zən də "Dəmirdaş" adından istifadə etdi. Jurnalın rəhbərliyində olan Əli Canip Yöntəm Gənc qələmlərdə Ziyanın yazılarını Gökalp imzasıyla nəşr etdu. Ziya bəy də bundan sonra bütün yazılarını ZİYA GÖKALP imzasıyla jurnala verdi. Və beləcə bu ad türk ədəbiyyatı, türk düşüncəsi və Türk milliyyətçiliyi tarixində əbədiləşmiş oldu.

Səviyyəli bir şəkildə daima siyasətin içində yer aldı Ziya Gökalp. Bir fikir adamının, bir böyük ideal adamının siyasət



içində olması ilk baxışda yadırğana bilər. Bu mövzuda Ziya Gökalpın siyasətə baxış acısı əhəmiyyətlidir. Türkiyədə Ziya Gökalp haqqında ən ciddi və ətraflı incələməsiylə tanınan Əlaəddin Qorxmaz onun bu vəziyyəti haqqında belə deyir:

"Ömrü siyasi hərəkat və "siyasi partiyaların" arasında keçmiş olmasına baxmayaraq o, siyasi fəaliyyətlərin əsasını təşkil edən "iqtidarın" arxasında və ehtirasında, özü-özünə qəbul etdiyi vəzifə, siyasi hərəkatlara bilgi vermək, elmin göstərdiyi icraat, tövsiyə etməkdən ibarətdir. Elmi də, siyasəti də belə "müqəddəs" saydığı bir məqsəd üçün etmiş, bu səbəblə ortaya "alim" və "mütəfəkkir" bir siyasət çıxmış, portretindəki siyasi cizgilər tamamən silinib getdiyi halda əsas şəxsiyyəti yaşamışdır."

Bu təsbit çox doğrudur. Bu gün bütün Turk dünyasında siyasətçi yönü ilə deyil, Türklük üzərinə gəlişdirdiyi dəyərli fikirləriylə tanınmaqda və bilinməkdədir.

"Birlik və Tərəqqi" siyasi partiyasının Mərkəzi aparatı İstanbula köçürüldüyündə Ziya Gökalp da İstanbula gəldi. İstanbul Universitetində sosioloq kafedrasını qurdu. Türkiyədə sosioloji elminin əsasını qoydu.

Gökalp üzvü olduğu partiyasının davamlı olaraq fikri rəhbərliyini etdi: Osmanlı dövləti içində türk olmayan ünsürlərin "Osmanlılıq" fikri içində tutulmayacağını, belə bir düşüncənin türklərin əleyhinə olacağını ifadə etdi. Universitetdəki dərslərində, məqalələrində aralıqsız olaraq türklərin gələcəyi və yüksək türk şəxsiyyəti haqqında fikir yürütdü və qorxmadan mübarizə etdi.

"Türk yurdu" jurnalında 20 mart 1913-cü ildən e'tibarən parça-parça nəşr olunan, daha sonra da kitab şəklində çıxan "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" mövzuda yazılar zinciri ilə mədəni və siyasi həqiqətləri ortaya qoydu. Ziya Gökalp belə deyirdi: "Türk yurdunda hökümət içində, suverenliyi əlində tutan təşkilatlarda olanlar "türk olmaq" və ya özlərini səmimi olaraq "türk bilmək" və bununla da "qurur duymaq"

vəziyyətində olmalıdır". "Osmanlıcılıq" düşüncəsində olanlar dövləti idarə etməməli; "Türk olmanın həyəcanını" hiss edənlər dövləti idarə etməlidirlər...

Ziya Gökalp Türk Ocaqları çatısı altında toplanan o zamankı gəncliyin fikri rəhbərliyini etdi. "Türk yurdu" jurnalında türk tarixinə aid lazımi incələmələr, millət, eşq həyəcanı daşıyan şe'rlər nəşr etdirdi. 12 iyul 1917-ci ildə çıxardığı "Yeni məcmuə"də türk milliyyətçiliyinin yollarını göstərdi, proqramını hazırladı.

Birinci dünya müharibəsində ingilislər tərəfindən Maltaya sürgün edildi. Döndüyündə Diyarbəkirdə "Kiçik Məcmuə" adıyla bir jurnal nəşr etdirməyə başladı. Bu jurnalda yenə Vətən sevgisini, millət eşqini işlədi. Milli mücadiləni könüldən himayəsi altına alaraq müdafiə etdi. Türk tarixinin ən görkəmli siması və türklüyün ən böyük lideri olan Mustafa Kamal Atatürkün hərkatını müdafiə etdi.

1923-ci ildə Milli Təhsil Nazirliyinin tə'lif və tərcümə rəhbəri kimi Ankaraya gəldi. İkinci Böyük Millət Məclisində Diyarbəkir millət vəkili olmasından qısa bir zaman sonra, 25 oktyabr 1924-cü ildə əbədiyyətə köçdü. Cənazəsi vətənsevər türk gəncliyinin çiyinlərində və çox böyük bir insan axını ilə Sultanəhməd Türbəsində dəfn edildi.

Başlıca əsərləri bunlardır: "Türk ictimaiyyət tarixi", "Türk adət-ən'ənəsi", "Türkçülüyün əsasları", "Yeni həyat", "Qızıl alma", "Qızıl işıq", "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək", "Malta məktubları", "Türk mədəniyyətinin tarixi"... və s.

Ziya Gökalpın fikirləri hələ də bütün canlılığıyla yaşamaqdadır. Onun fikirləri türk ziyalılarına çox tə'sir edir. Türkiyə Respublikası Dovlətinin quruluşunda onun fikirlərinin tə'siri olduqca bilinir.

Gokalp yuksək fəzilət sahibiydi. Dürüst idi, heç bir zaman şəxsi ikbal arxasınca qaçmadı. Tək qayəsi Türk dövlətinin sərbəst, azad olması və millətinin xoşbəxt yaşaması idi. Bu ideal uğrunda qısa ömrunə çox şey sığdırdı.



Türk millətinin bu böyük övladını rəhmətlə xatırlayırıq.

Gökalpa görə, bütün türk xalqları bir gün bir araya gələrək birləşəcəklər. Çünki türk milləti ayrılmaz bir bütündür. Türkmən, Qırğız, Qazax, Özbək, Azəri, Tatar... Bütün bu xalqlar eyni soyun, eyni mədəniyyətin, eyni tarixin, eyni dilin mənsublarıdırlar. Hamısı bir-biriylə qardaşdır. Kədərləri bir, sevincləri bir olmalıdır...

Gökalp, üstündə tərsliklə durduğu birlik və türk xalqlarının azad dövlət halında yaşamaları mövzusu o illərdə könüllərdə uca bir ideal idi. Hətta deyə bilərik ki, Ziya Gökalpın irəli sürdüyu bir ideya idi. Uca yaradana şükürlər olsun ki, bu gün türk xalqları azadlıqlarını qazandılar. Gökalpın dilədiyinin birincisi həyata keçdi.

İkinci dilədiyi — birlik mözusuydu və o, bu mövzuya çox böyük əhəmiyyət verirdi... Gökalp, türk xalqları ayrı-ayrı dövlətlər halında əmələ gəldikdən sonra bütün bu dövlətlər tək dövlət halına gələcəklər demişdir, çunki: "Türk ruhunda yalnız bir vilayət, bir ilham vardır".

Türkluyun böyük filosofu, türk millətçiliyinin lideri Ziya Gokalp atamızın bu diləyinin də gerçəkləşməsi onun ruhunu şad edəcəkdir. Allahın verdiyi bütün qabiliyyətləri türklüyün xoşbəxtliyi üçün nümayiş etdirən və ömrünü bu yolda tükətən Ziya Gökalp atamızın ruhu şad olsun!

## MİLLƏT

*Sorma məndən oymağımı, boyumu..*
*Beş min ildir millət kimi yaşaram,*
*Sorma məndən ailəmi, soyumu,*
*Soyum Türklük, soy köküm Hökmdarım.*

*Baş daşı ayırsa da məni, vəhdətimi unutmam,*
*Dildə, dində bərabərik, gəlmişik biz bir beldən,*
*Dövlətimin qayğısıyla millətimi unutmam,*
*Anadolu bir iç vilayətdir, ayrılmaz xarici vilayətdən...*

*Demə mənə: "Oğuz, Kayı, Osmanlı..."*
*Türkəm, bu ad hər ünvandan üstündür...*
*Yoxdur Özbək, Noqay, Qırğız, Qazanlı*
*Türk milləti bölünməz bir "bütündür".*

*Göy, ay, ulduz, dağ və dəniz, xanlar, bütün ölmüşlər,*
*Yalnız diri Gün xan qalmış qızıl piyadə əlində.*
*Baxdı, dedi, Moskva ilə Çin türk qəbiləsini bölmüşlər,*
*Artıq onlar hürr olacaq Rus vilayətində və Çində.*

*Hər ölkədə türk bir dövlət olacaq,*
*Fəqət, bunlar birləşəcək nəhayət...*
*Hamısı bir dildə eyni dinə ibadət edəcək.*
*Olacaq tək harsa malik bir millət!"*

*Ey türk oğlu! Artıq nə mən, nə sən, nə o, – deyə bir şey yox..*
*Millətlər yox, uruqlar yox, ancaq böyük Turan var...*
*Siyasətdə çox Allahlılıq olmaz, həm də xan və bəy yox..*
*Türk ruhunda yalnız bir vilayət, bir ilham var!*

ZİYA GÖKALP



## TURAN

*Nəbzlərimdə vuran duyğular ki, tarixin*
*Bir-bir dərin səsidir, mən səhifələrdə deyil,*
*Seçkin, şanlı, nəcib irqimin uzaq və yaxın*
*Bütün qələbələrini qəlbimin tarixində,*
*Nəbzlərimdə oxuyar, anlar, təbcil eylərəm.*

*Səhifələrdə deyil, çünki Atilla, Çingiz*
*Qələbə irqimi tetviç edən bu nəsiyyətlər*
*O duzlu çərçivələrdə, o iftiramız*
*Mühit içində görünməkdə kirli, sərməndə;*
*Fəqət, şərəflə nümayən Sezar və İskəndər!*

*Nəbzlərimdə bəli, çünki elm üçün mübhəm,*
*Qalan Oğuz xanı qəlbim tanır tamamiylə.*
*Damarlarımda yaşar şan və ehtişamiylə*
*Oğuz xan, bax budur könlümü edən mülhəm:*

*Vətən nə Türkiyədir Türklərə, nə Türküstan;*
*Vətən böyük və məhəbbət bir ölkədir: Turan!..*

ZİYA GÖKALP

# ATATÜRK

*"Nə xoşbəxtdir Türkəm deyən!"*

1922-ci il 19 oktyabr günü London yorğun düşmüş bir insanın halsızlığını yaşayırdı... Dünya hadisələrini müşahidə edən ingilis vətəndaşlarının üzündə, "üzərində günəş batmayan imperiya" qurumunun rahat cizgiləri itmişdi, kimsənin ağzını bıçaq açmayırdı...

Baş Nazir Lloyd Corcun iste'fa edəcəyi bilinirdi. İs'tefa etmənin səbəbi İngiltərənin "Anadolu siyasətini" uğursuzluğa düçar edən Mustafa Kamal liderliyindəki Türk Millətinin qələbəsi idi...

Lloyd Corc Avam Karamasında kürsüyə yorğun addımlarla yaxınlaşırdı. Türklərə qarşı olan yunanlılara, necə kömək etdiklərini uzun-uzun anlatdı. Sözlərini bağlayacaq cümləni tələffüz etməyə dili bir cür gəlmirdi. Nəticədə, iki əlləri ilə kürsünü qucaqlayaraq yalvarışlı bir əda ilə danışdı:

" — **Yoldaşlar, yüz illər nadir olaraq dahilər yetişdirir. Bu talehsizliyimizə baxın ki, o böyük dahi çağımızda Türk millətinə nəsib oldu. Mustafa Kamalın dahiliyinə qarşı əlimizdən nə gəlirdi ki?"**

Sonra iste'fasını verdi...

Selanikidə 1881-ci ildə doğulduğunda adı: Mustafa idi.

Əsgər məktəbində Mustafa Kamal oldu.

1915-ci ildə "Anafartalar Qəhrəmanı" deyə anıldı.

1919-cu ilin son baharında, Sivasdan Ankaraya doğru yola çıxdığı zaman, "Heyyəti Təmsiliyə Rəisi" sifətini də daşıyırdı.

1920-ci ildə "Türkiyə Böyük Millət Məclisi Rəisi..." Baş komandir...



"Sakarya dastanından" sonra: Marşal Qazi Mustafa Kamal...

Sonra hər kəsin bir "Soyadı" aldığı çağda, Türk milləti ona keçmişi və gələcəyi qucaqlayan bir ad verdi: ATATÜRK!

Asanlıqla almadı bu adları, ünvanları Atatürk... Yüksək zəkası, çalışqanlığı, səbri, hiss etmə qabiliyyəti, geniş mədəniyyəti və türk millətinə olan dərin sevgisi müvəffəqiyyətlərinin açarları idi...

Əsgəri məktəbdə, Əsgəri hazırlıqda, hərb məktəbi və hərb akademiyasında fərqli tələbələrdən idi. Müvəfəqiyyətli olmasıyla bərabər ölkənin məsələləriylə də maraqlanır, həll yollarını axtarırdı. Hərb məktəbində əl yazısı ilə qəzet nəşr edirdi, düşüncələrini açıqlayırdı.

1904-cü ildə qərargah Yüzbaşı olaraq Hərb akademiyasından ayrıldığı zaman daha da təkmilləşmişdi. Davamlı olaraq yoldaşlarıyla yığıncaqlar təşkil edir, ölkənin məsələləriylə maraqlanır, mübahisə edirdi. Bu yığıncaqlardan narahat olan hökumət onu keçici olaraq həbs etdi. Günlər boyu Ulduz Sarayında sorğulandı. Sonra Suriyada olan beşinci orduya tə'yin edildi. Orada vətənin məsələləriylə maraqlandı. Yoldaşlarıyla irtibata keçdi, cəmiyyət qurdu.

Suriyadan sonra Selanikidəki üçüncü ordu əmrinə girdi. Üçüncü orduya bağlı birlik və təşkilatlarda vəzifələr aldı. Hərəkat ordusunun qərargah rəhbərliyini yerinə yetirdi.

"Birlik və Tərəqqi" siyasi partiyasına yaxın olmasına baxmayaraq, ordunun siyasətə qarışmamasını istəyirdi. Trablusqarp davasında bir vətənsevər kimi qeyrət göstərdi. Ethəm Paşanın zabiti olaraq vəzifə almışdı.

22 dekabr 1911-ci ildə Tobrukda italyanlara qarşı hazırlanan hücumu təşkil etdi. Həmin ildə minbaşı oldu. Balkan müharibəsi başlayanda ana vətənə döndü. Bolayırda təşkil edilən Ağdəniz Boğazı Tayfalar qüvvətlərinin zabiti olaraq vəzifə aldı; ancaq fe'lən komandirlik etdi.

Balkan müharibəsindən sonra Sofiya Əsgəri ateşəliyinə tə'yin edildi.

I Dünya müharibəsi başlayanda, müharibənin nəticəsinin necə bitəcəyini təxmin etmişdi. Və ehtimalı doğru çıxdı.

Sofiyadan cəbhədə vəzifə almaq üçün öz tə'kidini bildirdi. Nəticədə Tekirdağda qurulmaqda olan bir diviziyaya tə'yin edildi. 19-cu Tümən adını alan bu birliyi qısa zamanda ən görkəmli bir qüvvət halına gətirdi. Bu sırada Çanakqala "Tək dişi qalmış canavarlar" tərəfindən təzyiq altında idi. Tümeni ilə Maydosa keçdi və ilk qələbəsini Arıburnuda qazandı. Sonra Anafartalar... Anafartalar cəbhəsi ən çətin döyüşlərin getdiyi bir cəhbə idi. Bu cəhbə möhtəşəm türk hücumlarına səhnə oldu. Döyüş sənətinin görkəmli ustası Mustafa Kamal xarüqələr yaratdı. Komandir Mustafa Kamalın dahiliyi məhmədciyin əmsalsız döyüşçülüyü ilə birləşdi, dastanlar yazıldı Anafartalarda, Çonkbayırda!..

M.Kamal İstanbulda "Anafartalar Qəhrəmanı" kimi qarşılandı.

Nisan 1916-cı ildə Şərqi Anadoludakı vəzifəsinə gedərkən yolda general rütbəsinə yüksəldi.

I Dünya müharibəsində cəbhədən-cəbhəyə tələsdi. "Cəbhədən cəbhəni soruşanlarla çiyin-çiyinə vuruşdu. "Hüdutdan-hüduda cihad bayraqlarıyla" dolaşdı...

Türk milləti Birinci Dünya müharibəsində yeddi cəbhədə: yeddi istiqamətdə çarpışdı. Belə ki, müttəfiqi Almanların məğlub sayılmasıyla türklər də bir atəşkəs muqaviləsini imzalamağa məcbur edildi. "Mondros sülh muqaviləsi" deyilən bu mə'sum müqavilə, türk milləti üçün bir fəlakət xəbərçisiydi. Müqavilənin bu vəziyyətdə olduğunu ilk sezən yenə Mustafa Kamal Paşa oldu. İldırım orduları qrup komandiri olaraq hərb nəzarətinə çəkdiyi teleqraflarla müqavilənin yeddinci maddəsinin verəcəyi təhlükələrə diqqət çəkdi. Bu maddə düşmən dövlətlərə hərəkət sərbəstliyi verir və vətənimizi butunlüklə işğal etmənin, onlara görə sözdə hüquqi dayanağını təşkil edirdi. Beləliklə, çox keçmədən, ingilislər İskəndərunu işğal etmişdilər belə. Bu işğala səs çıxarmayan İstanbul hökuməti,



düşmənin (İ'tilaf dövlətlərinin) adəta bir oyuncağı halına gəlmişdi. Türkün Vətəni işğal edilir, amma hokumət, düşmənə qarşı heç bir dirənişə icazə verməyirdi! Mustafa Kamal Paşa bu tutuma dözə bılməzdi. O Mustafa Kamal ki, çox deyil, uç il əvvəl, Çanakqalada Vətən torpağını qarış-qarış mudafiə etmiş bir əsgərdi! Belə bir insan, əlbəttə, düşmən hədəsini dinləyə bilməz, əlbəttə, türklüyü əsarətə götürəcək halları qəbul edə bilməzdi.

*Nə İngilis himayəsi,*<br>
*Nə Amerikan mandatı..*<br>
*O böyük Türk, bir şeyə inanırdı:*<br>
*YA İSTİQLAL — YA ÖLÜM!..*

Bu məqsəd ilə o, Samsuna çıxdı... Əlbəttə, millətin istiqlalını yenə millətin əzmi və qərarı qurtaracaqdı... O halda millətin bağrında bir böyük mübarizənin bayrağı açılmalıydı!

"Amasiya Tamimi" Mustafa Kamal Paşa liderliyindəki böyük mübarizənin ilk işarətiydi... Bunun ardından "Ərzurum konqresi"... Və Ərzurumda verdiyi qərar ilə "Silk-i Cəlil-i əsgəriyyədən" ayrılması... Rəsmi sifət və səlahiyyətlərdən yoxsul, yalnız millətin şəfqət civanmərdliyinə guvənərək milli bir mubarizə başlatma əzmi...

Bunlar asanlıqla veriləcək qərarlar deyildir!

Bu tavır və qərarlar bir üstün dahinin məhsulu...

Bu hadisəni bir düşününüz: Sivas qurultayının də'vətliləri Sivasa ölkənin dörd bir tərəfindən gəlmişdilər. Kamal Paşa da Ərzurumdan hərəkət edəcəkdir. Fəqət, bir xəbər gəlir Ərzuruma: Sivas yolunda quldurlar Mustafa Kamal Paşaya hücum edəcəkdirlər!

Bu xəbəri alan Paşa xəbərin doğruluğunu kontrol etmək uçun kəşfiyyat etdirməz. çünki bu halda zaman itirilirdi; Sivasa gələn nümayəndələr geri dönə bilərdilər.

Qurultayı tə'xirə salmaq demək isə, Milli mübarizənin başlanqıcında bitməsi deməkdir...

Bu vəziyyətdə üçüncü bir yol var: "kəlləni qoltuğa alıb" yola davam etmək və qurultayın açılışını günündə, tə'yin olmuş zamanda başlamaq! Beləliklə, Kamal Paşa avtomobilinə durbinli tüfəng yerləşdirərək yola çıxır... Quldurların olduğu söylənən yerə yaxınlaşdıqda Kamal Paşa yanındakılara belə deyir: "Atəş açılarsa və hər hansı birimiz vurularaq avtomobildən aşağı düşəriksə, onu almaq üçün durmayacağıq. Bu, mən də ola bilərəm. Sağ qalanlar heç durmadan Sivasa çatmalıdırlar..."

Bu sözlər canı bahasına da olsa milli mübarizənin müvəffəqiyyətə çatmasını istəyən ancaq bir liderin söyləyə biləcəyi sözlərdir.

O, Türk millətinin şərəf və heysiyyətini qorumağı bir namus borcu olaraq bilirdi. Sivas qurultayının başladığı sıralarda Fransızlar Müsyo Piçotu Kamal Paşa ilə görüşməsi üçün Sivasa göndərirlər... Piçot qaldığı mehmanxanadan vizit kartını göndərərək görüşmək istədiyini bildirmişdi. Piçotun vizit kartında ünvanı belədir: "Fransa hökumətinin Suriya və Ermənistan təmsilçisi..."

Vizit kartını oxuyan Mustafa Kamal Paşa Piçota bu xəbəri göndərir, "Fransanın Ermənilər adına gəlmiş təmsilçisini qəbul etməyirəm!" Bu xəbəri alan Piçot dərhal təmsilçiliyinə gələr, üzr istəyər. Şəxsən Mustafa Paşaya: "elə bir sifətinin olmadığını" bəyan edər, sonra isə görüşmək imkanı tapır...

Türk milləti ona, o da türk millətinə güvənirdi. Başlatdığı qurultayda çox sevdiyi formasını çıxartmışdı, amma çox yaxından böyük türk milləti ona "Marşal" forması geydirəcəkdi... **Haqqında həbs olunması üçün qərarlar çıxardı.**

İstanbuldan türk milləti uca liderini Çankayada Seymen alaylarıyla, coşqun zeybək havalarıyla qarşılayacaqdı!..

O, artıq türklüyün istiqlal rəmziydi!

Türkun tarixinə baxdığımız zaman bunu görürük: **Millət iradəsiylə Baş komandirlik səlahiyyətiylə bəzədilən İLK TÜRK, Mustafa Kamal Paşadır!**

O böyük əsgər bu səlahiyyəti "Türk Vətəni üstündə sönməz bir günəş olan" müqəddəs bir ocağın irfan işıqları altında bacarıqla istifadə etdi...



O böyük dahi Sakarya döyüşündə uyğuladığı "Həddi müdafiə deyil, səthi müdafiə" strategiyası millətimizə qələbə yolunu açdı...

O, Atası Mətə xan kimi usta bir strateq idi... Birinci dünya müharibəsi ilə ortaya çıxan "Yekun müharibə" strategiyasını İstiqlal müharibəsində ustaca istifadə etdi. Ən ucqar kənddə yaşayan hər bir vətəndaşın, yaşlı türklərin belə müharibə üçün köməyinin tə'min olunmasını bacarıqla həyata keçirdi. Kastamonulular pəncərə dəmirlərini sökərək süngü düzəltdilər və orduya göndərdilər... Seydilər kəndinin ulu bəxtli gəlinləri belə qucaqlarında üç aylıq körpələriylə arabalarla mərmi daşımaq üçün yollara düşdülər... Eyni birlikdə ata və oğul yan-yana döyüşdülər. Zənginlərdən Ərzurumlu Nafiz Bəy Kamal Paşanın ordusu üçün təyyarə hədiyyə etdi. Qadın-kişi, bütün türk milləti: "Əmrinizdəyik, Kamal Paşa," — deyirdilər...

Urfada Bozan Ağa, Osmaniyyədə Rahimə Onbaşı... Egenin efesi, Ərzurumun dadası; Qalacığın Salihi, Antepin Şahini "Bir gül baxçasına girərcəsinə" düşdü qara torpağa...

Bir təpəni almaqda çətinlik çəkən polk komandiri Kamal Paşaya qarşı olacaq sıxıntısını silahıyla intihar edərək ifadə edirdi!

Bütün bir milləti ən çətin şərtlər altında coşquyla şahlandıran bir lider, şübhəsiz, dünya tarixində sayılırdı.

Lloyd Corc haqlıydı: yüzillər nadir olaraq dahi yetişdirir... Və o dahi Mustafa Kamal Paşa idi!

İllərcə e'tinasızlıq göstərilmiş, Balkan məğlubiyyəti yaşamış, dünya müharibəsində yorğun düşmüş bir milləti şahlandırmaq, əlbəttə asan deyildir... Düşmən yüksək texniki imkanlara sahib... Sənayeləşmiş İtalyan, Fransız, İngilis dövlətlərinin mühimat və təchizatıyla ərköyünləşmiş yunanlılar qarşısında: "Bütün qalaları zəbt edilmiş, bütün orduları dağıdılmış, bütün tərsanələrə girilmiş" bir millət!.. Və o millət "fakr-ü zərurət içərisində yığılmış və bitab düşmüş" olmalarına baxmayaraq yenə də döyüşə, savaş meydanlarına qaçırdılar...

Türk millətinin bu əzmi, əlbəttə İstiqlal və Vətən eşqiylə bəslənirdi. İstiqlal və Vətən eşqiylə dolu görükərək bir liderin buyruğunda dastanlar yaradırdı...

O, elə bir lider idi ki, "Təkbaşına qalsam belə, bir əlimə türk bayrağını, bir əlimə silahımı alıb, Alma dağına çıxar, yenə də düşmənlə vuruşaram!" — deyirdi...

Ondakı bu istiqlal eşqi atası Mətə xandan, Çi-Çi Yabqudan, İlterişdən və daha çox türk Kağanından tevarüs etmişdi. Mətə kimi, İlteriş kimi dağılmış ordunu toparladı. Sakaryada 22 gün, 22 gecə qırıq qabırğalarıyla geniş bir cəbhədə, qələbə ilə nəticələnən Meydan döyüşünə komandirlik etmişdi.

30 avqust 1922-ci ildə Dumlupınarda, "Baş komandirlik Meydan döyüşündə" düşmənə son zərbəni vurdu! Və Türkiyə Cumhuriyyəti dövləti quruldu!

Dövlətimizə Cumhuriyyət rəhbəri seçildi.

Yüz illər sonra "Türk" adı təkrar dovlət adı olaraq tarixin səhnəsinə girdi... Atatürkün liderliyində bir çox inqilablar həyata keçirildi.

Qazi Mustafa Kamal Atatürk millətinə qarşı çox dərin bir sevgi və heyranlıq bəsləyirdi. Bu sözlər türklüyə dərin bir eşqin ifadəsidir:

***"Əgər Dünyanın bizə hörmət göstərməsini istəyirsək, əvvəla, bizim öz mənliyimizə və millətimizə bu hörməti hissən, fikrən, fe'lən bütün hərəkətlərimizlə göstərməliyik. Onu da bilməliyik ki, milli mənliyini qoruya bilməyən millətlər başqa millətlərin ovudur".***

Türkcəmiz çox əhəmiyyətlidir. Millətimizin səs bayrağı türkcə Atatürkün çox inadla üstündə durduğu milli dəyərlərimizdəndir. Türk dili üçün söylədiyi butün sözlər butün türklərin yol göstəricisidir:

"Turk millətinin dili türkcədir. Türk dili türk milləti üçün müqəddəs bir xəzinədir. Çünki türk milləti keçirdiyi fəlakətlər içində əxlaqını, ən'ənələrini, xatirələrini, mənfəətlərini, qısacası, bu gün öz millətini ayaqda tutan hər şeyinin dili sayəsində



mühafizə olunduğunu görür. Türk dili türk millətinin qəlbidir, zehnidir". "Milli hiss ilə dil arasındakı bağ çox qüvvətlidir. Dilin milli və zəngin olması milli hissin inkişafında başlıca müəssirdir. Türk dili dillərin ən zənginlərindəndir. Yetər ki, bu bir şüurla işlənsin. Ölkəsinin yüksək istiqlalını qorumasını bilən türk milləti dilini də xarici dillər boyunduruğundan qurtarmalıdır."

Atatürk Turk millətçisidir. Lideri olduğu "Milli mübarizənin türk və dünya ictimaiyyətindəki sifətləri" bunlardır: "Milli istiqlal", "Milli hərəkat", "Milli qələbə", "Milli Hakimiyyət", "Kuvay-i Milliye".

Türkiyə Cumhuriyyəti ilə turk adını dövlət adı olaraq yüz illər sonra rəsmiləşdirən böyük bir Türk Atasıdır Atatürk.

Atatürk milli bütunlüyə əhəmiyyət verən bir böyüyümüzdür. Onun millətçiliyi təcavüzkar deyildir və millətçiliyi rədd edən axınlara qarşıdır. Millət suverenliyi ilə bağlantılı demokratiyaya könüldən inanırdı. Elmdə, texnikada, mədəniyyətdə irəliləməyi qabağa çəkirdi. Milli birlik onun üçün çox dəyərlidir. O, "Milli hegemonluq" ideologiyasının-fəlsəfəsinin banisidir. Siniflərarası mübarizəni rədd edir. Bütün turklərin Millət və Vətən şüuruyla, cumhuriyyət sevgisiylə yetişməsini istər.

Ataturk bütün xalqların bir-biriylə qardaş olduqlarını bilir. Macəradan uzaq, fəqət dünyada bir "türklük dünyasının" var olduğunu, onunla Türkiyə Cumhuriyyətinin mədəni üsullarla maraqlanmasını arzu edir.

Türkluyun böyük lideri Atatürk, 1930-cu illərdə bütün türk xalqlarının bir gün istiqlallarına qovuşacaqlarını bilirdi. Taa... o illərdə Sovet Sosialist Respublikalar İttifaqının bir gün parçalanacağını düşünə bilirdi. Ataturkümüz bu sözləri Cumhuriyyətimizin 10-cu ilində öz nitqində söyləmişdir.

"Bu gun Sovetlər İttifaqı dosdumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını kimsə bu gündən müəyyən edə bilməz. Eyni

Osmanlı kimi, eyni Avstriya-Macarıstan kimi parçalana, küçülə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir müvazinətə çata bilər. Bax o zaman Türkiyə nələr edəcəyini yaxşı bilməlidir... Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq demək o günü oturub gözləmək demək deyildir. Hazırlanmaq lazımdır. Millətlər buna necə hazırlanırlar? Mə'nəvi körpülərini sağlam tutaraq. Dil bir körpüdür. İnanc bir körpüdür... Tarix bir körpüdür..."

"... Köklərimizə enməli və hadisələrin böldüyü tariximizin içində bütünləşməliyik. Onların (Dünya türklüyünün) bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır..."

O böyük dahi, Türkiyə Respublikası dövlətini qurmaqla, ilk azad müsəlman dövləti olma qürurunu XX əsrin əvvəlində türklərə hədiyyə etdi.

Türklük!.. Deyəndə onun gözləri çaxmaq-çaxmaq olurdu. **"Mənim həyatda yeganə fəxrim, sərvətim türklükdən başqa bir şey deyildir,"** — bu sözlər onundur.

Atatürkə çox şeylər borcluyuq, ona olan borcumuzu ancaq birlik içində çox işləyərək, qardaşca yaşayaraq, — modern Türkiyə Cumhuriyyətini çağın irəlisinə daşıyaraq ödəyə bilərik.

Onun haqqında yazmaq çox çətin və mə'suliyyətlidir. O, türklük üçün yaşadı, türklük üçün həyatını xərclədi desək daha doğru olar... Bizlər onu çox sevirik.. O, böyük əsgər, böyük dövlət adamıdır, qısacası, böyük bir dahidir...

Ey böyük türk! Üç-beş səhifə ilə, üç-beş kitabla onu anlatmaq mümkün deyildir...

Sən fövqəl'adə bir insansan, "Desəm, gəl səni tarixə dəfn edək! Sığmazsan!"

Ruhun şad olsun!

*"Türk milləti!*

*Qurtuluş müharibəsinə başladığımızın 15-ci ildönümündəyik. Bu gün Cumhuriyyətimizin onuncu ilini doldurduğu ən böyük bayramdır.*



*Mübarək olsun!*

*Bu anda böyük Türk Millətinin bir fərdi olaraq bu mübarək günə yetişmənin ən dərin sevinci və həyacanı içindəyəm.*

*Vətəndaşlarım!*

*Az bir zamanda çox və böyük işlər gördük. Bu işlərin ən böyüyü, təməli türk qəhrəmanlığı və yüksək türk mədəniyyəti olan Türkiyə Cumhuriyyətidir.*

*Bu müvəffəqiyyəti Türk millətinin və onun dəyərli ordusunun bir və bərabər olaraq əzmlə yürüməsinə borcluyuq.*

*Fəqət, müvəffəqiyyətlərimizi əsla kafi görmək olmaz. Çünki daha çox və daha böyük işlər görmək məcburiyyətindəyik. Yurdumuzu dünyanın ən mə'mur və ən mədəni məmləkətləri səviyyəsinə çıxaracağıq. Millətimizi ən geniş rəfah, vasitə və qaynaqlarına sahib qılacağıq. Milli mədəniyyətimizi müasir mədəniyyət səviyyəsindən daha yüksəklərə çıxarmalıyıq.*

*Bunun üçün, bizcə zaman ölçüsü keçmiş əsrlərin boşalan zihniyyətinə görə deyil, əsrimizin sür'ət və hərəkət məfhumuna görə düşünülməlidir. Keçən zamana nisbətlə, daha çox çalışacağıq. Daha az zamanda daha böyük işlər başaracağıq. Bunda da bacarıqlı olacağımıza heç şübhəm yoxdur.*

*Çünki türk millətinin xarakteri yüksəkdir. Türk milləti çalışkandır. Türk milləti zənidir. Çünki türk milləti, milli birlik və bərabərliklə çətinlikləri aşmağı bacarmışdır. Çünki türk millətinin irəliləməkdə olduğu tərəqqi və mədəniyyət yolunda əlində və başında tutduğu məş'əl müsbət elmdir. Bunu da xüsusilə vurqulamaq istəyirəm ki, yüksək bir insan cəmiyyəti olan türk Millətinin tarixı bır vəzifəsi də, gözəl sənətləri sevmək və onu da yüksəltməkdir.*

*Bunun üçündür ki, millətimizin yüksək xarakterini, yorulmaz işgüzarlığını, fitri zəkasını, elmə bağlılığını, gözəl sənətlərə sevgisini, milli birlik duyğusunu mütəmadi və hər cür vasitə və tədbirlərlə bəsləyərək inkişaf etdirmək milli idealımızdır.*

*Türk millətinə çox yaraşan bu ideal onu, bəşəriyyətə həqiqi dincliyin tə'mini yolunda, özünə düşən mədəni vəzifəni yerinə yetirməkdə mütləq qılacaqdır.*

*Böyük Türk Millәti!*

*On beş ildәn bәri, girişdiyimiz işlәrdә müvәffәqiyyәt qazandığımız haqqında çox sözlәrimi eşitdiniz. Bәxtiyaram ki, bu sözlәrimin heç birindә millәtimin haqqındakı e'timadını laxladacaq bir hәdәfә vurmadım.*

*Bu gün, eyni inam vә qәtiyyәtlә söylәyirәm ki, milli ideala tam bir bütünlüklә irәlilәmәkdә olan türk millәtinin böyük millәt olduğunu bütün mәdәni alәm az zamanda, bir kәrә daha tanıyacaqdır.*

*Әslә şübhәm yoxdur ki, Türklüyün unudulmuş böyük mәdәni vәsfi vә böyük mәdәni qabiliyyәti, bundan sonrakı inkişafı yüksәk mәdәniyyәt üfüqündә yeni bir günәş kimi doğacaqdır!*

*Türk millәti!*

*Әbәdiyyәtә axıb gedәn hәr on ildә bu böyük millәt bayramının daha böyük şәrәflәrlә, sәadәtlәrlә, dinclik, hüzur, rәfah içindә bayram etmәni könüldәn arzu edirәm.*

*NӘ XOŞBӘXTDİR TÜRKӘM DEYӘN!"*

*Qazı Mustafa Kamal Atatürk*

*1933*



# ÇOLPAN

*"Şairlәri çağırmayan bir millәt,*
*Sevәnlәri torpaq olmuş yetim uşağa bәnzәyәr..."*

***Mәhmәd Әmin Yurdakul***

Çoban Ulduzu bәlәdçidir, izsiz sәhralarda yolunu tapa bilmәyәn üçün. Parlaq işığıyla istiqamәt tә'yin edәr, yol göstәrәr. Çoban ulduzuna bir çox Türk soyu "Çolpan" deyәr...

Bax, Abdulhәmid Süleyman Çolpan da, adı kimi yol göstәrdi yaşadığı müddәtdә bütün türklәrә.

Çolpan, 1897-ci ildә Özbәk elinin Fәrqanә vilayәtinin Әndican şәhәrindә anadan olmuşdur. Doğulduğu şәhәrdә tәhsil aldı. Әdәbiyyata böyük marağı var idi. Şe'ri çox sevirdi. Mir Әlişir Nәvai vә Baburun әsәrlәriylә bәslәndi, qidalandı. Gәnc yaşında, milli dәyәrlәrә bәzәnmiş düşüncәlәrini şe'r dәzgahında ustalıqla toxudu.

1917—1918-ci illәrdә Orenburqda "Zaman" qәzetindә işlәyәrkәn Başqırdıstan Milli Hökumәtindә katiblik vәzifәsini dә apardı... Bu illәrdә daha da tәkmillәşdi. Sovetlәr ölkәsinә hakim olan ruslar vә'd etdiklәri sözdә hürriyyәtin heç bir zaman gerçәklәşmәyәcәyini ilk sezәnlәrdәn oldu.

Çolpan yaxınlaşmaqda olan fәlakәti anlamışdı... Orenburqda dura bilmәzdi. Ölkәsinә döndü. Görәcәyi çox işlәri vardı onun.... Adı: Çolpandı! Vә Çolpan yol, istiqamәt göstәrmәyirdimi? O halda millәtin içinә girmәli, xalqına yol göstәrmәli idi...

Elә dә etdi!

Xalqa vurulan polad zinciri şe'rin ildırımlarıyla parçalamaq üçün yazdı... yazdı... yazdı...

Xalqı kimi düşünür, şe'rini xalqın sevәcәyi tәrzdә yazırdı. Yorulmadan, usanmadan hey çalışırdı. Şe'rdәn başqa hekayәlәr, oyunlar yazırdı. Xalqını mә'lumatlandırmaq üçün hindli şair Rabindranath Taqorun, Puşkinin şe'rlәrini, Qorkinin "Ana"sını, Şekspirin "Hamlet"ini özbәk türkcәsinә çevirirdi...

İstifadə etdiyi dil sadə, şe'r texnikası orijinal idi. Çolpanı hər kəs böyük zövqlə oxuyurdu. Totalitar rejimin təmsilçiləri Çolpanın sənət gücünə heyran qalırdılar. Halbuki Çolpan bir rejim şairi deyildi! Əksinə o, xalqını şe'rin güclü qanadlarına mindirir, azad səmalarda dolaşdırardı... Sovet rejiminin "məsəlləri" qarşısında o, qatı, saf gerçəklərə işarət edirdi.

Çolpan rejim üçün təhlükəli idi!

Xalqın sevgilisi Çolpanı susdurmanın yollarını axtardılar. Əvvəl, "rejimin sözcüsü bir şair" etmək üçün onunla çox məşqul oldular. Verilən hər bir təklifi Özbək elinin bu qəhrəman oğlu əlinin tərsi ilə geri çevirdi.

Çolpan qorxmurdu. Atası Mətə xan da qorxmamışdı, atası Özbək xan qorxmamışdı. O da qorxmurdu!

İnadla yazmağa davam etdi...

Çolpan barəsində ziyalılar ikiyə bölünmüşdülər:

Rejimə sadiq ziyalılar "Çolpan susdurulmalı!" — deyirdilər. Rejimə sadiq kimi görünənlər isə: "Xeyr, Çolpan xalqını sevən bir şairdir. Bizləri onun siyasi düşüncələri deyil, onun sənəti maraqlandırır", — deyirdilər...

1926 və 1927-ci illər belə mübahisələrlə keçdi...

Çolpanın sənətinə heyran olan şairlərdən Aybək 1927-ci ildə belə deyirdi:

"Biz ədəbiyyat dahisi Çolpanı sevirik. Biz Çolpandan onun bugünkü zamanın ədəb atının tələblərinə xidmət etmədiyi üçün vaz keçə bilərikmi? Qənaətim'ə, biz buna muktədir deyilik. Biz rus yoldaşlarımıza baxarsaq, onların Puşkini sevdiklərini görürük. Puşkinin əsərlərini hər bir rus kommunisti, komsomolu və ziyalısı oxuyur. Onun rus ədəbiyyatında şərəfli bir yeri vardır. Puşkin proletar şairi deyil, əksinə, feodal və aristokrat şairi idi. Onun da qayələri zamanımızın istəklərinə uymur. Bu belə olmasına baxmayaraq nə səbəbə görə isə onu hər kəs çox sevir? Çünki Puşkin gözəl əsərlər yaratmışdı. Biz də Çolpandan əllərimizi çəkməyəcəyik. Çolpan bizim ədəbiyyatımıza yeni şəkil gətirdi. Gənc nəsil onun şe'r sənətini, açıq dilini, çəkici



üslubunu sevir... Çolpanın ideologiyasını deyil, onun yaratdığı ifadələrini sevərək oxuyuruq. Bu səbəbdən heç kimsə ondan vaz keçə bilməz".

Çolpanı sevənlərin bu qəlbdən düşüncələri rus nəzarətli Sovet rejiminin Çolpana düşmən olmasına səbəb oldu. Səkkiz dəfə həbs edildi. Həbsxanada da yazdı. Həbsxanadan hər çıxdığında sevdiyi idealına qaldığı yerdən davam edərdi.

Qərar qəti və açıq idi:

Çolpan rejim üçün bir təhlükədir!

O, öldürülməlidir!

Beləliklə, 1938-ci ildə türk millətinin Çolpanı güllələndi... Şəhid olduqdan 19 il sonra, 1957-ci ildə Çolpanın mədəni hüquq baxımından günahsız olduğu qəbul edildi. Ancaq əsərlərinin çap olunmasına izin verilmədi.

Çolpan bütün türk dünyasının işıqlı ulduzudur. Ölümündən sonra şe'rləri dildən-dilə, könüldən-könülə nəql olundu. O böyük şair rejimin sözçü hürriyyətindən heç bir zaman türk xalqlarının faydalanmadığını bir şe'rində belə anladırdı:

*"Külgen başkalardır, yığlayan men, men,*
*Oynağan başkalardır, ınlegen men, men,*
*Erk erteklerini eşitgen başka,*
*Kulluk koşuğunu tınlegen men, men."*

Çolpan, o qaranlıq rejimdə parlaq bir ulduz kimi doğuldu türk könüllərində. Və Çolpan, türklüyün sonsuza qədər parlayan bir ulduzudur!

Biz, dünyadakı bütün türklər, Tanrı göstərməsin, qaranlıq günlərdə onun işığıyla yol tapacağıq.

O qorxusuz, alp şairin əziz xatirəsi önündə hansı bir türk sayqıyla əyilməz ki?

O şəhidə minlərcə salam!

**Ey ulu Tanrım, nə ola indi Çolpan sağolsaydı?**

Görsəydi azad Özbək elini, Qırğız elini, Qazax, Türkmən, Azərbaycan ellərini...

Biz bilirik, kainat var olduqca Çolpan ulduzu parlayacaq!

Biz bilirik ki, Türklüyə zincir vurmaq istəyənlər üzüləcəklər!

Hüzur içində yat, qəhrəman Çolpan!...

Sizlər də hüzur içində yatın: Abdullah Rauf Fitret... Maşrik Yunus Elbek... Mahmud Maksud (BATU)... Abdullah Kadiri (CULKUNBAY)... Mir Yakub Dulat... Mağcan Cumabay... Qasım Tunistan...

Və daha öncə Çolpanın taleyini paylaşan igidlər...

Siz ey şəhidlər!

Bilin ki, boşa axmadı qanınız... Bugünkü hürr türk ellərinin varlığını tə'min etdiniz, soylu dirənişinizlə, canınızla, qanınızla!

Sizlər... Çolpanlar, Cumabaylar, Elbəklər... Ah bir görsəniz indi türk elini... Bayraqlar çəkilir, Bakıda, Bişkekdə, Alma-Atada, Daşkəsənddə, Aşqabatda; hürrə, könülünüzcə!

Bütün türk xalqları qardaşca günlərə "Mərhəba!" deyir.

Ruhlarınız şad olsun!



# OSMAN BATUR

Ulu Türk eli (Türküstan) millətimizin ana yurdu. Türk-İslam mədəniyyətinin qaynağı, ulu qəhrəmanların beşiyi...

XI əsrdə bu xoşbəxt mənbədən daşan dualı sular Anadolunu yaşartdılar. Kağanlar, Beğlər, Yabqular, Tekinlər, Alp-Ərənlər axın-axın tələsdilər yeni türk yurdu Anadoluya.. Və Ulu Türk elinin tarixi ilə, xatirələriylə, dastanlarıyla bəzədilər Anadolunu. Kökləri Ulu Türk elində olan çinarlar ürədi, Selçuklu, Osmanlı, Turkiyə adlı...

Ulu Türk eli millətimizin ana yurdu... Çiləli yurdu, dərdli yurdu!

Köhnə dünyada, ticarət yollarının dəyişməsi, avropalıların okeanlara girişi, İslam mədəniyyətinin durqunlaşması Ulu Türk elinin də geriləməsinə yol açır... Türklüyün nüfuz çoxluğu, böyük həmlələri, qüdrət və yaşayışı Anadoluya (Osmanlı dövlətinə) keçər. Ulu Türk eli içinə qapanır. Əvvəllər davamlı olaraq alimlər, şeyxlər kütlə halında köçlər göndərən Ulu Türk elindən sadəcə təsadüfi yolçular, hacılar, elçilər gəlməyə başladı Anadoluya...

Qərbdə türklüyün "Böyük Kağanlıq" bayrağını daşıyan Osmanlı Dövləti 16-cı yüzildə ata yurdu Ulu Türk elinə ulaşıb, Özbək xanlarıyla birləşməyi düşünüblər. Bu məqsədlə Volqa-Don kanalını açıb dəniz ulaşımı ilə Xəzərə hakim olmağı, səfəvi İranı arxadan mühasirəyə almağı düşünmüşlər. Amma Osmanoğulları davamlı olaraq avropalı dövlətlər ilə hərb halında olmuşlar, buna görə də bu xoş təşəbbüsü bir qırağa qoymuşlar.

Bu sıralarda Rusiya Kazan və Astraxan xanlıqlarını ələ keçirir, Sibir və Ulu Türk elinə yayılmağa başlayır...

XIX əsrdə ruslar qərb, çinlilər isə şərqi türk elini ələ keçirməyə çalışdılar. Ulu Turk elinin has ovladı Yaqub xan böyük mübarizələr verir. Doymaq bilməyən bu iki imperialistə qarşı tədbirlər düşünür və Osmanlı dövlətinə elçi göndərir və

Osmanlı dövlətinin müdafiəsi altına girir. Osmanlı dövlətinin başında olan Abdüləziz xan Yaqub xana əsgəri məsləhətçilər, top, tüfəng göndərir. 1877-ci ildə Yaqub xanın ölümü ilə əlaqədar ulu türk elində qardaş savaşı başlayar. Bunu fürsət bilən Çin Qaşqar və digər vilayətlərə sahib oldu.

Hunların, Göytürklərin, Uyğurların, Karaxanlıların bir zamanlar tuğ qaldırdığı, kös dinlətdiyi bu mübarək torpaqların həzin hekayəsi başlar. Qaşqarlı Mahmudun, Yusuf Has Hacibin, Əli Quşçunun, Uluğ Bəyin və daha neçə elmli-qələmli alimlərin törətdiyi bu yurdlar düşmən ayaqları altında tapdanır.

Zaman hey Ulu Türk elinin əleyhinə axar durar... Qərbdə Anadoluda olan böyük qardaş Osmanoğlu əl uzada bilməz, çünki onun çiyinləri çökmüş, yaxşıca yorulmuşdular, Hakim olduqları dövlət torpaqlarını qorumaq təlaşında idilər.

XX əsrin gəlişiylə Ulu Türk eli daha güclü hücumlara mə'ruz qalır. Rus və Çinin rejimləri dəyişdi, amma türk elinə aid olan davranışları heç dəyişmədi. Çin və rus əl-ələ verərək ulu türk elinə yükləndilər.

Ulu Türk elinin dünya ilə bağlantısı yox kimi idi. Əfqanıstan və Pakistan çox çətin açılan iki qapıdır. Bu çətinliklər içində xüsusi Ulu Türk elinin şərqində olan qəhrəmanlar nə etsin? Silah, vasitə, material tə'mini mümkün deyildir. Fəqət, bütün bu çətinliklərə baxmayaraq dirənirlər və o qəhrəmanlar türkün öz yurdunda yeni bir şanlı tarix yazmağa and içmişdilər.

1933-cü ildə çinlilərlə döyüşürkən ölən Hun Yabqu Çi-Çinin sözləri qulaqlarında idi o qəhrəmanların: "Biz öləcəyik bəlkə, amma bizim ölümümüz millətimizə istiqlal şüuru verəcəkdir!"

Gürşadı xatırlayırdılar, qırx Göytürk çerisinin qocaman Çinə baş qaldırdığı o günlərin dastanı yaddaşlarında idi...

Tarixlər XX əsrin ikinci yarısına yaxınlaşarkən üç yüz illik sürdürülən Vətən torpaqları uğrundakı mübarizə daha da kəskinləşir. Uzun mübarizə dövründə verilən şəhidlərin al qanlarıyla sulanan bu mübarək torpaqlarda türkü azad etmə mübaribəsi yoxluqlar içində zirvəyə çıxmışdır.



Hacı Canım xan...

İsa Yusif Alptəkin...

Məhəmməd Əmin Buğra...

Və daha neçə uca qəlbli, qara gözlü igidlər ulu türk elinin azadlığı üçün tər və qan tökdülər...

Bu igidlərin içində biri var idi: Altayların hür havasında yetişmiş, səhraların çətinliklərində bişmiş biri!

O, ölənə qədər əlindən silahını heç buraxmadı... Və milləti üçün canını fəda etdi... Yanındakı mə'sum insanları qorumaq üçün ölümə qarşı yeridi. Onun adı Osman Batur idi!

Osman Batur 1889-cu ildə doğulmuşdur... Ürəyincə, hürcə at çapırdı Altayların ətəklərində. Dastanlarla böyüdü, yenilməzlik və qorxmazlıq naxış-naxış işləndi onun ruhuna.

Ürəyi Şərqi Türk elinin azadlığı eşqiylə dolu idi. Nə axtarırdı türk yurdunda rus və çinli? Ağlı almırdı... Şərqi Türk elində, içində türklərin də olduğu hökümətlər qurulurdu, amma ölkənin üstündən Çin qorxusu bir cür getmirdi. Türk vətənində olduğu bəs deyilmiş kimi, bir də, öz idarə sistemi olan kommunizmi yerləşdirirdilər türk yurduna... Bu zülmə, bu alçalmağa dayanmaq mümkün deyildi!

And içdi! Ölənə kimi türkün azadlığı üçün vuruşmağa and içdi! Ya bu yolda öləcəkdi, ya da türkü tam azadlığa çıxaracaqdı!

Açdı əllərini, Allaha, Ulu Türk elinin azad yaşaması üçün, Göy bayrağın nazlı-nazlı dalğalanması üçün and içdi!

*"Yaradana and olsun,*
*Qara yerə and olsun,*

*Vey çayı sahilində*
*Ölən əsgərə and olsun...*

*İstər qərb, istər şərq,*
*Qisas buraxmam səndə yağı,*
*Görklü Tanrının buyruğu,*
*Xeyrə-şərə and olsun...*

*Qanunumuz budur dünyada,*
*Hesablar pusat ucunda.*
*Qırx kafirin yamacında*
*Duran birə and olsun..."* *

— Dedi və aldı silahını əlinə...

Qorxusuz igidlər toplandı çevrəsinə. 1940-cı illərdə Şərqi Türk elində yenə çinli tə'siriylə bir müqavilə imzalandı, bə'zi türk irəli gələnləriylə bir çox türk bəyləri silahlarını təslim etdilər. Çinin təmsilçisi Şenq sevincindən uçurdu. Şenq, həm lideri Maonun yanında, həm də Sinkianq dedikləri türk yurdu Şərqi Türk elinin zəngin torpaqlarını Ruslara peşkəş çəkməkdən bir an belə tərəddüd etməyirdi. Çinliydi, amma o, bir rus qulu idi!

Şenqin oyununa hər kəs aldandı... Tək Osman Batur əli silahlıydı və bu müqaviləni tanımırdı! O, aldanmamışdı Şenqə! O, heç bir çinliyə inanmırdı... Çinlinin adı istər Şenq olsun, istər Şu Tinq... Fərqi yoxdur...

Ruslar və çinlilər ortaq düşmənləri Osman Batura qarşı modern texnikanın yaratdığı silahlarla hücuma keçdilər, ancaq bir nəticə ala bilmədilər.

Hərbi təyyarələr, toplar, zirehlilər Osman Batur ilə başa çıxa bilmədilər! Təyyarə dediyin nə olan şeydir ki? Zalımin

* Dilavər Cəbəçi. "Hun Eşqi"



təyyarəsi məzlumun kəməndinə məğlub olur. Osman Batur kəməndin bir ucunu böyük bir qayaya bağlayıb, alçalan təyyarəyə kəmənd ataraq, onu düşürürdü!

Osman Batura qalib gələ bilməyəcəklərini başa düşdülər çinlilər və 1941-ci ilin noyabr ayında onlar Osman Batur ilə sülh görüşmələrinə başladılar. Osman Batur gələn hey'ətlərə çinlilər və ruslar heç bir zaman sözlərində durmadıqlarını və onların hər zaman anlaşmaları pozacaq xarakterdə olduqlarını açıq-aşkar söylədi. Yenə də türkün qanı çox tökülməsin deyə 17 nəfərlik bir hey'əti sülh görüşmələri üçün Urumçiyə yola saldı. Osman Baturun hey'əti Urumçiyə çatdığında Osman Baturun haqlı olduğu ortaya çıxdı. Çünki bu hey'əti çinlilər dərhal həbs etdilər.

Osman Batur artıq tutula bilməzdi! O, hücumlar təşkil etdi, atası Mətə xan kimi, Bilgə xan kimi Çin qüvvətlərinin üstünə... Qorxmadan hücum edir, ummadıqları yerlərdən vururdu düşməni...

1944-ci ildə Milli Hökumət qurulan kimi oldu... Osman Batur bu təşəbbüsə dəstək verdi. Onun məqsədi, türkün öz iradəsinin hakim olduğu bir hökumətin qurulmasıydı.

Milli hökumət qurulmuşdu, amma çin lideri Mao da Çinə bütünlüklə hakim olmuşdu. İndi də yeni bir təzyiq gəlirdi Çindən: Kommunist olacaqsınız və bizim nəzarətimiz altına girəcəksiniz!

Bu qəbul edilir kimi deyildi...

Osman Batur təkrar həm çin, həm də rus kommunistləri ilə mübarizəyə başladı. Hacı Canım xan, Qazax liderlərindən Şərif xan, Əli Bəy Rahim və daha bir çox türk böyüyü Osman Batura kömək edirdilər. Belə ki, silah tə'mini çox çətin bir iş idi. Çinlilər var gücləri ilə hücum etdilər.

Və bir gün...

Kansuda döyüşdü və igidcə çəkildi. Birliyi ilə, ailəsi, uşaqları və əsgərləriylə bərabər Çin mühasirəsindən qurtarmaq üçün qeyrət göstərirdi. 1951-ci ilin fevral ayında yer-göy buz tutmuşdu...

Osman Batur dəstəsiylə irəliləyərkən buz tutmuşdu bütün çaylar, göllər Karamal ətrafında... Qarşısındakı buzlu çayı keçməsi gərək idi. Eynən, yüzlərcə il əvvəl Gurşad və dostlarının qarşısına çıxan Vey çayı kimi. Qarşısında bir əngəl, arxasında isə bir tümən cinli var idi onun!

*Hey!..*
*Hey... Hey de... Hey... Hey!*
*Acunda əsgər olub*
*Şöhrətli olmaq olarmı?*
*Ölüm deyilən qıza*
*Olmadan Bəy!*
*Arxamızda dokkuz min çin atlısı;*
*Önümüzdə bir sarı ilan kimi*
*Qıvrılan vey!*
*"Ola bilməz" deməyin,*
*Olur belə şey!..*"*

Gurşadın talehini bölüşdürdü Osman Batur 1951-ci ildə!

Keçmək istədilər buz üstündən; Osman Batur baxdı ki, qızı Azapayın** atı buzda sürüşüb yıxılmışdır. Əsgərlərin atları da həmçinin... Çinlilər meqafonlarla iki variantdan birini seçmə haqqı verdilər Osman Batura: "Sən təslim olsan əyər, sənə bağlı olanlar sağ qurtarırlar. Silahla davranırsan isə, hamınız öləcəksiniz!"

Osman Batur özünü fəda etməkdən başqa çıxış yolu olmadığını başa düşdü və təslim oldu...

* Niyazi Yıldırım Gənc Osman oğlu "Gurşad inqilabı dastanı. Osman Baturun dastanı Türkiyədə bilinir. Şair.

** Dilavər Cəbhəçi qızına, Osman Baturun qızının adı olan "Azapay" adını qoyanlardan.



Çinlilər bu böyük qəhrəmanı 29.04.1951-ci ildə Urumçidə e'dam etdilər.

Osman Batur və onun kimi qəhrəmanların ruhları bu gün də Şərqi Türk elində dolaşmaqdadır... Bu istiqlal ruhu, Türk elinin şərqində göy rəngli türk bayrağı ağaca çəkilənə qədər, sonsuza qədər yaşayacaqdır.

Qəhrəman Osman Baturun ruhu şad olsun.

# MƏMMƏD ƏMİN RƏSULZADƏ

*"Bir kərə yüksələn bayraq,*
*bir daha enməz!"*

Türk millətinin elə övladları vardır ki, Allah göstərməsin, millətimiz bir dara düşdüyü zaman onların mübarizəsinə, əyilməzliyinə, qorxmazlığına baxacaq, daha böyük bir şövqlə türklüyün mübarizəsini edəcəyik.

Yaradana şükürlər olsun ki, millətimiz o böyük liderlər baxımından çox zəngindir. Onların hər biri ayrı bir dəyər, hər biri türklük üçün fövqəl'adə qeyrətlərin sahibi... Hər bir türk xalqında belə liderlərdən çox sayda görmək mümkündür. Bax, bunlardan biri də Azərbaycanın istiqlalı üçün özünü dərk etdiyi gündən ölümünə qədər mübarizə edən Məmməd Əmin Rəsulzadədir.

Azərbaycan türklərinin XX əsrdəki liderlərindən olan Rəsulzadə 31 yanvar 1884-cü ildə Bakıda doğulmuşdur. Atası Hacı Əli Əkbər bəy, anasının adı isə Zinyət xanım idi.

İlk təhsilini və milli duyğularını ailə içində aldı. Daha sonra davam etdiyi Bakı texniki məktəbini yarıda buraxaraq siyasi həyata atıldı... Qələmini öz mübarizəsində silah olaraq istifadə etdi. Eynən müasiri İsmail Bəy Qaspıralı kimi... 1903-cü ildə "Şərqi Rus" qəzetində yazı həyatına başladı. Daha sonra "Həyat", "Füyuzat", "İrşad" və "Tərəqqi" adlı qəzet və jurnallarda Azərbaycan haqqında düşüncələrini çap etdirdi. 1905 ilə 1908-ci illərdə özünün nəşr etdiyi "Təkamül" və "Yoldaş" qəzetlərində Azərbaycanın azadlığı mövzusunda bir şərait yaratmağa çalışdı. Bu arada İranda baş verən "məşrutiyyət" (konstitusiya) hərəkatinda iştirak etdi. İranda "İran-i Nev" adlı bir qəzet nəşr etdirdi. Düşüncələri iranlılar tərəfindən zərərli görüldüyündən 1911-ci ildə İrandan çıxarıldı.

Məmməd Əmin Rəsulzadə içi-içinə sığmayan bir insan idi. Atalarının akıncı ruhlarıyla dolu, müasir fikir mübarizəsində o da bir akıncıydı!



İrandan çıxarılan Rəsulzadə birbaşa İstanbula gəldi. İstanbulda mübarizəsinə davam etdi. Türk Ocaqlarının çalışmalarına qatıldı. "Türk yurdu" jurnalında müxtəlif yazılar yazdı. Təkrar Bakıya döndü. Bax, Rəsulzadənin Bakıya bu dönüşü Azərbaycan üçün gözəl günlərdən xəbər verirdi.

İlk iş olaraq Rəsulzadə Bakıda Azərbaycanın azadlığını açıq-aşkar hayqıran "Açıq söz" qəzetini nəşr etdirdi. 1917-ci ildə "Milli Azərbaycan Musavat Partiyasının" rəhbəri seçildi. Eyni il Bakıda toplanan "Rusiya Müsəlmanları" qurultayında, Qafqazın və Azərbaycanın Rusiyadan ayrılaraq müstəqil və azad olması fikrini müdafiə etdi. Nəhayət, çox əziyyətlərdən sonra 28 may 1918-ci ildə Milli Azərbaycan Şurasının sədri sifətiylə Azərbaycanın müstəqilliyini e'lan etdi.

1917-ci ildə kommunist Devriminin şokunu yaşayan Rusiya bir müddət ətrafındakı türk xalqlarının müstəqillik hərəkatına və qurulmuş dövlətlərinə qarşı səssiz qaldı. Əlbəttə bu arada onları özünə bağlamaq üçün proyektlər cızdı. Nəhayət, Sovet Sosialist Respublikaları olaraq bu dovlətlər sözdə müstəqil olmalıydılar. Beləliklə, bu planı Rus liderlər çox keçmədən həyata keçirməyə başladılar... 28 aprel 1920-ci ildə kommunist rus orduları Azərbaycanı işğal etdi və ilk iş olaraq digər türk liderlər kimi Rəsulzadəni də Bakıdakı "Çeka" həbsxanasına atdı. Ruslar Rəsulzadədən çox qorxurdular. Bakıda, həbsxanada olması belə onları rahat buraxmadı. Yanlarında, gözlərinin qarşısında olmalıydı o... Beləliklə, şəxsən Stalinin istəyi ilə Rəsulzadə Moskvaya götürüldü və həbs edildi.

Rəsulzadə 1922-ci ildə Moskvadan Finlandiyaya qaçmağa müvəffəq oldu. Eyni ildə İstanbula gəldi. İstanbulda təkrar nəşr həyatına başladı.

Rəsulzadə 1931-ci ilə "Yeni Qafqaz", "Azəri-Turk", "Odlar yurdu" adlı jurnallar nəşr etdirdi. Bu jurnallarda Azərbaycandakı kommunist rejiminin həqiqətdə Rus imperializminin bir uzantısı olduğunu anlatmağa çalışdı. Bu arada "Azərbaycan Respublikası: keyfiyyəti, təşəkkülü və indiki vəziyyəti" adlı bir kitabı nəşr oldu.

Rəsulzadə 1931-ci ildə fəaliyyətlərini Avropada sürdürməyə başladı. 1932—1934-cü illər arasında Varşavada "İstiqlal", 1934–1939-cu illər arasında "Qurtuluş" jurnallarını nəşr etdirdi. Digər Avropa ölkələrinin paytaxtlarında nəşr olunan jurnallara Azərbaycan ilə əlaqəli məqalələr göndərdi.

1934-ci ildə "Qafqaz konfederasiyası müqaviləsini" imzaladı.

İkinci dünya müharibəsi sırasında Avropa şəhərlərində dolaşdı. Daha sonra, 1947-ci ilin sentyabr ayında Türkiyəyə gəldi və Ankarada yerləşdi. Ankarada Azərbaycana aid elmi, tarixi tədqiqatlar apardı. Çeşidli konfranslar verdi. Azərbaycan Kültür Dərnəyinin quruluşu ilə maraqlandı.

1952-ci ildə təkrar Avropaya getdi. "Qafqaz İstiqlal Komitəsini" qurdu. Azad Azərbaycan Radiosundan Azərbaycana müraciət etdi.

6 mart 1955-ci il tarixində Rəsulzadə qardaş ölkə Türkiyənin paytaxtı Ankarada həyata gözlərini yumdu.

Onun verdiyi mübarizə azərbaycanlılara nümunə oldu. Bugünkü Azərbaycanın əsasında onun ruh və fikirləri vardır. Azərbaycan türkləri onun bayraqlaşan sözü ətrafında birləşdilər. O söz bu idi:

"BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ!!"

Enmədi, enməyəcək də... Hələ o bayraq bir türk xalqının bayrağıdırsa, onu endirmək sonsuza qədər mümkün deyildir.

O böyük Türkün ruhu şad olsun!



## ŞƏHRİYAR

Günəş batmışdı, axşamın səssizliyi yavaş-yavaş çökürdü Təbrizin üstünə. Küçələrdəki ayaq səsləri rəsmi dairələrin bağlanmasıyla evlərinə gedən mə'murlardan gəlirdi. Bir qismi də alış-verişdən dönənlərə aid idi.

Şəhriyar, Bank-i Kışavarzi (kənd təsərrüfatı bankı) bankında yorucu bir gün keçirmiş, bir an əvvəl evə çatıb anasının gözəl yeməklərlə bəzədiyi süfrəsinə oturmağı düşünürdü.

Evlərinin yerləşdiyi küçəyə döndüyü zaman dünən gecə yarımçıq qalan şe'ri yadına düşdü... O an nə yorğunluğu qaldı, nə də ağlına taxılan anasının yeməyi... Durdu və cibindən yarı qalan şe'rini çıxartdı. Kürəyini divara söykəyərək yarımçıq qalan şe'rini tamamlamağa başladı. Axşam çöküb, qaranlıq Təbrizi bürüdüyü an, o da şe'rinin son misrasını yazdı.

Sevinclə evdən içəri girdi. Bu sevinc yaşlı anasının yeməyini dadma istəyindən doğmurdu; şe'rini bitirmişdi, — coşqusu bundan irəli gəlirdi. Süfrəyə oturmadan cibindən çıxartdığı son şe'rini anasına oxumağa başladı. Şe'rini oxuyub bitirdikdə anasının üzünə baxdı, onun üzündə hər zaman olduğu kimi, təbəssüm yox idi. Halbuki, hər şe'rini anasına oxuduqda onun sevincini hiss edərdi. Dayana bilməyib:

— Ana, yoxsa xəstələnmisən? — dedi.

Anası farsca xəstə olmadığını söylədi. Bu cavaba tamamilə çaşıb qaldı Şəhriyar: Anası evdə fars dilində danışırdı! Özünü tanıdığından bəri evdə hər kəs türkcə danışırdı. Hələ rəhmətlik atası buna çox diqqət edərdi.

Şəhriyar, heyrət dolu baxışlarla anasından soruşdu:

— Ana, nə uçun farsca danışdın?

Yaşlı qadın oğlunun üzünə baxmadan ürəyindəki qüssəni dilə gətirdi.

— Sən türkcə şe'r yazırsan ki, mən də sənə türkcə cavab verim? Evimizdə həbs etdin türkcəni! Ot kökü üstündə bitər. Türkcə ilə böyüdün, farsca yazırsan. Artıq şe'rlərini dinləməyəcəyəm!

Şəhriyarın rəngi qaçdı, əlindəki farsca yazdığı son şe'rinin barmaqları arasından yerə düşdüyünü hiss etmədi belə. Yavaş-yavaş yandakı otağa keçdi. Fikri qarma-qarışıq olmuşdu. Üzünə bir ana silləsi dəymişdi! Yeməyi unutdu. Keçmiş günlərə daldı. Atasının əlindən tutub Heydər Baba dağı ətəklərindəki kəndləri dolaşdığını xatırladı. Xoşginabı, Gülluceni, Qayışqursağı, Vangözəlləri gəzintilərini düşündü. Dinlədiyi türkcə, maşallah, zehninin gizli anbarından bir-bir çıxıb, beyninə hakim olurdu...

Oturduğu sidirə uzandı. Öz-özünə inləyircəsinə danışdı:

— Türkcə yazacağam... Bundan sonra turkcə yazacağam!..

Türk dünyasının ən güclü şairlərindən olan Məhəmməd Hüseyin Şəhriyar 1904-cü ildə Təbrizdə doğulmuşdur. Atası dava vəkili olan Mirzə Ağa Xoşgenabı Xoşgenab qəsəbəsinin Heydər Baba kəndindəndir.

Şəhriyar Cənubi Azərbaycan (İran) şəhərlərindən olan Təbrizdə ilk təhsilini görmüşdü. Orta məktəbdən sonra Mədrəsədə oxuyarkən ərəbcə və ərəb ədəbiyyatı yanında fransızcanı da öyrənməyə çalışdı.

Orta məktəbdən sonra Tehrana gedərək lisəni bitirdi və tibb fakultəsinə girdi. Tibb fakultəsinin son kursundan ayrıldı. Müxtəlif məmuriyətlərdə işləməyə başladı. Bu arada şe'r gücü getdikcə böyüyürdü. O, İranda zövqlə oxunan şairlər arasına girmişdi. Hey farsca yazırdı. Atasını 1936-cı ildə itirdi və onun qəlbi böhran keçirtdi. 1942-ci ildən e'tibarən beş il boyunca böyük sıxıntılar çəkdi. Anası onun bu çətin gunlərində tək dayağı oldu.

Şəhriyar yazdığı şe'rlərlə bütün İranı fəth etdi. Onu çağının Nizamisi, Hafizi, Sə'disi olaraq gördulər. Farscanı bir farsdan çox daha mükəmməl şəkildə istifadə edirdi. Fars dilini şe'r sənətində ustaca istifadə edirdi. Daha sonra anasının xəbərdarlığı uzərinə Türkcə şe'rlər yazmağa başladı.

Şəhriyar gec yaşlarında evləndi. Bu evlilikdən bir qızı oldu. Bankadan təqaüdçü olduqdan sonra sakit bir həyat



sürməyə başladı. Kiçik qızını bağrına basıb, Təbriz küçələrində dolaşdı.

Şəhriyar, ibadət ilə maraqlandığı kimi, Qur'an ayələrini öz əlləriylə lövhələrə yazaraq "Yazı sənətində" də söz sahibi olduğunu göstərdi.

Şəhriyarın xüsusilə Türkiyədə tanınmasına səbəb olan "Heydər Babaya salam" adlı şe'ri onun mükəmməl əsəridir. Şe'rə ad olan Heydər Baba həm bir kənd adı, həm də bir dağ adıdır. Bu dağın ətəklərində bu kəndlər var idi: Güllücə, Narınabad, Başkənd, Daşatan, Kıpçaq, Serha, Qaraçimən, Xoşgenab, Qayışqursaq, Vangözəlləri, Böyükşəngilova... Bunlar türk kəndləri idi. Şəhriyarın gəncliyi bu kəndlərdə keçmiş, Heydər Babanın ətəyindəki düzənliklərdə dolaşıb, oyun oynamışdır.

Şəhriyar "Heydər Babaya salam" şe'riylə gənclik günlərinə dönərdi. O günləri axtarır, o kəndlərdəki adətləri, kənd həyatını başa salırdı. Anlatdığında duruluq, içtənlik var idi. "Heydər Babaya salam" şe'rində anlatdığı həyat və təsvirlər hər hansı bir türk xalqının yaşadığı yörədəkinin eynisidir. Eyni sosial bağları, həyatı bir Türkmən elində, Qırğız, Qazax və Özbək elində tapmaq mumkündür. Bu baxımdan bu ulu şe'r türk dünyasında, səhra həyatının, xüsusilə kənd həyatının ən usta anlatılmasıdır.

Digər tərəfdən, Şəhriyar, İranda yazdığı türkcə şe'rlərlə İran türkünün mədəni varlığını da bütün dünyaya isbat etmişdir. Şəhriyar bu baxımdan unudulmayacaq Ulu bir adamdır.

1988-ci ildə Tehranda ölən bu böyük Türk şairini rəhmətlə xatırlayırıq.

# HEYDƏR BABAYA SALAM

*Heydər baba, ildırımlar çaxanda,*
*Sellər, sullar şakqıldayıb axanda,*
*Qızlar ona səf bağlayıb baxanda.*
*Salam olsun şövkətinizə, elinizə,*
*Mənim də bir adım gəlsin dilinizə.*
*Heydər baba, kəkliklərin uçanda,*
*Kol dibindən dovşan qalxıb qaçanda,*
*Baxçaların çiçəklənib açanda,*
*Bizdən də bir mümkün olsa yad eylə,*
*Açılmayan ürəkləri şad eylə.*
*Heydər Baba, gün daluvı dağlasın,*
*Üzün gülsün, bulağların ağlasın,*
*Uşaqların bir dəstə gül bağlasın.*
*Yel gələndə ver gətirsin bu yana.*
*Bəlkə mənim yatmış bəxtim oyana.*
*Qarı nənə gecə nağıl deyəndə,*
*Külək qalxıb qapı-bacanı döyəndə,*
*Qurd keçinin şəngilisin yeyəndə,*
*Mən qayıdıb bir də uşaq olaydım,*
*Bir gül açıb, ondan sonra solaydım.*
*Göz yaşına baxan olsa, qan axmaz,*
*İnsan olan xəncər belinə taxmaz,*
*Amma keyf, kor tutduğun buraxmaz,*
*Behişdimiz cəhənnəm olmaqdadır,*
*Zilhicrəmiz Məhərrəm olmaqdadır.*

*ŞƏHRİYAR*



# SON SÖZ

*Dəyərli oxucu!*

*Ata-babalarımız, əlbəttə, bu qədər deyil...*

*Türk xalqlarının bir çox ortaq ata-babası var. Bir başqa deyimlə; Türk mədəniyyətinin bağrında bir çox ulu dağ var.*

*Biz bu kitabda Türk mədəniyyətində dəryadəniz olan ulu şəxsiyyətlərdən bə'zi nümunələr verdik. "Ön söz"də də ifadə etdiyimiz kimi, bu kitab nə elmi bir tədqiqat, nə də bioqrafik bir əsərdir... Bu kitab, türklüyə sevdalı bir aşığın könlündən doğan duyğuların yazıya keçirilməsidir... Qısacası, əlinizdə mədəniyyət baxçamızdan seçilmiş kiçik bir gül dəsti var!*

*Əksiklərimiz xoş görülə...*

*Hörmətlə,*
*Mövlud Uluğtəkin Yılmaz*

Mövlud Uluğtəkin Yılmaz

"Türk xalqlarının ortaq ata-babaları"

*(Azərbaycan dilində)*

Bakı, 1997

---

Yığılmağa verilmiş 26.06.1997.
Çapa imzalanmış 10.10.1997. Ofset çapı,
Sayı 3000 nüs.

---

Bakı, 370004, İçərişəhər, Böyük Qala kuçəsi, 41.
"Göytürk" şirkətinin mətbəəsi.